**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**İqtisadiyyat İnstitutu**

**Jalə Rəhman qızı Əliyeva**

# KƏND ƏHALİSİNİN HƏYAT SƏVİYYƏSİ:

## inklüziv inkişafa doğru

**BAKI – 2024**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu Elmi Şurasının 12 dekabr 2024-cü il tarixli iclasının qərarı ilə çapa tövsiyə olunmuşdur.

**Elmi redaktor:** AMEA - nın müxbir üzvü, Əməkdar elm xadimi, i.e.d., prof. **Şahbaz Muradov**

**Rəyçilər:** i.e.d., prof. **Gülənbər Əzizova**
i.f.d., dos. **Pərviz Həsənov**

**Jalə Rəhman qızı Əliyeva. Kənd əhalisinin həyat səviyyəsi: *inklüziv inkişafa doğru.*** Bakı, "APOSTROF-A"MMC- 2024, 228 s.

*Monoqrafiyada "həyat səviyyəsi" anlayışına və onun göstəricilərinə dair nəzəriyyə, baxış və yanaşmalar tədqiq edilmişdir. Azərbaycanda son illər ərzində kənd əhalisinin həyat səviyyəsində baş verən dəyişikliklər, ona təsir göstərən amillər təhlil edilmişdir. Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi perspektivləri göstərilmişdir.*

*Monoqrafiya elmi işçilər, ali məktəb müəllimləri, tələbələr, doktorantlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

*Bizə ünvanlanacaq hər bir konstruktiv rəy və təklifə görə oxuculara əvvəlcədən minnətdarlığımızı bildiririk.* *zhalaaliyeva2022@gmail.com*

ISBN 9 7 8 - 9 9 5 2 - 5 4 9 - 3 7 - 9

**© Jalə Əliyeva-2024**
**© ETN İqtisadiyyat İnstitutu**

## *Mündəricat*


**İxtisarlar ........................................................................ 4**
**Giriş ............................................................................... 5**

**Fəsil I. Həyat səviyyəsi və onu xarakterizə edən göstəricilər ............................................................ 7**
1.1. Həyat səviyyəsi kateqoriyasına nəzəri baxışlar .................... 7
1.2. Həyat səviyyəsini xarakterizə edən göstəricilər ................. 23
1.3. Həyat səviyyəsinin qiymətləndirilməsində istifadə edilən indekslər ......................................................................... 35
**Fəsil II. Azərbaycanda kənd əhalisinin həyat səviyyəsinin qiymətləndirilməsi ........................................................ 50**
2.1. Kənd əhalisinin gəlirləri .................................................. 50
2.2. Kənd əhalisinin istehlak xərcləri ....................................... 82
2.3. Gəlir və istehlak xərclərinin quruluşunda regional fərqlər ........................................................................... 76
**Fəsil III. Azərbaycanda kənd əhalisinin həyat səviyyəsinə təsir göstərən sosial-demoqrafik amillərin qiymətləndirilməsi .... 90**
3.1. Kənd yerlərində demoqrafik dəyişikliklər.......................... 90
3.2. Kənd yerlərində keyfiyyətli təhsilin təmin edilməsi ........ 108
3.3. Kənd əhalisinin sağlamlıq vəziyyəti................................ 129
**Fəsil IV. Azərbaycanda kənd yerlərində inklüziv inkişaf . 150**
4.1. Kənd yerlərində qadınların məşğulluğunun təmin edilməsi ........................................................................ 150
4.2. Kənd yerlərində əlilliyi olan şəxslərin həyat səviyyəsinin yüksəldilməsi .................................................................. 168
**Fəsil V. Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi perspektivləri........................................................................ 184**
5.1. Kənd yerlərinin inkişafında müasir trendlər..................... 184
5.2.Azərbaycanda kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsində kənd təsərrüfatının potensialından səmərəli istifadə............................................................................ 201
5.3.Azərbaycanda kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsində turizmin rolunun artırılması ................................ 215

## *İXTİSARLAR*

AR - Azərbaycan Respublikası

ARDSK - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

AİB - Asiya İnkişaf Bankı

Aİ - Avropa İttifaqı

BƏT - Beynəlxalq Əmək Təşkilatı

BMT - Birləşmiş Millətlər Təşkilatı

DB - Dünya Bankı

DİM - Dayanıqlı İnkişaf Məqsədləri

DSMF - Dövlət Sosial Müdafiə Fondu

İƏİT - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı

İTS - icbari tibbi sığorta

MB - Mərkəzi Bank

MƏH - minimum əmək haqqı

MƏS - Minimum Ərzaq Səbəti

OAƏH - orta aylıq əmək haqqı

UNİCEF - BMT-nin Uşaq Fondu

ÜDM - Ümumi Daxili Məhsul

ÜTT - Ümumdünya Turizm Təşkilatı

ÜST - Ümumdünya Səhiyyə Təşkilatı

## *GİRİŞ*

Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması sosial-iqtisadi proseslərin davamlı və səmərəli inkişafının əsas şərtlərindəndir. Bu problemin həlli bütün dövrlərdə dünya ölkələrinin hər birini düşündürmüş və narahat etmişdir. Azərbaycanda da əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması dövlətin apardığı sosial siyasətin əsas məramını təşkil edir. Respublika əhalisinin təqribən yarısı kənd yerlərində məskunlaşmışdır. Bu baxımdan kənd yerlərində əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yoxsulluğun azaldılması, mövcud sərvətlərdən səmərəli istifadə etməklə sənaye-emal sahələrinin və kənd təsərrüfatı ilə yanaşı alternativ qeyri-kənd təsərrüfatı sahələrinin inkişafının genişləndirilməsi, regionların davamlı və dayanıqlı inkişafının təmin edilməsi dövlətin sosial-iqtisadi siyasətinin məqsədləri sırasında yer alır.

Son illər ölkəmizdə kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi ilə bağlı irimiqyaslı regional inkişaf proqramları, strategiya və konsepsiyalar çərçivəsində əhəmiyyətli tədbirlər həyata keçirilmiş, güclü iqtisadi qanunvericilik bazası yaradılmışdır. Azərbaycan Respublikasının Prezidentinin bilavasitə rəhbərliyilə dayanıqlı inkişafa nail olmaq məqsədilə iqtisadiyyatın əsas sektorları üzrə yol xəritələri çərçivəsində əhəmiyyətli tədbirlər icra edilmiş, yerli istehsalın və məhsulların ixracının stimullaşdırılması, kiçik və orta sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, milli iqtisadiyyatın bütün səviyyə və sferalarında iqtisadiyyatın səmərəliliyinin və rəqabətqabiliyyətliliyinin artırılması, aqrar sahəyə dotasiya və subsidiyaların verilməsi və etibarlı ərzaq təminatının yaradılması istiqamətində böyük işlər görülmüşdür. Müəyyən irəliləyişlərin əldə edilməsinə baxmayaraq kənd yerlərində əhalinin həyat səviyyəsi şəhər yerləri ilə müqayisədə aşağıdır. Kəndin inkişafı potensialından geri qalır. Keyfiyyətli

təhsil və səhiyyə xidmətlərinə əlçatanlıqla bağlı çətinliklər mövcuddur. Kənd yerlərində təbii artım azalmışdır. Dünyada olduğu kimi ölkəmizdə də kənd yerlərində yaşayanların sayı azalmaqdadır.

Bütün bunlar kənd əhalisinin həyat səviyyəsinin daha dərindən və kompleks araşdırılmasını şərtləndirir.

Hazırda kəndin inkişafı olmadan ölkədə ümumi rifaha və dayanıqlı inkişafa nail olmağın mümkün olmaması qənaəti ölkələri kəndin inkişafına xüsusi önəm verməyə, kənd yerlərində fürsətlər yaratmağa sövq edir. XXI əsrdə kənd yerlərinin inkişafı həm çətinliklərlə, həm də imkanlarla üzləşir. Rəqəmsallaşma, texnologiyanın tətbiqinin genişlənməsi yaşayış yerlərinin sosial-iqtisadi inkişafı arasında fərqi azaltmağa imkan yaradır. Ölkəmizdə kənd yerlərində əhalinin həyat səviyyəsinin yüksəldilməsinə nail olunması kənd yerlərində iş yerlərinin əlçatanlığının təmini, keyfiyyətli təhsil və səhiyyəyə çıxış, təmiz içməli su ilə təmin olunma, kənd yollarının bərpası, aztəminatlıların və əlilliyi olan şəxslərin də rifahının yaxşılaşdırılması və s. kimi məsələlərin həllini tələb edir. İnklüziv inkişafa həm də kənd yerlərində əhalinin həyat səviyyəsinin yüksəldilməsi ilə nail olmaq olar.

Monoqrafiyada Azərbaycanda kənd əhalisinin həyat səviyyəsi kompleks və sistemli şəkildə tədqiq edilərək yüksəldilməsi perspektivləri müəyyən edilir.

# I FƏSIL. HƏYAT SƏVİYYƏSİ VƏ ONU XARAKTERİZƏ EDƏN GÖSTƏRİCİLƏR

## 1.1. Həyat səviyyəsi kateqoriyasına nəzəri baxışlar

Tədqiq olunan iqtisadi ədəbiyyatlarda "həyat səviyyəsi" anlayışı, adətən insanın yaşaması üçün zəruri maddi və mənəvi nemətlərlə təmin olunması və onların bu nemətlərə olan tələbatlarının ödənilməsi səviyyəsi kimi izah olunur [1, s.499].

"Həyat səviyyəsi" anlayışının iqtisadi və sosial məzmununu ilk dəfə K.Marks açmışdır. O,"həyat səviyyəsi" anlayışını özünün "Əmək haqqı, qiymət və mənfəət" adlı əsərində *"əhalinin, ayrı-ayrı ərazilərin, sinif və sosial qrupların, ailə və fərdin maddi, mənəvi və sosial tələbatlarının təmin olunması dərəcəsi və səviyyəsinin sosial-iqtisadi xüsusiyyətləri"* kimi şərh etmişdir [2, s.265-271]. Müəllif eyni zamanda ölkədə mövcud tarixi ənənələrin və ictimai vərdişlərin əhalinin həyat səviyyəsinə təsirinin olduğu qənaətində idi. K.Marksın fikrincə, həyat səviyyəsi fiziki həyatın tələbatlarının təmin edilməsini deyil, həmçinin insanların yaşadığı və tərbiyə aldığı ictimai şəraitdən irəli gələn tələbatların da ödənilməsini nəzərdə tutur.

İstehsal mövqeyindən həyat səviyyəsi anlayışını izah edən tədqiqatçıların baxışlarına əsasən həyat səviyyəsi birbaşa məhsuldar qüvvələrin inkişaf səviyyəsindən, ictimai istehsalın

---

[1] Vəliyev, T.S., Babayev, Ə.P., Meybullayev, M.X. İqtisadi nəzəriyyə, Dərslik. Bakı: Çaşıoğlu, 1999. 678 s.

[2] Желязко, О.В. Ступени развития системы показателей оценки уровня жизни населения. Коммунальное хозяйство городов: Научно-технический сборник. Москва, 2004. № 59, с.260-271.

quruluşundan və səmərəliliyindən asılıdır. Bu halda həyat səviyyəsi-məhsuldar qüvvələrin yüksək inkişafı nəticəsində istehlak olunan maddi, mədəni-məişət nemətlərinin miqdarı və onlara olan tələbatın ödənilməsi səviyyəsi kimi izah olunur. Burada əsas diqqət həyat səviyyəsi ilə ictimai istehsal arasındakı düz və tərs mütənasibliyə əsaslanır. Belə ki, bir tərəfdən əhalinin həyat səviyyəsi ictimai istehsalın inkişafının və genişlənməsinin nəticəsi kimi, digər tərəfdən isə əhalinin istehlak səviyyəsinin və quruluşunun ictimai istehsalın artmasına birbaşa təsir göstərən iqtisadiyyatda əks əlaqələrin funksional rolu kimi çıxış edir.

Sovet dövründə aparılan elmi tədqiqatların əksəriyyəti həyat səviyyəsinin "kəmiyyət" problemləri o cümlədən, əsas və dövriyyə vasitələrindən istifadənin yaxşılaşdırılması, istehsalın səmərəliliyinin yüksəldilməsi, maya dəyərinin aşağı salınması məsələlərinə həsr edilmişdi. *"Əhalinin həyat səviyyəsindəki arzu edilməyən meyllərin olması daha çox planlaşdırma sistemindəki çatışmazlıqlarla, planlaşdırılan göstəricilərin insanların tələbatına uyğunsuzluğu, sahə və ərazi üzrə planlaşdırmalar arasında əlaqənin səmərəsizliyi ilə izah edilirdi"* [3, s.29].

Fikrimizcə müəyyən çatışmamazlıqları olmasına baxmayaraq, həyat səviyyəsinin müəyyən edilməsi istiqamətində istehsala söykənən yanaşmanın məntiqi əsasları vardır. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi, həyat səviyyəsi ilə ictimai istehsal arasında qarşılıqlı asılılıq mövcuddur. Bu asılılıq əmək ehtiyatlarının keyfiyyət xarakteristikaları, işləyənlərin

---

[3] Майер, В.Ф. Уровень жизни населения СССР. Москва, 1977, 263 с.

əməyinin səmərəliliyi,onların işləməsində maddi maraqlarının artması və nəticədə onun istehlak imkanlarının artması ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, elmi ədəbiyyatlarda "həyat səviyyəsi" anlayışının istehlakın təmin edilməsi səviyyəsi və dərəcəsi olması fikri daha çox vurğulanır.

Məsələn, V.F.Mayer "həyat səviyyəsi" anlayışını istehlakla bərabərləşdirərək yazırdı: *"istehlakın strukturu və səviyyəsi həyat səviyyəsinin əsas göstəriciləridir. Lakin, əmtəə-pul münasibətləri şəraitində istehlak nemətlərinin bölüşdürülməsi pul gəlirlərinin formalaşması və bölüşdürülməsinin qarşılıqlı əlaqəsi ilə baş verir. Buna görə də bu göstəricidən dolayı göstərici kimi istifadə edilir"* [4, s.7]. Həyat səviyyəsi ilə məşğul olan digər alimlərdən R.Y.Podovalovanın fikirinə əsasən, *"həyat səviyyəsi" əhalinin sosial, mənəvi və fiziki tələbatlarının ödənilməsi səviyyəsi, əhalinin istehlak nemətləri ilə təmin olunması dərəcəsidir"* [5].

Əhali gəlirləri üzrə tanınmış mütəxəssis P.P.Maslov da *"əhalinin həyat səviyyəsini cari xərclər və qənaətin cəmi kimi qiymətləndirirdi"* [6, s.43].

Rus alimləri V.İ.Jerebin və A.N.Romanov özlərinin "Əhalinin həyat səviyyəsi" adlı kitabında haqlı olaraq iddia edirlər ki, *istehsal və istehlak arasında dərin dialektik əlaqə olmasına baxmayaraq, son nəticədə həyat səviyyəsi cəmiyyətin istehsal gücünün inkişafı ilə, daha dəqiq isə əhalinin istehlak*

---

[4] Yenə orada
[5] Абакумова, Н.Н., Подовалова, Р.Я. Политика доходов и заработной платы. Новосибирск, 1999.
[6] Маслов, П.П. Измерение потребительского спроса. Москва, 1971, 206 с.

*xüsusiyyətləri və dolayısı ilə gəlirlərinin səviyyəsi ilə xarakterizə edilir”* [7].

BMT-nin Hesabatlarında da həmçinin “həyat səviyyəsi” anlayışı insanların konkret zaman ərzində istehlak etdikləri mal və xidmətlərin həcmi, maddi və mənəvi tələbatlarının ödənilməsi dərəcəsi kimi izah edilir. Beynəlxalq hesabatlarda həyat səviyyəsinin istehlakın məcmusu olması fikrindən geniş istifadə olunması onunla izah edilir ki, Qərbi Avropa ölkələrinin iqtisadiyyatı bazar qanunlarının təsiri altında fəaliyyət göstərir. *“Bazar rəqabəti şəraitində biznesdə uğurlu olmanın şərtlərindən biri isə istehlakçıların istəklərinin nəzərə alınması və onların tələbatlarına uyğun fəaliyyət göstərməkdir. Başqa sözlə, istehlak sferasında baş verən proseslərə uyğunlaşmaq vacibdir”* [8].

Həyat səviyyəsinin müəyyən edilməsində müxtəlif yanaşmalar arasında “istehlaka söykənən” yanaşmanın daha uyğun olduğunu hesab edirik. Bununla belə bu yanaşmanın üstün və çatışmayan cəhətləri olduğunu da qeyd etmək lazımdır. Üstün cəhəti ondadır ki, bu yanaşma həyat səviyyəsinin yüksəlməsi ilə istehlak sferasında baş verən dəyişikliklər arasında qarşılıqlı əlaqənin olduğunu göstərir. Lakin çatışmazlığı ondan ibarətdir ki, həyat səviyyəsinin dəyərləndirilməsi yalnız insanların istehlak sferasındakı fəaliyyəti ilə əlaqələndirildikdə, həyat səviyyəsi ilə bağlı problemlər bütün təkrar istehsal prosesi-

---

[7] Жеребин, Б.М., Романов, А.Н. Уровень жизни населения. Москва, 2002, 592 с.

[8] Желязко, О.В. Ступени развития системы показателей оценки уровня жизни населения. Коммунальное хозяйство городов: Научно-технический сборник. Москва, 2004, № 59, с.260-271.

ni əhatə edə bilmir.

Həyat səviyyəsi anlayışının müəyyən edilməsində əmək haqqı mövqeyindən yanaşmanın tərəfdarlarından olan böyük ingilis alimi D.Rikardo hesab edirdi ki, *"həyat səviyyəsi təbii əməyin qiymətinə əsaslanır. Müəllif həmçinin müxtəlif dövrlərdə həyat səviyyəsinin dəyişkən olduğunu və bu dəyişikliyin xalqların vərdiş və adət-ənənələrindən asılı olduğu"*fikrini də iddia edirdi [9, s.21]. C.S.Millə görə *"istehlak həyat səviyyəsinə təsir edən və əhalinin tələbatının ödənilməsində müəyyən edici faktor olsa da onun əsasını əmək haqqı təşkil edir"* [10, s.45] Göründüyü kimi klassik məktəbin nümayəndələri haqlı olaraq, həyat səviyyəsi və əmək haqqı arasında qarşılıqlı və asılı əlaqənin olduğunu qeyd edirdilər.

D.A.Syusyura "Kəndin sosial inkişafının proqram-məqsədli idarəedilməsi" başlıqlı monoqrafiyasında yazır ki, *"əhalinin "həyat səviyyəsi" əhalinin-maddi rifah səviyyəsi və sosial faktorların və bu faktorlardan istifadə edə bilmə səviyyəsi ilə qiymətləndirilir"*[11, s.25]. Rus alimi A.N. Romanov *"həyat səviyyəsinin maddi rifahla yanaşı mənzil şəraiti, səhiyy və s. xidmətlərin də məcmusunu əks etdirdiyini"* vurğulayır [12]. A.M.Babaşkin isə *"həyat səviyyəsinin həyat üçün zəruri olan maddi, mənəvi nemətlərlə təmin olunma və bu nemətlərdən*

---

[9] Рикардо, Д. Начало политической экономии и налогового облажения. Государственное издательство политической литературы. Москва, 1955, 539 с.

[10] Милль, Дж. Основы политической экономии. Москва: Прогресс-Москва, 1980, 56 с.

[11] Сюсюра, Д.А. Программно-целевое управление социальным развитием села. Монография. Москва, 2007, 165 с.

[12] Жеребин, Б.М., Романов, А.Н. Уровень жизни населения. Москва, 2002, 592 с.

*əhalininyararlanan bilmə səviyyəsi və dərəcəsi ilə ölçüldüyü-nü"* hesab edir [13, s.108-129]. Müəllif həmçinin hesab edir ki, əhalinin həyat səviyyəsi dövlətin minimum standartları, əmək haqqı, sosial inkişaf və s. köməyi ilə tənzimlənir.

"Həyat səviyyəsi" anlayışı və onun müəyyən edilməsi ilə bağlı Azərbaycanlı iqtisadçı alimlərinin də dəyərli fikirləri var. Onlardan Ş.M.Muradovun fikrinə əsasən *"həyat səviyyəsi nə-inki yalnız istehlakın artırılması mövqeyindən, həm də daha çox insan inkişafının tərəqqisi nöqteyi-nəzərindən qiymətləndi-rilir".* Müəllif haqlı olaraq qeyd edir ki, *"həyatın keyfiyyəti və həyat səviyyəsi anlayışlarının hər ikisi birlikdə sosial və iqtisa-di siyasət sahəsində nizamlayıcı tədbirlər görülməsinin əsasını təşkil edir və ona xidmət edir"* [14, s.211]. C.B.Quliyev bu an-layışı dar və geniş mənalarda izah edir. *"Dar mənada həyat sə-viyyəsinin yalnız insanlanların şəxsi tələbatlarını əks etdirdiyi-ni, geniş mənada isə sosial, maddi və mənəvi nemətlərin və xidmətlərin faktiki istehlak səviyyəsini, bu nemətlərə və xid-mətlərə tələbatın ödənilməsinin təmin edilməsinin rasional də-rəcəsini, eləcə də cəmiyyətin hər bir üzvünün hərtərəfli, har-monik inkişafı üçün yaratdığı şəraiti ifadə etdiyini" yazır* [15, s.89].

İ.H.Alıyev əhalinin həyat səviyyəsini bütün dövrlərdə cə-miyyətin sosial-siyasi stabilliyinin əsas təminatı hesab edərək qeyd edir ki, *"həyat səviyyəsi sosial-iqtisadi inkişafın vacib*

---

[13] Бабашкина, А.М. Государственное регулирование национальной экономики. Москва, 2003, 476 с.
[14] Muradov, Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı, 2004, 656 s.
[15] Quliyev, C.B. Həyat səviyyəsi: yoxsulluğu törədən və azaldan sosial-iqtisadi amillər. Bakı, 2011, 233 s.

*parametrlərindən olub cəmiyyət üzvlərinin ən zəruri ehtiyaclarının ödənilməsinin göstəricisi kimi xarakterizə olunur"* [16, s.54]. İ.H.Alıyevdən fərqli olaraq T.Ə.Quliyev həyat səviyyəsinin işçinin, onun ailə üzvlərinin, bütövlükdə əhalinin tələbatının ödənilmə dərəcəsi ilə müəyyən edildiyini qeyd edərək yazır: *"həyat səviyyəsi həyati nemətlərin normativləri ilə müəyyən edilsə də onun real təminatı bütövlükdə ölkənin iqtisadi potensialı, hər bir işçinin, fərdin, əhali qrupunun faktiki imkanları, gəlirləri və əmək haqqı ilə məhdudlaşır və yaxud genişlənir* [17, s.272].

Ə.Q.Əlirzayev isə "həyat səviyyəsi" anlayışını makro və mikro səviyyələrə bölür. O, *"həyat səviyyəsinin fərdlərin maddi və mənəvi ehtiyaclarını ödəmək üçün yaradılmış nemətlərin məcmusu ilə müəyyən edildiyini, onun makro səviyyədə iqtisadi artım, ÜMM-un istesal və istehlak struturuna əsasən, mikro səviyyədə isə maddi və mənəvi nemətlərin istehlak səviyyəsi ilə ölçüldüyünü qeyd edir"* [18, s.102]. A.F.Abbasova görə *"həyat səviyyəsi mürəkkəb sosial-iqtisadi kateqoriya olub, cəmiyyətdə insanların həyat, əmək və məişət şəraitlərinin məcmusunu, əhalinin sosial və intellektual tələbatlarının mövcud səviyyəsini əhatə edir. O, yalnız maddi və mənəvi nemətlər və xidmətlərin faktiki istehlakı həcmindən deyil, həm də onlara olan tələbatın inkişafından asılıdır"* [19, s.89]. A.Abbasovdan fərqli olaraq A.T.Məmmədov hesab edir ki, *"əhalinin həyat səviy-*

---

[16] Alıyev, İ.H. Aqrar sahənin inkişafının təkmilləşdirilməsi və regionlarda islahatların keyfiyyətcə səmərəli aparılması. Bakı, 2004, 108 s.
[17] Quliyev, T.Ə. Əməyin iqtisadiyyatı. Bakı, 2003, 693 s.
[18] Əlirzayev, Ə. Q. İqtisadi və sosial idarəetmə. Bazar iqtisadiyyatı: metodoloji prinsiplər, qanunauyğunluqlar. Bakı, 1997, 207 s.
[19] Abbasov, A. Sosial bazar iqtisadiyyatı. Bakı, 1998, 316 s.

*yəsi onun konkret zaman vahidi ərzində (adətən 1 saat götürülür) qazandığı gəlirə nə qədər məhsul ala bilməsi ilə ölçülür"* [20, s.42].

Cəmiyyətin inkişafından asılı olaraq həyat səviyyəsi hər sonrakı zaman anına uyğun olaraq yeni bir keyfiyyətə malik olan pilləyə qalxır ki, bu da onun mahiyyətinin izah olunmasında özünü göstərir. Belə ki, iqtisadi sistemin dəyişməsi ilə həyat səviyyəsi, rifah anlayışlarının mənası da dəyişmiş oldu. *"Əgər 80-ci illərin sonlarında dövlət mənzilinə malik olan və sabit gəliri (çox yüksək olmayan bir gəlir olsa da) olan bir ailə təminatlı ailə hesab edilirdisə, indiki şərtlər daxilində belə ailələrin əksəriyyətini hətta "orta gəlirli" ailə kateqoriyasına da aid etmək olmaz. Hal-hazırda özünə inam hissi verən şərtlər şəxsi evin, bağın, yeni avtomobilin olması, yüksək cari pul gəlirlərinin olması, yüksək səviyyəli bir istirahət və səyahət üçün maliyyə yığımından istifadə etmək imkanının olmasıdır"* [[21]].

Qeyd edək ki, insanın layiqli həyat səviyyəsi hüququ layiqli həyat səviyyəsini təmin etmək vəzifəsini nəzərdə tutur ki, bu vəzifə əksər dünya ölkələrinin konstitutsiyasında təsbit edilmişdir. Professor E.Q.Tuçkovanın fikrinə əsasən, *"heç bir səbəb dövləti öz üzərinə götürdüyü, əhalinin layiqli həyat şəraitini təmin etmək öhdəliyindən məhrum etmir"* [22]. M.Mürsəlov isə *"hər bir insanın iqtisadi fəaliyyətinin forma və*

---

[20] Məmmədov, A.T. Marketinqin əsasları. Dərslik. Bakı, 2007, 335 s.
[21] Quliyev, C.B. Həyat səviyyəsi: yoxsulluğu törədən və azaldan sosial-iqtisadi amillər. Bakı, 2011, 233 s.
[22] Захаров, М.Л., Тучкова Э.Г. Право социального обеспечения России. 2-е изд., испр., Москва, БЕК, 2002, 560 с.

*nəticələrindən asılı olmayaraq minimum rifahının təmin edilməsi hüququna malik olmalı olduğu qənaətindədir”* [23, s.121]. BMT-nin təlimatına əsasən, dövlətin əsas vəzifələrindən biri əhalinin həyat səviyyəsinin yüksəldilməsinə köməklik etməkdir. Belə ki, BMT-nin 1948-ci il “Ümumdünya İnsan Hüquqları Bəyənnaməsi”nin 25-ci maddəsində təsbit edilmişdir ki, *“hər bir insan özünün və ailəsinin sağlamlığı və rifahı üçün ərzaq, geyim, mənzil, səhiyyə və digər xidmətlər də daxil olmaqla, layiqli həyat səviyyəsinə malik olmaq hüququna, xəstəlik, əlillik, dul qalma, işsizlik, qocalıq, yaxud özündən asılı olmayan digər səbəblərə görə yaşayış üçün zəruri olan yaşayış vasitələrindən istifadədən məhrum olduğu hallarda təminat hüququna malikdir”* [24].

Qeyd edək ki, həyat səviyyəsinin təmini respublikanın qanunvericiliyində də öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 16-cı maddəsinin I bəndində qeyd olunur ki, “*dövlət xalqın və hər bir vətəndaşının rifahının yaxşılaşdırılması, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır*” [25].

“Həyat səviyyəsi” kateqoriyası geniş bir anlayış kimi “rifah halı”, “yaşayış keyfiyyəti”, “həyat şəraiti”, “həyatın dəyəri”, kimi kateqoriyalarla yanaşı istifadə olunur. Həyat səviyyə-

---

[23] Mürsəlov, M. Azərbaycanın sosial infrastruktur sahələrinin inkişafında dövlətin rolu. Akademik Ziyad Səmədzadənin 70 illik yubileyinə həsr olunmuş “Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri” mövzusunda Respublika elmi–praktiki konfrans. Bakı, 2010, s.909-910.

[24] Ümumdünya İnsan Hüquqları Bəyənnaməsi. BMT-1948.

[25] Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995-ci ildə qəbul edilmişdir. Bakı: Qanun, 2002, 48 s.

si anlayışı ilə sadaladığımız sosial-iqtisadi kateqoriyaların mahiyyətləri arasında oxşarlıq olsada onları eyniləşdirmək olmaz (Şəkil 1.1.1).




**Şəkil 1.1.1 Həyat səviyyəsi ilə onu xarakterizə edən sosial-iqtisadi kateqoriyaların qarşılıqlı əlaqəsi**

"Həyat səviyyəsi" anlayışının daha dəqiq tərifi üçün yuxarıda sadaladığımız bəzi anlayışlara aydınlıq gətirək. "Yaşayış keyfiyyəti" terminini ilk dəfə C.K.Gelbert "Bolluq cəmiyyəti" adlı əsərində işlətmışdır. Müəllif yaşayış keyfiyyətini nemət və xidmətlərdən istifadə imkanları kimi izah edirdi. Onun fikrincə *"insan yalnız qida, geyim, tibbi xidmət və vacib tələbatları ödənildikdən sonra asudə vaxtın keçirilməsi, səyahət imkanları, yüksək həyat məqsədləri ilə bağlı düşünə bilər. Hətta şəxsi azadlıq və insan qəlbinin xilası yollarının axtarışı belə*

*mədənin "tox" olduğu halda daha yaxşı təmin olunur"* [26]. C.K. Gelbertin fikri ilə razılaşsaq "yaşayış keyfiyyəti" konsepsiyası "həyat səviyyəsi" göstəricilərinin quruluşunda baş verən keyfiyyət dəyişikliklərini əks etdirir. Qeyd edək ki, burda söhbət yalnız yaşayış keyfiyyətini təyin edən obyektiv amillərdən (qidalanma, mənzil, məşğulluq, təhsil və.s) deyil, həmçinin insanın rifahının səviyyəsini, xoşbəxtlik, məmuniyyət, zövq kimi mənəvi keyfiyyətləri xarakterizə edən anlayış və subyektiv qavrayışlardan gedir.

İ.e.d., professor B.M.Qenkin özünün "Əməyin iqtisadiyyatı və sosiologiyası" adlı əsərində qeyd edir ki, *"yaşayış keyfiyyəti insan tələbatının ödənilməsi dərəcəsi ilə xarakterizə edilir. Həmçinin adət-ənənələr, mövcud norma və standartlar və xüsusi tələbatın səviyyəsi ilə münasibətdə (müqayisədə) müəyyən edilir"* [27, s.34]. Amerika iqtisadçısı D.Fosterə görə *"yaşayış keyfiyyəti"stress vəziyyətindən, əhali sıxlığından, ərzaq məhsullarının keyfiyyətindən, iqlimin çirklənməsindən asılıdır. Müəllif hesab edir ki, sənayenin inkişafı və hər nəfərə düşən ÜDM nə qədər yüksək olarsa, əhali sıxlığı və ətraf mühitin çirkliliyi də artar. Bu isə stresli vəziyyətlərin artmasına, yaşayış keyfiyyətinin isə azalmasına səbəb olar"* [28, s.70].

Əhalinin "yaşayış keyfiyyəti" anlayışı müasir dövrdə müxtəlif elmin nümayəndələri – iqtisadçılar, sosioloqlar, statistiklər, siyasətçilər tərəfindən geniş istifadə edilir. A.F.Abba-

---

[26] Политика доходов и качество жизни населения. Под ред. Горедова Н.А. СПб.- Питер: 2003, с.275.
[27] Генкин, Б.М. Экономика и социология труда. Учебник для вузов, 4-е издание. Москва, 2002, 400 с.
[28] Политика доходов и качество жизни населения. Учебное пособие. Под. Редакцией Н.А.Горелова. – Питер: - 2003, 653 с.

sovun fikrincə "yaşayış keyfiyyəti" cəmiyyət üzvlərinin maddi və mənəvi nemətlərlə təmin edilməsi, maddi rifah halı, həyat şəraitinin rahatlığı və onun müasir şəraitə uyğunluğu, habelə sağlamlıq səviyyəsi və orta ömür müddəti ilə xarakterizə edilir. Bir sözlə yaşayış keyfiyyəti əhalinin nə dərəcədə yaxşı yaşamasını əks etdirir" [29, s.89]. Tədqiqatçı alim C.B.Quliyevə görə bu anlayışın dəqiq və birmənalı mahiyyətini göstərmək qeyri-mümkündür. Müəllifin fikrincə *"...yaşayış keyfiyyəti müəyyən vaxtda cəmiyyətin mövcudluğunun müxtəlif tərəflərinin şərtlərini ümumi şəkildə əks etdirən sosial-iqtisadi kateqoriyadır"* [30, s.41]. *"Yaşayış keyfiyyəti" anlayışı "həyat səviyyəsi" anlayışı ilə müqayisədə daha geniş anlayışdır və özündə sağlamlıq vəziyyəti, ömür müddəti, ətraf mühit şəraiti, qidalanma, məişət rahatlığı, sosial mühit, mədəni və mənəvi tələbatın təmini, psixoloji rahatlıq və s. bu kimi obyektiv və subyektiv amilləri birləşdirir"* [31]. Yaşayış keyfiyyəti bu gün cəmiyyətlərin hədəflədikləri ən mühüm məqsədlərdəndir. Yaşayış keyfiyyəti həyatın bütün sahələrini əhatə etdiyindən ona müxtəlif amillər təsir göstərir. "*Qadın və ya kişi olmaq, yaşlı və ya gənc olmaq, dul və ya boşanmış olmaq, aşağı gəlir və təhsil səviyyəsi, zəif sosial dəstək, pis həyat şəraiti və işdən qeyri-məmnunluq, xroniki xəstəliyin olub-olmaması, kifayət qədər asudə vax-*

[29] Abbasov, A. Sosial bazar iqtisadiyyatı. Bakı,1998, 316 s.
[30] Quliyev, C.B. Həyat səviyyəsi: yoxsulluğu törədən və azaldan sosial-iqtisadi amillər. Bakı, 2011, 233 s.
[31] Новая философская энциклопедия. Под редакцией В. С. Стёпина. Москва: - Мысль, 2001.

*tın olub*-olmaması *kimi faktorlar yaşayış keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir"* [32].

Fikrimizcə həyat səviyyəsi anlayışı ilə yaşayış keyfiyyəti anlayışları bir biri ilə sıx bağlıdır. "*Yaşayış keyfiyyəti geniş kontekstlərdə istifadə olunan multidistiplinar bir termindir. Bu termin yalnız gəlir və məşğulluq kimi göstəriciləri deyil, həmçinin ətraf mühit, fiziki və psixi sağlamlıq, azadlıq, dini inanc, təhsil, istirahət və asudə vaxt, həmçinin sosial mənsubiyyət kimi göstəriciləri də özündə ehtiva edir. Yaşayış keyfiyyəti rifah, xoşbəxtlik, məmuniyyət, zövq kimi mənəvi keyfiyyətləri xarakterizə edən anlayış və subyektiv qavrayışlarla sıx bağlıdır. Həmçinin bu anlayış tələbatın təmin olunması dərəcəsini və gələcəkdə mümkün bütün real gözləntilərin qarşılana bilmə imkanını da xarakterizə edir"* [33].

"Həyat səviyyəsi" anlayışının sinonimi kimi "həyat tərzi" terminindən də geniş istifadə olunur. "Həyat tərzi" fərdin, sosial qrupun və ya bütün cəmiyyət üzvlərinin həyat fəaliyyətini xarakterizə edir. *"Həyat tərzi insanların necə və nəyə görə yaşadıqlarını, nə ilə məşğul olduqlarını, hansı hadisələrin onların həyatlarını əks etdirdiyini göstərir. Həyat tərzi həm maddi-mənəvi nemətlər istehsalı prosesində, həm də ictimai-siyasi*

---

[32] Ayfer, B., Bahar, P. Yaşam kalitesi ve göstergeleri. Akademik Araştırmalar ve Çalışmalar Dergisi. Cilt: 8, Sayı: 15. Türkiye, 2016.
[33] Əliyeva, J.R. Həyat səviyyəsi" anlayışı, ona nəzəri baxışlar və yanaşmalar. Bakı: Azərbaycan Koopersiya Universitetinin "Kooperasiya" elmi-praktiki jurnalı, 2020. №1, s. 236-243. https://www.kooperasiya-journal.az/wp-content/uploads/2022/02/1-2020.pdf

*sferada, eləcədə ailə və məişətdə insanların həyat fəaliyyətinin formalarının məcmusunun əhatə edir"*[34, s.43].

İqtisadi ədəbiyyatlarda "rifah halı" anlayışından həyat səviyyəsi anlayışının sinonimi kimi tez-tez istifadə olunur. Bəzi iqtisadçılar *"rifah halı" anlayışının "həyat səviyyəsi"ndən daha geniş anlayış olduğunu desələrdə həyat səviyyəsi daha geniş anlayışdır və yalnız hər nədərə düşən real gəlirlərin həcmilə deyil, həmçinin, əhalinin maddi-mənəvi nemətlərlə təmin olunması dərəcəsi ilə də xarakterizə olunur"* [35]. *"Əhalinin rifah halının xarakterizə olunmasında "xalqın rifahı", "həyatın təhlükəsizliyi", "əmək şəraitinin keyfiyyəti" kateqoriyalarından geniş istifadə olunur. Bəzən müxtəlif anlayışlar eyni məzmuna malik olur, bəzən isə onlar arasında fərq prinsipial xarakter daşıyır və mahiyyətləri əsaslı şəkildə fərqlənir. Həmçinin sadalanan anlayışlar arasında yaxın məzmun əlaqələrinin olduğunu da qeyd etməliyik. Bu daha çox aparılan tədqiqatın məqsədindən və cəmiyyətin hədəfindən asılıdır.* [36].

K. Marks rifah səviyyəsinin keyfiyyət ölçüsü kimi *"insanın təhsil alması, sosial funksiyaları yerinə yetirməsi, yoldaşları ilə ünsiyyətdə olması, fiziki və intellektual inkişafı üçün asudə zamanının olmasını göstərmişdir"* [37]. Müəllifin fikri ilə razılaşaraq, üstəlik qeyd etmək lazımdır ki, rifah

---

[34] Райзберг, Б.А., Лозовский, Л.Ш., Стародубцева, Е.Б. Современный экономический словарь. 5-е изд. Москва: ИНФРА-М, 2007, 495 с.
[35] Хисамутдинов, И.А. Основы экономики и теории рынка. Уфа: УГНТУ, 2008, 734с.
[36] Данилова-Данильяна В.И. Экономика США в будущем (проблемы и прогнозы). Монография. Москва: Прогресс, 1982, 512 с.
[37] Маркс, К. Капитал: критика политической экономии. Москва: Политиздат, 1988, 891 с.

səviyyəsinin keyfiyyət ölçüsü bugün də aktualdır. Beləki, zaman – hazırki iqtisadi reallıqda ən nadir və dəyərli resursdur. Bundan əlavə, boş vaxtın olması fərdin özünə komfortlu şərait yarada bilmə imkanının genişlənməsinə və beləliklədə onun həyat səviyyəsinin yüksəlməsinə səbəb olur. A. Piqu yazır ki, *"insanın həyatı üçün minimum şərtlər sırasına yaşayış yerinin rahatlığı, tibbi xidmət, təhsil, qidalanma, istirahət, sanitar xidməti, əməyin mühafizəsi, ictimai asayiş və s. ilə bağlı müəyyən tələblər də daxil edilməliidir"* [38]. Əhalinin rifahı insanın tələbatının inkişafını, istehlak, reproduktiv davranış, əmək fəaliyyəti, mədəniyyət, ictimai-siyasi sferada vəziyyəti və sadalanan amillərlə təmin olunması metodlarını əks etdirir.

A.P.Qradova görə *"müasir dövrdə "xalqın rifahı"* termini öz populyarlığını itirmişdir. Bunun isə üç səbəbi var: *I həyat səviyyəsi və həyat keyfiyyəti anlayışlarından istifadə genişlənmişdir, II köhnəlmiş, mərkəzləşdirilmiş planlı iqtisadiyyata malik termindir, III pozitiv elementləri özündə ehtiva edən bu terminlə həyat səviyyəsinin pisləşməsi anlayışları arasında bir uyğunsuzluq vardır"* [39, s.6].

*"Həyat şəraiti" termininin mahiyyəti əmək şəraiti, məişət və istirahət kimi üç göstərici ilə daha aydın izah oluna bilir. Məişət şəraiti dedikdə, əhalnin mənzillə təminatı, onun keyfiyyəti, məişət xidməti şəbəkələrinin (camaşırxana, usta təmiri emalatxanası, hamam, bərbərxana, icarə bölmələri və s.), ticarət və qidalanmanın vəziyyəti, ictimai nəqliyyat, tibbi xidmət*

[38] Пигу, А. Экономическая теория блогосостояния:в 2 т. Москва: Прогресс, 1985.
[39] Градов, А. П., Кузин, Б.И., Медников, М.Д. Региональная экономика. СПб. Питер, 2003, 117 с.

*nəzərdə tutulur. İstirahət şəraiti isə insanların asudə vaxtının istifadəsi ilə əlaqədardır. Asudə vaxt qeyri iş vaxtıdır və fərdin inkişafı, onun sosial, mənəvi və intellektual tələbatının təmini üçün sərf edilir* [40, s.13-15]. Əmək şəraiti dedikdə isə əməyin təhlükəsizliyi, iş yerlərinin müasir standartlara uyğunluğu kimi məsələləri nəzərdə tutulur.

Müəyyən müddət ərzində ev təsərrüfatının faktiki istehlak etdiyi maddi nemət və xidmətlərin pulla qiymətləndirilməsi "həyatın dəyəri" kimi çıxış edir. O, əsas istehlak malları və xidmətlərin pərakəndə qiymətlərinin dəyişməsi ilə bağlı bazar dəyərini əks etdirir. *"Həyatın dəyəri" (value of life) digər kateqoriyalarla müqayisədə həyat səviyyəsinin məzmununa daha çox yaxındır və ona gəlirlərin dinamikası, pulsuz xidmət sisteminin yaxşılaşdırılması, yığım, əhalinin strukturundakı dəyişikliklər təsir göstərir"* [41]. Həyatın dəyəri fərdin istehlakının strukturunda və həcmində baş verən dəyişikliklərldən, həmçinin istehlak qiymətlərindəki dəyişikliklərdən asılı olaraq dəyişə bilər.  Buna göörədə onun qiymətləndirilməsində real qiymətlərdən istifadə olunması məqsədəuyğun olardı.

Beləliklə, həyat səviyyəsinin mahiyyətinin konkretləşdirilməsi məqsədilə biz müxtəlif yerli və xarici ölkələrin iqtisadi ədəbiyyatlarının tədqiq edilməsi ilə bu kateqoriyanın müəyyən edilməsi üzrə öz mövqeyimizi əsaslandırmağa həmçinin, bu problem üzrə müəyyən nəticələrin əldə edilməsinə cəhd etmişik. Beləliklə, "*həyat səviyyəsi dedikdə, fərdin, o cümlədən bütünlükdə cəmiyyətin həyat fəaliyyətinin sosial-iqtisadi şərtləri-*

[40] Тихонова, О.Ш. Альтернативная занятость в сельской местности России. Москва, 2008, 222 с.
[41] Sen, A. İnequality Reexamined. New York: 1996, 39 p.

*nin məcmusu başa düşülür ki, bu da cəmiyyətin əldə olunmuş inkişaf səviyyəsinə uyğun olan maddi, mənəvi, sosial tələbatların inkişaf səviyyəsini və onların ödənilməsi dərəcəsini əks etdirir. Həyat səviyyəsi əhalinin həyat keyfiyyətinin iqtisadi tərəflərini əks etdirməklə dövlətin sosial-iqtisadi siyasətinin istiqamət və prioritetlərinin seçilməsində əsas meyardır*" [42 s.242].

## 1.2. "Həyat səviyyəsi"ni xarakterizə edən göstəricilər

"Həyat səviyyəsi" anlayışı kimi əhalinin həyat səviyyəsinin göstəriciləri də daim mübahisə doğurur.

Əhalinin həyat səviyyəsini xarakterizə edən göstəricilər sisteminin inkişafı kapitalizmin yaranması dövrünə təsadüf edir. Bu istiqamətdə araşdırmalara U.Pettinin əsərlərində rast gəlmək olur [43]. F.Kene əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasının real mənbələrini qiymətləndirməyə çalışmışdır. A.Smit işçi kütləsi arasında yoxsulluğun artmasından narahat idi və insanların öz rifah hallarını yaxşılaşdırmaq arzusunu təbii hesab edirdi [44].

---

[42] Əliyeva, J.R. Həyat səviyyəsi" anlayışı, ona nəzəri baxışlar və yanaşmalar. Bakı Azərbaycan Koopersiya Universitetinin "Kooperasiya" elmi-praktiki jurnalı, 2020. №1, s. 236-243. https://www.kooperasiya-journal.az/wp-content/uploads/2022/02/1-2020.pdf

[43] Шаронов, А., Ильин, И., Формирование системы государственных минимальных социальных стандартов. Экономист. Москва, 1999, №1, с.48-56.

[44] Смит, А. Исследование о природе и причинах богатства народов. Москва: - 2007. 960 с.

Əhalinin həyat səviyyəsi göstəriciləri alimlər tərəfindən müxtəlif cür təsnifləşdirilir. Məsələn, rus alimləri V.M.Jerebin və A.N.Romanov özlərinin *“Əhalinin həyat səviyyəsi”*adlı monaqrafiyalarında həyat səviyyəsinin:

▪*əhalinin hər nəfərə düşən gəlirlərinin həcmi ;*

•*ərzaq, qeyri-ərzaq və xidmət istehlakının quruluşu;*

•*əsas istehlak məhsullarının qiymətlərinin səviyyəsi və dinamikası;*

•*mənzil haqqı, kommunal xərclərin həcmi;*

•*əhaliyə verilən imtiyazların (sosial transfertlərin) həcmi;*

•*təhsil, səhiyyənin səviyyəsi və s.* kimi göstəricilər vasitəsilə qiymətləndirilməsinin tərəfdarı idilər [45].

Qeyd edilən göstəricilər həyat səviyyəsini daha çox iqtisadi baxımdan qiymətləndirməyə imkan verdiyindən V.M. Jerebin və A.N.Romanovun təklif etdikləri göstəricilər sistemini mükəmməl hesab etmək düzgün olmazdı.

İ.e.d., professor, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü V.M. Kozırev isə əhalinin həyat səviyyəsini fərdin yaşayışı üçün vacib olan maddi və mənəvi nemətlərlə təmini, fiziki, sosial və mənəvi tələbatlarının ödənilməsi dərəcəsi kimi qiymətləndiməklə onun çoxplanlı göstəricilər içərisində:

▪*əhalinin hər nəfərinə düşən ərzaq istehlakı;*

▪*yoxsulluq səviyyəsi-təyin edilmiş yaşayış minimumunun aşağı səviyyəsi;*

---

[45] Жеребин, Б.М., Романов, А.Н. Уровень жизни населения. Москва, 2002, 592 с.

▪ *hər nəfərə düşən pullu xidmətlərin həcmi (nəqliyyat, mənzil-kommunal və s.);*

▪ *tibbi xidmətin inkişafı, istirahət, turizm və idmanın təşkili;*

▪ *ictimai xidmətlərin inkişaf dərəcəsi* ilə ölçülməsinin daha münasib olduğu qənaətindədir [46].

Yerli alimlərdən Ə.Q.Əlirzayev isə həyat səviyyəsi göstəricilərinin aşağıdakılardan ibarət olduğunu bildirir:

▪ *ÜDM-in həcmi, artımı, onun hər nəfərə düşən miqdarı;*

▪ *ÜDM-in tərkibində, istehlak fondunun ümumi həcmi və onun adambaşına düşən səviyyəsi;*

▪ *Əhalinin gəlirləri, xərcləri, minimum əmək haqqı, orta aylıq əmək haqqı, bəzi məhsulların istehlakının natural və dəyər göstəriciləri (çörək, ət, su və s.);*

▪ *Səhiyyə, təhsil sahəsində istehlak hər nəfərə düşən iqtisadi və sosial göstəricilər;*

▪ *Ekoloji mühit, təbii artım, orta ömür müddəti, təhsil;*

▪ *Təhlükəsizlik göstəriciləri və s.* [47, s.84-85].

BMT-nin təlimatına əsasən hazırlanmış əhalinin həyat rifahı modelinə görə insanların yaşayışının təmin olunmasını o halda məqbul hesab etmək olar ki, *"insanın gün ərzində qəbul etdiyi qidanın dəyəri 2500-4000 kkal aralığında olsun, minimum üç dəyişik paltarı, və üç cüt ayaqqabısı olsun, ev təsərrüfatları üçün bir dəst mətbəx qab-qacağı, gün ərzində 100 litr təmiz suyu, adambaşına ən azı 6 kvadratmetr mənzil (yaşayış)*

---

[46] Козырев, В.М. Основы современной экономики. Учебное издание. Финансы и статистика. Москва, 2001, 432 с.

[47] Əlirzayev, Ə. Q. İqtisadi və sosial idarəetmə. Bazar iqtisadiyyatı: metodoloj iprinsiplər, qanunauyğunluqlar. Bakı, 1997, 207 s.

*sahəsi olsun, uşaqlar üçün minimum altı il təhsil, ev təsərrüfatlarına bir radioqəbuledici və bir velosiped, 100 min nəfərə 10 həkim və 500 xəstəxana çarpayısı, dərman vəsaitlərinə ən azı 100 dollar ekvivalentində pulu, əmək qabiliyyətli insanlara bütün ev təsərrüfatı üzvlərini dolandırmaq imkanı verən iş; xəstə, əlil və yaşlı insanlar üçün sosial müdafiə sisteminin mövcudluğu olsun"* [48].

Qeyd etmək lazımdır ki, yuxarıda sadalanan göstəricilərin hər biri həyat səviyyəsi ilə əlaqədar olsa da ona təsir dərəcələri eyni deyil, həmçinin tez-tez həyat səviyyəsinin qiymətləndirilməsi üçün bu göstəricilərin hamısından deyil, bir neçəsindən istifadə olunurdu. Sadalanan göstəricilərdən əlavə BMT-nin Statistika Komissiyası həyat səviyyəsinin qiymətləndirilməsində vacib, lakin BMT ekspertlərinin fikrincə onun xarakterinə yaxın olmayan "*ÜDM, ÜMG və onun illik artım tempi, sosial xidmətlərin növləri və həcmi, əhalinin fərdi istehlak xərcləri, onların quruluşu, orta illik dinamikası, əhali sıxlığı, əhaliyə göstərilən nəqliyyat xidmətləri, rabitə, çap işi və s. göstəricilərdən ibarət ayrıca bölmə yaratmışdılar"* [49, s.4-10].

Respublikamızda əhalinin həyat səviyyəsinin qiymətləndirilməsində ARDSK-nın əmək bazarı, demoqrafiya, qiymət statistikası materiallarından, ən əsası isə ev təsərrüfatlarının seçmə müayinə materiallarından istifadə olunur.

---

48 Доклад № 3. Исследовательского института социального развития ООН (UNSRID) Женева, 1996, 8 с.

49 Доклад о мировом развитии 2000-2001. Наступление на бедность. Пер с англ. Москва: Весь Мир, 2001, 376 с.

Həyat səviyyəsinin qiymətləndirilməsində adambaşına düşən pul gəlirləri və istehlak xərcləri əsas iqtisadi göstəricilərdir. Bu göstəricilər ölkə, ölkələr arası və yaşayış yerləri üzrə əhali qruplarının həyat səviyyəsini müqayisə etməyə imkan verir.

Ə.Əlirzayevə görə "*istehlak il ərzində pul xərcləri hesabına və natural formada istehlak olunan maddi-mənəvi nemətlərin məcmusudur*" [50, s. 90]. İqtisadçı alim əhalinin istehlakının mənbələrinin aşağıdakılardan ibarət olduğunu hesab edir: *"pul xərcləri hesabına əldə edilən maddi və mənəvi nemətlər, natural və fərdi təsərrüfatdan əldə edilən ərzaq və qeyri-ərzaq məhsulları, kollektiv mülkiyyətdən pulsuz və ya dövlətin xərcləri hesabına fəaliyyət göstərən xidmət və ya natural istifadə üçün fəaliyyət yaradılan obyektlər"* [51, s. 91].

"*Ərzaq, qeyri-ərzaq və xidmət xərcləri ev təsərrüfatının istehlak xərclərini əhatə edir. Vergi, rüsum, ödəmə, borc cərimə, aliment, qohumlara yardım, kreditlərin ödənilməsivə s. istehlaka aid edilməyən xərclərdir* [52].

*"Şəxsi istehlak xərcləri uzunmüddətli istifadə olunan mallara (mebel, avtomobil, ev əşyası və s.), qısamüddətli istifadə olunan mallara (ərzaq, içki, tütün məhsulları), xidmət xərclərinə (turizm, əyləncə, təhsil, səhiyyə və s.) və mənzil xərclərinə (şəxsi və kirayə mənzilin icarəsi) bölünür"* [53].

---

[50] Əlirzayev, Ə. Q. İqtisadi və sosial idarəetmə. Bazar iqtisadiyyatı: metodoloji prinsiplər, qanunauyğunluqlar. Bakı, 1997, 207 s.

[51] Yenə orada

[52] ARDSK. 2018-ci ildə ev təsərrüfatları tədqiqatının əsas yekunları. Bakı, 2019, 221 s.

[53] Словари и энциклопедии на Академике. http/dic.academic.ru/dic.nsf/business/4671 (12.05.2020).

Əhalinin istehlak xərcləri istehlakçıların xərcləməyə hazır olduqları pulun miqdarıdır. Xərcləmək imkanı isə gəlirlərin həcmindən və yığımdan (qənaət) asılıdır. Əhalinin gəlir və xərcləri həmişə üst-üstə düşmür: gəlir az olduqda əvvəlki dövrdə qənaət edilmiş pul istifadə olunur, yüksək gəlir zamanı isə yığıma imkan yaranır. İstehlak xərclərinin xarakterindəki dəyişiklik istehlakçıların proqnozlarından da asılıdır. Məsələn, əğər insanlar gələcəkdə real gəlirlərinin artmasını gözləyirsə, onlar hazırki gəlirlərinin böyük hissəsinin xərcləməyə hazır olurlar. *"İstehlakın quruluşu cəmiyyət üzvlərinin tələbatlarının informalaşmasından və inkişafından asılı olaraq dəyişir və ölkədə gedən mürəkkəb sosial-iqtisadi proseslərlə əlaqədardır"* [54].

Həyat səviyyəsi, maddi rifah halı yalnız xərclərin cəmi ilə deyil, eyni zamanda onun strukturu ilə xarakterizə olunur. Pul xərclərinin əhəmiyyətli hissəsi əmtəə və xidmətlərin alınmasına sərf edilir. Ərzaq xərclərinin payı həyat səviyyəsinin keyfiyyət göstəricisini xarakterizə edir. Onun həcmi nə qədər aşağıdırsa, cəmiyyətin rifah səviyyəsi də bir o qədər yüksəkdir. *"Həmçinin, əhalinin həyat səviyyəsinin qiymətləndirilməsində əhalinin xərcləri ilə yanaşı, müxtəlif əhali qrup və təbəqələrinin istehlakının strukturunda baş verən dəyişikliklərin də öyrənilməsi vacibdir"*[55, s. 119].

54 Беляева, Л.А. Уровень и качество жизни. Проблемы измерения и интерпретации // Федеральный образовательный портал ЭСМ.Социологические исследования. Москва, 2009. № 1.
55 Брокгауз, Ф.А., Ефрон, И.А. Энциклопедический словарь (1890-1907). Москва, 1956.

İstehlak xərclərinin strukturu fərdlər və ailələr üzrə fərqlənir, həmçinin insanın həyatı boyu dəyişikliklərə uğrayır. İstehlak xərclərinin strukturu bir çox faktorlardan asılıdır. Məsələn yaş amili. Belə ki, gənc ailələrin istehlaklarının strukturunda daha böyük yeri  ev, maşın və  yaşayış üçün vacib hesab edilən uzun müddət istifadə olunan əşyaların əldə edilməsinə çəkilən xərclər tutursa, yaşlı insanlar isə daha çox sağlamlığın qorunması və yaşlılıqları üçün yığım etmək məcburiyyətində olurlar.

Əhalinin istehlak xərclərinin strukturuna sosial  status da təsir edir. İmkanlı ailələr daha komfortlu yaşayış yeri, maşın, daha keyfiyyətli ərzaq məhsulları əldə etdikləri halda, imkansız ailələrdə isə bu əksinə olur. Onlar tələbatlarını ucuz vasitələrlə ödəyirlər və ərzaq xərcləri onların istelak xərclərinin tərkibində böyük paya sahibdir.  Alman statistiki Ernest Engelin adı ilə adlandırılan "Engel qanunu" adlı qanunauyğunluğa görə ev təsərrüfatlarının adambaşına düşən gəlirləri artdıqca onların istehlakının strukturunda əhəmiyyətli dəyişikliklər baş verir. Bəzi xərc maddələrinin payı artır, digərlərininki isə azalır. Başqa sözlə ərzağa çəkilən xərclər azalır, digər mallara, o cümlədən uzun müddət istifadə olunan mallara və xidmətlərə çəkilən xərclər isə artır. Engel qanununa əsasən istənilən ölkədə ailənin istehlakının quruluşunun nəticələrilə yaşayış səviyyəsini, maddi rifah halının qiymətləndirmək mümkündür. Ailənin istehlakında qidalanma xərclərinin yüksək olması ailənin həyat səviyyəsinin aşağı olmasını göstərir və əksinə.

*"İstehlakın quruluşunun dəyişməsi məhsul tempinin artım tempi ilə bilavasitə bağlıdır. Məhsul istehsalı insanın tələbatının ödənilməsində,*

*"İstehlakın quruluşunun dəyişməsi məhsul istehsalının artım tempi ilə bilavasitə bağlıdır. Məhsul istehsalı daha çox insanın tələbatının ödənilməsində və cəmiyyətin yaşayış təminatlı iqtisadi nemətlərlə təmin edilməsində mühüm rol oynayır. İstehsalın inkişafı əhalinin maddi rifah halının yaxşılaşdırılmasıının əsas amilidir. İstehsal məhsul buraxılışı problemi ilə yanaşı sosial sferanın da inkişafını təmin edir"* [56].

Əhalinin pul gəlirləri və xərcləri göstəricilərini müxtəlif əlamətlərə görə təsnifləşdirmək olar (Şəkil 1.2.1).

Əhalinin həyat səviyyəsinin xarakterizə edilməsində yoxsulluq həddi və yoxsulluq səviyyəsi göstəricilərindən geniş istifadə edilir.

*"Yoxsulluq insanların zəruri yaşayış vasitələrindən, xüsusilə ac və evsiz-eşiksiz qalması, xəstəlikdən əziyyət çəkməsi, peşə və ixtisasa yiyələnmək imkanından məhrum olması deməkdir. Dünyada elə bir ölkə yoxdur ki, orada yoxsulluq bu və ya digər formada təzahür etməsin"* [57, s.22].

---

[56] Научные основы регионального социально-экономического мониторинга. под ред. Л.В. Ивановского, В.Е. Рохчина. Москва, 1998, 43 с.

[57] Quliyev, C.B. Lənkəran iqtisadi rayonunda əhalinin həyat səviyyəsi və onun dəyişilməsi meylləri. Bakı: AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası, 2010. №1, s.79.

| Pul xərcləri | Pul gəlirləri |
| --- | --- |
| **1.Müntəzəmlilik dərəcəsinə görə:**<br>-daimi xərclər (ərzağa, kommunal xidmətlərə və s.);<br>-dövrü  xərclər (geyimə, təmirə və s.);<br>-birdəfəlik xərclər (müalicəyə, uzun müddət istifadə olunan əşyalara və s.); | **1.Mənbəyindən asılı olaraq:**<br>-əmək haqqı və əmək fəaliyyətinin əlavə ödənişi;<br>-sahibkarlıq fəaliyyətindən gələn gəlirlər, qiymətli kağızlardan gələn gəlirlər;<br>-əmlakın müvəqqəti istifadəyə verilməsinə görə icarə ödənişləri;<br>-sığorta təzminatı;<br>-əmlakın satışından əldə edilən gəlirlər;<br>-dövlət ictimai fondlarından ödənişlər; |
| **2.Zərurilik dərəcəsinə görə:**<br>-birinci dərəcəli (zəruri) xərclər (ərzağa, geyimə, səhiyyə xidmətlərinə);<br>-ikinci dərəcəli (arzu olunan) xərclər (təhsilə, sığorta haqqları və s.);<br>-digər xərclər; | **2. Müntəzəmlilik dərəcəsinə görə gəlirlər:**<br>-daimi gəlirlər (əmək haqqı);<br>-dövrü gəlirlər (müəllif qonararı, qiymətli kağızlardan gələn gəlirlər və s.);<br>-təsadüfi və ya birdəfəlik gəlirlər; |
| **3.İstifadə məqsədinə görə:**<br>-istehlak xərcləri (əmtəələrin alınması və xidmətlərin ödənməsinə);<br>-məcburi ödənişlərin və müxtəlif məcburi haqqların ödənilməsinə;<br>-yığım, depozit və qiymətli kağızlardan qənaət;<br>-xarici valyutanın alınması;<br>-əhalinin əlində olan pul artımı. | **3.Etibarlılıqla bağlı gəlirlər:**<br>-zəmanətli gəlirlər (dövlət pensiyası, müavinətlər);<br>-zəmanətli olmayan gəlirlər (qonarar və s.). |

**Şəkil 1.2.1 Əhalinin pul xərcləri və pul gəlirlərinin müxtəlif əlamətlərə görə təsnifatı**

Yoxsulluq insanın yaşaması üçün zəruri olan məhsul (ərzaq və qeyri-ərzaq) və xidmətlərdən (kommunal, təhsil, səhiyyə xidmətləri) məhrum olması deməkdir. *“Əhalinin böyük hissəsinin məhrumiyyətlərlə qarşılaşması ölkədə insan potensialının formalaşması və inkişafına (əhalinin təhsil və sağlamlıq səiyyəsinə, doğulanda gözlənilən orta ömür uzunluğunun qısalmasına) mənfi təsir göstərir”* [58, s.43].

Həyat səviyyəsini yüksəltmək və yoxsulluğu ləğv etmək qarsılıqlı əlaqədə olan proseslərdir və ölkədə iqtisadiyyatın qlobal makro iqtisadi tənzimlənməsi üçün əsas konseptual inkisaf göstəriciləridir. Dünyanın bütün ölkələrində yoxsulluq probleminin həlli zəruri hesab olunur. 2030-cu ilə qədər bütün insanlar üçün ifrat yoxsulluğun aradan qaldırılması Dayanıqlı İnkişaf Gündəliyinin də əsas və ilk məqsədidir.

Həyat səviyyəsinin qiymətləndirilməsində digər iqtisadi göstərici pul gəlirləridir. Ev təsərrüfatlarının pul gəlirləri “*əmək gəlirləri, alınmış cari transfertlər (pensiya, müavinət, təqaüd və s.) kənd təsərrüfatının satışından və mülkiyyətdən əldə edilən gəlirlər kimi təsnifləşdirilir”* [59]. Həmçinin natural şəkildə əldə edilən ərzaq məhsullarının, yardım və güzəştlərin pulla ifadə olunmuş dəyəri də ev təsərrüfatlarının gəlirlərinə şamil edilir. Pul və natural forma arasındakı münasibət vaxtaşırı dəyişir. Son illər dünyanın əksər ölkələrində bu nisbət daha çox pul gəlirlərinin xeyrinə dəyişmişdir.

Məlumdur ki, yaşayış minimumu, ehtiyac meyarı, minimum istehlak səbətinin dəyəri ölkədə əhalinin həyat səviyyəsi-

---

[58] Neft və yoxsulluq. Himayədar humanitar təşkilatı. Azərbaycanın neft sənayesi üzrə İnformasiya və Resurs Mərkəzi. Bakı, 2006.148 s.
[59] 2023-cü ildə ev təsərrüfatları tədqiqatının əsas yekunları. - Bakı: - 2024. - 216 s.

ni tənzimləmək üçün istifadə olunan vacib sosial normativlərdir.

*"Yaşayış minimumu minimum istehlak səbətinin dəyəri və icbari ödənişlərin cəmindən ibarət sosial normativdir. Ehtiyac meyarı əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumundan asılı olaraq ÜSY-ın təyin edilməsi üçün dövlət büdcəsi ilə birgə hər il üçün təsdiq olunan həddir. Minimum istehlak səbəti isə insanın sağlamlığı və həyat fəaliyyətinin minimum səviyyəsi üçün vacib olan ərzaq, qeyri-ərzaq malları və xidmətlərin elmi normalar əsasında müəyyən edilmiş toplusunu əks etdirir"* [60].

Beləliklə, həyat səviyyəsi müxtəlif aspektləri əhatə edən çoxölçülü bir anlayışdır və onu tək bir göstərici ilə ölçmək və ya qiymətləndirmək mümkün deyil. Həyat səviyyəsini xarakterizə edən göstəricilər sisteminin təhlili onun müxtəlif ölkələr, regionlar üzrə qeyri-bərabər sosial imkanlar, təbii şərait və digər amlərdən asılı olaraq eyni olmadığını göstərir. Fikrimizcə əhalinin həyat səviyyəsinin xarakterizə edilməsində aşağıdakı bütöv göstəricilər blokundan istifadə edilməsi məqsədə uyğundur (Şəkil 1.2.2).

[60] Yaşayış minimumu haqqında Azərbaycan Respublikasının Qanunu. 05 oktyabr 2004-cü ildə təsdiq edilmişdir. https://e-qanun.az/framework/5518




**Şəkil 1.2.2 Həyat səviyyəsinin göstəriciləri** *müəllif tərəfindən hazırlanmışdır.*

## 1.3. Həyat səviyyəsinin qiymətləndirilməsində istifadə edilən indekslər

Hazırda bir çox beynəlxalq təşkilatlar və araşdırma mərkəzləri əhalinin həyat səviyyəsini qiymətləndirmək üçün müxtəlif göstəricilərdən ibarət indeks və hesabatların hazırlanması ilə məşğul olur. Göstəriciləri isə hər biri öz maraqlarına uyğun seçirlər. Həyat səviyyəsinin qiymətləndirilməsində daha populyar və geniş əhatəliliyə malik olan indeks və hesabatlardan bəzilərinə nəzər yetirək.

**İnsan İnkişafı İndeksi (İİİ)**

Həyat səviyyəsini xarakterizə etmək və beynəlxalq miqyasda müqayisə etmək üçün BMT "insan inkişafı indeksi"ndən istifadə edir. İndeksin nəticələri hər il bütün ölkələr üçün hesablanaraq "İnsan İnkişafı Hesabatı"nda nəşr edilir.

İİİ-nin hesablanma metodu yaradıldığı 1990-cı ildən müəyyən təkamül yolu keçmiş, "*2010-cu ildən etibarən isə mürəkkəb-tərkibli əmsal kimi gözlənilən ömür uzunluğu, təhsil və ümumi milli gəlir göstəriciləri üzrə hesablanmaqdadır. Təhsil göstəricisi yaşı 25 və daha yuxarı şəxslərin həyat boyu aldıqları təhsilin müddəti və məktəbə daxil olma yaşında olan uşağın gözləyə biləcəyi təhsil illərinin sayı alt-göstəriciləri*" [61] əsasında hesablanır.

İİİ-nin 2022-ci il üzrə hesabatında ilk üçlükdə olan ölkələr İsveçrə (0,962), Norveç (0,961) və İslandiya (0,959) olmuşdur. Cənubi Sudan 0,385 balla sonuncu yerdə qərarlaşmışdır.

[61] Human Development Report. https://hdr.undp.org/data-center/human-development-index#/indicies/HDI

Ölkəmizin əldə etdiyi nəticə, 2020-ci il istisna olmaqla, müqayisə edilən 21 il ərzində artmışdır.  Dünya üzrə nəticə ilə müqayisədə 2000-ci ildə bir qədər aşağı olsada növbəti illərdə əksinə olmuşdur (Diaqram 1.3.1). 2021-ci ildə ölkəmiz 0,745 balla 91-ci pillədə yer almışdır. 2022-ci ildə isə 0,76 balla 86-cı yerdə qərarlaşmışdır. İndeks üzrə ölkəmizin mövqeyi qonşu ölkələrlə müqayisədə geridir. Ölkəmiz qonşu ölkələrlə müqayisədə Türkiyədən 43 pillə, Rusiyadan 33 pillə, Qazaxıstandan 35 pillə, Gürcüstandan 23 pillə, İrandan 15 pillə geridədir.

**Diaqram 1.3.1 Dünyanın və Azərbaycanın İİİ üzrə əldə etdiyi nəticənin dəyişmə tendensiyası,** *0-1 arası şkala üzrə*



| | 2000 | 2006 | 2008 | 2010 | 2012 | 2014 | 2016 | 2018 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 0,622 | 0,692 | 0,716 | 0,727 | 0,734 | 0,745 | 0,75 | 0,757 | 0,73 | 0,745 | 0,76 |
| Dünya | 0,645 | 0,679 | 0,688 | 0,697 | 0,709 | 0,72 | 0,729 | 0,736 | 0,735 | 0,732 | 0,739 |

Mənbə: İnsan inkişafı hesabatları. https://hdr.undp.org/data-center/human-development-index#/indicies/HDI əsasında hazırlanmışdır

Qeyd edək ki, hazırda İİİ və onun hesablanması ətrafında elmi mübahisələr davam edir. Buna səbəb isə indeksin sadəcə 3 komponentə əsaslanaraq hesablanmasıdır. Beləki həyat sə-

viyyəsinin maddi və mənəvi tələbatları, gender və ya gəlir bərabərsizliyi, insan hüquqları və siyasi azadlıqların təmin olunması kimi vacib komponentlər indeksə daxil edilmədiyindən onun nəticələrinin yetərsiz olduğunu düşünənlər az deyil. Lakin bununla belə bu indeks insan inkişafını və gəlirlə rifah arasında qarşılıqlı mürəkkəb münasibətlərin nəzərdən keçirilməsi üçün geniş prizmanı əhatə etdiyindən təhlil və müqayisə aləti kimi dövlət siyasətinin formalaşması, strateji qərarların qəbulu prosesində praktiki cəhətdən faydalı hesab edilir.

**Dünya xoşbəxtlik hesabatı**

Əhalinin həyat səviyyəsinin yüksəlməsi, onların maddi, mənəvi və sosial tələbatlarının ödənilməsi özlərini xoşbəxt və məmnun hiss etmələri, həyatdan zövq almaları ilə mütənasib olmalıdır. Bu baxımdan BMT-nin dəstəyi ilə 2012-ci ildən etibarən "Gallup İnternational" müstəqil tədqiqat assossasiyası tərəfindən aparılan qlobal sorğu əsasında hazırlanan "Dünya xoşbəxtlik hesabatı" maraq doğurur.

Məlumat üçün qeyd edək ki, "xoşbəxtlik" mövzusu 1970-ci ildən etibarən iqtisad elmində tədqiqat predmetinə çevrilmişdir. Xoşbəxtliklə bağlı tədqiqatlar Cənubi Koliforniya Universitetinin professoru R.İsterlinin adı ilə bağlı olub "İsterlin paradoksu" adlanır. Müəllif ilk dəfə olaraq 1946-1970-ci illərdə ABŞ-da fərdin gəliri ilə xoşbəxtlik səviyyəsi arasındakı əlaqəni araşdırıb. Araşdırmanın nəticəsinə görə qısa müddətli dövrdə bu iki göstərici arasında əlaqə olsada, uzunmüddətli dövrdə onlar arasında pozitiv əlaqə yoxdur. Müəllifin fikrincə *"insanların maliyyə təminatı artıqca yeni tələbləri formalaşdığından maliyyə imkanlarının artması xoşbəxtliyi bir o qədər də*

*artırmır”* [62]. R.İsterlinin fikrincə *“dövlət ÜDM göstəricisinin deyil, ümumi daxili xoşbəxtliyin artmasına çalışmalıdır”* [63].

DXH illik hazırlanır və hər il mart ayının 20-si “dünya xoşbəxtlik günü”ndə ictimaiyyətə təqdim edilir. Xoşbəxtliyin qiymətləndirilməsində altı amildən istifadə edilir: adambaşına düşən ÜDM, sosial dəstək, sağlam ömür uzunluğu, azadlıq, səxavət və korrupsiya. Adambaşına düşən ÜDM iqtisadiyyatın inkişafı ilə bağlı məlumat verir. Sosial dəstək çətin anlarda güvənə biləcək qohum və ya dostun olmasını nəzərdə tutur. Sağlam ömür uzunluğu fiziki və ruhi sağlamlıqla əlaqədardır. Azadlıq-fərdin həyatı ilə bağlı seçim etməkdə müstəqil olub-olmamasını nəzərədə tutur və insan hüquqları ilə əlaqədardır. İnsan hüquqlarına yaşamaq və azadlıq hüququ, köləlik və işgəncədən azadlıq, fikir və ifadə azadlığı, işləmək və təhsil almaq hüququ və s. daxildir. Səxavətlilik *“son bir ayda xeyriyyə təşkilatına pul bağışlamısınızmı?* sualına, korrupsiya isə “*korrupsiya hökumətdə və biznesdə geniş yayılıb, ya yox*”, və *“insanlar öz hökumətlərinin və başqalarının xeyirxahlığına güvənirlərmi?* [64] kimi sualara cavab axtarır.

Hesabat müəllifləri COVİD-19 pandemiyasının pozitiv tərəflərinin olduğu qənaətindədir. Onların fikrincə *“pandemiya*

---

[62] Richard A. Easterlin. Does economic growth improve the human lot? Some empirical evidence. 1974.
[63] Yenə orada
[64] Helliwell, J. F., Layard, R., Sachs, J. D., De Neve, J.-E., Aknin, L. B., & Wang, S. (Eds.). (2024).
World Happiness Report 2024. https://worldhappiness.report/ed/2024/

*təkcə ağrı və əzab gətirmədi, həm də sosial dəstək və xeyirxahlığın artmasına səbəb oldu”* [65].

Hesabatın 2024-cü il buraxılışı müxtəlif yaş qrupları və nəsillər üzrə xoşbəxtlik meylinin öyrənilməsinə həsr edilib. Yaş qrupları üzrə 30 yaşdan kiçik uşaq və gənclərin ən xoşbəxt olduğu ölkə Litva, 60 və daha yuxarı yaş qruplarının ən xoşbəxt olduğu ölkə isə Danimarkadır. Nəsillər üzrə müqayisənin nəticələrinə əsasən isə 1965-ci ildən əvvəl doğulanların 1980-ci ildən sonra doğulanlardan daha xoşbəxt olduğu müəyyən edilib. Qlobal miqyasda 15-24 yaş arası gənclərin yaşlılardan daha çox həyatdan məmnun qaldıqları məlum olub.

2024-cü ildə DXH-da ilk üçlükdə Finlandiya, Danimarka və İslandiya yer almışdır (Cədvəl1.3.1). 143 ölkənin daxil olduğu reytinqin sonuncu pilləsində Əfqanıstan yer alıb.

Qeyd edək ki, Finlandiya son 7 ildə reytinqdə liderliyini qoruyur və dünyanın ən xoşbəxt ölkəsi hesab edilir. Dünyanın ən xoşbəxt ölkələrinin sirlərini öyrənməyə çalışan müəlliflər, Finlandiyada əhalinin xoşbəxt olmasının səbəbinin gəlir bərabərsizliyinin aşağı olması, yüksək sosial dəstək, aşağı korrupsiya səviyyəsi və qərar vermə azadlığı ilə əlaqədar olduğu qənaətindədirlər. DXH-nın reytinqində ilk sıralarda yer alan ölkələr güclü iqtisadiyyata sahib olmaları ilə yanaşı, demokratiya və vətəndaş cəmiyyəti ənənələri ilə də seçilirlər.

[65] Helliwell, J. F., Layard, R., Sachs, J. D., De Neve, J.-E., Aknin, L. B., & Wang, S. (Eds.). (2022). World Happiness Report 2022. New York: Sustainable Development Solutions Network. https://worldhappiness.report/ed/2022/

**Cədvəl 1.3.1 Dünya Xoşbəxtlik İndeksində Azərbaycan, qonşu ölkələri və ilk üçlükdə olan ölkələr,** *2024-cü il*

| Reytinq | Ölkə | Bal |
|---|---|---|
| **1** | Finlandiya | 7,741 |
| **2** | Danimarka | 7,583 |
| **3** | İslandiya | 7,525 |
| **49** | Qazaxıstan | 6,188 |
| **72** | Rusiya | 5,785 |
| **82** | Ermənistan | 5,455 |
| **92** | *Azərbaycan* | *4,893* |
| **98** | Türkiyə | 4,975 |
| **100** | İran | 4,923 |

**Mənbə:** World Happiness Report. https://happiness-report.s3.amazonaws.com/2024/WHR+24.pdf

**Qeyd**. ölkələr üçün nəticələr 95% etibarlılıqla qiymətləndirilir. Yəni nəticələr 95% etibarlıdır.

Reytinqin son sıralarında daxili çəkişmələr, münaqişə, yoxsulluq, sağlamlıq və əsas xidmətlərə əlçatanlıqla bağlı çətinliklər kimi insan hüquqlarını pozan problemlərin yaşandığı ölkələr yer alır. Bu ölkələrə Əfqanıstan, Lübnan, Zimbabve, Ruanda, Botsvana, Lesoto, Sierra Leone, Tanzanya, Malavi, Zambiya və Hindistan aiddir.

Sözü gedən indeks üzrə ölkəmizin mövqeyində əvvəlki illərlə müqayisədə geriləmə baş vermişdir. 2022-ci ildə reytinqdə 5,173 balla 92-ci yerdə qərarlaşsada, 2024-cü ildə ölkəmizin reytinqi bir qədər geriləyərək 4,893 balla 101-ci yerə düşmüşdür. Qonşu ölkələrlə müqayisədə Qazaxıstandan 43, Rusiyadan 20, Ermənistandan 10 pillə geri olsada, İrandan və Türkiyədən müvafiq olaraq, 8 və 6 pillə irəlidə olmaqla bu ölkələrdən daha xoşbəxtdir. Respublikamız dünya üzrə orta göstərici ilə müqayisədə bir qədər geridədir.

Hesabat onu deməyə əsas verir ki, ölkədə yalnız iqtisadiyyatın inkişafına nail olmaq, daha böyük ÜDM-ə sahib olmaq əhalini xoşbəxt etmir. İnsanların xoşbəxt yaşamaları üçün ölkədə korrupsiyanı aradan qaldırmaq, azadlıqlığın və gözlənilən ömür uzuluğunun artırılması istiqamətində tədbirlər görmək, xeyriyyəçiliyi və səxavətli olmağı insanlar arasında bir vərdişə çevirmək lazımdır.

**Xoşbəxt Planet İndeksi (The Happy Planet İndex)**

İndeks 2006-ci ildən Britaniyaya məxsus müstəqil beyin mərkəzi New Economics Foundation tərəfindən hazırlanır. İndeks "*planetə zərər vermədən necə yaxşı həyat sürə bilərik?*" sualına cavab axtarır və ölkədə dayanıqlı rifahı ölçür. Gözlənilən orta ömür uzunluğu, rifah (həyatdan məmnunluq) və ekoloji iz göstəriciləri əsasında hazırlanır. "Gözlənilən orta ömür uzunluğu" doğulan körpənin yaşaya biləcəyi orta il sayıdır. 65 ildən aşağı-pis, 65-75 il arası-orta, 75 ildən yuxarı il isə yaxşı hesab olunur. "Rifah" 0-10 arası şkala ilə ölçülür, 0-pis, 10 isə yaxşı həyatı təmsil edir. Şkala üzrə 5-dən aşağı pis, 5-6 arası orta, 6-dan yuxarı isə yaxşı hesab olunur. "Ekoloji ayaq izi" (Ecological footprint) ölkə daxilində il ərzində adambaşına düşən $CO_2$ emissiyasını göstərir. İldə 3,17 t $CO_2$-dən az emissiya yaxşı, 3,17-6,34 t $CO_2$ arası orta, 6,34 t $CO_2$–dən çox emissiya isə pis qiymətləndirilir. "Ekoloji ayaq izi" anlayışı insanın həyat tərzini və ya biznesi dəstəkləmək üçün ətraf mühitdən nə qədər resurs tələb olunduğunu göstərən ölçüdür. Başqa sözlə, insanların ətraflarında mövcud olan təbii sərvətlərə göstərdiyi təzyiqin miqdarını göstərir.

İndeksin yaradıcıları ənənəvi iqtisadi artımın rifahın ölçülməsində yetərsiz olduğu qənaətindədirlər. Onların fikrincə mövcud iqtisadi sistemlər "nəyin bahasına olursa olsun artım" düşüncəsi ilə idarə olunurlar və rifahın qiymətləndirilməsində ÜDM-dən istifadə edirlər. Bu isə qeyri-bərabərlik, sosial münasibətlər, sağlamlıq və ya asudə vaxtını necə keçirmələri kimi insanlar üçün vacib məsələləri nəzərə almır. İndeksin nəticələrinə əsasən dünyanın heç bir ölkəsi ömür uzunluğu, rifah və ekoloji ayaq izi göstəriciləri üzrə yüksək nəticəyə sahib deyil. Bununla belə 2024-cü ildə 147 ökə arasında sıralamada Vanuatu (Sakit Okeanın cənubunda yerləşən, 80 adadan ibarət ölkədir) ilk sırada yer alır (Cədvəl 1.3.2).

**Cədvəl 1.3.2. Xoşbəxt Planet İndeksində Azərbaycan, qonşu ölkələri və ilk üçlükdə olan ölkələr,** *2024-cü il*

| Reytinq | Ölkələr | Orta ömür uzunluğu | Rifah | Ekoloji ayaq izi | XPİ |
|---|---|---|---|---|---|
| **1** | Vanuatu | 70,4 | 7,12 | 2,62 | 57,9 |
| **2** | İsveçrə | 83,0 | 7,44 | 8,70 | 55,9 |
| **3** | El Salvador | 70,7 | 6,43 | 2,03 | 54,7 |
| **45** | Ermənistan | 72 | 5,30 | 3,43 | 43,0 |
| **80** | Gürcüstan | 71,7 | 4,91 | 4,59 | 37,2 |
| ***88*** | *Azərbaycan* | *69,4* | *5,20* | *6,10* | *34,4* |
| **91** | Türkiyə | 76 | 4,37 | 6,27 | 33,8 |
| **112** | Qazaxıstan | 69,4 | 6,26 | 14,22 | 29,4 |
| **115** | İran | 73,9 | 4,79 | 10,50 | 29,0 |
| **122** | Rusiya | 69,4 | 5,45 | 12,09 | 27,8 |

**Mənbə:** Happy Planet İndex.
https://happyplanetindex.org/trends/?cc=CAN%2CDEU%2CFRA%2CGBR%2CITA%2CJPN%2CARM%2CARM%2CAZE%2CIRN%2CKAZ%2CRUS%2CTUR&ps=custom&am=hpi_score&tt=false

2-ci yerdə 55,9 balla İsveçrə, 3-cü yerdə isə 54,7 balla El Salvador (Şimali Amerikada yerləşən və 6,9 milyon əhaliyə sahib ölkədir) qərarlaşıb.

Ölkəmiz reytinqdə 34,4 balla 88-ci sırada yer alıb. Qonşu ölkələrlə müqayisədə Ermənistandan 43, Gürcüstandan 8 pillə geridə olsada, Türkiyədən 3, Qazaxıstandan 24, İrandan 27, Rusiyadan isə 34 pillə irəlidədir.

Beləliklə, bu indeks planetin xoşbəxtliyinin ölçülməsi məqsədilə yaradılsada kifayət sayda göstəricilərdən istifadə edilmədiyindən və indeks üçün məlumatların əksəriyyətinin müxtəlif mənbələrdən və reqresiya hesablamalarından əldə edildiyindən, o cümlədən ekoloji ayaq izinin yalnız $CO_2$ emissiyası ilə məhdudlaşması, su istehlakı kimi vacib ünsürü nəzərə almaması səbəbindən nəticələri şübhə doğurur. Həmçinin indeksin hazırlanmasında istifadə edilən ekoloji ayaq izi göstəricisi isə mübahisə doğuran və təndiq olunan anlayış kimi dəyərləndirilir.

**Həyat Keyfiyyəti İndeksi**

Bu indeks ölkə və şəhərdə ümumi həyat keyfiyyətinin qiymətləndirilməsi məqsədi daşıyır və alıcılıq qabiliyyəti, çirklənmə, mənzilin gəlirə nisbəti, yaşayış dəyəri, təhlükəsizlik, sağlamlıq, nəqliyyatda sərf edilən zaman və iqlim indekslərindən istifadə edilərək hesablanır. Həyat Keyfiyyəti İndeksi böyük məlumat saytı olan-Numbeo tərəfindən toplanan məlumatlara və istifadəçi sorğularına əsaslanaraq hesablanır. İndeks hər bir amilə əhəmiyyətinə görə çəkilər təyin edən düsturdan istifadə etməklə hesablanır. Numbeo tərəfindən istifadə edilən xüsusi formula dəyişdirilə bilər.

2012-ci ildən hazırlanan indeksə daxil olan ölkələr ilbəil artmaqdadır və 2023-cü ildə indeksin tətbiq edildiyi ölkələrin sayı 87-ə çatdırılmışdır. İndeksin reytinqində ilk yerləri Lüksenburq, İsveçrə, Danimarka paylaşır. Respublikamız üçün Həyat keyfiyəti indeksi 2020-ci ildən etibarən hesablanmaqdadır və yalnız paytaxt şəhəri indeksə daxildir. 2023-cü ildə respublikamız 108,5 balla 61-ci yerdə qərarlaşmışdır (Cədvəl 1.3.3).

**Cədvəl 1.3.3 Azərbaycanda və qonşu ölkələrdə Həyat Keyfiyyəti İndeksi**

| **2022** | | | **2023** | | |
|---|---|---|---|---|---|
| **Ölkələr** | reytinq | HKİ | **Ölkələr** | reytinq | HKİ |
| ***Azərbaycan*** | *68* | *104,1* | ***Azərbaycan*** | *61* | *108,5* |
| **Gürcüstan** | 51 | 121,1 | **Gürcüstan** | 57 | 116,0 |
| **Türkiyə** | 48 | 124,1 | **Türkiyə** | 52 | 118,3 |
| **Rusiya** | 70 | 103,3 | **Rusiya** | 67 | 104,2 |
| **İran** | 86 | 64,9 | **İran** | 80 | 77,6 |
| **Qazaxıstan** | 76 | 93,8 | **Qazaxıstan** | 73 | 96,5 |

**Mənbə:** Numbeo. Quality of life index by country 2023. https://www.numbeo.com/quality-of-life/rankings_by_country.jsp?title=2023&displayColumn=0

Respublikamızın mövqeyi 2022-ci illə müqayisədə yaxşılaşmışdır. Qonşu ölkələrdən Türkiyə və Gürcüstandan geridə, Rusiya, Qazaxıstan və İranla müqayisədə isə irəlidədir. Ermənistan üçün indeks hesablanmamışdır.

**Sosial Tərəqqi İndeksi**

"*Sosial tərəqqi fərqli ölkələrin fərqli sürətlə və nəticələr-*

*lə irəlilədiyi bir hədəfdir. Yaradıcıları indeksin digərləri ilə müqayisədə daha dəqiq mənzərə yaratdığını iddia edirlər. Belə ki, indeks insanların xoşbəxtliyini və ya həyat məmnuniyyətini ölçmür, sığınacaq və qidalanma kimi əsas və təbii ehtiyaclarla yanaşı təhsil, hüquq, şəxsi təhlükəsizlik kimi sahələrdə nəticələrə əsaslanır. Bu müstəsnalıq isə indeksi cəmiyyətdəki dəyişiklikləri izləməyə imkan verən faydalı bir alətə çevirir. İndeks insanlar üçün vacib nəticələri ölçür. Belə ki, məsələn, indeks bir ölkədə səhiyyə xidmətlərinə sərf edilən xərcləri deyil, ölkədə sağlamlıq və səhiyyə xidmətlərinə əlçatanlığın qiymətləndirilməsinə xidmət edir”* [66].

2010-cu ildə sosial sahədə bir sıra mütəxəssislər ölkənin inkişaf səviyyəsini daha effektiv ölçmək və inkişaf prioritetlərini daha yaxşı müəyyən etmək haqqında düşünmüş və 2013-cü ildə ilk dəfə ictimai inkişafla bağlı hesabatın hazırlanmasına nail olmuşlar. Sosial Tərəqqi İndeksi dövlətin əhalinin sosial və ekoloji tələbatlarını ödəmə dərəcəsini ölçür. *“İndeks əsas insan ehtiyacları, rifahın əsasları və imkanlar kimi üç sub-indeks və əllidən çox sosial və ekoloji göstəricidən ibarət olmaqla müxtəlif ölkələrdə ictimai sorğular (12%), inkişafla bağlı ekspert qiymətləndirmələri (25%) və beynəlxalq təşkilatların statistik məlumatları (61%) əsasında hesablanır”* [67]. İndeks və onun göstəriciləri 0-100 arası şkala ilə ölçülür. Amerikanın “Social Progress İmperative” təşkilatının 2022-ci ildə hazırladığı dünyanın sosial cəhətdən ən mütərəqqi ölkələrinin siyahısına əsasən *“dünya əhalisinin 99%-ni əhatə edən 169 ölkə ara-*

[66] Sosial Tərəqqi İndeksi-2020: Azərbaycanın mövqeyinin yaxşılaşdırılması. AMEA İqtisadiyyat İnstitutu, Kollektiv monoqrafiya. Bakı, 2021, 102 səh.
[67] Yenə orada

*sında respublikamız "Lower Middle" (ortadan aşağı) ölkələr qrupuna düşməklə 103-cü yerdə qərarlaşmışdır"* [68]. 2023-cü ildə isə 62,67 balla 99-cu yerə sahib olmuşdur. Bu dünya üzrə orta göstəricidən 0,77 qədər azdır (Cədvəl1.3.4.). Respublikamızın ən yaxşı performans göstəridiyi sub-indeks "insanın əsas ehtiyacları" sub indeksidir.

2023-cü ildə 170 ölkə arasında 90,38 balla 1-ci yerdə Danimarka, 90,32 balla 2-ci yerdə Norveç, 89,96 balla 3-cü yerdə isə Finlandiya qərarlaşmışdır. 20,93 balla sonuncu yerdə qərarlaşan Cənubi Sudan illərdi indeksin reytinqində eyni mövqedədir.

**Cədvəl 1.3.4. Sosial Tərəqqi İndeksində Dünya üzrə orta göstərici və Azərbaycanın əldə etdiyi nəticə,** *2023*

| | Azərbaycan | | Dünya | | Fərq | |
|---|---|---|---|---|---|---|
| | bal | rank | bal | rank | bal | rank |
| Sosial Tərəqqi İndeksi | 62,67 | 99 | 63,44 | 98 | -0,77 | +1 |
| İnsanın əsas ehtiyacları | 87,53 | 47 | 77,04 | 103 | +10,49 | -56 |
| Rifahın təməli | 62,43 | 95 | 61,52 | 98 | -0,91 | -3 |
| İmkanlar | 38,06 | 138 | 51,76 | 88 | -13,7 | -50 |

**Mənbə:** Social Progress İndex. https://www.socialprogress.org/2024-social-progress-index əsasında hazırlanmışdır

Qeyd edək ki, istifadə edilən göstəricilərin sayının çox olması STİ-ni rifahın qiymətləndirilməsində daha səmərəli ölçmə alətinə çevirmişdir. Təhsil, tibb, sanitariya, inklüzivlik, ət-

[68] Social Progress Index. https://www.socialprogress.org/static/8a62f3f612c8d40b09b3103a70bdacab/2022%20Social%20Progress%20Index%20Executive%20Summary_4.pdf

raf mühitin keyfiyyəti, müasir texnologiyalardan istifadə edə bilmə imkanı, tolerantlıq və insan hüquqlarının müdafiəsi kimi vacib göstəricilərdən istifadə olunması ölkədə əhalinin həyat səviyyəsi, rifahı ilə bağlı müəyyən fikrin formalaşmasına imkan verir.

**Yaxşı Həyat İndeksi**

İƏİT tərəfindən 2011-ci ildən etibarən hazırlanan indeks *"mənzil, gəlir, məşğulluq, rabitə və cəmiyyət, təhsil, ətraf mühit, vətəndaş iştirakı və idarəetmə, səhiyyə, yaşayış, məmnuniyyət, təhlükəsizlik və iş və həyatın balanslaşdırılması kimi göstəricilərə əsaslanır. Göstəricilərin hər biri ayrı-ayrılıqda 4 alt-göstəricini özündə ehtiva edir"* [69] . İndeks dünyanın 38 ölkəsi üçün hazırlanır. İndeksin hazırlanmasında istifadə olunan məlumatların böyük əksəriyyəti, təxminən 80%-ə qədər təşkilatın özünə məxsus olsada BMT, Milli statistika idarələri, Gallup World Poll-un məlumatlarından da istifadə olunur. Bu indeksin digərlərindən fərqi interaktiv olmasındadır. Belə ki, indeksin yaradıcıları hesab edirlər ki, rifahın göstəricilərinin əhəmiyyəti bütün ölkələrdə eyni deyil, buna görə də hər bir istifadəçi bu indeksin göstəricilərinə 0-5 şkalası üzrə çəki vermək imkanına malikdir.

**Dayanıqlı İnkişaf İndeksi**

COVİD 19 pandemiyası qlobal miqyasda DİM-də irəliləyişlərə mənfi təsir göstərib. Yüksək gəlirli ölkələr öz imkanları hesabına böhranın ölkənin sosial-iqtisadi vəziyyətinə təsirini azaltmağa nail ola bilsələrdə əksər ölkələrdə məqsədlər üzrə çox cüzi irəliləyişlər əldə edilə bilib. Hesabat müəlliflərinin

[69] OECD Better Life Index. https://www.oecdbetterlifeindex.org/

tövsiyələrinə əsasən gələcəkdə irəliləyişlərin əldə edilməsi üçün *"həm varlı, həm də kasıb ölkələr nəzərdə tutulan dövrün digər yarısı üçün öz milli DİM strategiyalarını ciddi şəkildə nəzərdən keçirməli və öhdəlikləri üçün çalışmalıdırlar"* [70]. Hesabata əsasən 2024-cü ildə DİM İndeksində Finlandiya liderlik edir. Bu ölkə dünyanın ən dayanıqlı ölkəsi hesab edilir. İndeksdə yer alan ilk 20 ölkənin hamısı Avropadadır və əksəriyyəti Avropa İttifaqına daxildir. Bununla belə ölkələrin heç biri indeks üzrə yüksək performans göstərə bilməyiblər. Maksimal bal 100 üzərindən 86,35-dir. Sonuncu yerdə 38,7 balla Cənubi Sudan qərarlaşmışdır. "*Azərbaycan 167 ölkə arasında 72,20 balla 63-cü yerdə qərarlaşıb. 2023-cü illə müqayisədə 10 pillə geriləyib. Qonşu ölkələrlə müqayisədə Gürcüstandan 20 pillə, Rusiyadan 7 pillə, Emənistandan 14 pillə geridə, Türkiyədən 5 pillə, Qazaxıstandan 3 pillə irəlidədir"* [71].

**Azərbaycanda Həyat Keyfiyyəti İndeksi (HKİ)**

HKİ ilk dəfə İqtisadiyyat İnstitutu tərəfindən Azərbaycanın iqtisadi rayonlarında, respublika tabeli şəhərlərində və inzibati rayonlarında həyat keyfiyyətini müqayisəli şəkildə qiymətləndirmək məqsədi ilə 2018-ci ildə hazırlanıb nəşr edilmişdir. "*İndeks 7 sub-indeks və 36 göstərici əsasında tərtib edilmişdir"* [72].

Qeyd edək ki, iqtisadi rayonlar üzrə əhalinin həyat keyfiyyətinin qiyətləndirilməsi və regional fərqlərin ortaya çıxarılması baxımından indeks son dərəcə əhəmiyyətlidir. İndeks

---

[70] Sustainable Development Report 2023. https://sdgs.un.org/gsdr/gsdr2023
[71] Sustainable Development Report 2024. https://dashboards.sdgindex.org/map
[72] Müzəffərli, N.(İmanov) Azərbaycanda Həyat Keyfiyyəti / N.Müzəffərli (İmanov, P.Həsənov, B.Əhmədov. AMEA İqtisadiyyat İnstitutu. – Bakı: -2018.

maddi rifah (MR), Sağlamlıq (SL), təhsil (TS), təhlükəsizlik (THL), ailə möhkəmliyi (AM), Ekologiya (EKO), asudə vaxt imkanı (AVİ) kimi sub-indekslərdən ibarətdir. İndeks iki ildən bir hazırlanır. İndeks üzrə nəticələrə növbəti bölmələrdə yer verəcəyik. İndeksin nəticələri regionlarda sosial-iqtisadi inkişafla bağlı idarəetmə qərarlarının qəbul edilməsində, proqramların hazırlanmasında mühüm əhəmiyyətə malikdir. HKİ yeni indeksdir və yalnız 2018 və 2020-ci illər üçün hazırlanmışdır. Gələcək dövr üçün hazırlanacaq indekslər regionlarda həyat keyfiyyəti ilə bağlı daha geniş müqayisələr aparmağa imkan verəcəkdir.

Beləliklə, həyat səviyyəsini ölçmək və müqayisə etmək üçün hazırlanan indekslər müxtəlif göstəricilərdən ibarət hazırlandığından geniş maraq doğursada indekslərin birinin digərindən daha mükəmməl olduğu fikrini demək çətindir. Həmçinin bu indekslərin hesablanma metodologiyalarının, istifadə edilən göstəricilərin yetərli və ya yetərsiz olmaları ilə bağlı münasibətlər də bir mənalı deyil. Bununla belə bu indekslərin əksəriyyəti müxtəlif prizmanı əhatə etdiyindən bir çox hallarda təhlil və müqayisə aləti kimi ölkədə əhalinin həyat səviyyəsinin qiymətləndirilməsində praktiki cəhətdən faydalı hesab edilə bilər.

# II FƏSİL. AZƏRBAYCANDA KƏND ƏHALİSİNİN HƏYAT SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Kənd əhalisinin gəlirləri

Sosial yönümlü bazar iqtisadiyyatının əsas məqsədi olan əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına nail olmaq üçün effektiv gəlir siyasətinin həyata keçirilməsi ən səmərəli yoldur. Müasir dövrün məşhur iqtisadçılarından olan J. Xiksin tərifinə görə, "*gəlir göstəricisi insanın yoxsullaşmadan istehlaka xərcləyə biləcəyi məbləği əhatə edir*" [73].

Əhalinin gəlirləri həyat səviyyəsinin əsas iqtisadi göstəricilərindən biri olmaqla, bir tərəfdən cəmiyyətin hər bir üzvünün gündəlik tələbatlarının ödənilməsi, təhsil alma, sağlamlığının möhkəmləndirilməsi və s. imkanını müəyyən edir, digər tərəfdən isə ailənin gəlirləri üzrə məlumatın ümumiləşdirilməsi ölkə iqtisadiyyatının mövcud vəziyyəti haqqında fikir söyləməyə, eyni zamanda gələcəkdə iqtisadi və sosial siyasətinin formalaşdırmasında mühüm rol oynayır. Buna görə də əhalinin gəlirlərinin formalaşması və istifadəsi prosesləri müntəzəm olaraq tədqiq olunur.

**Azərbaycanda kənd əhalisinin gəlirlərinin strukturunda baş vermiş dəyişikliklər**

Bazar münasibətləri şəraitində əhalinin gəlirlərinin quruluşunda ciddi keyfiyyət dəyişiklikləri baş vermişdir. Buna mülkiyyət münasibətlərindəki dəyişikliklər, yeni təsərrüfat sa-

---

[73] Bibliotekar. http://www.bibliotekar.ru/423/39.htm (19.08.2019).

hələrinin, əmək və kapital bazarlarının formalaşması səbəb olmuşdur. Belə ki, ənənəvi (əmək haqqı, pensiyalar, təqaüdlər) gəlir növləri ilə yanaşı sahibkarlıq fəaliyyətindən, daşınmaz əmlakdan, mülkiyyətdən, qiymətli kağızlardan, xarici valyutadan əldə olunan gəlirlər meydana gəlmiş, gəlirlərin tərkibi keyfiyyət və kəmiyyət baxımından yenilənmiş, eyni zamanda gəlirlərin istifadəsində məcburi ödənişlər və rüsumlar, xarici valyutanın, qiymətli kağızların, şəxsi daşınmaz əmlakın alınması, kommersiya banklarına vəsaitlərin qoyulması kimi yeni istiqamətlər meydana gəlmişdir.

Statistik məlumatların təhlili kənd əhalisinin pul gəlirlərinin quruluşunda xeyli keyfiyyət dəyişikliklərinin baş verdiyini göstərir (Cədvəl 2.1.1). Müqayisə edilən 2005-2023-cü illər ərzində cəmi gəlirlərin həcmi 5,5 dəfə artaraq 60,3 manatdan 329,8 manata yüksəlmişdir. Kənd əhalisinin gəlirlərinin formalaşmasında sahibkarlıqdan gələn gəlirlər, əmək haqqı və pensiya əhəmiyyətli rol oynamaqla 86% paya sahib olmuşdur.

Şəhər yerlərində əhalinin gəlirlərinin tərkibində əmək haqqı böyük və əsas paya (45,9%) sahib olsa da kənd yerlərində bu göstərici 26,9% təşkil edir. Kənd yerlərində özünüməşğulluqdan əldə edilən gəlirlər 44,1% təşkil etməklə daha yüksək pay ilə xarakterizə olunur. Şəhər yerlərində isə bu göstəricinin payı 24,9%-dir. Dünya ölkələrinin əksəriyyətində ailə gəlirlərinin əsas mənbəyini əmək haqqı təşkil edir.

**Cədvəl 2.1.1 Kənd yerləri üzrə əhalinin ayda hər nəfərinə düşən gəlirlərinin quruluşunda baş vermiş dəyişikliklər**

| | 2005 | | 2015 | | 2023 | | 2023-cü ildə 2005-ci ilə nisbətən | |
|---|---|---|---|---|---|---|---|---|
| | manat | % | manat | % | manat | % | manat | faiz bənd +artma -azalma |
| Gəlirlər-cəmi | 60,3 | 100 | 230.4 | 100 | 329,8 | 100 | 269,5 | - |
| Muzdla işləyənlərin əməyinin ödənilməsi (əmək haqqı) | 8,9 | 14.8 | 50.3 | 21,6 | 88,7 | 26,9 | 79,8 | 12,1 |
| Sahibkarlıq fəaliyyəti və özüməşğulluqdan gəlirlər | 11,4 | 19.0 | 55.9 | 24,9 | 137,1 | 44,1 | 125,7 | 25,1 |
| ondan kənd təsərrüfatından gəlirlər | 22,6 | 37.4 | 61,0 | 26,1 | 69,2 | 21,9 | 46,6 | -15,5 |
| Mülkiyyətdən gəlirlər | 0,6 | 1.0 | 1.2 | 0,5 | 0,8 | 0,3 | 0,2 | -0,7 |
| Alınmış cari transfertlər | 7,6 | 12.6 | 37.6 | 16,3 | 64,1 | 19,4 | 56,5 | 6,8 |
| Pensiyalar | 6,0 | 10.0 | 30.4 | 13,1 | 50,8 | 15,4 | 44,8 | 5,4 |
| müavinət və sosial yardımlar | 0,9 | 1.5 | 4.7 | 2,1 | 12,7 | 3,8 | 11,8 | 2,3 |
| natura şəklində daxilolmaların pul ifadəsində dəyəri | 0,6 | 1.1 | 2.5 | 1,1 | 0,7 | 0,2 | 0,1 | -0,9 |
| Digər gəlirlər | 9,1 | 15.0 | 24.1 | 10,4 | 30,9 | 9,3 | 21,8 | -5,7 |
| digər ailələrdən alınmış gəlirlər | 7,4 | 12.3 | 17.5 | 7,6 | 24,3 | 7,4 | 16,9 | -4,9 |
| ölkə xaricindən göndərilən pul | 1,7 | - | 6.6 | 2,8 | 6,5 | 1,9 | 4,8 | - |

Mənbə: http://www.stat.gov.az əsasında hazırlanmışdır

*“Beynəlxalq metodikaya görə əhalinin pul gəlirlərinin tərkibində əmək haqqının payı 50%-dən aşağı olarsa, bu həmin ölkədə həyat səviyyəsinin aşağı, yoxsulluq səviyyəsinin isə yüksək olduğunu göstərir”* [74].

Respublikamızda müqayisə edilən dövr ərzində kənd əhalisinin gəlirlərinin tərkibində əmək haqqının payı 14,8%-dən 26,9%-ə yüksəlsədə, onun həcmi qəbul edilmiş beynəlxalq normadan aşağı olmuşdur.

Torpağa sahib olması, kənd təsərrüfatı məhsul istehsalçılarına edilən yardımlar kənd yerlərində əhalinin məşğulluğunu təmin etməklə onların həyat səviyyəsinin yüksəldilməsinə birbaşa təsir göstərir. Kənd əhalisi istehsal etdikləri məhsulun bir hissəsini qidalanmağa sərf etdikləri halda, digər hissəsinin reallaşdırılmasından əldə edilən gəlirlər hesabına özlərinin qeyri-ərzaq xərclərini genişləndirməyə nail ola bilirlər.

Müqayisə edilən dövrün əvvəlində kənd əhalisinin sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirləri əmək haqqı gəlirlərini 2,5 manat, dövrün sonunda isə 48,4 manat üstələmişdir. 2005-2015-ci illər ərzində kənd əhalisinin sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirlərinin payı 19%-dən 24,9%-ə, 2023-cü ildə bir qədərdə artaraq 44,1%-ə çatmışdır. Bu göstərici üzrə müşahidə edilən artım son dövrlər iqtisadiyyatda baş vermiş dəyişikliklər, sosial-iqtisadi inkişaf proqramları çərçivəsində həyata keçirilən tədbirlərlə əlaqədar olmuşdur.

Dünyada elə bir ölkə yoxdur ki, orada kənd təsərrüfatı və ona yaxın olan meşə təsərrüfatı, ovçuluq, balıqçılıqla məşğul

---

[74] FAO. How to feed the world in 2050.
https://www.fao.org/fileadmin/templates/wsfs/docs/expert_paper/How_to_Feed_the_World_in_2050.pdf

olmasınlar. Dünya Bankının məlumatlarına əsasən "*dünya əhalisinin 26%-ə qədəri (2022-ci il) bu sahədə çalışsada göstərici üzrə gəlir səviyyəsinə görə ölkələr arasında böyük fərqlər mövcuddur. Yüksək gəlirli ölkələrdə əhalinin 3%-i, orta gəlirli ölkələrdə 29%-i, aşağı gəlirli ölkələrdə isə 59%-i kənd təsərrüfatında çalışırlar*" [75]. Azərbaycanda isə bu sahədə çalışanların payı 36%-dir. Aydın məsələdir ki, belə fərq kənd təsərrüfatı işlərinin mexanikləşdirilmə səviyyəsindən, həmçinin kənd təsərrüfatının ixtisaslaşmasından, təbii şəraitdən, iqtisadi inkişafdan və digər amillərdən asılıdır.

Kənd təsərrüfatından əldə olunan gəlirlər kənd əhalisinin gəlirlərinin tərkibində əsas mənbələrdən biri kimi çıxış etsə də, müqayisə edilən dövr ərzində, onun həcmi bir o qədərdə yüksək olmamışdır. Bu göstərici üzrə müqayisə edilən dövr ərzində 3 dəfə, başqa sözlə 46,6 manat artım baş versə də, cəmi gəlirlərin tərkibində xüsusi çəkisi 15,5 faiz bəndi azalmaqla 37,4%-dən 21,9%-ə düşmüşdür. Kənd təsərrüfatında fərdi sahibkarlıq təsərrüfatlarının satış imkanlarının istənilən səviyyədə olmaması kənd əhalisinin gəlirlərinə təsirsiz ötüşmür. Belə olan halda məhsul istehsalçıları ilə müqayisədə vasitəçilər daha çox qazanır ki, bu da nəticədə məhsul istehsalçılarını həvəsdən salır, onların motivasiyasını azaldır.

Qeyd edək ki, kənd yerlərində yoxsulluğun səviyyəsinin azaldılması kənd təsərrüfatının inkişafından və onun fəaliyyət

---

75 World Bank. Employment in agriculture (% of total employment) (modeled ILO estimate). (22.05.2024). https://data.worldbank.org/indicator/SL.AGR.EMPL.ZS

dairəsindən birbaşa asılıdır. Bu zəruriliyi aşağıdakı tələblər meydana çıxarır:

- kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsinə və gəlir mənbələrinin çoxaldılmasına olan ehtiyac;
- əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi və ərzaq təhlükəsizliyinin təmin edilməsi;
- əhalinin istehlakının strukturunda ərzaq rasionunun yerli məhsullar hesabına ödənilməsinə tələbat;
- istehlak bazarında kənd təsərrüfatı məhsullarının təklifinin təmin edilməsi;
- emal sənayesinin kənd təsərrüfatı məhsullarına olan tələbatının təmin edilməsi;
- kənd əhalisinin gəlirlərinin quruluşunda kənd təsərrüfatının payının artırılması;
- ixracda kənd təsərrüfatı məhsullarının xüsusi çəkisinin artırılması və s.

**Azərbaycanda əhalinin gəlirlərinin dövlət tənzimlənməsi**

Minimum əmək haqqı ölkədə iqtisadi inkişafın tələbləri, ölkə üzrə orta aylıq əmək haqqı səviyyəsi, sosial müavinətlər, pensiya, sosial demoqrafik qruplar üzrə yaşayış minimumu, inflyasiya səviyyəsi ilə bağlı olan və ixtisassız əməyə görə aylıq əmək haqqının ən aşağı səviyyəsini müəyyən edən sosial normativdir. Son illər əmək bazarının təkmilləşdirilməsi, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşması, rəqabət gücünün artırılması, ümumilikdə ölkədə insan potensialının qorunması və inkişaf etdirilməsi istiqamətində görülən müvafiq tədbirlər sayəsində minimum əmək haqqı 2005-ci illə müqayisədə 2023-

cü ildə 12 dəfə artmaqla 30 manatdan 345 manata yüksəlmişdir (Diaqram 2.1.1).

**Diaqram 2.1.1 Əmək haqqı və onun dəyişilmə meylləri,** *manatla*




Mənbə: http://www.stat.gov.az

Statistik məlumatların təhlili iqtisadi fəaliyyət sahələrində gəlirlərin qeyri-bərabər olduğunu göstərir. Kənd təsərrüfatı əməyi digər sahələrlə müqayisədə ən aşağı gəlirli sahədir. Son illər kənd təsərrüfatında muzdlu işçilərin nominal orta aylıq əməkhaqqı səviyyəsində artım tempinin sürətlənməsinə baxmayaraq, onun həcmi iqtisadiyyat üzrə orta aylıq göstəricidən təqribən 2 dəfəyədək geri qalır. Kənd təsərrüfatında OAƏH İqtisadiyyatda OAƏH-dan dövrün əvvəlində 82 manat, dövrün sonunda isə 375,2 manat geri qalmışdır.

Ölkəmiz 2004-cü ildə "Dəyişdirilmiş Avropa Sosial Xartiyası"na qoşulmuş və üzərinə bu Xartiyanın 4-cü maddəsinin

1-ci bəndinə uyğun olaraq işçilərə və onların ailələrinə layiqli həyat səviyyəsini təmin edəcək səviyyədə əmək haqqı ödənilməsi öhdəliyi götürmüşdür. Öhdəliyə əsasən Xartiyanı ratifikasiya etmiş hər bir dövlət minimum əmək haqqının ölkə üzrə orta aylıq əmək haqqının 60 faizindən az olmaması prinsipini təmin etməlidir. Respublikamızda isə bu göstərici dövrün əvvəlində 24%, 2023-cü ildə isə 37% təşkil etmişdir. Xartiyadan irəli gələn bu öhdəlik "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əksini tapsada bu prinsip özünü doğrultmamışdır.

Azərbaycanda hazırda bütün iqtisadiyyat üzrə vahid bir minimum əmək haqqı sistemi tətbiq edilir. Dünya praktikasında isə saatlıq əməkhaqqı sisteminin tətbiqi daha geniş yayılmışdır. Məlumat üçün bildirək ki, inkişaf etmiş əksər ölkələrdə saatlıq minimum əmək haqqının həcmi yüksəkdir. Belə ki, 2022-ci ildə saatlıq real minimum əmək haqının dəyəri Almaniya, Lüksenburq və Avstriyada 13,6 (illik 26894,9 ABŞ dolları), Fransada 13,8 (illik 25142,5 ABŞ dolları), Belçikada 12,7 (illik 26391,7 ABŞ dolları), Böyük Britaniyada 11,8 (illik 24550,9 ABŞ dolları), Yeni Zelandiyada 13,2 ABŞ dolları (illik 27041,3 ABŞ dolları) olmuşdur [76] Ölkəmizdə isə 2022-cü ildə iqtisadi fəalliyət növləri üzrə 1 saatlıq əmək xərcləri 7,64 manat təşkil etmişdir.

**Azərbaycanda kənd əhalisinin gəlir mənbələri**

Qeyd etdiyimiz kimi, bazar münasibətlərinə keçid əhalinin gəlirlərinin formalaşmasında əsaslı dəyişikliklərə səbəb ol-

---

[76]OECD Data Explorer. https://stats.oecd.org/Index.aspx?DataSetCode=RMW (29.01.2024)

muşdur. Əhalinin gəlir əldə etmək imkanları, başqa sözlə, gəlir mənbələrinin sayı çoxalmışdır. Statistik məlumatların təhlili kənd əhalisinin gəlirlərinin qeyri-bərabər olduğunu göstərir. Əslində bu bərabərsizlik bütün dünya ölkələri üçün əhalinin həyat səviyyəsindən asılı olmayaraq xarakterikdir. Gəlirlər üzrə qeyri-bərabərliyə əhalinin şəxsi fəaliyyətindəki fərqlər, yaşı, təhsil və sağlamlıq səviyyəsi, vərəsəlik hüququ, işçilərin peşə hazırlığı, bazarda hökmranlıq (inhisarçılıq) mövqeyi tutmaq, süni surədə qiymətləri qaldırmaq, peşəkarlıq zövqü və risk etmək kimi müxtəlif amillər təsir göstərir. Bundan əlavə əhalinin gəlirləri ödənişli işlə təmin olunmaq imkanından, sərəncamında mülkiyyətin olub-olmamasından asılı olaraq da dəyişir.

Kənd əhalisinin gəlir mənbələrinin tərkibində kənd təsərrüfatı ilə yanaşı qeyri-kənd təsərrüfatından əldə etdikləri gəlirləri də xüsusi paya malikdir.

"*Qeyri-kənd təsərrüfatı ilə məşğul ev təsərrüfatlarının gəlirləri aşağı olsa da etibarlı maliyyə mənbəyi kimi inkişaf potensialına malikdir. Həm kənd, həm də qeyri-kənd təsərrüfatı ilə məşğul olan ev təsərüfatları kənd təsərrüfatından gəliri olmayanlarla müqayisədə daha yaxşı maliyyə nəticələrinə sahibdirlər*" [77].

[77] Marija Gjosheva Kovachevikj, Lazo Dimitrov, Despina Popovska Stojanov. The structure of rural households' income in North Macedonia - A case study in Polog and Pelagonija. Agro-knowledge Journal, vol. 24, no. 3, 2023, 117-131.

**Cədvəl 2.1.2 Kənd yerlərində iş yerlərinin əsas gəlir mənbələri üzrə əhalinin bölgüsü,** *faizlə*

| İllər | Dövlət sektorunda muzdlu iş | Özəl sektorda muzdlu iş | Kənd təsərrüfatında muzdlu iş | Sahibkarlıq, kommersiya və s. | Öz təsərrüfatında işləyir | Peşəsi üzrə sərbəst fəaliyyət | Xüsusi şəxs yanında iş | Pensiya | Təqaüd | Sosial müavinətlər | Himayədə | Ölkə xaricindən göndərilən pul | Ünvanlı sosial yardım | Digər mənbələr |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2005 | 8,2 | 1,9 | 0,3 | 4,1 | 48, | 8,9 | 3,4 | 14, | 0,2 | 0,6 | 8,0 | 0,7 | - | - |
| 2015 | 12, | 4,3 | 0,3 | 6,4 | 31, | 9.7 | 1,2 | 15, | 0,4 | 0,7 | 17,2 | 0,4 | 0,2 | 0,0 |
| 2018 | 15, | 3,9 | 0,4 | 6,7 | 27, | 9,1 | 1,3 | 16, | 0,4 | 0,9 | 18,0 | 0,2 | 0,1 | 0,0 |

Mənbə: http://www.stat.gov.az

2.1.2 saylı cədvəl məlumatlarından göründüyü kimi, müqayisə edilən 2005-2018-ci illər ərzində kənd yerlərində əhalinin gəlir mənbələri üzrə dəyişikliklər baş vermişdir.

Həm dövlət, həm də özəl sektorda çalışanların sayında artım baş vermişdir. Artım dövlət sektorunda 6,9 faiz bəndi, özəl sektorda isə 2 faiz bəndi qədər olmuşdur. Kənd yerlərində sahibkarlıq və kommersiya fəaliyyəti ilə məşğul olanların sayı 2,6 faiz bəndi artsada, öz təsərrüfatında işləyənlərin sayında 21 faiz bəndi qədər azalma baş vermişdir. Öz təsərrüfatında işləyənlərin payında azalma baş versədə digər göstəricilərlə müqayisədə çox olmuşdur. Peşəsi üzrə sərbəst fəaliyyət göstərənlərin sayında nisbətən artım baş vermişdir. Bu göstərici üzrə kənd əhalisinin sayı 8,9%-dən 9,1%-ə yüksəlmişdir. Əsas gəlir

mənbəyi pensiya, təqaüd və sosial müavinət olan əhali kateqoriyasının sayı 15,7%-dən 17,3%-ə yüksəlmişdir. Müqayisə edilən dövr ərzində himayədə yaşayan kənd əhalisinin sayında 10 faiz bəndi qədər artım baş vermişdir.

Müqayisə edilən dövrün əvvəlində kənd yerlərində əhalinin 24,4%-nin dövrün sonunda isə 35,6%-nin gəlirlərini əməksiz gəlirlər təşkil etmişdir.

Qeyd edək ki, 2022-ci ildən əhalinin əsas gəlir mənbələrinin təsnifatında dəyişikliklər edilmişdir. Yeni təsnifata görə 2022-ci ildə kənd əhalisinin gəlir mənbələri arasında özünüməşğulluqdan əldə edilən gəlirlərin payı 32,8% olmaqla ilk sırada yer almışdır. İkinci yerdə əsas gəlir mənbəsi muzdlu iş (23%), üçüncü yerdə isə digər şəxslərin himayəsində olanlar (20,8%) yer almışdır.

2023-cü ildə isə kənd əhalisinin gəlir mənbələri arasında digər şəxslərin himayəsində yaşayanların payı 40,6% olmaqla ən yüksək paya malik olmuşdur (Qrafik 2.1.1). Gəlir mənbələri arasında özünüməşğulluqdan əldə edilən gəlirlər 24,2% olmaqla ikinci, muzdlu işdən əldə edilən gəlirlər isə 16,9% olmaqla üçüncü yerdə olmuşdur. Baxmayaraq ki, son illər özünüməşğulluq proqramına cəlb edilənlərin sayı artmışdır, bununla belə, kənd yerlərində əhalinin gəlir mənbələrinə görə bölgüsündə özünüməşğulluqdan əldə edilən gəlirlərin xüsusi çəkisi xeyli azalmışdır. Başqa sözlə bu göstəricinin payında, 2022-2023-cü illərdə, 8,6 faiz bəndi qədər azalma baş vermişdir. Digər şəxslərin himayəsində yaşayanların payı göstəricisi üzrə isə 19,8 faiz bəndi qədər artım baş vermişdir.

**Qrafik 2.1.1 2023-cü ildə kənd yerləri üzrə əhalinin əsas gəlir mənbələri,** *%-lə*




**Mənbə:** http://www.stat.gov.az

Təhlil göstərir ki, kəndlərdə fermer təsərrüfatlarının, səhmdar cəmiyyətlərinin, kooperasiyaların istehsal səviyyəsinin yüksəldilməsinə, emal müəssisələrinin yaradılmasına ehtiyac var. Həmçinin kənd yerlərində yeni alternativ gəlir mənbələrinin yaradılması qeyri-kənd təsərrüfatı sahəsinin, o cümlədən xidmət sferasının genişləndirilməsi və inkişafı kənd əhalisinin gəlir mənbələrinin diversifikasiyasında zəruridir.

Özünüməşğulluqdan gələn gəlirlərin payının artırılması məqsədilə proqramın həyata keçirilməsində ünvanlılığı təmin etmək, fəaliyyətin davamlılığına nəzarəti gücləndirmək məqsədəuyğundur.

Əksər kəndli fermer təsərrüfatlarının satış imkanlarının məhdudluğu onların satışdan əldə etdikləri gəlirlərin aşağı olmasına səbəb olur. Kənd təsərrüfatında yerli sahibkarların xarici bazarlara çıxışının dövlət tərəfindən təşviqinin genişləndirilməsi, bu sahədə çalışanların (sahibkarların və işçilərin) gəlirlərinin artırılmasına öz töhvəsini verə bilər. Bu isə öz növbəsində yaşayış yerləri üzrə əhalinin gəlirləri arasındakı fərqin azaldılmasına, kənd təsərrüfatının inkişafına və miqrasiya məsələsinin kəndin xeyrinə dəyişilməsinə imkan yaradar.

## 2.2. Kənd əhalisinin istehlak xərcləri

Kənd əhalisinin pul gəlirləri ilə yanaşı onların istehlak xərclərinin quruluşunda da xeyli keyfiyyət dəyişiklikləri baş vermişdir. 2.2.1 saylı cədvəl məlumatlarının təhlilinə əsasən 2005-2023-cü illəri əhatə edən dövr ərzində kənd əhalisinin istehlak xərclərinin həcmi 5 dəfə artaraq 62,7 manatdan 331,9 manata çatmışdır.

İstehlak xərclərinin əsas hissəsini təşkil edən və həyat səviyyəsində baş verən keyfiyyət dəyişikliklərini ifadə edən ərzaq xərcinin xüsusi çəkisi yüksək olmaqla dövrün əvvəlində 56,4% təşkil etsədə, sonrakı illərdə bir qədər azalaraq dövrün sonuna 44,6%-ə düşmüşdür.

Əvvəldə də qeyd etdiyimiz kimi, beynəlxalq metodologiyaya əsasən, əhali xərclərinin 50%-dən çoxunun ərzağa xərclənməsi ölkədə yoxsulluq səviyyəsinin yüksək olmasını göstərir. Bu baxımdan ərzaq xərclərinə məsrəfin azalmasını müsbət qiymətləndirmək olar. Müqayisə edilən dövr ərzində kənd əha-

lisinin istehlak xərclərinin tərkibində ərzaq xərclərinin payı xüsusi çəki etibarı ilə azalsada mütləq rəqəmlə bu göstərici üzrə 104,6 manat artım baş vermişdir.

**Cədvəl 2.2.1 Azərbaycan Respublikasında kənd yerləri üzrə əhalinin istehlak xərcləri və onun quruluşu, ayda hər nəfərə,** *(yekuna görə faizlə və manatla)*

| | 2005 | | 2015 | | 2023 | | 2023-ci ildə 2005-ci ilə nisbətən | |
|---|---|---|---|---|---|---|---|---|
| | manat | % | manat | % | manat | % | | |
| İstehlak xərcləri, cəmi | 62,7 | 100 | 235.0 | 100 | 331,9 | 100 | 5,3 d. | - |
| ərzaq məhsullarına | 35,4 | 56,4 | 96.1 | 40.9 | 147,8 | 44,6 | 4,2 d. | -11,8 f.b. |
| Alkaqola | 0,5 | 0,8 | 1.3 | 0.5 | 1,8 | 0,6 | 3,6 d. | -0,2 f.b. |
| tütün məmulatına | 1,2 | 1,9 | 2.5 | 1.1 | 5,9 | 1,8 | 4,9 d. | -0,1 f.b. |
| paltar və ayaqqabıya | 4,2 | 6,7 | 15.7 | 6.7 | 19,2 | 5,8 | 4,6 d. | -0,9 f.b. |
| su, işıq, qaz və digər yanacaq növlərinə | 3,9 | 6,2 | 17.7 | 7.5 | 27,8 | 8,5 | 7,1 d. | +2,3 f.b. |
| ev əşyaları, məişət texnikası və evə gündəlik qulluga | 4,5 | 7,2 | 22.7 | 9.7 | 25,7 | 7,7 | 5,7 d. | +0,5 f.b. |
| səhiyyə xidmətlərinə | 2,0 | 3,2 | 11.8 | 5.0 | 16,6 | 5,0 | 8,3 d. | +1,8 f.b. |
| nəqliyyat xərcləri | 2,6 | 4,1 | 14.4 | 6.1 | 22,6 | 6,8 | 8,7 d. | +2,7 f.b. |
| rabitə xərcləri | 0,9 | 1,4 | 7.2 | 3.1 | 10,1 | 3,0 | 11,2 d. | +1,6 f.b. |
| istirahət və mədəniyyət xərcləri | 1,8 | 2,9 | 9.6 | 4.1 | 12,6 | 3,8 | 7 d. | +0,9 f.b. |
| təhsil xərcləri | 0,5 | 0,8 | 4.2 | 1.8 | 4,7 | 1,4 | 9,4 d. | +0,6 f.b. |
| mehmanxana, kafe, restoran və yeməkxanaya | 2,9 | 4,6 | 21.2 | 9.0 | 21,3 | 6,8 | 7,3 d. | +2,2 f.b. |
| digər mal və xidmətlərə | 2,2 | 3,5 | 10.6 | 4.5 | 15,5 | 4,8 | 7 d. | +1,3 f.b. |

Mənbə: http://www.stat.gov.az

Əhali gəlirlərinin böyük hissəsinin ərzaq məhsullarına xərclənməsinin səbəbi respublikada ərzaq məhsullarının, o cümlədən enerji daşıyıcılarının qiymətlərinin bahalaşması ilə də əlaqədar olmuşdur.

Dünya təcrübəsində istehlak xərclərinin tərkibində ərzaq xərclərinin payının yüksək olması anormal hesab edilir. "*Normal istehlak üçün ərzaq məhsullarına çəkilən xərclər əhali gəlirlərinin 1/3-ni təşkil etməlidir*" [78]. İnkişaf etmiş ölkələrdə bu prinsipə əməl olunur və əhali gəlirlərində ərzaq məhsullarına çəkilən xərclər digər xərclərdən az fərqlənir. Bu hər şeydən əvvəl bu ölkələrdə əhalinin tələbatlarından, istehlak mədəniyyətindən, regionun xüsusiyyətlərindən asılıdır. Həmçinin qeyd olunan ölkələrdə əhalinin gəlirləri də Azərbaycanla müqayisədə dəfələrlə yüksəkdir. Bazar iqtisadiyyatı yolu ilə inkişaf edən əksər MDB ölkələrində vəziyyət respublikamızdan az fəqlənir. Bu baxımdan Rusiyanın "RİA-Reytinq" agentliyinin hazırladığı *"Avropa ölkələrində ailələrin ərzaq xərcləri reytinqi"* maraqlıdır (Cədvəl 2.2.2).

Agentliyin 2018-ci ildə 40 ölkədən ibarət reytinq cədvəlinə görə Lüksemburq ərzağa ən az pul xərcləyən ölkələr arasında liderlik etmişdir. Reytinqdə ən sonuncu yeri Ukrayna tutur. Bu ölkədə əhalinin ərzağa çəkdikləri xərcin istehlak xərclərinin tərkibində xüsusi çəkisi 51%-dir. Ümumilikdə inkişaf etmiş ölkələrdə əhalinin ərzağa çəkdikləri xərc istirahət, əyləncə, restoran və kafelərə çəkdikləri xərclərdən çox deyil. Bəzi ölkələrdə məsələn, Portuqaliya, İngiltərə, İsveçrə və s. kimi ölkə-

[78] Титова, Н.Е. Уильям П. История экономических учений: Курс лекций. Москва, 1997, 288 с.

lərdə isə əksinə azdır. Riareytinqin ekspertlərinin fikrinə görə yüksək gəlirli və ərzaq məhsullarının qiymətləri yüksək olmayan ölkələrdə ailənin ərzaq xərclərinin payı 15%-dən çox deyil. Az gəlirli ailələrdə isə ailənin ərzağa çəkdiyi xərc 40-50% həcmində olur. Belə ölkələrdə ərzaq məhsullarının qiymətlərinin ona çəkilən xərclərin həcmində rolu böyükdür.

**Cədvəl 2.2.2 Bəzi ölkələrdə ailələrin istehlak xərclərinin tərkibində ərzağa çəkdikləri xərclərinin digər xərclərlə müqayisəsi,** *%-lə*

| reytinq | ölkələr | ərzaq xərcləri | alkoqollu içkilər | restoran, kafe, otel | istirahət və mədəniyyət |
|---|---|---|---|---|---|
| 1 | Lüksenburq | 8,7 | 1,3 | 8,3 | 6,9 |
| 3 | Ingiltərə | 10,0 | 2,0 | 9,0 | 13,0 |
| 6 | Norveç | 11,8 | 2,7 | 3,6 | 10,0 |
| 8 | Almaniya | 12,1 | 1,7 | 5,7 | 10,4 |
| 14 | Fransa | 13,4 | 3,8 | 7,4 | 8,1 |
| 21 | Türkiyə | 19,7 | 4,5 | 6,2 | 2,7 |
| 32 | Rusiya | 31,2 | 3,0 | 3,3 | 6,9 |
| 37 | Belarus | 38,2 | 3,0 | 2,5 | 6,9 |
| 38 | Moldova | 43,4 | 1,5 | 1,8 | 1,3 |
| 39 | Qazaxıstan | 46,0 | 1,8 | 3,5 | 1,9 |
| 40 | Ukrayna | 50,9 | 3,9 | 2,8 | 1,9 |

Mənbə: РИА Рейтинг. Расходы семей на еду в странах Европы рейтинг 2018 https://riarating.ru/infografika/20181218/630114347.html (17.02.2020)

Kənd əhalisinin istehlak xərclərinin quruluşunun təhlilinə əsasən, müqayisə edilən 2005-2023-cü illəri əhatə edən dövr ərzində, ərzaq xərclərinin xüsusi çəkisinin getdikcə azalması, kənd əhalisinin qeyri-ərzaq məhsullarından və xidmətlərdən istifadə etmə imkanlarını nisbətən genişləndirmişdir. Kommunal

xidmətlərə başqa sözlə, su, işıq, qaz və digər yanacaq növlərinə çəkilən xərclərin kənd əhalisinin istehlak xərclərinin tərkibində xüsusi çəkisi 6,2%-dən 8,5%-ə, mütləq rəqəmlə 3,9 manatdan 27,8 manata artmışdır. Bu göstərici üzrə xərclərin artması təkcə kommunal sahədə aparılan islahatlar, maliyyə nəzarətinin güclənməsi, o cümlədən əhalinin xidmət haqlarının ödənilməsində kart sisteminin tətbiqi ilə yanaşı kommunal haqların bahalaşması ilə də əlaqədar olmuşdur.

Əhalinin səhiyyə, təhsil və digər xidmət xərcləri sosial infrastruktur sahələrinin inkişafı ilə bilavasitə bağlıdır. *"Sosial infrastruktur (mənzil-kommunal təsərrüfatları, məişət xidməti, ticarət, yol-nəqliyyat, təhsil, səhiyyə və s.) müasir iqtisadi şəraitdə əhalinin tələbatının ödənilməsində tələb və təklif qanunu ilə tənzimlənməlidir"* [79]. Kənd yerlərində sosial infrastruktur sahələrindəki gerilik dövlət proqramlarında da öz əksini tapmışdır. Belə ki, 2003-2005-ci illər üçün yoxsulluğun azaldılması üzrə dövlət proqramında qeyd edilir ki *"kənd əhalisi hətta pul xərcləmək istəsə belə, əsas sanitariya, səhiyyə xidmətlərindən istifadə imkanlarına malik deyillər. Bu xidmətlərdən istifadə olunmaması bir tərəfdən həmin xidmətlərin qiymətləri ilə əlaqəlidirsə, digər tərəfdən infrastrukturun bərbad vəziyyətdə olması və təmir işlərinin aparılmaması ucbatından həmin xidmətlərin aşağı səviyyəyə düşməsi ilə izah olunur"* [80].

Hazırda sosial infrastruktura daxil olan səhiyyə və təhsil sistemi müasir iqtisadi şəraitdə pullu və pulsuz istiqamətlərdə

---

[79] Маршалл, А. Принципы экономической науки. Москва, 1993, 415 с.
[80] Yoxsulluğun Azaldılması və İqdisadi İnkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər). Azərbaycan Respublikası Prezidentinin 20 fevral 2003-cü iltarixli 854 nömrəliFərmanı ilə təsdiq edilmişdir. Bakı, 2003, 304 s.

inkişaf edir. Bazar münasibətləri şəraitində qeyri-istehsal sahələrinin əhaliyə pulsuz və güzəştli xidmətlər göstərməsi zəruriyyət kəsb edir. Kənd yerlərində məşğulluq səviyyəsinin və əhali gəlirlərinin aşağı olması səbəbindən əhalinin özəl sosial infrastruktur sahələrindən istifadə etmək imkanı şəhər yerləri ilə müqayisədə aşağıdır.

Son illər kənd əhalisinin istehlak xərclərinin tərkibində təhsil xərclərinin payının artması müşahidə olunur. Təhsil dövlət büdcəsinin xərclər hissəsində ən çox vəsait ayrılan maddələrindən biridir. Müasir şəraitdə həyat səviyyəsi yaxşılaşdıqca, ailə gəlirləri çoxaldıqca təhsil hər bir şəxsin mənəvi ehtiyaclarını ödəməyə yönəldilir. Daha doğrusu təhsilin maddi dəyərləri mənəvi dəyərlərə nisbətən zəif olur. Müqayisə edilən 2005-2023-cü illər ərzində kənd əhalisinin təhsil xərcləri 9,2 dəfə artaraq 0,5 manatdan 4,7 manata çatmışdır. Cəmi xərclərin tərkibində isə onun xüsusi çəkisi 0,8%-dən, 1,4%-ə yüksəlmişdir.

Ev təsərrüfatları üzrə müayinə materiallarının təhlilinə əsasən, kənd əhalisinin səhiyyə xərclərinin həcmində də artım baş vermişdir. Bu istiqamətdə kənd əhalisinin xərcləri 8 dəfə artaraq istehlak xərclərin tərkibində xüsusi çəkisi 3,2%-dən 5%-ə yüksəlmişdir. Kənd əhalisinin istehlak xərclərinin tərkibində səhiyyə xidmətlərinə sərf edilən xərclərin artması daha çox əhalinin sağlamlığının pisləşməsi, xəstələnmə hallarının artması ilə əlaqədar olmuşdur. Ekoloji, sanitar-gigiyenik sahədə mövcud problemlər, sosial-iqtisadi çətinliklərin səbəb olduğu stress, profilaktik tibbi xidmətlərin olmaması kimi problemlər əhalinin sağlamlığına mənfi təsir göstərir.

Müqayisə edilən 2005-2023-cü illər ərzində kənd əhalisinin geyimə çəkdikləri xərclərin xüsusi çəkisində cüzi dəyişiklik baş vermişdir, mütləq rəqəmlə bu göstərici üzrə çəkilən xərclərin həcmində 15 manat artım baş vermişdir.

Qeyd edək ki, həyat səviyyəsini qiymətləndirmək üçün ən mühüm meyarlardan biri istirahət xərcləridir. Çünki ərzaq və ya kommunal xərcləri hökmən ödəməli olduğun halda istirahət etmək daha çox maddi imkanla əlaqədardır. Müqayisə edilən dövr ərzində istirahət və mədəniyyət xərcləri 6,4 dəfə olmaqla 1,8 manatdan 12,6 manata artmışdır. Mehmanxana, kafe və restoran xidmətlərinə çəkilən xərclərin həcmində isə 18,4 manat artım baş verməklə cəmi xərclərin tərkibində payı 4,6%-dən 6,8%-ə yüksəlmişdir.

Kənd əhalisinin istehlak xərclərinin tərkibində nəqliyyat xərclərinin həcmi mütləq rəqəmlə 8,2 dəfə olmaqla 2,6 manatdan 22,6 manata artmışdır. Bu göstəricinin istehlak xərclərinin tərkibində xüsusi çəkisi 2,1faiz bəndi qədər artaraq 4,1%-dən 6,8%-ə yüksəlsədə, şəhər yerləri ilə müqayisədə geri qalmışdır ki, bu da şəhər yerlərində nəqliyyat sisteminin inkişaf səviyyəsinin aşağı olması ilə əlaqədardır. Qeyd edək ki, inkişaf etmiş ölkələrdə isə bu göstərici üzrə xərclərin həcmi daha böyükdür. Belə ki, cəmi xərclərin tərkibində nəqliyyat xərclərinin həcmi İsveçdə 19,0%, Yunanıstanda 13,0%, ABŞ-da 13,5%, Yaponiyada isə 10,0% təşkil edir.

Son dövrlər kənd yerlərində nəqliyyat xidmətlərinin inkişafı məqsədilə Dövlət Proqramlarına uyğun olaraq yol-nəqliyyat kompleksinin müxtəlif sahələrində o cümlədən, avtomobil, hava və su nəqliyyatı, dəmir yolu sahələrində infrastrukturun

yenilənməsi ilə bağlı işlər görülür, kənd yerlərində yeni avtomobil yolları çəkilir, bəziləri isə əsaslı təmir olunur. 2014-2018-ci illər üçün regionların sosial-iqtisadi inkişafı dövlət proqramının icrasının yekunlarına həsr olunmuş konfransında Prezident İlham Əliyev yeni yolların vacibliyindən bəhs edərək qeyd etmişdir ki, *yol olmadan bölgələr, o cümlədən turizm, sənaye sahələri inkişaf edə bilməz. Kənd təsərrüfatının inkişafı üçün də problemlər yaranar. Kənd yollarının tikintisinin geniş vüsət aldığı bölgələrdə daha sürətli inkişafın olduğunu müşahidə edirik. Son 14 il ərzində 12 min 300 kilometr yol çəkilmiş, 443 körpü tikilmişdir* [81].

Kənd əhalisinin istehlak xərclərinin quruluşunun təhlili müqayisə edilən dövr ərzində nəqliyyat xərcləri ilə yanaşı rabitə xərcləri üzrə də artım baş verdiyini göstərir. Bu göstərici üzrə xərclərin xüsusi çəkisi 1,4%-dən 3%-ə yüksəlmişdir. Son illər ölkənin rabitə sisteminin dünya standartları səviyyəsinə çatdırılması, müasir texnologiyaların tətbiqi, strateji əhəmiyyətli layihələrin həyata keçirilməsi istiqamətində zəruri tədbirlər görülmüşdür. Həyata keçirilən proqramlara uyğun olaraq, bu sahədə yerinə yetirilən geniş miqyaslı tədbirlərin icrası nəticəsində regionlarda yeni poçt şöbələri tikilmiş, yeni EATS-lər istismara verilmişdir. Son illərdə kənd yerlərində informasiya texnologiyalarından istifadəyə marağın artması, idarə və təşkilatlarda onlardan daha geniş istifadə edilməsinə imkan yaradır. Hazırda ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayan və inkişaf səviyyəsinə görə iqtisadiyyatın digər sahələri ilə

[81] Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisad inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransın materialları. https://azertag.az (10.01.2019).

müqayisədə daha qabarıq şəkildə nəzərə çarpan informasiya və rabitə xidmətlərinin yaxşılaşdırılması istiqamətində zəruri tədbirlərin görülməsi davam etdirilir.

Yuxarıda da qeyd etdiyimiz kimi əhalinin ərzaq məhsulları ilə təminatı onların gəlirləri ilə yanaşı, istehlak qiymətlərinin səviyyəsindən də asılıdır. *"İstənilən ölkədə istehlak qiymətlərinin səviyyəsi, hərəkəti iqtisadi, sosial və siyasi sahələrdə həyati əhəmiyyətli məsələyə çevrilir. Bu da qiymətlərin səviyyəsində baş verən dəyişikliklərin təhlilini tələb edir"* [82]. İnkişaf etmiş ölkələrdə ərzağa çəkilən xərclərin xüsusi çəkisi 25%-dən çox olmadığından həmin ölkələrdə ərzaq məhsullarının qiymətlərinin dəyişilməsi əhalinin həyat səviyyəsinə bir o qədər də təsir göstərmir.

Əhalinin yaşayışı üçün zəruri olan istehlak mallarının və müxtəlif xidmətlərin bahalaşması müasir dövrün ən böyük sosial çətinliklərindən biridir. İnflyasiyanın artımı əhali gəlirlərinin real dəyərini aşağı salır və əhalini gəlirlərinin çox hissəsini ərzağa xərcləməyə məcbur edir. Respublikada inflyasiyanın yaranmasına daha çox inhisarçılıq, qeyri-sağlam rəqabət, ölkənin pul-kredit sisteminin zəif olması, qiymət artımları səbəb olmuşdur. İstehlak qiymətlərində baş vermiş dəyişiklikləri 2.2.3 saylı cədvələ əsasən nəzərdən keçirsək görərik ki, müqayisə edilən dövr ərzində bütün mal və xidmətlər üzrə artım baş versə də daha çox artım ərzaq məhsulları üzrə olmuşdur.

---

[82] Məmmədov Q., (2002). Azərbaycanda torpaq islahatı hüquqi və elmi-ekoloji məsələlər. Bakı:  Elm, 410 s.

**Cədvəl 2.2.3 İstehlak qiymətləri indeksi,** *(əvvəlki ilə nisbətən, faizlə*

| *Mal və xidmətlər* | 2005 | 2010 | 2015 | 2020 | 2022 | 2023 | *2020-ci illə müqayisədə 2023-cü ildə f.b.* |
|---|---|---|---|---|---|---|---|
| *Cəmi mal və xidmətlər* | 109,6 | 105,7 | 104,0 | 102,8 | 113,9 | 108,8 | *6,0* |
| *Ərzaq məhsulları, içkilər, tütün* | 110,9 | 107,2 | 106,1 | 105,0 | 119,5 | 109,6 | *4,6* |
| *Qeyri ərzaq malları* | 105,4 | 102,3 | 103,8 | 101,3 | 108,6 | 108,4 | *7,1* |
| *Ödənişli xdmətlər* | 109,7 | 104,3 | 101,2 | 101,0 | 110,4 | 108,2 | *7,2* |

Mənbə: http://www.stat.gov.az

2005-2022-ci illəri əhatə edən dövr ərzində, istehlak qiymətləri indeksi ərzaq məhsulları üzrə 10,9%-dən 19,5%-ə, qeyri ərzaq məhsulları üzrə isə 5,4%-dən 8,6%-ə yüksəlmişdir. Ödənişli xidmətlər üzrə isə 2020-ci ilədək 8,7% azalma baş versə də sonrakı illərdə artma müşahidə olunur. Bu göstərici üzrə istehlak qiymətləri indeksində, 2020-2022-ci illər ərzində, 9,4% artım baş vermişdir. Statistik məlumatların təhlilinə əsasən 2023-cü ildə istehlak qiymətləri indeksi üzrə bir qədər azalma müşahidə edilir. Azalma cəmi mal və xidmətlər üzrə 5,1 f.b., ərzaq məhsulları üzrə 9,9 f.b., qeyri-ərzaq malları üzrə 0,2 f.b., ödənişli xidmətlər üzrə isə 2,2 f.b. olmuşdur ki, bunu da müsbət hal kimi qiymətləndirmək olar.

Kənd yerlərində istehlak xərclərinin quruluşunda ərzaq xərclərinin xüsusi çəkisinin yüksək olması ərzaq məhsullarının ildə hər nəfərə istehlakının təhlilini də zəruri edir (Cədvəl 2.2.4).

**Cədvəl 2.2.4 Kənd yerlərində ərzaq məhsullarının hər nəfərə istehlakı,** *ildə kq*

| ƏRZAQLAR | İSTEHLAK | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2015 | 2023 | MƏS | 2023-cü ildə 2005-ci ilə müqayisədə (çəki hesabı ilə) | MƏS və 2023-cü ildə faktiki istehlakın müqayisəsi, + artma; - azalma (çəki hesabı ilə) |
| Çörək və çörək məhsulları | 165,7 | 139.1 | 139,9 | 126,2 | -25,8 | +13,7 |
| Kartof | 50,0 | 72.3 | 76,7 | 50,7 | 26,7 | +26 |
| Tərəvəz və bostan bitkiləri | 78,9 | 106.6 | 111,6 | 97,0 | 32,7 | +14,6 |
| Ət və ət məhsulları | 28,4 | 33.6 | 35,5 | 31,5 | 7,1 | +4 |
| Balıq və balıq məhsulları | 6,6 | 7.2 | 8,2 | 7,7 | 1,6 | +0,5 |
| Südvə süd məhsulları,litr | 292,7 | 272.2 | 250,8 | 232,3 | -41,9 | +18,5 |
| Yumurta, ədəd | 126,8 | 158.1 | 164 | 153 | 37,2 | +11 |
| Meyvə, giləmeyvə | 55,3 | 77.7 | 83,5 | 46,0 | 28,2 | +37,5 |
| Qənd və qənnadı məhsulları | 34,6 | 30.0 | 32.2 | 17,4 | -2,4 | +14,8 |
| Bitki yağı və marqarin | 8,3 | 10.4 | 10,6 | 9,8 | 2,3 | +0,8 |

Mənbə: http://www.stat.gov.az

Məlumat üçün qeyd edək ki, *"Azərbaycan Respublikasında minimum istehlak səbətinin tərkibi Nazirlər Kabinetinin*

*2014-cü il 6 iyun tarixli 182 nömrəli qərarı ilə təsdiq edilmiş və aidiyyətli dövlət və qeyri-hökümət qurumları ilə birlikdə onun tərkibinin üç ildə bir dəfə yenidən müəyyənləşdirilməsi nəzərdə tutulmuşdur”* [83].

Təhlilə əsasən son illər kənd əhalisinin əksər ərzaq məhsulları üzrə istehlak göstəriciləri artmışdır. Belə ki, 2005-ci illə müqayisədə 2023-cü ildə kənd əhalisi 26,7 kq çox kartof, 32,7 kq çox tərəvəz və bostan bitkiləri, 7,1 kq çox ət və ət məhsulları, 37,2 ədəd çox yumurta, 28,2 kq çox meyvə və giləmeyvə, 2,3 kq çox bitki yağı və marqarin ərzaq məhsulu istehlak etmişdir. Kənd yerlərində çörək və çörək məhsullarının istehlakında 25,8 kq, süd və süd məhsullarının istehlakında 41,9 litr, qənd və qənnadı məhsullarının istehlakında isə 2,4 kq-a qədər azalma baş vermişdir. İnsanın sağlamlığında balıq məhsullarının istehlakı vacibdir. Bu məhsulların istehlakı üzrə cüzi artım baş vermişdir.

Minimum istehlak səbəti üzrə əsas növ ərzaq məhsullarının illik istehlak normları ilə kənd əhalisinin faktiki istehlakının müqayisəsindən görünür ki, kənd əhalisinin faktiki istehlakı MƏS-də nəzərdə tutulmuş normadan çox olmuşdur. Kənd əhalisinin istehlakında çörək və çörək məhsullarının xüsusi çəkisinin çox olması bir tərəfdən Azərbaycan xalqının qida mədəniyyətindən irəli gəlirsə, digər tərəfdəndə bu məhsulun qiymətinin digər ərzaq məhsullarının qiyməti ilə müqayisədə ucuz olması ilə əlaqədar olmuşdur. Daha faydalı

[83] Azərbaycan Respublikasında Minimum Ərzaq Səbətinin tərkibi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 182 saylı qərarı ilə təsdiq edilmişdir.

qidalanma üçün ərzaq istehlakında ət, yumurta, süd məhsulları, tərəvəzlərə üstünlük verilməsi məqsədə uyğundur.

Kənd əhalisinin istehlak xərclərinin tərkibində keyfiyyət dəyişikliklərinin qiymətləndirilməsi məqsədilə istehlak olunmuş ərzaq məhsullarının kimyəvi tərkibi və kaloriliyinin təhlili mühüm rol oynayır (Cədvəl 2.2.5).

**Cədvəl 2.2.5 Kənd yerlərində istehlak olunmuş ərzaq məhsullarının kimyəvi tərkibi və kaloriliyi** *(sutkada hərnəfərə)*

| | 2005 | 2015 | 2023 | 2005-ci ilə nisbətən 2023-cü ildə<br>+ artma;<br>- azalma |
|---|---|---|---|---|
| Zülallar, qram | 78.9 | 76.5 | 79,0 | +0,1 |
| Heyvan mənşəli zülallar, qram | 27.7 | 30.7 | 31,0 | +3,3 |
| Yağlar, qram | 67.0 | 77.5 | 78,8 | +11,8 |
| Heyvan mənşəli yağlar, qram | 37.6 | 39.2 | 39,5 | +1,9 |
| Karbohidratlar, qram | 494.3 | 460.5 | 482,3 | -12 |
| Heyvan mənşəli karbohidratlar, qram | 6.5 | 7.1 | 6,0 | -0,5 |
| Qidanın kaloriliyi, kkal | 2478.1 | 2969,3 | 3034,4 | +556,3 |
| Heyvan mənşəli kalorilər, kkal | 478.7 | 506.5 | 508,9 | +30,2 |

Mənbə: http://www.stat.gov.az

Ərzaq məhsullarının kimyəvi tərkibində heyvan mənşəli zülal və yağların artması qidanın kaloriliyinin yüksəlməsinə

əhəmiyyətli təsir göstərmişdir. Müqayisə edilən dövr ərzində kənd əhalisinin istehlakında yalnız karbohidratların həcmində 12 qram, heyvan mənşəli zülalların həcmində isə cüzi, 0,5 qram azalma baş vermişdir. Digər istehlak edilmiş ərzaq məhsullarının kimyəvi tərkibində isə artım müşahidə olunur.

Statistik məlumatların təhlili göstərir ki, kənd yerlərində əhalinin ərzaq məhsullarının istehlakında daha çox yer bitkiçilik məhsullarının payına düşür. Bitkiçilik məhsulları arasında taxıl məhsullarının istehlakından mənimsənilən enerjinin, başqa sözlə, karbohidratların həcmi daha çoxdur. Belə qidalanma kənd yerində əhalinin balanslı qidalanmadığını göstərir.

Beləliklə, təhlil göstərir ki, müqayisə edilən dövr ərzində kənd əhalisinin istehlak xərclərində ərzaq məhsullarına çəkilən xərclər yüksək xüsusi çəkiyə malik olmuşdur. Xidmətlərə çəkilən məsrəfin xüsusi çəkisinin aşağı olması bir tərəfdən əhalinin məcmu gəlirlərinin əsasən ərzağa olan ehtiyacları üçün kifayətləndirici olması ilə bağlıdırsa, digər tərəfdən kənd yerlərində xidmət sahələrinin yetərincə inkişaf etməməsi və qiymətlərin yüksək olması ilə əlaqədardır. Müşahidələr göstərir ki, müqayisə edilən dövr ərzində istehlak xərclərinin tərkibində təhsil xərclərinin böyük hissəsi fərdi ödənişlər hesabına reallaşdırılmışdır. Baxmayaraq ki, respublikada ödənişsiz təhsil sistemi mövcuddur, məktəblərdə yuxarı sinif şagirdlərinə əlavə məktəbdən kənar repititor xərclərini və xarici ölkələrdə öz hesabına təhsil alanların xərclərini də nəzərə alsaq, bu göstərici üzrə xərclərin statistikada göstərildiyindən daha yüksək olduğunu təsəvvür etmək olar.

Təhsillə yanaşı səhiyyə sistemində də ödənişli xidmətlərin həcminin genişlənməsi, özəl xəstəxanalarda xidmətin keyfiyyətinin yüksək olması və əhali arasında xəstələnmə hallarının çoxalması bu istiqamətdə çəkilən xərclərin artmasına səbəb olmuşdur. İstehlak xərclərinin tərkibində yer alan digər xərclərin payının azaldılması hesabına həm səhiyyə, həm də təhsillə bağlı fərdi xərclərin rəsmi statistik hesabatlarda əks olunduğundan daha çox olduğu qənaətindəyik.

## 2.3. Gəlir və istehlak xərclərinin quruluşunda regional fərqlər

Respublikamızın ərazisində sosial-iqtisadi sahələrin inkişafı ayrı-ayrı rayonlar arasında böyük fərqlərlə xarakterizə olunur, həmçinin də onlarda şəhər və kənd yerlərinin inkişaf səviyyələri də müxtəlif cür formalaşmışdır. Regionların sosial-iqtisadi inkişafındakı qeyri-bərabərlik daha çox regionun tarixi inkişaf xüsusiyyətləri, mədəni-məişət ənənələri, əhalinin məskunlaşma səviyyəsi, regionun sahə və ərazi quruluşu, təbii şərait və resurs potensialı kimi amillərlə bağlıdır. Məhsuldar qüvvələrin regionlar arsında qeyri-mütənasib paylanması da sosial-iqtisadi inkişaf səviyyəsində kəskin fərq yaratmışdır. Fərqə həmçinin iqtisadiyyatın, xüsisilə sənayenin, infrastruktur sahələrinin əsas hissəsinin Bakı şəhərində cəmləşməsi də təsir etmişdir ki, bu isə nəticədə paytaxtın rayonlara nisbətən daha sürətlə inkişaf etməsinə, regionlarda isə sosial-iqtisadi vəziyyətin ağırlaşmasına səbəb olmuşdur. Regionlarda kompleks inkişafa nail olmaq üçün kifayət qədər potensial olmasına

rəğmən imkanlardan heç də həmişə yetərincə istifadə olunmayıb. Bu səbəbdən regionların inkişaf səviyyəsi potensial imkanlardan xeyli geri qalır. *"Azərbaycanın bütün regionlarında istehsal olunan sənaye məhsulu Bakı ilə müqayisədə dəfələrlə azdır. Dövlət büdcəsinin gəlirlərinin formalaşmasında regionların payı aşağıdır. Həm birgə, həm də kiçik müəssisələrin az hissəsi regionlarda yerləşir"* [84. s.39-40]. Bakı və bölgələrdə əhali sayı, istehsal və gəlirlər üzrə də ciddi disproporsiyalar yaranmışdır. *"Bakıda ölkə əhalisinin təxminən beşdə biri yaşayır. Ölkədə məhsul buraxılışının isə üçdə ikisindən çoxu (69,4%) Bakının və yalnız 30,6%-i Naxçıvan MR-nın və digər bölgələrin payına düşür. İctimai əmək məhsuldarlığı ilə bağlı da vəziyyət eynidir"* [85].

Əhalinin həyat səviyyəsinin yüksəldiməsi regionların inkişafında kompleks siyasi yanaşmaları və səmərəli tədbirləri aktuallaşdırımışdır. Bu baxımdan regionların inkişafını özündə əks etdirən dövlət proqramları, gələcəyə baxış inkişaf konsepsiyası, strateji yol xəritələri əhəmiyyətlidir. Proqramlarının icrası ilə əhəmiyyətli nəticələr əldə edilsədə, regionların sosial-iqtisadi inkişafı ilə bağlı ciddi problemlər də qalmaqdadır. Bu isə iqtisadi baxımdan zəif inkişaf etmiş və əlverişsiz coğrafi şəraiti olan bölgələrin inkişafı üzrə xüsusi proqramların hazırlanmasını şərtləndirir. Hazırda bəzi rayonlar üzrə inkişaf

[84] Məsimli, Ə.Ə. Azərbaycanda regional inkişafın sürətləndirilməsi mexanizminin təkmilləşdirilməsi məsələləri. Bakı, 2009, 492 s.
[85] N.Müzəffərli (İmanov) və A.Muradov. Azərbaycanda regional iqtisadi inkişaf və diversifikasiya-2020. Bakı, 2021. 110 səh. Səh.39. https://economics.org.az/administrator/uploads/media/KITABN.MUZEFFERLIA.MURADOV.pdf

planları çərçıvəsində tədbirlər icra edilsə də regiona məxsus xüsusiyyətlər, imkan və problemlər nəzərə alınmaqla ayrılıqda bütün iqtisadi rayonlara məxsus inkişaf proqramının hazırlanması daha məqsədəuyğundur.

**Naxçıvan iqtisadi rayonunda əhalinin həyat səviyyəsi digər iqtisadi rayonlarla müqayisədə daha yüksəkdir**

Qeyd edək ki, iqtisadi rayonlar üzrə əhalinin həyat keyfiyyətinin qiyətləndirilməsində və regional fərqlərin ortaya çıxarılmasında Azərbaycanın iqtisadi rayonlarının Həyat Keyfiyyəti İndeksi son dərəcə əhəmiyyətlidir. İndeks üzrə nəticələrə görə həyat keyfiyyətinin ən yüksək olduğu bölgə Naxçıvan Muxtar Respublikasıdır. Belə ki, 2018-ci ildə 3,27, 2020-ci ildə isə 3,25 balla HKİ üzrə sıralamada liderdir. Bu iqisadi rayon 7 sub-indeksin 3-ü üzrə (Sağlamlıq, Təhlükəsizlik və Asudə vaxt imkanları) 1-ci, Ekologiya və Maddi rifah üzrə 2-ci, Təhsil sub-indeki üzrə 3-cü yerdə qərarlaşmışdır. Yeganə zəif nöqtəsi Ailə möhkəmliyidir (Cədvəl 2.3.1).

İqtisadiyyat İnstitutu tərəfindən iqtisadi rayonlarda iqtisadi inkişaf və diversifikasiya səviyyəsini qiymətləndirmək məqsədi ilə 2019-cu ildə İqtisadi İnkişaf və Difersifikasiya İndeksi (RİİDİ) hazırlanmışdır. *"İqtisadi inkişafın statik səviyyəsi (İİSS) və Sahəvi diversifikasiya (SD) sub-indekslərindən ibarət RİİDİ-nin nəticələrinə əsasən də Naxçıvan MR liderdir. Bu iqtisadi rayon İİSS sub-indeksi üzrə*

*2-ci, SD sub-indeksi üzrə isə 4-cü yerdə qərarlaşmışdır”* [86, s.75].

**Cədvəl 2.3.1 Naxçıvan iqtisadi rayonun Həyat Keyfiyyəti İndeksinin (HKİ) sub-indeksləri üzrə mövqeyi**

| Sub-indekslər | Sıralamada yeri | | Aldığı bal | | Sub-indeksin orta çəkisi | Sub-indekslər arası interval | |
|---|---|---|---|---|---|---|---|
| | 2018 | 2020 | 2018 | 2020 | % | 2018 | 2020 |
| Maddi rifah (MR) | 1 | 2-3 | 2,97 | 2,41 | 22 | 1,74-3,11 | 1,98-3,07 |
| Sağlamlıq (SL) | 1 | 1 | 3,42 | 3,63 | 17 | 2,36-3,97 | 2,85-4,04 |
| Təhsil (TS) | 3 | 3-4 | 2,55 | 2,27 | 18 | 1,61-3,48 | 1,78-2,72 |
| Təhlükəsizlik (THL) | 1 | 1 | 4,95 | 4,98 | 11 | 2,6-5,0 | 2,85-5,0 |
| Ailə möhkəmli (AM) | 6 | 4 | 3,68 | 3,76 | 14 | 1,78-4,83 | 1,37-4,65 |
| Ekologiya (EKO) | 2 | 2 | 3,65 | 3,45 | 11 | 2,31-4,44 | 2,42-4,23 |
| Asudə vaxt imkanı (AVİ) | 1 | 1 | 2,44 | 2,46 | 7 | 1,67-3,12 | 1,86-3,0 |

Mənbə*:*http://economics.com.az/images/fotos/Kitablar/HeyatKeyNazimAz.pdf və *https://economics.org.az//images/fotos/Kitablar/2022/heyatk2020.pdf əsasında hazırlanmışdır.*

---

[86] Müzəffərli (İmanov), N.və Muradov, A. Azərbaycanda regional iqtisadi inkişaf və diversifikasiya-2020. Bakı, 2021. 110 səh. https://economics.org.az/administrator/uploads/media/KITABN.MUZEFFERLIA.MURADOV.pdf

Qeyd edək ki, *İİSS* sub indeksi iqtisadiyyatın cari inkişaf səviyyəsini, *SD* sub-indeksi isə dayanıqlılıq dərəcəsini əks etdirir. Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonları reytinqə daxil edilməmişdir. Səbəb isə indeksin müəlliflərinin bu bölgələrin iqtisadi inkişaf və diversifikasiya səviyyələrini digər bölgələrlə "hələ ki" müqayisə etməyin doğru olmaması qənaətində olmalarıdır.

**İqtisadi rayonlarda əhalinin gəlirləri və istehlak xərcləri**

Azərbaycanda ev təsərrüfatları üzrə aparılmış müayinə materiallarının təhlili iqtisadi rayonlar üzrə əhalinin həyat səviyyəsi göstəriciləri üzrə fərqlərin olduğunu göstərir. Pul gəlirləri və isehlak xərcləri göstəriciləri üzrə həm Bakı və Abşeron-Xızı iqtisadi rayonu ilə ölkənin digər regionları arasında, həm də regionların öz aralarında kəskin fərqlər müşahidə olunur (Cədvəl 2.3.2).

**Cədvəl 2.3.2 İqtisadi rayonlar üzrə əhalinin gəlirləri və istehlak xərcləri, ayda hər nəfərə,** manatla

| | Gəlirlər | | Xərclər | |
|---|---|---|---|---|
| | 2022 | 2023 | 2022 | 2023 |
| Bakı şəhəri | 346,8 | 351,3 | 353,6 | 359,0 |
| Naxçıvan | 342,2 | 349,0 | 345,4 | 352,3 |
| Abşeron-Xızı | 341,8 | 361,9 | 349,6 | 354,2 |
| Dağlıq Şirvan | 303,3 | 327,5 | 341,7 | 346,7 |
| Gəncə-Daşkəsən | 337,3 | 350,6 | 344,7 | 358,1 |
| Qarabağ | 322,1 | 330,5 | 310,2 | 346,2 |
| Qazax-Tovuz | 305,7 | 317,5 | 307,3 | 328,5 |
| Quba-Xaçmaz | 313,9 | 347,3 | 342,0 | 355,1 |
| Lənkəran-Astara | 294,3 | 303,2 | 296,9 | 320,7 |
| Mərkəzi Aran | 309,4 | 327,9 | 327,0 | 341,0 |

| | | | | |
|---|---|---|---|---|
| Mil-Muğan | 287,8 | 303,6 | 291,4 | 314,3 |
| Şəki-Zaqatal | 310,3 | 334,5 | 312,0 | 343,8 |
| Şərqi Zəngəzur | 336,9 | 351,4 | 347,3 | 359,5 |
| Şirvan-Salyan | 319,0 | 320,9 | 310,1 | 324,3 |

Mənbə: http://www.stat.gov.az

Paytaxtda əhalinin həm pul gəlirləri, həm də istehlak xərcləri iqtisadi rayonlarla müqayisədə daha yüksəkdir. Bakı şəhəri və Abşeron-Xızı iqtisadi rayonundan sonra Naxçıvan iqtisadi rayonunda əhalinin həm pul gəlirləri, həm də istehlak xərclərinin həcmi respublikanın digər iqtisadi rayonları ilə müqayisədə daha çox olmuşdur. 2023-cü ildə Bakı şəhəri ilə müqayisədə Naxçıvan iqtisadi rayonunda əhalinin pul gəlirlərinin həcmi 2,3 manat, istehlak xərclərinin həcmi isə 6,7 manat az olmuşdur.

Əhalinin gəlirləri və istehlak xərclərinin ən az olduğu iqtisadi rayonlar Lənkəran-Astara və Mil-Muğan olmuşdur. Bu iqtisadi rayonlarda əhalinin pul gəlirlərinin həcmi paytaxtla müqayisədə müvafiq olaraq, 48,1 və 47,7 manat, istehlak xərclərinin həcmi isə müvafiq olaraq, 38,3 və 44,7 manat azdır.

İqtisadi rayonlar üzrə gəlirlərin quruluşunda fərq müşahidə olunur. Bütün iqtisadi rayonlar üzrə əhalinin pul gəlirlərinin tərkibində ən yüksək paya əmək gəlirləri, ən aşağı paya isə mülkiyyətdən gələn gəlirlər malik olmuşdur (Cədvəl 2.3.3).

**Cədvəl 2.3.3 2023-cü ildə iqtisadi rayonlar üzrə gəlirlərin quruluşu, ayda hər nəfərə**, %-lə

| | Əmək gəlirləri | Mülkiyyətdən gəlirlər | Alınmış cari transfertlər | Digər gəlirlər |
|---|---|---|---|---|
| *Bakı şəhəri* | *67,7* | *0,7* | *21,4* | *10,2* |
| Naxçıvan | 81,7 | 0,0 | 15,9 | 2,4 |
| Abşeron-Xızı | 73,6 | 0,3 | 19,6 | 6,5 |
| Dağlıq Şirvan | 75,6 | 0,2 | 21,5 | 2,7 |
| Gəncə-Daşkəsən | 68,9 | 0,2 | 21,2 | 9,7 |
| Qarabağ | 73,1 | 0,0 | 19,7 | 7,2 |
| Qazax-Tovuz | 70,5 | 0,0 | 20,9 | 8,6 |
| Quba-Xaçmaz | 70,4 | 0,1 | 19,6 | 9,9 |
| Lənkəran-Astara | 71,6 | 0,2 | 22,3 | 5,9 |
| Mərkəzi Aran | 71,2 | 0,3 | 19,8 | 8,7 |
| Mil-Muğan | 69,5 | 0,3 | 21,7 | 8,5 |
| Şəki-Zaqatal | 70,9 | 0,4 | 19,1 | 9,6 |
| Şərqi Zəngəzur | 69,5 | 0,5 | 21,5 | 8,5 |
| Şirvan-Salyan | 59,8 | 0,4 | 24,4 | 15,4 |
| *Ölkə* | *70,7* | *0,3* | *16,9* | *9,4* |

Mənbə: https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/evtes_2023.zip

Gəlirlərin tərkibində alınmış cari transfertlər əhəmiyyətli yer tutur. Bu göstərici üzrə payın ən az olduğu iqtisadi rayon Naxçıvan Muxtar Respublikası olmuşdur. Bu iqtisadi rayonda sözü gedən göstəricinin payı Bakı şəhəri ilə müqayisədə 5,5 f.b., ölkə ilə müqayisədə isə 1 f.b. az olmuşdur. Şirvan-Salyan iqtisadi rayonu alınmış cari transfertlərin gəlirlərin tərkibində payının ən çox olduğu bölgədir.

İqtisadi rayonlar üzrə istehlak xərclərinin quruluşunda da fərq izlənir. (Cədvəl 2.3.4).

**Cədvəl 2.3.4. 2023-cü ildə İqtisadi rayonlar üzrə istehlak xərclərinin quruluşu,** *%-lə*

| | Ərzaq xərcləri | Qeyri-ərzaq xərcləri | Xidmət xərcləri | Digər xərclər |
|---|---|---|---|---|
| *Bakı şəhəri* | *48,1* | *18,9* | *28,5* | *18,3* |
| Naxçıvan Muxtar Respublikası | 43,3 | 20,9 | 30,0 | 22,6 |
| Abşeron-Xızı iqtisadi rayonu | 44,2 | 22,5 | 28,1 | 19,3 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 47,3 | 19,8 | 22,9 | 19,2 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 44,7 | 20,4 | 30,1 | 18,8 |
| Qarabağ iqtisadi rayonu | 42,0 | 22,4 | 28,5 | 26,2 |
| Qazax-Tovuz iqtisadi rayonu | 47,5 | 19,4 | 27,3 | 21,3 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 45,1 | 22,2 | 28,8 | 16,4 |
| Lənkəran-Astara iqtisadi rayonu | 46,3 | 23,0 | 23,6 | 23,3 |
| Mərkəzi Aran iqtisadi rayonu | 45,5 | 22,9 | 27,8 | 15,5 |
| Mil-Muğan iqtisadi rayonu | 42,7 | 23,0 | 27,8 | 21,7 |
| Şəki-Zaqatal iqtisadi rayonu | 46,8 | 23,4 | 33,1 | 15,7 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 45,2 | 20,6 | 36,5 | 18,5 |
| Şirvan-Salyan iqtisadi rayonu | 47,0 | 24,6 | 31,0 | 14,0 |
| *Ölkə* | *46,7* | *21,4* | *27,4* | *5,0* |

Mənbə: http://www.stat.gov.az

Təhlil edilən 2023-cü ildə iqtisadi rayonlar üzrə istehlak xərclərinin tərkibində əsas yeri ərzaq xərcləri tutmuşdur. Ərzaq xərclərinin ən çox olduğu iqtisadi rayon Qazax-Tovuz

iqtisadi rayonu olmuşdur. İstehlak xərclərinin tərkibində qeyri-ərzaq xərclərinin ən az paya sahib olduğu iqtisadi rayon Qazax-Tovuz, ən çox paya sahib olduğu iqtisadi rayon isə Şirvan-Salyan iqtisadi rayonu olmuşdur. Xidmət xərclərinin payının ən çox olduğu region Şərqi Zəngəzur (36,5%), ən az olduğu region isə Dağlıq Şirvan iqtisadi rayonu olmuşdur.

Qeyd edək ki, 2021-ci ildə azad edilmiş ərazilərin ölkənin iqtisadiyyatına reinteqrasiyası, iqtisadi rayonlar üzrə planlaşdırmanın səmərəliliyinin yüksəldilməsi, iqtisadi idarəetmədə çevikliyin təmin olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü təsdiq edilmişdir. Bölgü yenidir və iqtisadi rayonlar üzrə yalnız 2022 və 2023-cü illər üçün mövcud olan statistik məlumatlarla gəlirlərin və istehlak xərclərinin quruluşunda baş vermiş dəyişiklikləri izləmək bir o qədər də əlverişli deyil. Düzdür fərq var, lakin il sayı az olduğundan qiymətləndirmə aparmaq bir o qədər də səmərəli deyil. Sözü gedən göstəricilərin quruluşunda baş vermiş keyfiyyət dəyişikliklərini görmək üçün iqtisadi rayonların əvvəlki bölgüsü üzrə müqayisəsini nəzərdən keçirsək görərik ki, *"2005-2018-ci illəri əhatə edən dövr ərzində bütün iqtisadi rayonlar üzrə istehlak xərclərinin tərkibində ərzaq xərcləri böyük paya sahib olsada bu istiqamətdə əhalinin xərcləri getdikcə azalmış, qeyri-ərzaq və xidmətlərə çəkilən xərclərin payında isə artım baş vermişdir. Yalnız Naxçıvan və Gəncə-Qazax iqtisadi rayonlarında qeyri-ərzaq xərclərinin xüsusi çəkisində bir qədər (müvafiq olaraq 1,4-1,6 faiz bənd) azalma baş vermişdir. Əvəzində isə xidmətə çəkilən xərclərin payında*

*müvafiq olaraq 15,2 və 9,7 faiz bənd qədər artım baş vermişdir. Bütün iqtisadi rayonlarda, müqayisə edilən 2005-2018-ci illərdə, gəlirlərin tərkibində əmək gəlirləri üstünlük təşkil etmiş və artmışdır"* [87].

**İqtisadi rayonlarda təhsil və səhiyyə**

Statistik məlumatlar son illər iqtisadi rayonlarda təhsil və səhiyyə xərclərinin payının artdığını göstərir. Dövlət büdcəsindən iqtisadi rayonlar üzrə təhsil və səhiyyəyə ayrılan xərclərin həcminin artmasına baxmayaraq ev təsərrüfatlarının bu istiqamətdə xərclərinin artım tempi daha yüksək olmuşdur. Statistik məlumatların təhlilinə əsasən 2018-ci ildə iqtisadi rayonlar arasında əhalinin istehlak xərclərinin tərkibində təhsil xərclərinin payı Abşeron iqtisadi rayonunda daha yüksək olmuşdur. Təhsil xərclərinin payı ən aşağı olan iqtisadi rayon isə Quba-Xaçmaz olmuşdur. Azərbaycanda Həyat Keyfiyyəti indeksinin ümumi təhsil, ali təhsil müəssisələrində təhsil alanlar və ali təhsil müəssisələrinə qəbul olanlar kimi alt indeks göstəricilərini ehtiva edən və iqtisadi rayonların Təhsil sub-indeksi üzrə sıralamasında da Abşeron iqtisadi rayonu liderdir. İndeksin mütəxəssislərinin qənaətincə isə buna səbəb Sumqayıt şəhərinin təhsil sahəsində yüksək göstəricilərə malik olmasıdır. Quba-Xaçmaz iqtisadi rayonu isə bu sub-indeks üzrə sıralamada sonuncu yerdə olmuşdur.

[87] Əliyeva, J.R. (2021). Dissertasiya işi. Azərbaycan Respublikasında kənd əhalisinin həyat səviyyəsi və onun keyfiyyətcə yaxşılaşdırılmasının əsas istiqamətləri.

İndeksin 2020-ci il üçün nəticələrinə əsasən sözü gedən sub-indeks üzrə Şəki-Zaqatala və Abşeron-Xızı iqtisadi rayonları 2,37 balla ilk yerləri paylaşırlar (Diaqram 2.3.1).

**Diaqram 2.3.1 İqtisadi rayonların Həyat keyfiyyəti indeksinin təhsil sub-indeksi və sağlamlıq sub-indeksi üzrə nəticəsi, 2020-ci ildə**




Mənbə: Həyat keyfiyyəti indeksi, 2020. https://economics.org.az//images/fotos/Kitablar/2022/heyatk2020.pdf

Bir qədər aşağı nəticə ilə Naxçıvan Muxtar Respublikası 3-cü yerdə qərarlaşmışdır. Sub-indeks üzrə ən aşağı nəticə Lənkəran-Astara iqtisadi rayonunda izlənir.

Sağlamlıq həyat səviyyəsinə təsir edən vacib sosial amillərdəndir və HKİ üzrə araşdırmalarda da bu sub-indeksə 17% olmaqla üçüncü ən yüksək çəki verilmişdir. Doğulanda gözlənilən ömür müddəti, xəstəxana çarpayılarının sayı,

ambulator-poliklinik müəssisələrin sayı, həkimlərin sayı, körpə və ana ölümü əmsalı komponentlərini özündə ehtiva edən Sağlamlıq sub-indeksi üzrə ən yüksək göstəriciyə Naxçıvan iqtisadi rayonu, ən aşağı göstəriciyə isə Mil-Muğan iqtisadi rayonu sahib olmuşdur. Bir qədər fərqlə Qazax-Tovuz və Abşeron-Xızı iqtisadi rayonları 2 və 3-cü yerləri paylaşırlar. 2018-ci ilin nəticələrinə əsasən Naxçıvan və Qazax-Tovuz iqtisadi rayonları, müvafiq olaraq reytinq üzrə sıralamada, 1 və 2-ci yerdə qərarlaşmışlar.

Qeyd edək ki, regionlarda məşğulluq sahəsində regional iqtisadi əlaqələrin genişləndirilməsi, məşğulluq səviyyəsinin artırılması, təklif edilən işçi qüvvəsi və iş yerlərinin sayı arasında tarazlığın təmin edilməsi istiqamətində tədbirlər həyata keçirilməkdədir. Tədbirlərin ardıcıl olaraq həyata keçirilməsi nəticəsində rayonlarda yeni iş yerləri açılmış, müvafiq olaraq, əhalinin iş yerləri ilə təminatı istiqamətində nəticələr əldə edilmişdir. İqtisadi rayonlar üzrə yeni açılmış iş yerlərinin sayını xarakterizə edən 2.3.4 saylı cədvəl məlumatlarına əsasən iqtisadi rayonlarda açılmış yeni iş yerlərinin sayı müxtəlif olmuşdur. 2022-ci ildə yeni iş yerlərinin 80%-dən çoxu Bakı şəhərində açılmışdır. Regionlarda isə bu göstərici üzrə nisbətən yüksək paya 3,4%-lə Abşeron-Xızı, 2,6%-lə Quba-Xaçmaz, 2,5%-lə Şəki-Zaqatala iqtisadi rayonları sahib olmuşdur.

**Cədvəl 2.3.4. 2022-ci ildə iqtisadi rayonlar üzrə hüquqi şəxslərdə yeni açılmış iş yerlərinin sayı**

| İqtisadi rayonlar | Yeni iş yerlərinin sayı, cəmi | Yeni yaradılmış fərdi sahibkarlıq subyektlərinin sayı |
|---|---|---|
| *Bakı şəhəri* | *57136* | *26381* |
| Naxşıvan Muxtar Respublikası | 407 | 3146 |
| Abşeron-Xızı iqtisadi rayonu | 2388 | 6004 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 547 | 2402 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 1177 | 7221 |
| Qarabağ iqtisadi rayonu | 905 | 6386 |
| Qazax-Tovuz iqtisadi rayonu | 892 | 10818 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 1877 | 6655 |
| Lənkəran-Astara iqtisadi rayonu | 947 | 12304 |
| Mərkəzi Aran iqtisadi rayonu | 862 | 8842 |
| Mil-Muğan iqtisadi rayonu | 668 | 5243 |
| Şəki-Zaqatal iqtisadi rayonu | 1816 | 8836 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 223 | 620 |
| Şirvan-Salyan iqtisadi rayonu | 1435 | 5590 |
| *Ölkə* | 71280 | 110448 |

Mənbə: Azərbaycanın regionlar, 2023. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/regions_2023.zip

Yeni yaradılmış fərdi sahibkarlıq subyektlərinin sayı üzrə ən yüksək paya Bakı şəhərindən sonra 11,1%-lə Lənkəran-Astara iqtisadi rayonu, 9,8%-lə Qazax Tovuz iqtisadi rayonu, 8%-lə Mərkəzi Aran iqtisadi rayonu sahib olmuşdur. İqtisadi rayonlarda yaradılan yeni iş yerlərinin əksəriyyəti mövcud müəssisə və təşkilatlarda və yeni yaradılmış müəssisə və təşkilatlarda olmuşdur.

Göründüyü kimi məşğulluqla bağlı müəyyən nəticələr əldə olunsada yetərli deyil. Regionlarda kiçik və orta

sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, əlverişli biznes mühitinin yaradılması, sənaye sahələrinin inkişafı, kənd təsərrüfatında sahibkarlar arasında kooperasiya münasibətlərinin gücləndirilməsi mühüm əhəmiyyət daşıyır.

Qeyd edək ki, regionların sosial-iqtisadi inkşafında paytaxtda yerləşən bəzi universitetlərin regionlara köçürülməsi əhəmiyyətli rol oynaya bilər. Dünyanın əksər ölkələrində böyük və çox kontingentli universitetlər təkcə paytaxtda deyil regionlarda da fəaliyyət göstərir. Bu, maliyyə vəsaiti, maddi-texniki baza, çox sayda təşkilati və texniki məsələlərin həllini tələb etsədə paytaxta sıxlığın azaldılması ilə yanaşı, regionlarda yaşayan əhali üçün yeni imkanlar yarada bilər.

İqtisadi rayonlarının dayanıqlı inkişafını təmin etmək üçün sənəd hazırlayarkən regional fərqliliklər nəzərə alınmalıdır. Hər bir regionun imkan və potensialı nəzərə alınmaqla, regionun ehtiyaclarına cavab verən və davamlı inkişafı təşviq edən məqsədyönlü tədbirlərin həyata keçirilməsi zəruridir.

# III FƏSİL. AZƏRBAYCANDA KƏND ƏHALİSİNİN HƏYAT SƏVİYYƏSİNƏ TƏSİR GÖSTƏRƏN SOSİAL-DEMOQRAFİK AMİLLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

## 3.1. Kənd yerlərində demoqrafik dəyişikliklər

Bütün dünyada, xüsusilə inkişaf etmiş ölkələrdə sənayeləşmə urbanizasiya prosesini sürətləndirdi. Sənayeləşmiş ölkələrdə kənd əhalisinin sayı azalır, şəhər əhalisinin sayı isə artır. Dünya Bankının məlumatlarına əsasən hazırda dünya əhalisinin 44%-i kənd yerlərində yaşayır (Diaqram 3.1.1).

**Diaqram 3.1.1. Dünya əhalisinin tərkibində kənd əhalisinin payı,** *%*




Mənbə: World Bank Open Data. https://data.worldbank.org/indicator/SP.RUR.TOTL.ZG

1980-ci ildə isə kənd əhalisinin payı 61% təşkil etmişdir. *“2050-ci ilədək dünyada şəhər əhalisinin sayının 2011-ci ildəki 3,6 milyarddan artaraq 6,3 milyarda çatacağı, kənd əhalisinin isə 2021-ci ildəki 3,4 milyarddan azalaraq 3,05 milyarda düşəcəyi proqnozlaşdırılır. Başqa sözlə əhalinin 72%-i şəhərlərdə yaşayacaq”* [88].

Hazırda bütün sahələrdə olduğu kimi, əhalinin demoqrafik davranışlarında da qloballaşma prosesi getməkdədir. Dünyanın demək olar ki, bütün bölgələrində, o cümlədən Azərbaycanda əhalinin döğum səviyyəsi durmadan aşağı düşməkdə davam edir. Bu proses ölkəmizdə kənd yerlərində də özünü biruzə verir [89].

Dünyada kənd yerlərində məskunlaşmış əhalinin təxminən 60-67%-i aşağı gəlirli və aşağı orta gəlirli ölkələrdə yaşayır (Diaqram 3.1.2). Bu səbəblə kənd yerlərinin inkişafı, bu ərazilərdə yaşayan əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması vacib məsələdir. Yüksək gəlirli ölkələrdə isə təxminən əhalinin 1/5 hissəsinin kənd yerlərində məskunlaşması kənd yerlərinin inkişafını bu ölkələr üçün də vacib edir.

---

[88] World Urbanization Prospects The 2011 Revision. Department of Economic and Social Affairs Population Division. United Nations New York, 2012 https://www.un.org/en/development/desa/population/publications/pdf/urbanization/WUP2011_Report.pdf

[89] Muradov, Ş.M., Baxış, Ç.Ə. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar. Bakı, 2013, 135 səh.

**Diaqram 3.1.2. Gəlir səviyyəsinə görə ölkələrdə kənd əhalisinin ümumi əhalinin tərkibində payı,** *2020-ci il, %*




Mənbə: United Nations. World Social Report 2021 Reconsidering Rural Development. https://www.un.org/development/desa/dspd/wp-content/uploads/sites/22/2021/05/OVERVIEW_WSR2021.pdf

**Kənd yerlərində əhalinin demoqrafik davranışı**

Azərbaycanda kənd yerlərində demoqrafik vəziyyət və həyat səviyyəsi özünəməxsus xüsusiyyətlərlə fərqlənir. Kənd əhalisinin həyat səviyyəsi və sosial təminatı şəhər yerləri ilə müqayisədə aşağı olsa da təbii artımı yüksəkdir.

Müqayisə edilən 1920-2023-cü illər ərzində kənd əhalinin sayı 3 dəfəyədək artaraq 4599,9 min nəfərə, şəhər əhalisinin sayı isə 14 dəfəyədək artaraq 5527,2 min nəfərə çatmışdır (Cədvəl 3.1.1).

**Cədvəl 3.1.1 Azərbaycanda yaşayış yerləri üzrə əhalinin sayının dəyişməsi,** *min nəfər*

| İllər | Kənd | Şəhər | Əhalinin ümumi sayına nisbətən %-lə | |
|---|---|---|---|---|
| | | | Kənd | Şəhər |
| 1920 | 1546,4 | 405,8 | 79,2 | 20,8 |
| 1930 | 1818,6 | 750,9 | 70,8 | 29,2 |
| 1940 | 2062,0 | 1212,0 | 63,0 | 37,0 |
| 1950 | 1606,6 | 1252,3 | 56,2 | 43,8 |
| 1968 | 2444,6 | 2442,9 | 50 | 50,0 |
| 2000 | 3925,5 | 4107,3 | 48,9 | 51,1 |
| 2010 | 4222,7 | 4774,9 | 46,9 | 53,1 |
| 2020 | 4497,2 | 5476,8 | 45,1 | 54,9 |
| 2021 | 4531,7 | 5494,4 | 45,2 | 54,8 |
| 2022 | 4560,8 | 5502,5 | 45,3 | 54,7 |
| 2023 | 4599,9 | 5527,2 | 45,4 | 54,6 |

Mənbə: ARDSK. Azərbaycanın demoqrafik göstəriciləri. Bakı, 2024. https://www.stat.gov.az/

1968-ci ilə qədər ölkə əhalisinin böyük hissəsi kənd yerlərində məskunlaşsada sonrakı illərdə azalmağa başlamışdır. Bu dövdə "*kənd yerlərində əhalinin sayının artması bir tərəfdən kənd təsərrüfatında kəndli (fermer) təsərrüfatlarının inkişafı ilə əlaqədar idisə, digər tərəfdən şəhər yerlərində sənaye müəssisələrinin əksəriyyətinin tam gücü ilə işləməməsi və nəticədə işsizliyin artması ilə əlaqədar olmuşdur*" [90, s.203]. Əhalinin şəhər yerlərində məskunlaşmağa üstünlük verməsinin müxtəlif səbəbləri var. Bura şəhər yerlərinin kənd yerləri ilə müqayisədə sosial-iqtisadi baxımdan daha yaxşı inkişaf etməsi, xidmət və əyləncə

[90] S.Mehbalıyev, R.İsgəndərov Əmək bazarı və əhalinin sosial müdafiəsi. Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2002. 544 səh.

imkanlarının çox olması kimi üstünlüklərin olması aid edilə bilər. 2020-ci ildən etibarən yenidən kənd əhalisinin xüsusi çəkisində cüzi artım müşahidə edilir. 2023-cü ildə əhalinin 54,6%-i şəhərlərdə, 45,4%-i isə kənd yerlərində yaşamışdır. Kənd əhalisinin cins üzrə bölgüsünə əsasən 2417,1 min nəfəri kişi, 2370,8 min nəfəri isə qadın olmuşdur.

Statistik məlumatların təhlili yaşayış yerləri üzrə beynəlxalq miqrasiya ilə bağlı dəyişikliklər baş verdiyini göstərir. Son illər ölkəyə daimi yaşamaq üçün gələnlərin sayında artım müşahidə olunur. 2022-ci ildə ölkədə 1,8 min nəfər miqrasiya artımı baş vermişdir ki, bunun da 1,1 min nəfəri kənd yerlərinin payına düşür [91]. Kənd yerlərinə daimi yaşayış üçün miqrasiya edənlərin sayının çoxalmasını həyata keçirilən proqramlar əsasında regionların sosial-iqtisadi inkişafı ilə bağlı dəyişikliklərlə də əlaqələndirmək olar. Yaşayış yerləri üzrə beynəlxalq miqrasiya artımının müqayisəsinə əsasən 2021-ci ildə şəhər yerlərində (1,6 min nəfər) miqrasiya artımı kənd yerləri ilə (0,2 min nəfər) müqayisədə çox olsa da, ondan əvvəlki illərdə əksinə olmuşdur. Həm ölkədən daimi yaşamaq üçün gedənlər, həm də gələnlər arasında əsas yaş qrupları üzrə əmək qabiliyyətli yaşda olanların sayı, digər yaş qrupları ilə müqayisədə, üstünlük təşkil edir. Cins tərkibinə görə 2022-ci ildə şəhər yerlərində ölkədən həm gedənlər, həm də gələnlər arasında qadınların sayı çox olmuşdur. Kənd yerlərində isə gələnlər

[91] Azərbaycanın demoqrafik göstəriciləri, (2023). https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/demoqraphy_2023.zip

arasında qadınlar çoxluq təşkil etsədə, gedənlər arasında kişilər çoxluq təşkil etmişdir.

Kənd yerlərində yaşamağın bir çox üstünlükləri var. Daha aşağı yaşayış xərcləri, ekoloji təmiz məhsullarla qidalanma imkanı, sakit mühit, daima təbiətlə sıx təmas, daha az ekoloji çirklənmə və s. buna misal göstərmək olar. Bununla belə, iş imkanlarının az olması, zəif infrastruktur (enerji, nəqliyyat, informasiya və kommunikasiya şəbəkələri), səhiyyə və təhsil kimi ictimai xidmətlərlə aşağı təmin olunma, kommersiya xidmətlərinin, istirahət və əyləncə məkanların sayının az olması kənd yerləri üçün xarakterikdir. Həmçinin kənd yerlərində mövcud istehsal imkanları bütün əmək resurslarından səmərəli istifadəyə imkan vermir. Sosial-iqtisadi vəziyyətdəki geriliklər respublikamızda kənd əhalisinin müəyyən hissəsinin, xüsusilə də gənclərin, əsas etibarı ilə Bakıya üz tutmasına səbəb olur. Tənzimləyici tədbir olaraq əhalinin kənddə qalmasını motivə edən addımların atılması, kənd yerlərində sosial-iqtisadi inkişafa nail olunma, yeni iş yerlərinin yaradılması, məşğulluq imkanlarının artırılması tövsiyə edilir.

Statistik məlumatların təhlilinə əsasən son illərdə kənd yerlərində əhalinin təbii artım göstəricisi üzrə artıb-azalma baş vermişdir. (Cədvəl 3.1.2). 2000-ci ildə təbii artım 44 min nəfərdən 2015-ci ildə 60 min nəfərədək artsada, sonrakı illərdə isə azalaraq 2021-ci ildə 26,8 min nəfərə düşmüşdür. Son illərdə təbii artım üzrə yenidən artım müşahidə olunmaqdadır, belə ki, 2022-ci ildə bu göstərici 36,7 min nəfər, 2023-cü ildə isə 31,8 min nəfər təşkil etmişdir. Təbii artımın azalması ölüm

və boşanma saylarının artması, nikah və doğumların azalması ilə əlaqədardır. Təbii artımın azalmasına Covid 19 pandemiyası əhəmiyyətli təsir göstərmişdir. Müqayisə edilən 2000-2023-cü illər ərzində əhalinin hər min nəfərinə ölənlərin sayının ən çox olduğu dövr 2020-ci və 2021-ci illərdə olmaqla müvafiq olaraq 7,4 və 7 nəfər təşkil etmişdir.

**Cədvəl 3.1.2. Azərbaycanda kənd yerlərində əhalinin təbii artımı**

| illər | nəfər | | | əhalinin hər min nəfərinə | | |
|---|---|---|---|---|---|---|
| | **təbii artım** | **doğulanların sayı** | **ölənlərin sayı** | **təbii artım** | **doğulanların sayı** | **ölənlərin sayı** |
| **2000** | 44192 | 67363 | 23171 | 11,3 | 17,3 | 6,0 |
| **2005** | 52924 | 77539 | 24615 | 13,3 | 19,5 | 6,2 |
| **2010** | 58680 | 83891 | 25211 | 14,0 | 20,0 | 6,0 |
| **2015** | 59992 | 85061 | 25069 | 13,4 | 19,0 | 5,6 |
| **2019** | 47115 | 72514 | 25399 | 10,1 | 15,5 | 5,4 |
| **2020** | 31458 | 65056 | 33598 | 7,0 | 14,4 | 7,4 |
| **2021** | 26824 | 58519 | 31695 | 5,9 | 12,9 | 7,0 |
| **2022** | 36654 | 63177 | 26523 | 8,0 | 13,8 | 5,8 |
| **2023** | 31776 | 58170 | 26394 | 6,9 | 12,6 | 5,7 |

Mənbə: ARDSK. Azərbaycanın demoqrafik göstəriciləri. Bakı, 2023. https://www.stat.gov.az/

Uzun illər kənd yerlərində çox uşaqlı ailələrin sayı çox olsa da son illər daha az uşaq sayına üstünlük verilməkdədir. Çox uşaqlı ailələrin sayının azalması isə ailənin xərclərinin artması, uşaqlara yönələn məsrəflərin ev təsərrüftaları büdcəsində çox yer tutması ilə əlaqədardır. Bu isə uşaqlara dövlət qayğısının artırılmasını zəruri edir. Digər tərəfdən isə bu, gənclər arasında ailə planlaşdırılması ilə əlaqədardır. Gənc

ailədə doğulacaq uşaqların sayının ailənin büdcəsinə uyğunlaşdırılmasını isə müsbət hal kimi qiymətləndirmək olar. Qeyd edək ki, son illər gənc xanımlar arasında karyera qurmaq istəyənlərin və ailəyə maddi dəstək olmaq istəyənlərin sayı artmaqadır. Bu amil də ailədə doğulacaq uşaqların sayına təsir göstərir. *"Müasir xanım karyera inkişafına mane törədəcəyi halda ikinci uşağın doğulmasından imtina edir. Üçüncü uşağın doğulmasından isə söhbət gedə bilməz"* [92, s. 41].

Nəsilvermə əmsalı nəzərə çarpacaq dərəcədə azalmışdır (Diaqram 3.1.2). Qeyd edək ki, ümumi nəsilvermə (fertillik) əmsalı reproduktiv dövr ərzində bir qadının orta hesabla dünyaya neçə uşaq gətirə bildiyini göstərir. Azalma bütün yaşayış yerləri üzrə müşahidə olunsa da kənd yerlərində daha çoxdur. Sözü gedən göstərici 2000-ci illə müqayisədə 2023-cü ildə kənd yerlərində müvafiq olaraq 2,2-dən azalaraq 1,8-ə, şəhər yerləri üzrə isə 1,6-dan azalaraq 1,4-ə düşmüşdür. Ümumi nəsilvermə əmsalının pisləşməsinə boşanmaların artması, yaşayış şəraitindəki çətinliklər səbəb olmuşdur. Səbəblər arasında həmçinin qız uşaqlarına görə abortların sayının artması da yer alır. "*Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə fərq qoyulur və daha çox oğlan uşaqlarına üstünlük verilir. Bu nisbətin ciddi şəkildə pozulması davam edərsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayının qız uşaqlarının sayından 12000-15000 nəfər çox olacağı guman edilir*" [93]. Son illər doğulan

---

[92] Həyat sosiologiyası 2. İ.R.Məmmədzadənin elmi redaktəsi ilə. Bakı, Avropa nəşriyyatı, 2018, 146 s.

[93] UNFPA Azerbaijan, (2014). Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulmasına zəmin yaradan mexanizmlər: keyfiyyət və kəmiyyət əsaslı tədqiqat.

uşaqlar arasında cinsə görə fərq qoylmasına münasibət bir qədər dəyişsədə lakin hələ də ailədə oğlan uşaqlarına üstünlük verənlərin sayı az deyil.

Nəsilvermə əmsalı üzrə azalma dünya üzrə də müşahidə olunmaqdadır. Belə ki, Dünya Bankının məlumatlarına əsasən bu göstərici 2000-ci ildə 2,7-dən azalaraq 2021-ci ildə 2,3-ə düşmüşdür.

**Diaqram 3.1.2 Yaşayış yerləri üzrə ümumi nəsil vermə əmsalı**




Mənbə: ARDSK. Azərbaycanın  demoqrafik göstəriciləri. Bakı, 2024. https://www.stat.gov.az/

Məlumdur ki, erkən nikah qızların təhsildən yayınmasına səbəb olur. Hamiləlik və doğuş zamanı fəsadların yaranma riskini artırır. UNİCEF erkən nikahları bütün dünyada qızların həyatını, rifahını və gələcəyini təhdid edən vəziyyət kimi dəyərləndirir. Təşkilatın məlumatlarına əsasən dünyada təxminən hər beş qızdan biri erkən ərə verilir. *“Erkən nikahların səbəbləri ölkələr və mədəniyyətlər üzrə fərqli olsa*

---

https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/GBSS_Azerbaijan_AZ.pdf

*da yoxsulluq, təhsil imkanlarının olmaması və səhiyyə xidmətlərinə məhdud çıxış əsas səbəblərdir. Bəzi ailələr iqtisadi yükünü azaltmaq və ya gəlir əldə etmək üçün qızlarını evləndirdikləri halda, bəziləri bunu qızların gələcəyini təmin edəcəyinə və qoruyacağına inandıqları üçün edirlər”* [94].

BMT-nin Əhali Fondunun məlumatlarına əsasən *“inkişaf etməkdə olan ölkələrdə hər gün 18 yaşına çatmamış 20 min qız uşaq dünyaya gətirir. Bu, ildə 7,3 milyon uşaq deməkdir. Erkən hamiləlik isə qızların təhsildən uzaqlaşmasına və iş perspektivlərinin azalmasına səbəb ola bilir. Beləliklədə o, yoxsulluğa daha həssas olur və onun sağlamlığı təhlükə altına düşür. Hamiləlik və doğuşdan yaranan ağırlaşmalar yeniyetmə qızlar arasında ölümün əsas səbəbidir. Yeniyetmələrin hamiləliyi çox zaman onların seçiminin nəticəsi deyil, bu qızlar çox zaman həyatları ilə bağlı verilən qərarlar üzərində söz haqqına sahib deyillər. Əksinə, erkən hamiləlik məktəbə, informasiyaya və ya səhiyyə xidmətinə əlçatanlığın zəif olması və ya heç olmaması ilə əlaqədardır. Həmçinin dünyanın hər bir regionunda, o cümlədən yüksək gəlirli ölkələrdə kənd yerlərində yaşayan qızlar arasında, şəhər yerləri ilə müqayisədə hamilə qalma riski daha yüksəkdir”*[95]. Erkən nikah və yeniyetmə hamiləliyi təkcə ana və körpəsi üçün deyil bütünlükdə cəmiyyət üçün mənfi təsiri olan problemdir. Bu cür gənc ana nəinki cəmiyyətin inkişafına töhvə verə bilmir, əksinə ailəsi ilə birlikdə cəmiyyətin yükünün artmasına səbəb olur.

---

[94] UNİCEF. Child marriage. https://www.unicef.org/protection/child-marriage
[95] United Nations Population Fund. https://www.unfpa.org/adolescent-pregnancy#readmore-expand

Qeyd edək ki, erkən nikahların qarşısının alınması BMT-nin Dayanıqlı İnkişaf gündəliyində əsas məqsədlərdən biri kimi qarşıya qoyulmuşdur.

*“Son 5 il ərzində dünyada erkən nikaha daxil olan 18 yaşadək qızların sayı 10 faiz azalmışdır. Bununla belə COVİD-19 pandemiyası dövründə iqtisadi sarsıntılar, məktəblərin bağlanması və sosial çətinliklər səbəbindən bu risk qrupuna daxil olan qızların sayında artım baş vermiş və 2021-ci ildə erkən nikah bağlayan qızların xüsusi çəkisi 20 faizə yüksəlmişdir. Erkən nikahlar daha çox sub-Saxara Afrikasında və Cənubi Asiyada qeydə alınmışdır. Bu regionda uşaq yaşlarında nikaha daxil olan qızların xüsusi çəkisi müvafiq olaraq 35 və 28% təşkil etmişdir”* [96]. Azyaşlıların hamiləliyi ciddi sağlamlıq, sosial və iqtisadi nəticələri olan qlobal bir hadisədir. Statistik məlumatlar qlobal miqyasda yeniyetmə doğumlarının sayının azaldığını göstərsə də bu vəziyyət regionlara görə dəyişir. Yeniyetmə hamiləliyi daha aşağı təhsil səviyyəsi və ya iqtisadi statusu olan əhali arasında daha çox rast gəlinir.

Qeyd edək ki, Azərbaycan əhalisində tarixən erkən nikahlar xarakterik olmuşdur. Demoqraf alim professor Ş.Muradov qeyd edir ki, respublikamızın cənub və şimal rayonlarında, xüsusilə də onların kəndlərində qızların 15-16 yaşında, hətta, 13-14 yaşlarında ərə verilməsi halları sanki ənənə halını almışdır. “*Bəzi regionlarda, xüsusilə kənd yerlərində bu cür nikahlar və həmin nikahlardan doğulan*

[96] Azərbaycan Respublikasının dövlət statistika komitəsi. Dayanıqlı İnkişaf Məqsədləri. Bakı, 2022. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/DIM_stat_2022.zip

*uşaqlar bir çox hallarda cəmiyyətdən və rəsmi dövlət orqanlarından gizli saxlanılmış və bu da sonda həmin ailələr üçün ciddi problemlərə və ailədaxili münaqişələrə səbəb olurdu"*[ 97, s.222]. 1967-ci ildən etibarən qızların nikaha daxil olma yaşının 16 yaşdan 18 yaşa qaldırılmasını alim, qızların ərə getməkdən və uşağa baxmaqdan əvvəl öz vaxtlarını təhsil almalarına, xüsusi peşə və ixtisasa sahib olmalarına və özlərinin mədəni-texniki səviyyələrinin yüksəldilmələrinə sərf etmələrinə şərait yaratması baxımından olduqca müsbət hal kimi qiymətləndirir.

Bununla belə hələ də respublikamızda kənd yerlərində erkən yaşda ana olanların sayı az deyil (Cədvəl 3.1.4).

**Cədvəl 3.1.4 Kənd yerlərində ananın yaşına görə yaş qrupları üzrə diri doğulanların sayı,** *nəfər*

| Illər | 15-17 | 18-19 | 20-24 | 25-29 | 30-34 | 35-39 | 40-44 | 45-49 | 50-dən yuxarı |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2000 | 1210 | 6078 | 26172 | 17835 | 10392 | 4506 | 1082 | 75 | 13 |
| 2005 | 1750 | 8248 | 33819 | 19995 | 8507 | 3948 | 1154 | 107 | 11 |
| 2010 | 2640 | 10792 | 37995 | 20542 | 7985 | 3016 | 845 | 68 | 8 |
| 2015 | 1892 | 10231 | 38053 | 22055 | 9117 | 2986 | 659 | 55 | 13 |
| 2020 | 1299 | 7120 | 25782 | 18614 | 8762 | 2831 | 569 | 60 | 19 |
| 2021 | 1156 | 5481 | 21805 | 17308 | 9147 | 2953 | 584 | 62 | 23 |
| 2022 | 1373 | 7340 | 24111 | 17344 | 9067 | 3193 | 609 | 115 | 25 |
| 2023 | 1157 | 6903 | 21786 | 15562 | 8660 | 3254 | 693 | 114 | 41 |

Mənbə: ARDSK. Azərbaycanın demoqrafik göstəriciləri. Bakı, 2022. https://www.stat.gov.az/source/demoqraphy/az/003_1.xls

97 Muradov, Ş.M. Azərbaycan Respublikasının demoqrafik inkişafı: tarixi dəyişikliklər, yeni meyllər, problemlər (1828-2020-ci illər). Bakı, 2021.

Müqayisə edilən 2000-2023-cü illər ərzində kənd yerlərində 20 yaşınadək ana olanların sayı 2010-cu ildə ən yüksək həddə olmuşdur. Sonrakı illərdə bu göstərici üzrə bir qədər azalma müşahidə edilməkdədir. 2021-ci ildə doğulan 58519 uşaqdan 6637-nin və ya 11,3%-nin anasının yaşı 20-dən aşağı olmuşdur. 2022-ci ildə isə həm ümumilikdə doğulan uşaqların, həm də erkən yaşda qadınlar tərəfindən dünyaya gətirilən uşaqların sayında artım baş vermişdir. Bu ildə doğulan 63177 uşaqdan 8713 nəfərinin və ya 13,8%-nin anası az yaşlı olmuşdur. 2023-cü ildə isə ümumilikdə doğulan uşaqların sayında təkrar azalma baş vermişdir. Əvvəlki illərlə müqayisədə onların sayı azalaraq 58170-ə düşmüşdür. Bu ildə doğulan uşaqlardan 2%-i 15-17 yaşlı, 11,9%-i isə 18-19 yaşlı qadınlar tərəfindən dünyaya gətirilmişdir.

Kənd yerlərində ən çox uşaq 20-29 yaşlı qadınlar tərəfindən dünyaya gətirilib. 2023-cü ildə doğulan uşaqlardan 21786 nəfərinin va ya 37,4%-nin anasının yaşı 20-24, 15562 nəfərinin və ya 26,7%-nin anasının yaşı isə 25-29 aralığında olub. Diri doğulan 8660 və ya 14,9% uşaq isə yaşı 30-34 aralığında olan qadınlar tərəfindən dünyaya gətirilmişdir. Statistik məlumatların təhlili göstərir ki, tədqiq edilən dövrdə kənd yerlərində əhalinin təbii təkrar istehsalının təmin edilməsində 20-34 yaşlı qadınlar həlledici rol oynamışdır. Həmçinin, 50 və yuxarı yaşda olan qadınlar tərəfindən dünyaya uşaq gətirilməsi halları artıb. Kənd yerlərində bu yaşda olan qadınlar tərəfindən 2000-ci ildə 13 uşaq dünyaya gətirilmişdirsə, 2023-cü ildə bu rəqəm 41 olmuşdur. 50 və yuxarı yaşda olan qadınlar tərəfindən doğulan uşaqların sayı

şəhər yerlərində də artmışdır. Şəhər yerlərində bu yaşda olan qadınlar tərəfindən 2023-cü ildə 58 uşaq dünyaya gətirilib. 2022-ci ildə bu rəqəm 23, 2021-ci ildə isə 41 olmuşdur.

"Nikahdankənar doğuşlar" doğum zamanı qanuni nikahı olmayan qadınları nəzərdə tutur. Bura subay və ya partnyoru ilə birgə yaşayan anaların doğumu daxildir. "*İƏİT ölkələrində təqribən doğumların 42%-i nikahdan kənar baş verir. İƏİT-nin 13 ölkəsində (Belçika, Danimarka, Estoniya, Frasa, İslandiya, Meksika, Hollandiya, Portuqaliya, Sloveniya və Norveç) uşaqların 50%-dən çoxu nikahdan kənar doğulur. Bu göstərici Meksikada 70%, Kosta-Rikada 73%, Çilidə isə 75%-dir. İsrail, Yaponiya, Koreya və Türkiyə kimi İƏİT ölkələrində isə əksinə, uşaqların 10%-ə qədəri nikahdan kənar doğulur. Son onilliklərdə bütün İƏİT ölkələrində nikahdan kənar doğulan uşaqların nisbəti artmışdır"* [98]. Məsələ burasındadır ki, vətəndaş nikahı bütün Aİ ölkələrində rəsmi nikah kimi hüquqi statusa malikdir. Həmçinin, evliliyə dair milli qaydalar Avropa Birliyinə daxil olan ölkələrdə bir-birindən fərqlənir. Belə ki, bəzi ölkələrdə dini nikah vətəndaş nikahına bərabər, bəzilərində isə qeyri-bərabər hesab edilir [99]. İnkişaf etmiş ölkələrdə əhalinin, xüsusilə də gənclərin rəsmi nigaha girməyə, ailə qurmağa maraqları getdikcə

[98] OECD. Family Database. https://www.oecd.org/els/family/SF_2_4_Share_births_outside_marriage.pdf
[99] An official website of the European Union. https://europa.eu/youreurope/citizens/family/couple/marriage/index_en.htm

azalmaqdadır. Bu gənclər daha çox sərbəst olmağa, azad fikirə üstünlük verməkdədirlər [100, s.91].

Azərbaycanda dövlət yalnız rəsmi nikahı tanısa da, dini və vətəndaş nikahında yaşayanlar da vardır. Həmçinin vətəndaş nikahı ilə yaşayanlara cəmiyyətimizdə münasibət birmənalı deyil. Dini ənənəçiliyin geniş yayıldığı bəzi regionlarda yaşayanlar dini kəbinlə kifayətlənirlər. Bəzi hallarda kənd yerlərində evlilik zamanı qızların yaşının rəsmi nikah yaşına çatmaması səbəbindən nikahın qeydə alınması ya gecikir, ya ümumiyyətlə vacib hesab edilmir, ya da dini nikahla kifayətlənildiyindən qeydə alınmayan nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayının çox olması ilə nəticələnir. Statistik məlumatların təhlili rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayında azalma baş verdiyini göstərsədə, bu  problem hələ də qalmaqdadır. Bununla bağlı maarifləndirmə işlərinə ehtiyac var.

Kənd yerlərində rəsmi qeydə alınmayan nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayında azalma baş versə də şəhər yerləri ilə müqayisədə üstünlük təşkil edir (Qrafik 3.1.1).

---

[100] Salmanova N.Ə., (2013). Azərbaycanda ailə-nikah münasibətlərinin inkişafı. Bakı: Avropa,178 s.

**Qrafik 3.1.1 Kənd yerlərində rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı, nəfər**




Mənbə: ARDSK. Azərbaycanın demoqrafik göstəriciləri. Bakı, 2024. https://www.stat.gov.az/

2023-cü ildə ölkə üzrə nikahdan kənar doğulan 15622 uşağın 9603 nəfəri və ya 62%-ə qədəri kənd yerlərinin payına düşür. Həmin ildə kənd yerlərində rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların payı dünyaya gəlmiş körpələrin ümumi sayının 16,5%-ni təşkil etmişdir. 2022-ci ildə isə bu rəqəm 18,4% təşkil etmişdir.

Şəhər yerlərində isə rəsmi qeydə alınmayan nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı 7184 nəfər və ya 38% təşkil etmişdir. Bakı şəhərində qeyri-qanuni nikahdan doğulan uşaqların sayı 2010 nəfər təşkil etmişdir.

**Kənd yerlərində nikah və boşanmalar**

Kənd yerlərində demoqrafik vəziyyətin təhlili nikah və boşanmaların sayı göstəriciləri üzrə baş vermiş dəyişikliklərin də araşdırılmasını zəruri edir. *“Nikah, boşanma və ailənin inkişafı əsas demoqrafik göstəricilərlə (əhalinin doğum, ölüm, təbii artımı, yaş və cins quruluşu) yanaşı, ölkədə sosial-*

*iqtisadi şəraitdən, mövcud adət və ənənələrdən də çox asılıdır"* [101]. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən nikaha daxil olma yaş həddi hər iki cins üzrə 18 yaş müəyyən edilmişdir. Respublikamızda ailə və nikah hüquqları Azərbaycan Respublikasının Ailə Məcəlləsində öz əksini tapmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının "Nikah hüququ" adlı 34-cü maddəsinə uyğun olaraq *"nikah qarşılıqlı razılıq əsasında bağlanılır, nikah dövlətin himayəsi altındadır, ər və arvadın hüquqları bərabərdir"* [102].

Sosial Tərəqqi İndeksinin "şəxsi azadlıq və seçim" adlı alt-indeksinin göstəricilərindən biri olan erkən nikah göstəricisi üzrə təhlilə əsasən *"dünya ölkələri içərisində ən az erkən nikahların olduğu ölkə Şimali Koreyadır, ən çox erkən nikahların olduğu ölkə isə Nigeriyadır. Bu göstərici üzrə ölkəmizin mövqeyi bəzi qonşu ölkələrlə (Gürcüstan, İran) müqayisədə yaxşı olsa da vəziyyəti qənaətbəxş deyil"* [103].

Müqayisə edilən 2000-2023-cü illər ərzində ölkəmizdə nikah və boşanmalar üzrə bütövlükdə bəzi enib-qalxmalarla artım baş verdiyini müşahidə etmək mümkündür (Diaqram 3.1.3).

---

[101] Muradov, Ş. Azərbaycan Respublikasının demoqrafik inkişafı: tarixi dəyişikliklər, yeni meyllər, problemlər (1828-2020-ci illər). Bakı, 2021.
[102] Azərbaycan Respublikasının Konstitusiyası https://www.e-qanun.az/framework/897
[103] AMEA İqtisadiyyat İnstitutu. Sosial Tərəqqi İndeksi-2020: Azərbaycanın mövqeyinin yaxşılaşdırılması. Kollektiv monoqrafiya. Bakı, 2021.

**Diaqram 3.1.3 Kənd yerlərində rəsmi qeydə alınan nikah və boşanmaların sayı,** nəfər




Mənbə:ARDSK. Azərbaycanın demoqrafik göstəriciləri. Bakı, 2022. https://www.stat.gov.az/source/demoqraphy/az/006_1.xls

Bağlanılan nikahların sayı 19617-dən 25342-ə qədər artmışdır. Ən çox nikah 2010-cu ildə (37580 nikah) bağlanılmışdır. Nikahın dinamikasına Covid-19 pandemiyası da təsir etmişdir. Belə ki, pandemiya ərzində şənlik mərasimlərinin qadağan olunması, yaşayış yerinin tərk edilməsinə qoyulan məhdudiyyətlər əhali arasında bağlanılması planlaşdırılan nikahların əksəriyyətinin təxirə salınmasına və 2020-ci ildə nikahların sayının kəskin azalmasına təsir göstərmişdir. Həmin dövrdə kənd yerlərində 17034 nikah rəsmi qeydə alınmışdır. Kənd yerlərində müqayisə edilən 2000-2023-cü illər ərzində boşanmaların sayında da artım baş vermişdir. Bu göstərici üzrə 6 dəfə artım baş verməklə onun sayı 1146-dan artaraq 6848-ə çatmışdır.

Boşanmanın səbəbləri çoxfaktorludur, həmçinin ölkə və regionlar üzrə fərqlənir. Varlı və kasıb ölkələrdə də boşanma

səbəbləri bir-birindən fərqlənir. Boşanma səviyyəsinin az olmasına din, nikahın pozulması ilə bağlı qanunlar, boşanmış əhali üçün sosial dəstək və məşğulluq imkanlarının olmaması kimi amillər təsir göstərir.

Boşanmaların yüksək olmasına təsir edən amillər də var. Bəzi ölkələrdə bu amil boşanma prosesinin sürətli və ucuz olması ilə əlaqədardırsa, bəzi ölkələrdə isə qadınların təhsilli olması, maliyyə azadlığına malik olması ilə əlaqədardır. Boşanmaların ən çox yayılmış səbəbləri xəyanət, erkən yaşda ailə qurmaq, maddi çətinlik, narkotik maddələrdən asılılıq, məişət zorakılığıdır. Ümumiyyətlə boşanmaların səbəbləri iqtisadi, sosial, sosial-bioloji, demoqrafik və psixoloji amillər olmaqla təsnifləşdirilir. *"Ölkəmizdə boşanma ailənin quruluşu və funksiyalarında baş verən dəyişikliklər, xüsusən qadınların təhsil və məşğulluq səviyyəsinin yüksəlməsi və iqtisadi cəhətdən müstəqil olması nəticəsində ailədaxili münasibətlərin təkmilləşdirilməsinə, tələbatın çoxalmasına və evliliyin get-gedə daha çox məhəbbətə, qarşılıqlı münasibətlərə və marağa əsaslanması ilə əlaqədardır"* [104]. Həmçinin cəmiyyət tərəfindən boşanmalara olan münasibətdə dəyişilmişdir. Bununla belə son illər bu göstəricinin dinamikasında müşahidə edilən artım narahatlıq doğuracaq hal kimi nəzərdən keçirilir.

Beləliklə, uzun müddətli dövr üzrə, bütün dünyada olduğu kimi, ölkəmizdə də kənd yerlərində yaşayanların payında azalma müşahidə olunur. Təhlil kənd yerlərində nəsilvermə dinamikasının və təbii artımın azalma meylli

---

[104] Ş.Muradov. Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu: əsas demoqrafik və etno-demoqrafik göstəricilər (1897-2007-ci illər). Bakı, Elm, 2008. Səh 122. https://www.azstat.org/Kitweb/zipfiles/00579.pdf

olduğunu göstərir. Kənd yerlərində ən çox uşaq 20-29 yaşlı qadınlar tərəfindən dünyaya gətirilsədə, son illər 20 yaşadək qadınlar tərəfindən doğulan uşaqların sayında artım baş vermişdir. Nikah və boşanmalar üzrə bütövlükdə bəzi enib-qalxmalarla artım baş vermişdir. Nikahın azalmasına Covid-19 pandemiyası təsir etmişdir.

## 3.2. Kənd yerlərində keyfiyyətli təhsilin təmin edilməsi

Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında, sosial-iqtisadi inkişafın əldə edilməsində təhsilin rolu danılmazdır. *"Dünya təcrübəsindən məlum olduğu kimi, sivilizasiyalı cəmiyyətin formalaşmasında elmin və elmi kadrların son dərəcə əhəmiyyətli rolu olmuşdur. Məhz onların əməyi nəticəsində ağır əl əməyi avtomatlaşdırılmış, əməyin məhsuldarlığı yüksəlmiş, insanların həyat tərzində köklü dəyişikliklər baş vermişdir"* [105, s.157].

**Kənd yerlərində əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında təhsilin rolu**

Təhsil cəmiyyətin sosial-iqtisadi inkişafında mühüm rol oynayır, kənd yerlərində isə onun əhəmiyyəti xüsusilə vurğulanmalıdır. Təhsil kənd əhalisinə potensiallarını reallaşdırmaq, gəlir əldə etmə imkanının genişləndirilməsi üçün lazım olan bacarıq və bilikləri verir.

[105] Muradov, A.N. Elmi-texniki potensial: əsas inkişaf meylləri və problemləri. Bakı, 2005. 321 s.

*“Kənd yerlərində təhsilin keyfiyyəti və əlçatanlığı bacarıqlardakı boşluqların aradan qaldırılmasında ikiqat rol oynayır. Uşaqların erkən yaşlarından başlayaraq yüksək keyfiyyətli təhsil və qayğıyla təmin olunmaları gələcəkdə təhsildə və əmək bazarında nəticələrin yüksəldilməsinə kömək edə bilər. Kənd yerlərində yüksək keyfiyyətli təhsilə çıxış yerli iqtisadi inkişafa töhvə vermək, kəndlərin sürətlə dəyişən mühitə uyğunlaşması baxımından əhəmiyyətlidir. Bu ictimai xidmətlərə çıxış həmçinin yüksək ixtisaslı işçilərin yetişməsində və kəndlərin cəlbediciliyinin atmasında vacib faktordur”* [106]. İxtisaslı əmək növü ilə məşğul insanın özünü və ailəsini təmin etmə səviyyəsi digərləri ilə müqayisədə daha yüksək olur. ARDSK-nin ev təsərrüfatları üzrə müayinə materiallarının təhlili göstərir ki, başçısı ali təhsilli ev təsərrüfatlarının pul gəlirləri başçısı ibtidai və ondan aşağı təhsilli olanlarla müqayisədə daha yüksəkdir. Müvafiq olaraq eyni nəticəni ev təsərrüfatı başçısının təhsilinə görə onların istehlak xərclərini müqayisə etdikdə də görmək mümkündür. Statistik məlumatların təhlilinə əsasən 2023-cü ildə başçısı ibtidai təhsilli olan ev təsərrüfatlarının gəlirləri 315 manat olmuşdur ki, bu da ali təhsillilərlə müqayisədə 69 manat azdır. Başçısı ibtidai təhsilli olan ev təsərrüfatlarının gəlirlərinin böyük hissəsini alınmış cari transfertlər təşkil edir. Başqa sözlə cari transfertlər aşağı təhsilli ev təsərrüfatlarının gəlirlərinin tərkibində 31,2% paya sahibdir ki, bu da onların dövlətdən asılılığının yüksək olduğunu göstərir.

---

[106] Education at a Glance 2023. OECD Indicators https://www.oecd-ilibrary.org/sites/5ff868c8-en/index.html?itemId=/content/component/5ff868c8-en#section-d1e7854 (21.01.2024)

Təhsil, bilik çox xərc tələb etsədə yüksək və uzunmüddətli gəlir gətirmək imkanına malikdir. "*Təsadüfi deyil ki, inkişaf etmiş ölkələrin əksəriyyəti biliyin istehsalına və yayılmasına birbaşa və dolayısı ilə öz ÜDM-nin təxminən 1/5-ni sərf edirlər. Dünya təcrübəsi göstərir ki, təhsil təkcə ölkənin sosial, iqtisadi və mədəni inkişafında deyil, həmçinin onun təhlükəsizliyi və davamlı inkişafında, məşğulluğun təmin olunmasında və yoxsulluğun azaldılmasında da əhəmiyyətli yer tutur*" [107, s.151-152].

**Təhsilin inkişafı dövlətin sosial siyasətinin əsası kimi**

Ölkədə, eləcədə kənd yerlərində təhsilin keyfiyyətinin yüksəldilməsi dövlətin diqqətindədir. Son illər qəbul edilmiş proqramlar çərçivəsində respublikada təhsilin inkişafı ilə bağlı bir sıra tədbirlər görülmüş və görülməkdədir.

Kənd yerlərində təhsil ocaqlarının tikintisinə, köhnə binaların isə təmir-bərpa işlərinə, maddi-texniki bazasının müasir tələblərə uyğun qurulmasına xüsusi diqqət yetirilir. Təhsilə əlçatanlığının təmini məqsədilə ucqar və əhalisinin sayı az olan kəndlərdə, qəzalı vəziyyətdə olan, təmir və ya yenidən tikintisi uzun müddət tələb edən məktəblərin yerinə modul tipli məktəblər quraşdırılır. 2022-ci ildə bu məqsədlə ölkə prezidentinin sərəncamı ilə *"ölkənin müxtəlif rayonlarında 15 modul tipli məktəbin quraşdırılmasına 5 milyon manat vəsait ayrılmışdır"* [108]

[107] Abdullayeva, R. Muradov, A. Sosial sferanın iqtisadiyyatı. Bakı, 2009. 237 s.
[108] AR Prezidentinin "Azərbaycan Respublikasında modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi haqqında" Sərəncamı. 19.09.2022-ci ildə imzalanmışdır. https://e-qanun.az/framework/52437

Son illər  büdcə xərclərinin tərkibində təhsilə ayrılan xərclərin artdığını müşahidə etmək mümkündür. Diaqram 3.2.1-in məlumatlarından göründüyü kimi təhsil xərclərinin payı 2023-cü ildə 2015-ci ilə nisbətən 2,6 dəfəyədək artmışdır. 2023-cü ildə dövlət büdcəsinin xərclərinin tərkibində təhsil xərclərinün payı 11,3% təşkil etmişdir. 2022-ci ildə bu pay 11,5%, 2020-ci ildə isə 10,5% təşkil etmişdir.  Müsbət tendensiyanın təhsil sahəsi üzrə OAƏH göstəricisi üzrə də müşahidə edildiyinə baxmayaraq təhsil üzrə OAƏH respublikada iqtisadi fəaliyyət növləri üzrə OAƏH ilə müqayisədə çox aşağıdır.

**Diaqram 3.2.1 Azərbaycanda təhsilə ayrılmış büdcə xərclərinin dinamikası,** *mln manat*




Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/

Dünya Bankının məlumatlarına əsasən, respublikamızla müqayisədə inkişaf etmiş ölkələrdə təhsilə ayrılan xərclərin ÜDM-də payı daha yüksəkdir. Həmçinin bu ölkələrdə ÜDM-in həcmi də respublikamızla müqayisədə yüksəkdir. Yuxarı

gəlirli ölkələrdə təhsil xərclərinin ÜDM-də payı 5%-dən az deyil. Xüsusən İsveç, Norveç, ABŞ kimi ölkələrdə bu göstərici daha yüksəkdir. Az gəlirli ölkələrdə isə bu göstəricinin payı 3%-ə qədər olur. Azərbaycanda təhsilə çəkilən xərclərin ÜDM-də payı orta gəlirli olkələr səviyyəsindədir. Respublikamız bu göstərici üzrə qonşu ölkələrdən, o cümlədən Rusiya, Türkiyə, Gürcüstan, İran və Ermənistandan irəlidədir.

2030-cu ilədək milli prioritetlər sırasında ölkədə rəqabətli insan kapitalının formalaşdırılması məqsədi də yer alır. İnsan kapitalının milli sərvətdə iştirak payının davamlı olaraq artırılmasına isə təhsillə nail oluna bilər. Bu isə öz növbəsində kompetensiya, bacarıq və sosial vərdişlərin vəhdətinə əsaslanan "ömürboyu təhsil"i zəruri edir. Sözü gedən prioritetə nail olunması istiqamətində ölkədə *"bütövlükdə təhsil sistemində modernləşməyə nail olunması, bu sahədə islahatların dərinləşməsi, inteqrativ tədris təcrübəsinin inkişafı, rəqəmsal bacarıqlara əsaslanan yeni ixtisaslar və peşələr öyrədilməsi, kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması"* nəzərdə tutulub [109].

Qeyd edək ki, hazırda beynəlxalq səviyyədə ölkələrin təhsil səviyyəsini təhlil və müqayisə etmək üçün PİSA (Programme for İnternational Student Assessment) Beynəlxalq Şagird Qiymətləndirmə Proqramı üzrə aparılan tədqiqatların nəticələrindən geniş istifadə olunur. Tədqiqat İƏİT tərəfindən 3 ildən bir aparılır və 15 yaşlı şagirdlərin bilik və bacarıqlarını qiymətləndirir. 2022-ci ildə ölkəmiz Azərbaycan dilində oxu-

[109] Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. https://president.az/az/articles/view/50474

yub anlamaq üzrə orta göstərici 365, riyaziyyat üzrə 397, təbiət elmləri sahəsində isə 380 balla 81 ölkə arasında 56-cı yerdə qərarlaşmışdır ki, bu da 2018-ci ilin nəticələri ilə müqayisədə nisbətən geridir. Tədqiqatda yalnız Bakı şəhərində yerləşən məktəb şagirdləri iştirak etdiyindən regionlar üzrə qiymətləndirmədə tədqiqatın nəticələrindən istifadə etmək olmur. Lakin qeyd etmək yerinə düşərdiki, paytaxt məktəbləri ölkə üzrə müqayisədə daha keyfiyyətli təhsil vermək gücünə malikdirlər. Region məktəblərində isə təhsilin keyfiyyəti daha aşağıdır. Region məktəblərinin Qiymətləndirmə Proqramına cəlb ediləcəyi təqdirdə ölkəmizin mövqeyi bir qədərdə aşağı olacaqdı.

**Kənd yerlərində təhsillə bağlı problemlər və onların həlli**

Uşaqların əqli, fiziki və yaradıcı potensialının, mədəni səviyyəsinin, psixoloji dayanaqlılığının və sağlamlığının inkişafında, şəxsiyyətinin formalaşmasında məktəbəqədər təhsilin rolu böyükdür.

Statistik materialların təhlilinə əsasən kənd yerlərində təhsilin ilkin pilləsi olan məktəbəqədər təhsillə təmin olunma səviyyəsi çox aşağıdır. Müqayisə edilən 2015-2023-cü illər ərzində onların sayı 747-dən 724-ə, bu təhsil müəssisələrində uşaqların sayı isə 31,5 min nəfərdən 26 min nəfərə düşmüşdür (Cədvəl 3.2.1).

Qeyd edək ki, kənd yerlərində məktəbəqədər təhsilə cəlb olunma səviyyəsinin aşağı olması dövlət sənədlərində də öz əksini tapıb.

**Cədvəl 3.2.1 Azərbaycanda kənd yerlərində əyani ümumi təhsil və məktəbəqədər təhsil müəssisələri və orada uşaqların sayında baş vermiş dəyişikliklər**

| | 2005 | | 2015 | | 2023 | | 2015-ci ilə nisbətən 2023-cü ildə sayı +artma; -azalma | |
|---|---|---|---|---|---|---|---|---|
| | ölkə | kənd | ölkə | kənd | ölkə | kənd | ölkə | kənd |
| Məktəbəqədər təhsil müəssisələrinin sayı | 1761 | 747 | 1706 | 734 | 1844 | 724 | +138 | -10 |
| *onlarda uşaqların sayı, (min nəfər)* | *110,1* | *31,5* | *116,0* | *29,4* | *118,1* | *26,0* | *+2,1* | *-3,4* |
| Əyani ümumi təhsil müəssisə-rinin sayı (ilin əvvəlinə) | 4550 | 3394 | 4462 | 3267 | 4431 | 3160 | -31 | -107 |
| *onlarda şagirdlərin sayı, min nəfər* | *1584* | *750* | *1353* | *554* | *1705* | *620,1* | *+352* | *+66,1* |

Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/

Belə ki, təhsilin inkişafı üzrə dövlət strategiyasında qeyd edilir ki, "*kənd yerlərində məktəbəqədər təhsillə təmin olunma səviyyəsi (8,7%) aşağıdır. Ölkənin yaşayış məntəqələrinin 75 faizində isə məktəbəqədər təhsil müəssisəsi yoxdur*" [110]. Son illər qəbul edilmiş proqramlar çərçivəsində ölkədə yeni

[110] Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. 2013-cü il 24 oktyabr tarixli Sərəncamla təsdiq edilmişdir. https://president.az/az/articles/view/9779

məktəbəqədər təhsil müəssisələrinin inşası və ya əsaslı təmiri istiqamətində mühüm addımlar atılsa da 2018-ci ildə kənd yerlərində 1-5 yaşlı uşaqların yalnız 16,6%-i, 2021-ci ildə 22,5%-i, 2023-cü ildə isə 23,7%-i məktəbəqədər təhsil müəssisələrində və ümumtəhsil məktəblərində məktəbə hazırlığa cəlb olunmuşdur.

Ölkə üzrə isə bu göstərici üzrə təmin olunma səviyyəsi 2018-ci ildə 26,7%-dən yüksələrək 2021-ci ildə 32%-ə, 2022-ci ildə isə 35,3%-ə çatmışdır. Uşaqların məktəbəqədər təhsillə təmin olunması səviyyəsində izlənən artım müsbət qiymətləndirilsədə mövcud vəziyyəti qənaətbəxş hesab etmək olmaz. Kənd yerlərində təhsil müəssisələrinə uşaqların cəlb edilməsi səviyyəsinin aşağı olması səbəbi isə mövcud məktəbəqədər müəssisələrinin əksəriyyətinin yararsız binalarda yerləşməsi, istilik sisteminin işləməməsi, bərk, yumşaq inventar və uşaq mebellərinin çatışmaması ilə əlaqədardır.

2030-cu ilədək Milli Prioritetlər çərçivəsində ölkədə mərhələlərlə məktəbəqədər təhsilin əhatə dairəsinin genişlənməsi və müvafiq yaşda olan bütün uşaqları əhatə etməsinin zəruriliyi də qeyd olunub. 2019-cu ildə Nazirlər Kabineti tərəfindən məktəbəqədər təhsilin dövlət standartı təsdiq edilmişdir.

Ölkədə 2022-2023-cü tədris ilində əyani təhsil müəssisələrində 1704868 nəfər şagirddən 620133 nəfəri, başqa sözlə 36,4%-i kənd yerlərində təhsil almışdır.  Məktəblərin isə 71%-i kənd yerlərində fəaliyyət göstərir. Kənd yerlərində fəaliyyət göstərən məktəblərin hamısı dövlət məktəbləridir. Əyani ümumtəhsil müəssisələrinin sayında müqayisə və təhlil edilən dövr ərzində azalma baş vermişdir. Belə ki, kənd yerlərində bu

tip müəssisələrin sayı 3394-dən 3160-a düşmüşdür. Şəhər yerlərində isə bu göstərici üzrə artım baş vermişdir. Kənd yerlərində əyani ümumi təhsil müəssisələrinin sayının çox, bu müəssisələrdə təhsil alan şagirdlərin sayının az olması isə əhalinin daha sıx və kompakt yerləşməsi ilə izah etmək olar. Bu səbəbdən də əyani ümumi təhsil müəssisələrinin sayı şəhər yerlərinə nisbətən kənd yerlərində çoxluq təşkil etmişdir.

Hazırda kənd yerlərində məktəblərin əksəriyyətinin internetə çıxışı yoxdur. Qeyd edək ki, ölkədə yeni informasiya texnologiyalarından istifadə etməklə təhsilin keyfiyyətini yüksəltmək məqsədilə mütəmadi olaraq işlər görülür. Bu baxımdan 2005-2007-ci və 2008-2012-ci illər üçün təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramları əhəmiyyətlidir. 2016-2020-ci illər üçün informasiya cəmiyyətinin inkişafına dair Dövlət Proqramında da *"kənd yaşayış məntəqələri arasında rəqəmsal fərqin azaldılması, təhsilin bütün pillələrində İKT-nin tətbiqi və ondan istifadənin genişləndirilməsi"* [111] kimi məsələlərin həlli yer almışdır. Təhsil sisteminin informasiyalaşdırılması ilə əlaqədar həyata keçirilən işlərə baxmayaraq, hələ də kənd yerlərində ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təchiz olunması aşağı səviyyədədir. MDB ölkələrində Dayanıqlı İnkişaf Məqsədlərinin göstəricilərinin monitorinqinin nəticələrinə əsasən "*2018-ci ildə respublikamızda kənd yerlərində yalnız 45,1%-nin internetə çıxışı olmuşdur ki, bu da MDB məkanına daxil olan digər ölkələrlə müqayisədə aşağı olmuşdur. Hər min nə-*

[111] Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı. https://e-qanun.az/framework/33717

*fər şagirdə düşən kompyuterlərin sayı isə 50 ədəd olmuşdur ki, bu göstərici də aşağıdır"* [112].

Orta təhsilin bütün pillələrində İKT-nin tətbiqi, onlardan istifadə bacarıqlarının və biliklərinin şagirdlərə aşılanması, qlobal informasiya məkanından səmərəli istifadə etmələri üçün maarifləndirmə tədbirlərinin həyata keçirilməsi və bununla bağlı imkanların yaradılması zəruridir. "*COVİD-19 böhranı müddətində müşahidə olunan rəqəmsal fərq xüsusilə onlayn təlimə tələbin artması ilə, yaşayış yerlərində məktəblər arasındakı bərabərsizlikləri üzə çıxardı*" [113, s. 24]. Kənd yerlərində internetə çıxış təhsilin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldə bilər. Son illər kənd yerlərində internetlə təmin edilmiş məktəblərin payı artaraq, təhlil edilən 2015-2022-ci illər ərzində 39,2%-dən 69,1%-ə yüksəlsə də şəhər yerləri ilə müqayisədə dövrün əvvəlində 45,7 f.b. dövrün sonunda isə 24,5 f.b. geri olmuşdur. (Cədvəl 3.2.2).

Statistik məlumatlara əsasən isə məktəblərdə kompyuterlərlə təmin olunma yüksək səviyyədə olsada orada təhsil alan şagirdlərin ondan istifadə əhatəliliyinin yüksək olduğunu demək çətindir. Texnoloji yeniliklər kənd yerlərində onlayn kurslar, video konfranslar, interaktiv tədris vəsaitlərindən istifadə

---

112 Межгосударственный статистический комитет СНГ. Мониторинг показателей ЦУР в регионе СНГ 2015-2018. Статистический сборник. Москва, 2020.

113 Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan arasında dayanıqlı inkişaf üzrə əməkdaşlığa dair çərçivə sənədi. 2021-2025-ci illər. https://azerbaijan.un.org/sites/default/files/2021-06/AZERBAIJAN%20UNSDCF%202021-2025_FINAL%20SIGNED_AZE_0.pdf

edə bilmə imkanlarını genişləndirməklə müəllim və təhsil alanları resurslarla təmin edə bilər

**Cədvəl 3.2.2 Azərbaycanda yaşayış yerləri üzrə internet və kompyuterlərlə təmin edilmiş məktəblərin xüsusi çəkisi**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| təhsil məqsədləri üçün internetə çıxışla təmin edilmiş məktəblər | | | | | | | | |
| şəhər | 84,9 | 86,6 | 90,0 | 90,0 | 89,6 | 89,4 | 90,0 | 93,6 |
| *kənd* | *39,2* | *44,1* | *44,1* | *45,1* | *52,4* | *56,9* | *60,8* | *69,1* |
| təhsil məqsədləri üçün kompüterlərlə təmin edilmiş məktəblər | | | | | | | | |
| şəhər | 97,7 | 98,6 | 98,5 | 98,4 | 98,7 | 99,8 | 99,4 | 99,9 |
| *kənd* | *92,3* | *92,8* | *93,4* | *94,1* | *96,2* | *97,6* | *98,5* | *100* |

Mənbə: https://sdg.azstat.org/az/indicators/264/esas-xidmetlere-elyeterliyi-temin-eden-mekteblerin-xususi-chekisi-xidmet-novleri-uzre-bolgude

.

Bunun üçünsə, internetə çıxış, kompüterləşdirmə, həmçinin resurslardan istifadə edə bilmə bacarıqlarının artırılması vacibdir.

Qeyd edək ki, UNESCO-nun Asiya və Sakit Okean Regional Təhsil Bürosunun Banqkokda keçirilən “Kəndin inkişafı üçün təhsil” adlı Beynəlxalq Simpoziumda Asiyada kənd yerlərində təhsil problemlərinin aşağıdakılar olduğu bildirilmişdir: *“Şəhər yerləri ilə müqayisədə kənd yerlərində savadlılıq, məktəbə qəbul və bitirmə nisbətlərində boşluqlar qalmaqdadır, orta və ali təhsil pillələrində daha böyük boşluqlar mövcuddur, təhsilin keyfiyyətinin aşağıdır, zəif təchiz olunmuş məktəblərin təmirə ehtiyacı var və müəllim çatışmazlığı möv-*

*cuddur. Xüsusilə qızlar kənd yerlərində təhsildən yayınırlar”* [114]. Sadalanan problemlər ölkəmizdə kənd yerləri üçün də keçərlidir. Asiya İnkişaf Bankının ölkəmiz üçün 2019-2023-cü illərdə diversifikasiyalı və inklüziv inkişafın təşviqi ilə bağlı hazırladığı hesabatda təhsillə bağlı yaşayış yerləri üzrə fərqin səbəbləri kimi qeyd olunur ki, *“Azərbaycanda paytaxtda yerləşən məktəblər daha yaxşı təchiz olunmuşdur və ən yaxşı müəllimlər işə götürülür ki, bu da keyfiyyətli təhsilin təmin edilməsində qeyri-bərabərlik yaradır. Şəhər yerlərində internetə çıxış daha yüksəkdir”* [115]. Qeyd edək ki, şəhər yerlərində müəllimlərin şəxsi inkişafı ilə bağlı imkanlar daha çoxdur, həmçinin internetə çıxışın daha yaxşı olması onlara onlayn resurslardan istifadə etməyə fürsət yaradır.

Kənd yerlərində təhsillə bağlı problemlərdən biri də kadr çatışmazlığı ilə bağlıdır. Problemin həlli məqsədilə, 2005-2009-cu illərdə, ümumi təhsil məktəblərində pedoqoji kadr təminatı üzrə inkişaf proqramı qəbul edilmişdir. Sənəddə kənd yerlərində ümumi təhsil məktəblərində kadr çatışmazlığı probleminin həlli məqsədilə, dövlət ali və orta ixtisas məktəblərinin pedoqoji ixtisaslarının məzunlarına dövlət sifarişinə uyğun konkret iş yerlərində əmək fəaliyyətinə başlayanlara güzəştlər nəzərdə tutulmuşdur.

---

[114] FAO/UNESCO seminar Bangkok, Thailand 5-7 November 2002. Education for rural developmentin Asia: experiences and policy lessons. https://unesdoc.unesco.org/ark:/48223/pf0000129351/PDF/129351eng.pdf.multi (25.02.2024)

[115] ABD (Asian Development Bank). Country Partnership Strategy. ABD, Country Partnership Strategy. May 2019. Azerbaijan, 2019-2023-Promoting Diversified and Inclusive Growth Distribution. https://www.adb.org/sites/default/files/institutional-document/510266/cps-aze-2019-2023.pdf

Proqramın icrası ilə müəyyən irəliləyişlərin əldə olunmasına baxmayaraq kadr təminatı məsələləri tam həll olunmayıb. Problemin həlli məqsədilə növbəti addım kimi, Nazirlər Kabinetinin 30 aprel 2020-ci il tarixli qərarına əsasən, ölkədə pedaqoji fəaliyyətlə məşğul olma qaydalarında dəyişikliklər edilmişdir. Dəyişikliklərə görə müvafiq ixtisas üzrə pedaqoji təhsili olmayan ali təhsilli məzunlara pedaqoji fəaliyyətlə məşğul olmaq icazəsi verilir [116]. Bunun üçün şəxslər fəaliyyətə başlamazdan əvvəl imtahan verməli və nazirlik tərəfindən təşkil olunan müvafiq təlim kurslarında iştirak etməlidirlər. Dəyişikliklərdə ucqar kənd yerlərində ümumi təhsil məktəblərində müəllim çatışmadığı halda məzmun və mahiyyət etibarı ilə yaxın fənlərin müvafiq ixtisas müəllimləri tərəfindən tədris edilməsinə icazə verilir. Dəyişikliklərdən əvvəl isə bu proses müəllimlərin təyin edilmiş keyfiyyət göstəriciləri nəzərə alınmaqla tənzimlənirdi.

Qeyd edək ki, hazırda ölkəmizdə müəllimlərin işə qəbulu Elm və Təhsil Naziriliyi tərəfindən müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqəni uğurla keçən müəllimlərə ucqar kənd yerlərinə gedib orada fəaliyyət göstərmək isə cəlbedici görünmür. Pedoqoji ixtisas üzrə məzun olmuş gənclərin işləmək üçün kənd məktəblərini seçməmələrinin çox sayda səbəbləri vardır. Kənd yerlərində, xüsusəndə ucqar kənd yerlərində yaşayış və iş şəraitinin qənaətbəxş olmaması, bəzi ərazilərdə

[116] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 156 nömrəli Qərarı ilə təsdiq edilmiş “Pedaqoji fəaliyyətlə .məşğul olma Qaydası”nda dəyişiklik edilməsi haqqında qərarı.
https://nk.gov.az/az/senedler/qerarlar/azerbaycan-respublikasi-nazirler-kabinetinin-2020-7487

məktəblərin yaşayış yerindən uzaqda olması səbəblər sırasında yer alır. Kənd məktəblərində infrastruktur zəifdir, dərs vəsaiti, inventar yetərsizdir, internet ya yoxdur ya da sürəti çox zəifdir. Bəzi hallarda, məcburiyyət yarandıqda bir fənn müəlliminə ixtisasına aid olmayan dərslərin keçirilməsi tapşırılanda isə keyfiyyət aşağı olur. Xüsusilə şagird sayı az olan məktəblərdə dərs saatlarının miqdarının az olması müəllimlərin əmək haqqının aşağı olmasına gətirib çıxarır. Peşəkar inkişaf üçün nəzərdə tutulan təlim və kursların əksəriyyəti Bakıda və mərkəz rayonlarında olduğundan bir o qədər də əlçatan deyil.

Qəbul edilmiş proqramlar çərçivəsində görülmüş tədbirlər nəticəsində kənd yerlərində gənclərin təhsil alma imkanları genişlənsədə, keyfiyyətli təhsilə əlçatanlıqla bağlı problemlər qalmaqdadır. Hazırlıq kursları, dərnəklərin əksəriyyəti şəhərlərdə yerləşir. Dövlət İmtahan Mərkəzinin ali və orta ixtisas məktəblərinə tələbə qəbulu üzrə nəticələri ilə bağlı hesabatlarının təhlili göstərir ki, *"Böyük şəhərlərdən olan abituriyentlərin hazırlıq səviyyəsi kənd yerlərindən olan abituriyentlərin hazırlıq səviyyəsindən yüksəkdir. Bu üstünlük bütün fənlər üzrə izlənilsədə özünü, ənənəvi olaraq daha çox ingilis dili fənni üzrə hazırlıq səviyyəsində göstərir"* [117, s.205]. Hesabatda qeyd edildiyi kimi, bu müxtəlif obyektiv amillərlə, xüsusəndə şəhər yerlərində məktəblərin maddi-texniki bazasının, təlim-tədris texnologiyasının, informasiya təminatının kənd məktəbləri ilə

[117] Abbaszadə, M.M. Şelaginov, O.Y., Əhmədov, F.K., Quliyev, S.A., Şirinov, E.T. 2022/2023-cü tədris ili üçün Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu və ümumtəhsil müəssisələri üzrə buraxılış imtahanları nəticələrinin elmi-statistik təhlili. https://dim.gov.az/upload/iblock/374/374a8d785b155421a6e91d0aab5ca47b.pdf

müqayisədə xeyli üstün olması ilə bağlıdır. Bununla belə kənd yerlərindən dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən yerlərə qəbul olan gənclərin sayı az deyil. 2022-ci ildə dövlət büdcəsinin vəsaiti hesabına ali təhsil müəssisələrinə kənd ümumtəhsil müəssisələrindən qəbul olanların nisbi çəkisi 53,24% olmuşdur. Bu göstərici son bir neçə ildə demək olar ki, stabil olaraq qalmışdır.

Kənd yerlərində məktəblərdə davamiyyətlə bağlı problemlər mövcuddur. Dərsdən yayınmaya müxtəlif amillər səbəb olur. Bir çox hallarda uşaqlar təsərrüfat və həyətyanı sahələrdə işləmək, ailəyə qazanc gətirmək məqsədilə məktəbdən yayınırlar. Bəzi bölgələrdə isə qızların erkən nigaha cəlb edilməsi onların tədrisdən yayınmalarına səbəb olur. Ucqar dağ və dağətəyi ərazilərdə məktəblərin yaşayış yerlərindən uzaqda yerləşməsi də şagirdlərin dərsə davamiyyətində çətinliklər yaradır. Xüsusən qarlı qış aylarında yollarda gediş-gəlişin çətinləşməsi, nəqliyyat sisteminin qənaətbəxş olmaması, kəndlər arası nəqliyyat vasitələrinin çatışmazlığı uşaqların təhsildən yayınmalarına səbəb olur. Bu problemin həlli istiqamətində ucqar dağ və dağətəyi ərazilərdə yaşayış yerləri ilə məktəb arasında nəqliyyat sisteminin qurulması zəruridir.

Məlumat üçün qeyd edək ki, dünya ölkələrində kənd yerlərində xüsusən mərkəzdən aralı ərazilərdə şagird və müəllimlərin nəqliyyat təminatının yaxşılaşdırılması, şagirdlərin tədrisə cəlb edilməsi ilə bağlı müxtəlif addımlar atılır. Məsələn, *“Çilidə məktəbə gəlmək üçün uzun yol qət etməli olan şagirdlərə xidmət göstərmək üçün kənd yerlərində yerləşən internat məktəblərinə həmin şagirdlərin yaşayış və qidalanma xərcləri-*

*ni ödəmək üçün əlavə subsidiyalar ayrılır”* [118, s.214]. Eynilə, Avstraliyada şagirdlərin evlərinə olan məsafələrin gündəlik gediş-gəliş üçün çox uzaq olduğu hallarda orta məktəb səviyyəsində internat müəssisələrindən istifadə olunur. Danimarka, İslandiya və Qazaxıstan kimi ölkələrdə yerli icra orqanları uşaqların məktəblərə daşınmasının həm maliyyələşdirilməsinə, həm də təşkilinə cavabdehdirlər. Çexiyada daimi yaşayış yeri 4 km-dən uzaqda yerləşən şagirdlərin məktəbə gediş-gəlişi üçün nəqliyyatın təmin edilməsinə regional təhsil idarələri cavabdehdir. Ailələr xüsusi məktəb nəqliyyatı xidmətlərinin xərclərini özləri ödəsələr də, şagirdlər dərs günlərində ictimai nəqliyyatda endirimlərdən yararlanırlar [119].

**Kənd yerlərində gənclərin məşğulluğunun təmin edilməsində peşə təhsilinin zəruriliyi**

Məlumdur ki, peşə təhsili rəqabətqabiliyyətli iqtisadiyyatın və inkişaf etmiş cəmiyyətin təşəkkül tapmasında böyük əhəmiyyətə malikdir. Peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsində beynəlxalq qurumların və ölkələrin iqtisadiyyatın inkişafı və sosial bərabərliyin təmin edilməsində müasir peşə təhsili sisteminin olmasına xüsusi önəm verdikləri vurğulanır. *“Hər bir insanın və ailəsinin yaşaması üçün, onun mütləq işləməsi, işləməsi üçün isə iş yerinin olması və iş yerlərinin tələblərinə uyğun peşə-ixtisasa yiyələnməsi vacibdir. Əks halda, əvvəlki illərdəki yaşıdlarından zövqünə, həyata münasi-*

---

[118] OECD (2018). Responsive School Systems: Connecting Facilities, Sectors and Programs for Student Success, OECD Resources of School Resources, OECD Publishing, Paris, https://dx.doi.org/10.1787/9789264306707-en

[119] OECD LIBRARY. https://www.oecd-ilibrary.org/sites/9789264306707-7-en/index.html?itemId=/content/component/9789264306707-7-en#component-d1e19739

*bətinə, dünyagörüşünə, maddi və mənəvi tələbatına görə ciddi fərqlənən müasir dövrün yüksək ümumi tam orta təhsilli, lakin heç bir peşə-ixtisasa yiyələnməyən gənclər arasında cinayət törətmək meyli yaranır, bu yolla yaşamaq və ömür sürmək onların adi həyat tərzinə çevrilir"* [120]. Qeyd edək ki, *"kənd yerlərində gənclərin məhz texniki-peşə ixtisasına yiyələnmək imkanlarının genişləndirilməsi onların məşğulluğunun təmin edilməsində, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına xeyli təsir göstərir"* [121].

**Cədvəl 3.2.3 Yaşayış yerləri üzrə əhalinin təhsil səviyyəsi üzrə xarakteristikası,** *%-lə*

| | 2005 | | 2015 | | 2022 | | 2023 | | 2023-ci ildə 2022-ci illə müqayisədə, fərq,faiz bəndi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | şəhər | kənd | şəhər | kənd | şəhər | kənd | şəhər | kənd | şəhər | kənd |
| ali | 19,7 | 6,0 | 20,5 | 9,0 | 25,1 | 12,5 | 31,5 | 15,2 | +6,4 | +2,7 |
| orta ixtisas, texniki-peşə | 24,3 | 13,2 | 22,1 | 13,2 | 20,7 | 14,4 | 24,2 | 18,9 | +3,5 | +4,5 |
| ümumi tam orta | 43,9 | 60,9 | 45,3 | 64,2 | 45,1 | 57,0 | 39,7 | 54,7 | -5,4 | -2,3 |
| ümumi orta | 8,6 | 14,8 | 10,7 | 11,9 | 8,6 | 15,1 | 4,3 | 10,5 | -4,3 | -4,6 |
| ibtidai və ondan aşağı | 2,7 | 4,1 | 1,0 | 1,7 | 0,5 | 1,0 | 0,3 | 0,7 | -0,2 | -0,3 |

Mənbə: https://www.stat.gov.az/ əsasında hazırlanmışdır

---

[120] Quliyev, C.B., Abdullayeva, R.S., Rizayeva, M.H. (2013). AMEA İqtisadiyyat İnstitutu. Rəqabət qabiliyyətli iqtisadiyyatda həyat səviyyəsi və onun keyfiyyətcə yaxşılaşdırılmasının sosial-iqtisadi problemləri. Bakı: Avropa, - 201, 198 s.
[121] Əliyeva J. (2023). Azerbaycan'da kırsal nüfusun yaşam standartlarinin iyileştirilmesinde mesleki eğitimin rolü ve önemi. Mali Araştırmalar Dernegi. Uluslararası Sosyal, Siyasal ve Mali Araştırmalar Kongresi (USSMAK). Türkiye, səh 59-65.

3.2.3 saylı cədvəl məlumatlarının təhlili, müqayisə edilən dövr ərzində, həm  ali təhsilli, həm də texniki-peşə təhsilli əhalinin sayının artdığını göstərir. Ali təhsillilərin sayı isə daha sürətlə artmışdır. Buna respublikada özəl ali təhsil müəssisələrinin sayının artması, özəl ali təhsil müəssisələrinə qəbul balının dövlət müəssisələri ilə müqayisədə aşağı olması, respublikada fəaliyyət göstərən müəssisələrin əksəriyyətində, hətta aşağı vəzifələrə qəbulda ali təhsilli mütəxəssislərə üstünlük verilməsi, ali təhsilin peşə təhsili ilə müqayisədə prestijli hesab edilməsi və s. kimi müxtəlif amillər səbəb olmuşdur.

Kənd yerlərində gənclərin şəhərdəki həmyaşıdları ilə müqayisədə ali təhsillə təmin olunma səviyyəsi aşağıdır. Müqayisə edilən 2005-2023-cü illər ərzində kənd yerlərində ali təhsillilərin payında 9,2 faiz bənd, orta ixtisas və texniki-peşə təhsillilərin payında isə 5,7 faiz bənd artım baş vermişdir. Şəhər yerlərində isə ali təhsillilərin payında 11,8 faiz bənd artım, orta ixtisas və texniki-peşə təhsillilərin payında isə əkinə, cüzi 0,1 faiz bəndi qədər azalma baş vermişdir. Ümumi tam orta təhsillilərin sayı həm şəhər, həm də kənd yerlərində üstünlük təşkil etsədə kənd yerlərində bu göstərici daha yüksək olmuşdur.

Kənd yerlərində işsiz, heç bir peşə-ixtisas təhsili olmayan gənclərin sayı az deyil. Statistik məlumatların təhlili göstərir ki, cinayət törədənlərin tərkibində heç bir peşəsi və iş yeri olmayan gənclərin sayı çoxdur. *“Təəssüfki gənclər arasında maddi tələbatlarını təmin etməkdən ötrü qanuna zidd, cinayət xarakterli işlərə aludə olanlar da olur. Bu kimi halların baş*

*verməməsi üçün gənclərin peşə-ixtisas təhsili ilə əhatə olunmasının çox böyük əhəmiyyəti var”* [122].

Hazırda ölkədə əksər peşə-ixtisas təhsili müəssisələrinin tədris bazasının müasir bazar standartlarına tam cavab verməməsi, orada çalışan kadrların aşağı hazırlıq səviyyəsi, o cümlədən onların əmək haqqının aşağı olması, peşə məktəblərində təkmil istehsalat təcrübəsinin təşkilində çatışmazlıqlar kimi həllini gözləyən məsələlər qalmaqdadır.

Kənd yerlərində məşğul olanların 49,2%-i (20,9 min nəfər) orta ixtisas təhsilli məzunlarından, 50,8%-i (21,6 min nəfər) isə peşə təhsili olan məzunlarından ibarət olmuşdur (Cədvəl 3.2.4).

Peşə təhsili olan məşğul məzunların 86,7%-ni (18,7,6 min nəfər) ilk peşə təhsili olanlar, 13,3%-i faizini (2,9 min nəfər) texniki peşə təhsili olan məzunlar təşkil etmişdir. Məşğul olan orta ixtisas təhsili məzunlarının 38,0%-i kişilər, 67,6%-i qadınlar, peşə təhsili məzunlarının isə 62,0%-i kişilər, 32,4%-i faizi qadınlar olmuşdur.

İşsizlər arasında orta ixtisas təhsilli məzunlar üstünlük təşkil etməklə 52,5% paya sahib olmuşdur. Peşə təhsili məzunlarından işsiz şəxslərin 90,4%-nin ilk peşə təhsili, 9,6%-nin isə texniki peşə təhsili vardır.

Təhlil göstərir ki, son illər təhsil sistemində aparılan islahatlar və görülən tədbirlər nəticəsində müəyyən irəliləyişlər əldə edilsə də kənd yerlərində keyfiyyətli təhsilə əlçatanlığın təmin edilməsi ilə bağlı həllini gözləyən problemlər də az deyil.

---

[122] Guliyev, C.B. Həyat səviyyəsi: yoxsulluğu yaradan və azaldan sosial-iqtisadi amillər. Bakı, 2011.

**Cədvəl 3.2.4 Azərbaycanda kənd yerlərində peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarından məşğul olanların və işsiz şəxslərin cins üzrə bölgüsü,** *2022-ci il*

| | Məşğul olanlar cəmi, nəfər | Yekuna görə faizlə | | İşsizlər cəmi, nəfər | Yekuna görə faizlə | |
|---|---|---|---|---|---|---|
| | | kişi | qadın | | kişi | qadın |
| *Cəmi* | *42516* | *100.0* | *100.0* | *7432* | *100.0* | *100.0* |
| o cümlədən: orta ixtisas təhsili | 20924 | 38.0 | 67.6 | 3905 | 36.1 | 71.3 |
| *Peşə təhsili, cəmi* | *21592* | *62.0* | *32.4* | *3527* | *63.9* | *28.7* |
| o cümlədən: | | | | | | |
| ilk peşə təhsili | 18730 | 53.1 | 29.3 | 3188 | 57.7 | 26.1 |
| texniki peşə təhsil | 2862 | 8.9 | 3.2 | 339 | 6.3 | 2.6 |

Mənbə: Peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının məşğulluğuna dair seçmə statistik müayinənin nəticələri haqqında. Bakı, 2021.
https://www.stat.gov.az/source/labour/az/bul/Pe%C5%9F%C9%99_orta_ixtisas_m%C9%99%C5%9F%C4%9Ful_2021.zip

Qeyd edək ki, keyfiyyətli təhsilə qeyri-bərabər çıxış imkanları həm də inklüzivliyin təmin olunmasına mane olur. Kənd məktəblərinin ixtisaslı kadrlarla təmin edilməsi, məktəblərin maddi-texniki bazasının inkişaf etdirilməsi, rəqəmsal bərabərsizliyin aradan qaldırılması kimi problemlərin həlli zəruridir. Bununla yanaşı:

- kənd yerlərində məktəbəqədər təhsillə əhatə genişləndirilməlidir;

- həm müəllimlər, həm də təhsil alanların texniki bacarıqları artırılmalıdır, yeni bacarıqların inkişafı üçün şərait yaradılmalı, interaktiv öyrənmə bacarığı formalaşdırılmalıdır;

- regionları inkişaf etdirərkən təkcə yeni məktəblər tikmək yox, həm də müvafiq infrastrukturun - klublar, mədəniyyət evləri və s. fəaliyyətinə də nail olunmalıdır. Xüsusilə işləmək üçün kənd yerlərini seçən gənc müəllimlərin asudə vaxtının səmərəli və maraqlı təmin edilməsi üçün imkan yaradılmalıdır;

- müəllimlərin peşəkar inkişafı üçün şərait yaradılmalı, həmçinin iş şəraiti yaxşılaşdırılmalıdır;

- kənd məktəblərində xarici dil müəllimlərinin peşəkarlığı artırılmalıdır;

- məktəblərdə dərsə davamiyyətə nəzarət gücləndirilməli və məktəblə ucqar yaşayış yerləri arasında nəqliyyat sistemi qurulmalıdır;

- ölkədə gənc müəllimlərin regionlarda işləməyə həvəsləndirilməsi istiqamətində tədbirlər həyata keçirilir, bu istiqamətdə işlərin davam etdirilməsi zəruridir;

- müəllimin əmək haqqının səviyyəsi yaxşılaşdırılmalıdır ki, o, təkcə dövlətin güzəşt mexanizminə deyil, həm də qazandığı pula arxalansın, maddi sıxıntı çəkməsin. Kənd yerlərində çalışan müəllimlər üçün daha yüksək əməkhaqqı, pedaqoji fəaliyyətlərinə görə müavinətlərin artırılması onların kənd yerlərində qalıb işləmələrini stimullaşdıra bilər;

- gənclərin peşə-ixtisas cəlb edilməsi istiqamətində tənzimləmə mexanizmi həyata keçirilməlidir;

- məktəblərdə sürətli internetə çıxış təmin edilməlidir.

## 3.3. Kənd əhalisinin sağlamlıq vəziyyəti

Sağlam həyat dayanıqlı inkişafın əsas şərtlərindəndir. Sağlamlıq fərdin normal əmək fəaliyyətinə birbaşa təsir göstərir.

Son illər ərzində ölkəmizdə səhiyyə sferasında çox sayda islahatlar və tədbirlər həyata keçirilməkdədir. 1 aprel 2021-ci il tarixindən etibarən bütün ölkədə icbari tibbi sığorta tətbiq olunur.

Tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığı probleminin həlli məqsədilə Nazirlər Kabineti tərəfindən "2010-2014-cü və "2023-2024-cü illər üçün dövlət proqramları qəbul edilmişdir. Sənəd çərçivəsində *"kənd yerlərində tibbi kadrların tələbata müvafiq işlə təminatı, çalışan həkimlərin ailə həkimi kimi hazırlığının təmin edilməsi, ucqar kəndlərdə yerləşən tibb müəssisələrində çalışmaq üçün gənc mütəxəssislərə müvafiq həvəsləndirmə sisteminin yaradılması kimi məsələlərin icrası nəzərdə tutulmuşdur. Sənəddə həmçinin əhalinin tibbi sığortaya çıxışının genişləndirilməsi də əsas məqsədlərdən biri kimi qarşıya qoyulmuşdur"* [123].

Respublikada səhiyyənin inkişafı ilə bağlı problemlər digər dövlət əhəmiyyətli sənədlərdə də öz əksini tapmışdır. Belə ki, 2022-2026-cı illər üçün inkişaf konsepsiyasında kənd yerlərində işləyən həkim və orta tibb işçiləri üçün uyğun həyat şəraitinin yaradılması, təşviq edici maddi təminat mexanizmlərinin müəyyənləşdirilməsi, həmçinin, ilkin səhiyyə müəssisələrində maddi-texniki bazasının gücləndirilməsi, diaqnostika imkanlarının genişləndirilməsi, səhiyyə sistemində tənzimləmə

[123] Tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığının aradan qaldırılmasına dair 2023-2024-cü illər üçün Proqram. https://its.gov.az/uploads/law/146/763993.pdf

və idarəetmənin təkmilləşdirilməsi kimi tədbirlərin icrası nəzərdə tutulmuşdur.

**Səhiyyənin maliyyələşdirilməsi**

Statistik məlumatların təhlilinə əsasən müqayisə və təhlil edilən 2017-2023-cü illər ərzində büdcə xərclərinin tərkibində səhiyyə xərclərinin payı təxminən 3 dəfəyədək artmışdır (Cədvəl 3.3.1). 2023-cü ildə dövlət büdcəsindən səhiyyəyə 1722,14 mln manat vəsait ayrılmışdır ki, bu da büdcə xərclərinin 4,7%-ni təşkil etmişdir. Müqayisə edilən dövr ərzində səhiyyəyə ayrılan xərclərin ən yüksək həddi 6,4% təşkil etməklə 2020-ci ildə izlənilir ki, bu da həmin dövrdə pandemiya ilə mübarizə ilə əlaqədar omuşdur.

**Cədvəl 3.3.1 Ümumi dövlət xərclərində səhiyyəyə ayrılan xərclər,** *milyon manat*

| İllər | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| Cəmi xərclər | 17538,0 | 22731,6 | 24425,6 | 26416,3 | 27422,4 | 32063,1 | 36458,0 |
| Səhiyyəyə ayrılan xərclər | 704,7 | 709,9 | 873,6 | 1687,6 | 1378,6 | 1417,9 | 1722,1 |
| Səhiyyə xərcləri dövlət büdcəsinin xərclərinə nisbətən, faizlə | 4,0 | 3,1 | 3,6 | 6,4 | 5,0 | 4,4 | 4,7 |

Mənbə: ARDSK https://www.stat.gov.az/

Məlumat üçün qeyd edək ki, dünyanın inkişaf etmiş ölkələrində isə dövlət xərclərinin tərkibində səhiyyəyə ayrılan xərclərin payı dəfələrlə çoxdur. Bu göstərici 2021-ci ildə *"ABŞ-da 21,41%, Yaponiyada 21,45%, Almaniyada 19,95% olmuşdur. Qonşu ölkələrdə isə bu göstərici üzrə xərclər*

*Qazaxıstanda 11,6%, Gürcüstanda 4,2%, İranda 26,1%, Rusiyada 15,1%, Türkiyədə 11,5% təşkil etmişdir”* [124]. Respublikamızda səhiyyəyə ayrılan xərclərin həcmi Gürcüstan istisna olmaqla qonşu ölkələrlə müqayisədə aşağıdır.

**Kənd yerlərində səhiyyə ilə bağlı problemlər**

Sağlamlığa təsiri baxımından vacib olan təbii qidalarla təminatın yüksək olması, şəhər yerləri ilə müqayisədə hava kirliliyinin az olması kimi üstünlüklərinin olmasına baxmayaraq respublikamızda kənd yerlərində əhalinin sağlamlıq vəziyyəti şəhər əhalisi ilə müqayisədə aşağıdır. Kənd əhalisi şəhər yerləri ilə müqayisədə sağlamlıq baxımından qeyri-bərabərlik və keyfiyyətli səhiyyə xidmətlərinə çıxışla bağlı maneələrlə üzləşirlər. İxtisaslaşmış, qabaqcıl klinika və tibb mərkəzlərinin böyük hissəsi şəhər yerlərində yerləşdiyindən kənd əhalisinin keyfiyyətli səhiyyə xidmətlərinə çıxış imkanları məhduddur. Xüsusilə təcili və təxirə salınmaz tibbi yardım zamanı kənd əhalisi daha təhlükəli vəziyyətlə üzləşməli olur.

Kənd yerlərində sağlamlıqla bağlı vəziyyət demək olar ki, dünyanın bütün ölkələrində, həmçinin inkişaf etmiş ölkələrində də eynidir. Məsələn, Amerikanın “Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzi”nin araşdırmalarında Amerikada kənd əhalisinin şəhər yerləri ilə müqayisədə sağlamlıq vəziyyətinin daha aşağı olduğu qeyd edilir. *“Kənd əhalisi arasında ürək xəstəlikləri, xərçəng, xroniki aşağı*

---

[124] WHO. Global Health Observatory data repository. Domestic general government health expenditure (GGHE-D) as percentage of general government expenditure (GGE) (%) Data by country. https://apps.who.int/gho/data/node.main.GHEDGGHEDGGESHA2011?lang=en

*tənəffüs yolları xəstəlikləri və insultdan ölmə ehtimalı daha yüksəkdir. Bunun səbəbi əhalinin səhiyyə xidmətlərinə əlçatanlığının aşağı olması və tibbi sığorta ilə pis təmin olunmalarıdır. Təcili tibbi yardımın və ixtisaslı həkimlərin xidmətindən istifadə etmək üçün uzun yol qət edilməlidir"* [125].

Böyük Britaniyada Perinatal dövrdə qadınların psixi sağlamlığında kənd-şəhər fərqləri ilə bağlı aparılan tədqiqat *"kənd yerlərində yaşayan qadınların şəhərdəkilərə nisbətən depressiya və narahatlıq riskinin daha yüksək olduğunu göstərir"* [126].

Vyetnamda ucqar və dağlıq ərazilərdə sağlamlıq vəziyyəti və sağlamlıq xidmətlərindən istifadə ilə bağlı aparılan tədqiqatın nəticələrinə görə *"dağlıq və ucqar ərazilərdə sağlamlıqla əlaqəli problemlər daha çoxdur və bu ərazilərdə tibbi xidmətlərə müraciət edənlərin sayı azdır"* [127].

Aparılan tədqiqatlar dünyada kənd yerlərində əhalinin sağlamlığının aşağı olmasının çox sayda amillərdən asılı olduğunu göstərir. Amillər arasında *"kənd əhalisinin daha kasıb olması, xidmətlərin səviyyəsinin aşağı olması, xüsusilə diş sağlamlığı və psixi xəstəliklərin müalicəsi üçün əhalinin daha çox məsafə qət etmək məcburiyyətində olmaları, pereniotal xidmət-*

---

[125] Amerikanın "Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzi. https://www.cdc.gov/ruralhealth/about.html

[126] Ginja S., Jackson K., Newham JJ., Henderson EJ., Smart D., Lingam R.. Rural-urban differences in the mental health of perinatal women: a UK-based cross-sectional study. BMC Pregnancy Childbirth. 2020 Aug 14. https://pubmed.ncbi.nlm.nih.gov/32795335/

[127] Tran BX, Nguyen LH, Nong VM, Nguyen CT. Health status and health service utilization in remote and mountainous areas in Vietnam. Health Qual Life Outcomes. 2016 Jun 7;14:85. doi: 10.1186/s12955-016-0485-8. PMID: 27267367; PMCID: PMC4895985.

*lər təklif edən xəstəxanaların qadınların yaşadıqları yerdən uzaqda yerləşməsi"  də yer alır* [128]. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə *"şəhər yerləri ilə müqayisədə kənd və ucqar yerlərdə məskunlaşan əhali daha aşağı ömür uzunluğuna malikdir və daha pis sağlamlıq vəziyyəti ilə üzləşir. Dünyanın heç bir yerində səhiyyə işçiləri çatışmazlığı problemi inkişaf etməkdə olan ölkələrin kənd yerlərində olduğu qədər deyil"* [129].

Respublikamızda kənd yerlərində səhiyyə sahəsindəki problemlər sosial, iqtisadi, coğrafi, mədəni və s. amillərlə bağlıdır və ciddi olaraq qalmaqdadır. Problemlər həmçinin, xüsusilə ucqar yerlərdə yaşayış və iş şəraitinin əlverişsiz və mürəkkəb olması, əməyin təhlükəsizliyinin aşağı səviyyədə olması ilə də xarakterizə olunur. "*Mütəxəssis kadrların çatışmazlığı, tibbi kadrların sosial təminatının zəif olması, tibbi məntəqələrin olmaması və ya təmirsiz olması, tibb məntəqələrində tibbi təchizatının zəif olması, xəstələrin məntəqələrə çatdırılması üçün xidmət vasitələrinin olmaması*" [130], *"səhiyyə müəssisələrində sanitar gigiyenik vəziyyətin qənaətbəxş olmaması, təcili tibbi yardım maşınlarının müasir tələblərə cavab verə bilməməsi, müasir səhiyyə avadanlıqlarının çatışmaması, əmək haq-*

[128] ACOG Committee Opinion No. 586: Health disparities in rural women. Obstet Gynecol. 2014 Feb;123 (2 Pt 1):384-388. doi: 10.1097/01.AOG.0000443278.06393.d6. PMID: 24451676.
[129] Strasser R, Kam SM, Regalado SM. Rural Health Care Access and Policy in Developing Countries. Annu Rev Public Health. 2016;37:395-412. doi: 10.1146/annurev-publhealth-032315-021507. Epub 2016 Jan 6. PMID: 26735432.
[130] Daşkəsən rayonunun inkişaf planı. http://dashkesen-ih.gov.az/storage/files/files/Da%C5%9Fk%C9%99s%C9%99n%20Rayon%20%C4%B0nki%C5%9Faf%20Plan%C4%B1_28_10_2019.pdf

*qının aşağı olması"* [131] səbəblər arasında yer alır. Həmçinin AR Səhiyyə Nazirliyinin 2014-2020-ci illər üçün strateji planında *"kənd yerlərində ucqar yaşayış məntəqələrində ilkin səhiyyənin maddi-texniki bazasının lazımi səviyyədə olmaması, səhiyyə xidmətlərinə əlçatanlığın aşağı səviyyədə olması, kənd yerlərində peşəkar kadrların olmaması"* bu sahənin zəif tərəfləri kimi xarakterizə olunur [132]. İlkin tibbi yardıma çıxışı məhdud olan kənd sakinləri xəstəliyin erkən aşkarlanmasına və müalicəsinə səbəb ola biləcək profilaktik müayinələrdən keçə bilmirlər.

Sosial Tədqiqatlar Mərkəzinin bölgələrdə səhiyyə xidmətlərinə əlçatanlığın və xidmətlərdən məmnunluğun qiymətləndirilməsi ilə bağlı keçirdiyi sorğunun nəticələrinə görə müəyyən edilmişdir ki, *"yaşadığı ərazidə əhalinin 24,8%-nin ixtisaslı həkimə, 17%-nin poliklinika və xəstəxanalara, 19,3%-nin ilkin tibbi yardıma rahatlıqla əlçatanlığı yoxdur. Həmçinin səhiyyə xidməti ala bilməyənlərin sayı da az deyil. Səhiyyəyə əlçatanlığın olmamasının səbəbləri arasında maddi imkansızlıq ilk pillədə yer alır. Həkimə müraciət edə bilmək üçün vaxt yetərsizliyi, səhiyyənin keyfiyyətinə dair inamsızlıq kimi amillər isə növbəti səbəblər sırasında yer almışdır"* [133]. Bütün

[131] Şəmkir rayonunun 2019-2023-cü illər üçün inkişaf planı. http://shamkir-ih.gov.az/az/rayonun-inkisaf-plani.html

[132] World Health Organization. https://extranet.who.int/countryplanningcycles/sites/default/files/planning_cycle_repository/azerbaijan/emr_2014_30.pdf

[133] Sosial Tədqiqatlar Mərkəzi. Bölgələrdə əhalinin səhiyyə xidmətlərinə əlçatanlığı və bu xidmətlərdən məmnunluğu. https://stm.az/az/news/1245/bolgelerde-ehali-sehiyye-xidmetlerinden-memnundurmu-sorgu

bunlar kənd yerlərində səhiyyə ilə bağlı həlli vacib olan ciddi problemlərin mövcudluğunu göstərir.

*Məsafə və nəqliyyat.* Kənd əhalisi səhiyyə xidmətlərinə müraciət etmək üçün bəzən çox məsafə qət etməli olur. Bu isə əlavə xərc və vaxta səbəb olur. Kənd yerlərində ictimai nəqliyyat xidmətləri ya aşağı səviyyədədir, ya da ki, ümumiyyətlə yoxdur. Xüsusən xroniki, uzunmüddətli müalicə tələb edən xəstəlikləri olanlar üçün bu daha ciddi maneə yaradır. Tibb məntəqələrinin əksəriyyətinin böyük şəhər və rayon mərkəzlərində yerləşməsi xüsusilə kifayət qədər infrastruktura malik olmayan ucqar kəndlərdə əhalinin səhiyyə xidmətlərinə əlçatanlığına mane olur. Belə olan halda kənd əhalisi səhiyyə xidmətlərinə müraciət etmir. Bu isə sonradan xəstəliyin ağırlaşması ilə nəticələnir, eyni zamanda dövlətin büdcəsinə əlavə yük yaradır.

*Tibbi kadrların çatışmazlığı.* Kənd yerlərində tibbi kadr çatışmazlığı səhiyyəyə çıxışa mane olan əsas səbəblərdəndir. İxtisaslaşmış mütəxəssis və kadrların çatışmazlığı kənd yerlərində bəzi sahələr üzrə əhaliyə göstərilən tibbi xidmətin lazımi səviyyədə təşkil edilməsində çətinlik törədir. Bununla bağlı dövlət səviyyəsində görülən tədbirlərdən yuxarıda bəhs etdik.

Kənd əhalisi ilkin tibbi yardımdan kənd sağlamlıq mərkəzləri və poliklinikalar vasitəsilə yararlana bilirlər. Bu müəssisələrdə əhaliyə ilkin tibbi yardım göstərilir, immunizasiya və sağlamlığın təşviqi kimi profilaktik xidmətlər, doğuşdan əvvəl və doğuşdan sonra tibbi xidmət göstərilir. Kənd yerlərində tibb məntəqələri səhiyyəyə əlçatanlığın təmin olunmasında vacib rol oynasalar da son illər həm fəaliyyət göstərən məntəqələrin

sayında, həm də məntəqələrə müraciət edənlərin sayında artıb-azalma müşahidə olunur (Cədvəl 3.3.2).

Hər iki göstərici üzrə müqayisə edilən dövr ərzində müvafiq olaraq, 195 məntəqə və 456,9 min nəfər azalma baş vermişdir. Xüsusilə son illərdə müraciət edənlərin sayında baş vermiş azalmalar əhalinin icbari tibbi sığortanın tətbiq edildiyi müəssisələrə müraciət etmələri ilə əlaqədar olmuşdur.

**Cədvəl 3.3.2 Kənd yerlərində əhaliyə tibbi yardımın göstərilməsi**

| | 2015 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| Kənd yerlərində fəaliyyət göstərən tibb məntəqələrinin sayı | 1 799 | 1 775 | 1 758 | 1 593 | 1 604 |
| Kənd yerlərində fəaliyyət göstərən tibb məntəqələrinə müraciətlərin sayı, min nəfər | 2 734,2 | 2 586,6 | 2 592,4 | 2 248,5 | 2 277,3 |

Mənbə: ARDSK https://www.stat.gov.az/

*Teletibb.* Ümumdünya Səhiyyə Təşkilatı teletibb anlayışını *"məsafə uzaq olduqda, tibb işçiləri tərəfindən informasiya və kommunikasiya texnologiyalarından istifadə edərək səhiyyə xidmətinin göstərilməsi"* kimi tərif edir [134] Hazırda inkişaf etmiş ölkələrdə xüsusilə kənd yerlərində, kifayət qədər infrastruktura malik olmayan ərazilərdə teletibb texnologiyasından geniş istifadə olunur. Xəstələrin həkimə müraciət etdiyi diaqnozlar və ya testlərin izahı teletibb xidmətlərindən istifadə etməklə dəyərləndirilir. Başqa sözlə müasir texnologiyalarla mə-

[134] World Health Organization, (2021). Global strategy on digital health 2020-2025. https://www.who.int/docs/default-source/documents/gs4dhdaa2a9f352b0445bafbc79ca799dce4d.pdf

safədən konsultasiyaların aparılması mümkün olur. Teletibbin tətbiqi əhalinin vaxtına və xərclərinə qənaət etməsinə, tibb müəssisələrinə müraciət yükünün azalmasına, ucqar rayonlarda lazımi ixtisas üzrə həkimlərin əlçatanlığına, stasionar müalicəyə cəlb edilmədən xroniki xəstəliklərin, o cümlədən yaşlıların və əlillərin xəstəliyinin daimi nəzarətini təmin etməyə imkan verir. Xəstəliklərin vaxtında diaqnostikası və onların müalicəsi tibbi patologiyaların və əlilliyin inkişaf ehtimalının qarşısını ala bilir. Bu da dövlət tərəfindən əhəmiyyətli maliyyə qənaətinə, habelə vətəndaşların həyat keyfiyyətinin yüksəlməsinə səbəb olur.

Qeyd edək ki, respublikamızda da bu texnologiyadan istifadəyə başlanılmışdır. Belə ki, bu xidmət vasitəsilə Zəngilanın Ağalı kəndinin sakinləri kəndi tərk etmədən həkimlərin məsləhət və müalicəsini ala bilirlər. Əhaliyə "Salam Doktor" platforması üzərindən həkimlər xidmət göstərir [135]. Qeyd edək ki, "Teletibb"in fəaliyyəti üçün genişzolaqlı internet tələb olunur. Bu xidmətin ölkəmizdə digər kənd yerlərində də tətbiqi əhalinin səhiyyəyə əlçatanlığında müsbət rol oynaya bilər.

**Kənd əhalisinin doğulanda gözlənilən ömür uzunluğu**

Sağlamlığın ümumi qəbul edilmiş göstəricilərindən biri də doğulanda gözlənilən orta ömür müddətidir. Qeyd edək ki, səhiyyə sisteminin inkişafı ilə əhalinin orta ömür müddətinin yüksəlməsi arasında birbaşa əlaqə vardır. Xəstəliyin ilkin

---

[135] İqtisad elmləri doktoru, professor V.Ə.Qasımlının elmi redaktəsi ilə. Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarinda post-konflikt quruculuğu" Bakı, 2022, "AzPrint" nəşriyyatı, 217 səh.

mərhələsində düzgün diaqnozun qoyulması, müalicənin vaxtında aparılması, sanitar-gigiyenik şərait və s. bu kimi amillər insanların sağlamlığına, o cümlədən onların doğulanda gözlənilən orta ömür müddətinə müsbət təsir göstərir. Xüsusilə icbari tibbi sığorta sisteminin tətbiqi ilə keyfiyyətli və bahalı tibbi xidmətlərə əlçatanlığın genişləndirilməsi də doğulanda gözlənilən orta ömür uzunluğunun artmasında əhəmiyyətli rol oynayır. DSK-nin məlumatlarına əsasən tərtib edilmiş 3.3.3 saylı cədvəl məlumatlarından göründüyü kimi, müqayisə edilən dövr ərzində, kənd əhalisinin doğulanda gözlənilən ömür uzunluğunda artım baş vermişdir.

**Cədvəl 3.3.3 Kənd əhalisinin doğulanda gözlənilən ömür uzunluğu,** *il*

| | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2023 |
|---|---|---|---|---|---|---|
| Azərbaycanda kənd yerlərində doğulanda gözlənilən ömür uzunluğu, yaş sayı | 72,4 | 73,4 | 75,7 | 72,8 | 74,0 | 76,0 |
| *o cümlədən,*<br>qadın<br>kişi | <br>75,1<br>69,7 | <br>76,1<br>70,6 | <br>77,8<br>73,5 | <br>76,3<br>69,5 | <br>76,1<br>71,8 | <br>78,5<br>73,5 |
| Dünyada | - | - | - | 72,2 | 71,3 | _ |
| Yüksək gəlirli ölkələrdə | - | - | - | 80,1 | 79,9 | - |
| Orta gəlirli ölkələrdə | - | - | - | 71,6 | 70,6 | - |
| Aşağı gəlirli ölkələrdə | - | - | - | 63,0 | 62,5 | - |

Mənbə: https://databank.worldbank.org/source/world-development-indicators/Series/SP.DYN.LE00.IN və https://www.stat.gov.az/source/demoqraphy/ əsasında tərtib edilmişdir

Bu göstərici 2005-ci ildə 72,4 yaşdan 2023-cü ildə 76 yaşa yüksəlmişdir. COVİD-19 pandemiyası bütün dünyada olduğu kimi ölkəmizdə, eləcədə kənd yerlərində doğulanda gözlənilən ömür uzunluğuna mənfi təsir göstərmişdir. 2020 və 2021-ci illərdə bu göstərici kənd yerlərində müvafiq olaraq, 72,8 və 74 il təşkil etmişdir. Bununla belə 2021-ci ildə ölkəmizdə kənd yerlərində orta ömür uzunluğu dünya üzrə orta ömür uzunluğundan 2,7 il çox olmuşdur.

Son onilliklərdə texnologiya və tibbdə baş vermiş müsbət dəyişikliklər dünyada insanların gözlənilən ömrünü artırıb. 2021-ci ildə gözlənilən ömür uzunluğu ən aşağı olan ölkələrin əksəriyyəti Afrikada, ən yüksək ömür uzunluğuna malik olanlar isə Avropa və Asiyanın varlı ölkələrində olub. Hazırda Afrika regionunda gözlənilən ömür uzunluğu 64,5 il olduğu halda, Avropada insanlar orta hesabla 78,2 il yaşaya bilir.

Ölkəmizdə kənd yerlərində əhalinin doğulanda gözlənilən ömür uzunluğu yüksək gəlirli ölkələrlə müqayisədə 5,9 il az olsa da orta gəlirli ölkələrlə müqayisədə 3,4 il çoxdur. Bu tendensiya müqayisə edilən 2005-2021-ci illər üzrə dəyişməz olaraq qalmışdır. Yəni ölkəmizdə kənd yerlərində əhalinin doğulanda gözlənilən orta ömür uzunluğu yüksək gəlirli ölkələrlə müqayisədə nisbətən aşağı, orta və aşağı gəlirli ölkələrlə müqayisədə isə yuxarıdır.

Ölkəmizdə qadınların gözlənilən orta ömür uzunluğu kişilərdən 5 il fərqlə daha uzundur. Həyat tərzi seçimləri və genetika ömür uzunluğunun əsas müəyyənedici amilləridir.

**Kənd yerlərində ana və uşaq ölümü**

Ana ölümləri ilə bağlı yaşayış yerləri arasında fərqlər vardır, kənd əhalisi arasında ana ölümü və yeniyetmələr arasında doğum əmsalı daha yüksəkdir (Qrafik 3.3.1).

2021-ci ildə ana ölümlərinin sayı kənd yerlərində hər 100 min sağlam doğuşa 27,3 nəfər, şəhər yerlərində isə 7,4 nəfər, 2022-ci ildə isə müvafiq olaraq 19 və 10,1 nəfər olmuşdur. Başqa sözlə, kənd yerlərində ana ölümlərinin sayında azalma, şəhər yerlərində isə artım müşahidə olunur.

**Qrafik 3.3.1 Ana ölümü səviyyəsi,** *100 min nəfər diri doğulana*




Mənbə: https://www.stat.gov.az/template/sdg.php?lang=az

Ana ölümünün yaşayış yerləri üzrə ümumi dinamikası qeyri-bərabər dəyişmişdir. Müqayisə edilən 2015-2021-ci illər ərzində kənd yerlərində ana ölümünün ən aşağı olduğu dövr 2018-ci ildə (11,2 nəfər), ən yüksək olduğu dövr isə 2021-ci il-də (27,3 nəfər) müşahidə edilir. Şəhər yerləri üzrə isə ən yük-

sək göstərici 2016-cı ildə (15,6 nəfər), ən aşağı göstərici isə 2015-ci ildə (4,9 nəfər) olmuşdur.

Respublikamızda ana və uşaqların sağlamlığına xidmət məqsədilə dövlət əhəmiyyətli tədbirlər həyata keçirilir. Mərhələli şəkildə 2006-2010-cu illər və 2014-2020-ci illər üçün ana və uşaqların sağlamlığının qorunması və yaxşılaşdırılması üzrə dövlət proqramları qəbul edilmişdir. Proqramların icrasında məqsəd ana və uşaqlara göstərilən müalicə-profilaktika yardımının keyfiyyətini yüksəltmək, eləcədə onların sağlamlıq vəziyyətini daha da yaxşılaşdırmaqdan ibarət olsada sonuncu, 2014-2020-ci illər üçün qəbul edilmiş proqramda kənd yerlərinə xüsusi diqqət ayrılmamışdır.

İTS-nın xidmətlər zərfinə hamilə qadınların doğuşa qədərki profilaktik müayinələri, onlara ambulator və stasionar şəraitdə tibbi xidmətlərin göstərilməsinin daxil edilməsi müsbət haldır. Bununla belə qadınların bu tip müayinələrə cəlb edilməsi və göstərilən xidmətlərin keyfiyyətinin artırılması məqsədəuyğundur.

Kənd yerlərində yeniyetmələrin doğum nisbəti də yüksəkdir (Qrafik 3.3.2).

Həmçinin yaşayış yerləri üzrə bu göstərici kəskin fərqlənir. Belə vəziyyət müqayisə edilən 2015-2021-ci illər ərzində dəyişməz olaraq qalmışdır. 2021-ci ildə kənd yerlərində yeniyetmələr arasında hər min qadına 44,7 diri doğum olmuş, şəhər yerlərində isə bu göstərici 16,7, 2022-ci ildə isə müvafiq olaraq, 56,9 və 20,6 olmuşdur.

**Qrafik 3.3.2 Yeniyetmələr (10-14 yaşda və 15-19 yaşda olan) arasında doğum səviyyəsi, həmin yaş qrupunda olan hər min nəfər qadına**




Mənbə: https://www.stat.gov.az/template/sdg.php?lang=az

Kənd yerlərində yeniyetmələr arasında hamiləliyin yüksək səviyyəsi daha çox məlumatlılığın aşağı olması, əlçatanlığın olmaması səbəbindən kontrasepsiya vasitələrindən az istifadə ilə əlaqədardır. Bu məsələ ölkəmizdə cinsi və reproduktiv sağlamlıq və hüquqlarla bağlı qiymətləndirilmə hesabatında da əks olunmuşdur. Sənəddə qeyd edilir ki, *“kənd yerlərində qadınlar üçün reproduktiv sağlımlıq xidmətlərinin müyəssərliyi aşağıdır. Müasir kontraseptiv üsullardan istifadə edənlərin sayı azdır. Qadınlara abortdan əvvəl və sonra ailə planlaşdırılması ilə bağlı məlumatlar verilmir. İİV/QİÇS-ə yoluxanların sayı az olsada anadan uşağa İİV-in*

*ötürülməsinin qarşısının alınması da daxil olmaqla dərmanların tam müyəssərliyi təmin edilməyib”* [136].

2011-ci ildə ölkəmizdə keçirilmiş Demoqrafiya və Sağlamlıq sorğusuna əsasən (DSS-2011) qadınların səhiyyə xidmətlərinə çıxışına mane olan əsas səbəblər kimi *“xərc (rəsmi və qeyri-rəsmi ödənişlər), məsafə, nəqliyyatın olmaması, qadın mütəxəssislərinin olmaması, qadınların həkimə tək getmək istəməməsi, ənənəvi sosial norma kimi qadınların ailənin kişi üzvündən və ya yaşca böyük qadın üzvündən icazə almaq zərurəti”* [bax: 137] müəyyən edilmişdir. Sorğunun keçirilməsindən xeyli vaxt keçməsinə baxmayaraq, təhlil sadalanan problemlərin hələ də aktual olaraq qaldığını göstərir.

Uşaq ölümləri müxtəlif səbəblərə görə baş verə bilir. Səbəblər arasında səhiyyə xidmətlərindəki çatışmazlıqlar, yetərsiz qidalanma, viruslar, təbii fəlakətlər, hamiləlik və doğuş zamanı yarana biləcək problemlər kimi müxtəlif amillər yer ala bilər. İşğal və müharibə kimi faktorlar da uşaq ölümlərinin artmasına səbəb olur.

Baxmayaraq ki, kənd yerlərində ana ölümü şəhər yerləri ilə müqayisədə çoxdur, əksinə körpə ölümü azdır (Qrafik 3.3.3).

---

[136] BMT-nin Əhali Fondu (UNFPA), AR İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), (2015). Azərbaycan Respublikasında cinsi və reproduktiv sağlamlıq və hüquqlar üzrə saziş qurumlarının tövsiyələrinin icra vəziyyətinin qiymətləndirilməsi hesabatı https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/A4_az_0.pdf

[137] Demoqrafiya və Sağlamlıq sorğusu (DSS-2011), (2013). Azərbaycan.https://isim.az/documents/newsdocs/DSS_Yekun_Hesabat_2011.pdf

**Qrafik 3.3.3 Yaşayış yerləri üzrə körpə ölümü,**
*hər 1000 nəfər diri doğulana*




Mənbə: Azərbaycanda uşaqlar.
https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/Az%C9%99rbaycanda_u%C5%9Faqlar2023.zip

2021-ci ildə kənd yerlərində bir yaşadək uşaqlar arasında hər min nəfər diri doğulana ölüm səviyyəsi 6,5 nəfər, şəhər yerlərində isə 8,6 nəfər, 2022-ci ildə isə müvafiq olaraq 7,3 və 8,3 nəfər təşkil etmişdir. 2023-cü ildə yaşayış yerləri üzrə körpə ölümü xeyli artmışdır. Həmin ildə bir yaşadək uşaqlar arasında ölüm səviyyəsi kənd yerlərində 12,4, şəhər yerlərində isə 24,2 nəfər olmuşdur.

Bu yaşda ölən uşaqların sayında yaşayış yerləri üzrə kəskin fərq olmuşdur. Şəhər yerlərində bir yaşadək ölən uşaqların sayı çoxdur və bəzi illərdə bu fərq daha böyük olmuşdur. Bu yaşda ölən uşaqlar arasında ölümün əsas səbəbləri arasında perinatal dövrdə meydana çıxan hallar 1-ci yerdədir. Bütün səbəblərdən ölən uşaqların tərkibində perinatal dövrdə meydana çıxan hallardan ölənlərin payı kənd yerlərində 43,2%, şəhər yerlərində isə 38,8% təşkil etmişdir. Bu isə kənd

yerlərində perinatal xidmətin səviyyəsinin aşağı olduğunu göstərir.

Şəhər yerlərində uşaq ölümlərinin sayının kənd yerləri ilə müqayisədə çox olmasının səbəbləri arasında ekoloji çirklənmə, süni qidalarla qidalanmaya daha çox üstünlük verilməsi, şəhər yerlərində əhali sıxlığı ilə əlaqədar infeksion xəstəliklərin yayılma sürətinin yüksək olması yer alır. Qeyd edək ki, yaşayış yerləri üzrə fərqin səbəbləri arasında həmçinin, kənd yerlərində, xüsusən ucqar kəndlərdə bəzi hallarda evdə baş tutan doğumlar zamanı baş vermiş ağırlaşma səbəbindən tələf olan körpələrin qeydə alınmaması da yer alır. Kənd yerlərində uşaq ölümünün əsas səbəbləri səhiyyə xidmətinin və profilaktik tədbirlərin səviyyəsinin aşağı olması, işsiz və imkansız qadınların səhiyyə xidmətlərinə müraciət etmək imkanlarının olmaması ilə izah oluna bilər. Bununla yanaşı kənddə sanitar-gigiyena vəziyyətinin aşağı olması, əmək şəraitinin standart normalara uyğun olmaması, qadın əməyinin ağırlığı, sərhədyanı regionlarda cəbhə stressləri də səbəblər arasında yer alır. Yaxşı sağlamlıq və gigiyena uşaq ölümlərinin azaldılmasında mühüm əhəmiyyət kəsb edir.

Dünyada uşaq ölümünün yüksək olduğu ölkələrin əksəriyyəti inkişaf etməkdə olan ölkələrdir ki, onların da əksəriyyəti Afrikada yerləşir. 2023-cü ildə Dünyada *"hər min diri doğulan bir yaşadək uşaq ölümünün çox olduğu ölkələr 103,06 nəfələ Əfqanıstan, 85,06 nəfərlə Somali, 8,74 nəfərlə Mərkəzi Afrika respublikası olmuşdur"* [138]. Bir yaşadək

---

[138] Statista. https://www.statista.com/statistics/264717/countries-with-the-lowest-infant-mortality-rate/

uşaq ölümlərinin ən az olduğu ölkə Sloveniya olmuşdur. Bu ölkədə hər min diri doğulan bir yaşadək uşaq ölümlərinin sayı 1,5 nəfər olmuşdur. Sinqapur (1,54), İslandiya (1,63) və Yaponiya da (1,88) aşağı uşaq ölüm nisbətinə malik ölkələr sırasındadır. Körpə ölümünün aşağı olduğu ölkələrdə orta ömür müddəti göstəricisi də yüksəkdir. Bu göstəricinin aşağı olduğu ölkələrdə həkimlərin sıxlığı, ölkədə adambaşına düşən səhiyyə xərcləri, ananın təhsil səviyyəsi yüksəkdir. Ətraf mühit şəraiti və tibbi infrastruktur da önəmli rol oynayır. Peyvəndlərə, antibiotiklərə və balanslaşdırılmış qidalanmaya çıxış da bu bölgələrdə uşaq ölümlərinin azalmasına kömək edir [139].

**Kənd yerlərində vərəmlə mübarizə**

Təhlil göstərir ki, ölkədə həyata keçirilən ardıcıl və davamlı tədbirlər nəticəsində Azərbaycan Respublikasında vərəm, malyariya, Hepatit B və tropik xəstəliklər kimi yoluxucu xəstəliklərin yayılmasının qarşısı alınmış və ölkə əhalisinin bu tip xəstəliklərə tultulma halları azalmışdır. ÜST-nın məlumatlarına əsasən "*2021-ci ildə Azərbaycanda vərəmlə xəstələnmə halı hər 100 min nəfərə 63 nəfər olmuşdur ki, bu da yuxarı orta gəlirli ölkələrlə müqayisədə təqribən eynidir (hər 100 min nəfərə 65 nəfər). Yüksək inkişaf etmiş ölkələrdə isə bu göstərici 9 nəfər təşkil etmişdi*r" [140].

"Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Qanunundan irəli gələn tələblərin yerinə yetirilməsi üçün bir sıra normativ sənədlər hazırlanmış və ÜST-nın tövsiyələri

---

[139] Yenə orada
[140] World Bank Group.
https://data.worldbank.org/indicator/SH.TBS.INCD?view=chart

əsasında strategiyalar qəbul edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə 2011-2015-ci illər və 2016-2020-ci illər üçün vərəmlə mübarizə ilə bağlı dövlət proqramları təsdiq edilmişdir. Proqram çərçivəsində *"xəstəliklərin erkən aşkarlanması və müalicəsi, epidemiya əleyhinə tədbirləri gücləndirməklə xəstəxanadaxili yoluxmaların qarşısının alınması; bu tip xəstələrin qeydiyyatının yaxşılaşdırılması; vərəmin profilaktikası sahəsində əhalinin maarifləndirilməsi"* kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur" [141].

**Qrafik 3.3.4 Vərəmə yoluxma halları,** *əhalinin hər 100 000 nəfərinə*




Mənbə: https://www.stat.gov.az/template/sdg.php?lang=az

Qrafik 3.3.4-dən də göründüyü kimi kənd əhalisinin hər 100 min nəfərinə vərəmə yoluxanların sayı 2015-ci ildə 61,6 nəfərdən 2021-ci ildə 24,4 nəfərə qədər azalsada 2022-ci ildə

[141] "2016-2020-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı". Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 28 yanvar 2016-cı ildə təsdiq edilmişdir. https://e-qanun.az/framework/32027

təkrar artmışdır. Yaşayış yerləri üzrə müqayisəyə əsasən kənd yerlərində vərəmə yoluxma halları, demək olarki bütün dövr ərzində, şəhər yerləri ilə müqayisədə çox olmuşdur.

Vərəmə yoluxma ilə mübarizə üçün kənd yerlərində ictimai təlimatlar, təmiz su təminatı, dezenfeksiya, çirkli su mənbələrinin təmizlənməsi, sağlamlıq xidmətlərinin genişləndirilməsi kimi tədbirlərin görülməsi zəruridir.

Beləliklə, təhlil göstərir ki, son illər kənd yerlərində görülən tədbirlər nəticəsində müəyyən müsbət nəticələr əldə olunsada keyfiyyətli səhiyyə xidmətlərinə çıxışla bağlı problemlər qalmaqdadır. Kənd yerlərində əhalinin sağlamlıq göstəriciləri şəhər yerləri ilə müqayisədə aşağıdır. Kənd yerlərində kontraseptiv vasitələrin müyəssərliyinin təmini ilə bağlı tədbirlər görülməli, kənd yerlərində yaşayan gənc qadınlar arasında ailə planlaşdırılmasına dair maarifləndirmə işləri aparılmalıdır. Reproduktiv səhiyyə xidmətlərinə çıxış artırılmalı, o cümlədən perinatal xidmətlərin yaxşılaşması ilə bağlı tədbirlər həyata keçirilməlidir. Kənd yerlərində tibb işçilərinin çatışmazlığının qarşısının alınması ilə bağlı görülən tədbirlər davam etdirilməlidir. Tibb işçiləri üçün peşəkar inkişafla bağlı imkanların yaradılması zəruridir. Kənd yerlərində dünyada geniş istifadə edilən teletibbdən istifadə keyfiyyətli səhiyyəyə əlçatanlıqda müsbət rol oynaya bilər. Bununla belə məhdud internet, smartfonlara əlçatanlıq, maliyyə ilə bağlı ciddi problemlər buna mane olan səbəblərdəndir.

# IV FƏSİL. AZƏRBAYCANDA KƏND YERLƏRİNDƏ İNKLÜZİV İNKİŞAF

## 4.1. Kənd yerində qadınların məşğulluğunun təmin edilməsi

BƏT-in "Qlobal məşğulluq və sosial perspektivlər: 2017-ci ildə qadınlar üçün trendlər" adlı hesabatında vurğulanır ki, *qadınlar ödənişli işlərə az, ödənişsiz işlərə isə daha çox vaxt sərf edirlər. Orta hesabla qadınlar ödənişsiz ev və ailəyə qayğı işlərinə kişilərlə müqayisədə təxminən 2,5 dəfə çox vaxt sərf edirlər. Bu isə onların sosial müdafiəyə çıxış imkanlarını azaltmış olur. Analıqla bağlı məzuniyyət və ödənişlərdən istifadə imkanları olmur, pensiyaya çıxdıqda isə daha aşağı pensiya məbləği almış olurlar*" [142]. Həm qadınlar, həm də kişilər işsizlik problemi ilə üzləşirlər, lakin qadınların uşaq dünyaya gətirmə kimi fizioloji xüsusiyyətinin olması, uşağa və ailəyə qayğı kimi öhdəlikləri səbəbindən onlar daha çox işsizliklə üzləşirlər. Bu və digər sosial amillər səbəbindən iş tapmaqda çətinlik çəkirlər. Bu baxımdan onlar dövlət tərəfindən diqqətə ehtiyac duyurlar.

Kənd yerlərinin davamlı inkişafında qadınlar əhəmiyyətli rol oynayırlar və ev təsərrüfatlarına əlavə dəyər gətirirlər. Bununla belə, onların rolu çox vaxt diqqətdən kənarda qalır və ya görünməz olur. Kənd yerlərində qadınlar haqqı

[142] İLO, (2017). World Employment and Social Outlook: Trends for women. https://webapps.ilo.org/wcmsp5/groups/public/---dgreports/---dcomm/---publ/documents/publication/wcms_795453.pdf

ödənilməyən, mükafatlandırılmayan qayğı və ev işlərini üzərlərinə götürürlər. Onlar uşaqlara və qocalara qulluq etmək, məişətdə təmizlik işləri görmək, yemək hazırlamaq, fərdi təsərrüfatlarda işləmək də daxil olmaqla bir çox rolları yerinə yetirirlər və əməklərinə görə gəlir əldə etmirlər. Təsərrüfatlarda işlədikləri zaman isə əməkləri çox ucuz qiymətə dəyərləndilir. Kənd yerlərində qadınlar daha çox aşağı ixtisaslı, aşağı məhsuldarlı işlərdə çalışırlar, uzun iş saatları və pis iş şəraiti olan, məhdud sosial müdafiə ilə təmin olunan, az ödənişli və ya ödənişsiz işlərdə təmsil olunurlar. Daha çox natamam iş rejimi, mövsümi, vaxt və əmək tutumlu işlərdə işləyirlər, institutlarda və idarəçilikdə az təmsil olunurlar və qərar qəbuletmə səlahiyyətləri daha azdır. Bu həm də kənd yerlərində imkanlarla da əlaqədardır.

*"Azərbaycanda ev işləri və ya ailə üzvlərinə qulluq vəzifələrinə görə işçi qüvvəsindən kənarda qalanların demək olar ki, hamısı qadınlardan ibarətdir. Kənd qadınları üçün bu vəziyyət xüsusilə səciyyəvidir. Ona görə ki, onlara işi ev işləri ilə birləşdirməyə imkan verəcək uşaq və ahıllara qulluq xidməti infrastrukturu mövcud deyil. Bundan əlavə, məkan üzrə fərqlərin olması (resurs və xidmətlərin qeyri-bərabər paylanması) kənd yerlərində qadınlar üçün məşğulluq imkanlarının azlığını göstərir"* [143, s.19]. Ölkəmizdə yaşayış yerləri üzrə qadınların əmək bazarında təmsil olunmalarında ciddi fərqlərin olmasına baxmayaraq, məşğulluq sahəsində gender bərabərliyinə

[143] FAO, (2022). Kənd təsərrüfatı və kənd yerlərində gender aspektlərinin qiymətləndirilməsi. Milli Gender Profili -Azərbaycan Respublikası. Ölkə üzrə Gender Qiymətləndirilməsi Seriyası. Bakı. https://openknowledge.fao.org/handle/20.500.14283/cc2041az

təminat verən hüquqi baza mövcuddur. Azərbaycan Respublikası Konstitusiyasında və digər normativ-hüquqi sənədlərdə əmək münasibətlərində qadınlara münasibətdə hər hansı ayrıseçkiliklə bağlı maddə yoxdur. Respublikamız qadınlara münasibətdə ayrıseçkiliyin aradan qaldırılmasına yönələn Beynəlxalq Əmək Təşkilatının müvafiq konvensiyalarına tərəfdar çıxmışdır.

**Azərbaycanda qadınların məşğulluğu ilə bağlı mövcud qanunvericilik**

Azərbaycanda rəsmi olaraq qadınların kişilərlə hüquqları bərabərdir. Qadınların əmək hüququ Əmək Məcəlləsi ilə tənzimlənir. Əmək Məcəlləsində qadınlar üçün güzəştlər, imtiyaz və əlavə təminatlar nəzərdə tutulur. Bu imtiyaz və güzəştlər *"hamiləlik, himayəsində körpə uşaqları olan qadınlar üçün əlavə məzuniyyət hüququ və körpə uşağa qulluğa görə qısaldılmış iş vaxtı rejimi"* [144] və s. ilə əlaqədardır. Qadınların kişilərlə hüquq bərabərliyinin, xüsusilə onların dövlət idarəçiliyi sistemində təmsil olunmalarını əməli surətdə təmin etmək məqsədilə dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında 06 mart 2000-ci ildə fərman imzalanmışdır.

2006-cı ildə qəbul edilmiş "Gender bərabərliyinin təminatları haqqında" qanuna əsasən, *"əmək fəaliyyətində qadın və kişilərin bərabərliyi işəgötürənlər tərəfindən təmin edilməli, cinsindən asılı olmayaraq eyni işlə məşğul olanlara eyni iş şəraiti və sahibkarlıqla məşğul olmaları üçün bərabər imkanlar*

[144] Azərbaycan Respublikasının Əmək məcəlləsi. https://e-qanun.az/framework/46943

*yaradılmalıdır. Əməyin ödənilməsində də bərabərlik təmin edilməlidir"* [145].

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda qadınların cəmiyyətdə iqtisadi fəallığının artırılmasının vacibliyindən bəhs edilir. Sənəddə əsas hədəf indikatorları kimi *"qadınların yüksək gəlirli sahələrdə məşğulluğunun artırılması, onların orta aylıq əməkhaqqının kişilərin orta aylıq əməkhaqqına nisbətinin 80%-dək artırılması, uğurlu fəaliyyətləri üçün peşə yönümü, karyera məsləhəti və digər aktiv məşğulluq tədbirlərinin genişləndirilməsi nəzərdə tutulur"* [146]. Qeyd edilən məsələlərin həlli qadınların iqtisadi fəallığını artırmaqla onların həyat səviyyəsinin yaxşılaşdırılmasında və kənd yerlərində inklüzivliyin təmin olunmasında müsbət rol oynayacaqdır.

**Dünya əmək bazarında qadınların iştirakı**

Bütün dünyada tarixən qadınlar kişilərlə müqayisədə işsizlikdən daha çox əziyyət çəkiblər. Bu həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrə aiddir. Eyni vəziyyət Avropa İttifaqı ölkələrinə də xasdır. Avropada kənd yerlərində qadınların həm kənd yerlərindəki kişilərlə, həm də şəhər yerlərindəki qadınlarla müqayisədə daha az iş imkanları var. Son onilliklər ərzində dəyişikliklər baş versədə, qadınlar üçün bərabər məşğulluq imkanlarının təmin edilməsi məsələsi tam həllini tapmayıb. *"Aİ-nin məlumatlarına əsasən kənd yerlərində*

---

[145] "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu.
10 oktyabbr 2006-cı ildə qəbul olunub. http://www.e-qanun.az/framework/12424

[146] Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası.
https://e-qanun.az/framework/50013

*qadınların məşğulluqda payı təxminən 45%-ə qədərdir. Onların qeyri-formal iqtisadiyyatda işləmək ehtimalı kişilərə nisbətən daha yüksəkdir, daha yaxşı iş yerləri və sosial təminatla təmin olunmaq imkanları azdır. Kənd yerlərində özünüməşğulluqda qadınların payı təxminən 38% təşkil edir. Qadın fermerlərin kişi həmkarları ilə müqayisədə torpağa və digər məhsuldar aktivlərə çıxışı, nəzarəti və mülkiyyət hüququ əhəmiyyətli dərəcədə azdır"* [147].

BƏT-in məlumatlarına əsasən də dünya miqyasında qadınlar arasında məşğulluq səviyyəsi aşağıdır. BƏT, İƏİT kimi qurumların apardıqları araşdırmaların nəticəsinə əsasən qadınlar kişilərlə müqayisədə daha pis işlərə, həmçinin aşağı əmək haqqına malikdirlər. *"Dünyanın hər yerində iş tapmaq kişilərlə müqayisədə qadınlar üçün daha çətindir. Qadınlar işlə təmin olunduqda daha çox aşağı keyfiyyətli işlərdə, həssas şərtlərlə işləyirlər. Bu vəziyyətin yaxın gələcəkdə dəyişiləcəyi gözlənilmir"* [148]. Müqayisə edilən 2000-2020-ci illər ərzində qadınların məşğulluqda payı 40%-i ötməmişdir (Diaqram 4.1.1). Əmək qabiliyyətli əhalinin tərkibində isə qadınların payı kişilərlə bərabər olmuşdur.

[147] The professional status of rural women in the EU. Study. May 2019. https://www.europarl.europa.eu/RegData/etudes/STUD/2019/608868/IPOL_STU(2019)608868_EN.pdf
[148] İLO. The gender gap in employment: What's holding women back? https://www.ilo.org/infostories/en-GB/Stories/Employment/barriers-women#intro

**Diaqram 4.1.1 Dünya üzrə məşğulluqda və əmək qabiliyyətli əhalinin tərkibində qadınların payı, %**




Mənbə: https://ilostat.ilo.org/topics/women/

Qadınların məşğulluqda payı regionlar, ölkələr üzrə ciddi fərqlənir (Diaqram 4.1.2). Sosial normaların qadınların ödənişli işlərə cəlb edilməsinə mane olan ərəb ölkələrində və Şimali Afrika ölkələrində qadınlar arasında işsizlik nisbəti kişilərə nisbətən iki dəfə yüksəkdir. Bu regionlarda qadınlar arasında işsizlik səviyyəsi 20%-i ötür.

Dünyada qadın və kişi məşğulluqları arasındakı boşluğun ən çox olduğu ölkə İraq (60,7 faiz bənd), ən az olduğu ölkə isə Qvineyadır (0,1 faiz bənd). Avstraliya, İsveçrə, Danimarka, Lüksenburq kimi inkişaf etmiş ölkələrdə qadın və kişi məşğulluğu arasındakı boşluq çox deyil. İran, Yəmən, Əfqanıstan kimi ölkələrdə isə qadınların məşğulluqda payı kişilərlə müqayisədə dəfələrlə aşağıdır. Afrikanın şərqində yerləşən və dünyanın ən yoxsul ölkələrindən biri olan

Burindidə isə məşğul qadınların sayı kişilərdən çoxdur. Bu ölkədə qadınların 92%-dən çoxu kənd təsərrüfatında çalışır. Azərbaycanın qonşu ölkələrində bu fərq Türkiyədə 37,6, Qazaxıstanda 12,2, Rusiyada 15,2, Gürcüstanda 17, Türkiyədə 37,6 faiz bənd olmuşdur.

**Diaqram 4.1.2 Bəzi ölkələrdə qadın və kişilərin məşğulluqda payı,** %-lə




Mənbə: https://ilostat.ilo.org/topics/women/

**Azərbaycanda kənd yerlərində qadınların məşğulluğunun mövcud vəziyyəti**

Statistik məlumatların təhlilinə əsasən, işləyən və iş yeri olan qadınların payı şəhər yerləri ilə müqayisədə yüksək olsa da kənd yerlərində bu göstərici üzrə azalma müşahidə olunur (Diaqram 4.1.3). Covid-19 pandemiyasının məşğulluğa təsiri kənd yerlərindən də yan keçməmişdir. Kənd yerlərində qadınlar üzrə işsizlik səviyyəsi 2020-ci ildə 53%-ədək yüksəlmişdir.

Növbəti illərdə bu göstərici üzrə azalma müşahidə olunur. 2023-cü ildə isə onun səviyyəsi azalaraq 39,4%-ə düşmüşdür. Kənd yerlərində iqtisadi qeyri-fəal qadınların payında da bir qədər azalma baş vermiş və bu göstərici şəhər yerləri ilə müqayisədə aşağıdır.

**Diaqram 4.1.3 Yaşayış yerləri üzrə qadınların iqtisadi fəallığı,** *%-lə*



| | 2015 | | 2020 | | 2021 | | 2023 | |
|---|---|---|---|---|---|---|---|---|
| | şəhər | kənd | şəhər | kənd | şəhər | kənd | şəhər | kənd |
| İşləyənlər və iş yeri olanlar | 35,4 | 42,6 | 37,6 | 41,6 | 37,8 | 41,4 | 37,8 | 38 |
| İşsizlər | 55,3 | 48,7 | 48,9 | 52,9 | 47,7 | 52,5 | 45,3 | 39,4 |
| İqtisadi qeyri-fəal əhali | 74,1 | 71 | 72 | 68,6 | 71,6 | 68 | 70,4 | 69,7 |

Mənbə: https://www.stat.gov.az/

Kənd yerlərində qadınların əsas gəlir mənbəyi özünüməşğulluq, şəhər yerlərində isə muzdlu iş olmuşdur (Diaqram 4.1.4). Müqayisə edilən dövr ərzində kənd yerlərində özünüməşğulluqdan gələn gəlirlərin payında 11,5 f.b. artım baş vermişdir. Şəhər yerlərində isə muzdlu işdən gələn gəlirin payında 6,6 f.b. artım baş vermişdir.

**Diaqram 4.1.4 Yaşayış yerlərində muzdlu iş və özünüməşğulluq qadınların əsas gəlir mənbələri kimi, %**




Mənbə: https://www.stat.gov.az/

Təəssüfki, kənd yerlərində iqtisadi fəaliyyət növləri üzrə, o cümlədən kənd təsərrüfatında çalışan qadınlarla bağlı statistika yoxdur. Bununla belə mövcud rəqəmlər əsasında aparılan təhlilə əsasən ölkədə iqtisadi fəaliyyət növləri üzrə muzdla çalışan qadınların sayı səhiyyə və sosial xidmətlər, təhsil və istirahət, əyləncə və incəsənət sahəsində üstünlük təşkil etmişdir. Başqa sözlə, 2022-ci ildə, səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində muzdla çalışanların 77,3%-ni, təhsil sahəsi üzrə 73%-ni, istirahət, əyləncə və incəsənət sahəsi üzrə isə 61%-ni qadınlar təşkil etmişdir. Humanitar sahələrdə qadınların çoxluq təşkil etməsi daha çox iş və ailə həyatının balanslaşdırılması istəyi, məişət qayğılarının, o cümlədən uşaqlara qulluq edilməsi kimi məsuliyyətin qadınların  üzərində olması kimi səbəblərə əsaslanır.

Kişi işçi qüvvəsinin məşğulluq baxımından böyük üstünlük təşkil etdiyi sektorlar isə tikinti (92,5%), elektrik enerjisi, qaz və buxar istehsalı (90,3%), mədənçıxarma sənayesi (87,8%), nəqliyyat və anbar təsərrüfatı (83,5%) sahələridir.

Respublikamızda muzdla çalışan qadınların orta aylıq əmək haqqı kişilərlə müqayisədə aşağıdır. 2023-cü ildə qadınların orta aylıq əmək haqqı 735,7 manat, kişilərinki isə 1069,3 manat təşkil etmişdir. Qadınların orta aylıq nominal əməkhaqqının kişilərin orta aylıq nominal əmək haqqına nisbəti 68,8% təşkil etmişdir. Belə vəziyyət bütün iqtisadi fəaliyyət növləri üzrə dəyişməz olaraq qalır. Başqa sözlə, bütün iqtisadi fəaliyyət növləri üzrə muzdla işləyən qadınların orta aylıq nominal əməkhaqqı kişilərlə müqayisədə aşağıdır. İqtisadi fəaliyyət növləri üzrə muzdlu işçilərin orta aylıq nominal əmək haqqı üzrə ən çox fərq peşə, elmi və texniki fəaliyyət sahəsi üzrə olmuşdur. Bu sahədə kişilərin orta aylıq nominal əmək haqqı qadınların orta aylıq nominal əmək haqqından 2 dəfə çoxdur. Peşə, elmi və texniki fəaliyyət sahəsi üzrə çalışan qadınların orta aylıq nominal əmək haqqı 1032,7 manat, kişlərinki isə 2001,2 manat təşkil etmişdir. Göstərici üzrə ən az fərq isə təhsil və ticarət sahəsi üzrə olmuşdur.

**Kənd təsərrüfatında qadın məşğulluğu**

BƏT-in hesablamalarına görə, dünya əhalisinin dörddə birini kənd qadınları təşkil edir. Onlar həmçinin dünyanın kənd təsərrüfatı işçi qüvvəsinin 41%-ni təşkil edir. Aşağı gəlirli ölkələrdə isə bu nisbət 49%-dir. *“Kənd qadınları fermer, muzdlu və sahibkar kimi çalışırlar və məhsuldarlığa və kənd təsərrüfatının artımına güclü təsir göstərə bilirlər. Kənd təsərrüfatı sek-*

*torunda gender bərabərsizliyinin ölçülməsi çətindir. Bununla belə qadınlar həm ev işlərində, həm də öz şəxsi təsərrüfatlarında ödənişsiz fəaliyyət göstərsələr də onların kənd iqtisadiyyatına töhfələri çoxdur”* [149].

Ölkəmizdə kənd əhalisi üçün kənd təsərrüfatı əsas gəlir mənbəyidir və bu daha çox özünüməşğulluq kimi təzahür edir. Kənd təsərrüfatında çalışanların böyük hissəsi fərdi sahibkar təsərrüfatlarında fəaliyyət göstərirlər, kənd təsərrüfatı müəssisələrində çalışanların sayı isə azdır. Kəndli-fermer təsərrüfatlarında çalışan qadınlar sahənin xüsusiyyətindən asılı olaraq mövsümi fəaliyyət göstərirlər. Bu isə onların gəlirlərinin daimi olmadığına dəlalət edir. Həmçinin kənd təsərrüfatı ən çox qeyri-rəsmi məşğulluğun olduğu sahələrdəndir. Belə olan halda qeyri-rəsmi qadın məşğullar işsizlikdən müdafiə, ödənişli xəstəlik məzuniyyəti və ya hamiləlik və analıq məzuniyyəti hüququndan məhrum olurlar.

Kənd yerlərində ailə bizneslərində ənənəvi rolu kişilər tutur. Onlar daha çox qeydiyyatdan keçmiş sahibkar kimi fəaliyyət göstərir və kənd yerlərində qərar qəbul edən orqanlarda daha çox təmsil olunurlar. Statistik məlumatlara əsasən, qadın fərdi sahibkarların payı 2021-ci ildə 21,3%, 2023-cü ildə isə 22% təşkil etmişdir. Kənd yerlərində yaşayan bir çox qadının istehsal resurslarına kişilərlə müqayisədə daha az çıxışı var. Torpaq, toxum və gübrələr, mal-qara, maliyyə xidmətləri də daxil olmaqla bir çox aktivlər və xidmətlər üçün gender fərqi mövcuddur. Həmçinin qadınların təhsil və təlim üçün daha az

[149] İLO. Rural Women at Work: Bridging the gaps. https://www.ilo.org/media/418226/download

imkanlara malik olmaları da onların yeni texnologiyaları mənimsənilmələrini potensial olaraq məhdudlaşdırır. Statistik məlumatların təhlilinə əsasən respublikada kənd təsərrüfatı ilə məşğul olanlar arasında kənd təsərrüfatı torpaqlarına mülkiyyət hüququ olan qadınların payı kişilərlə müqayisədə xeyli azdır (Diaqram 4.1.5).

**Diaqram 4.1.5 Kənd təsərrüfatı torpaqlarına mülkiyyət hüququ olan əhalinin kənd təsərrüfatı ilə məşğul olan ümumi əhalidə payı**




Mənbə: https://sdg.azstat.gov.az/az/indicators/344/a-kend-teserrufati-torpaqlarina-mulkiyyet-huququ-ve-ya-hemin-torpaqlar-uzerinde-teminatli-huquqlari-

Belə vəziyyət müqayisə edilən 2015-2021-ci illəri əhatə edən dövr ərzində dəyişməz olaraq qalmışdır. Kənd təsərrüfatı ilə məşğul olanlar arasında kənd təsərrüfatı torpqlarına mülkiyyət hüququ olan qadınların payı 2015-ci ildə 18,8%-dən 2021-ci ildə 28,4%-ə yüksəlmişdir. Kişilərlə müqayisədə isə bu göstərici üzrə fərq dövrün əvvəlində 12,2 f.b.-dən dövrün sonuna 25,2 f.b.-ə yüksəlmişdir. *"Torpaqların əksər hallarda kişilərə*

*məxsus olması xüsusilə əhalinin gəlirlərinin az olduğu rayon və kəndlərdə qadınların iqtisadi imkanlarını məhdudlaşdırır. Həm qadınlar, həm də kişilər üçün bütün növ daşınmaz əmlak, xüsusilə də torpaq təhlükəsizlik, sığınacaq və dolanışıq deməkdir. Qadınların ev və torpaq hüquqlarının təminatı onların iqtisadi cəhətdən səlahiyyət sahibi olmaları üçün xüsusi önəm kəsb edir. Kənd təsərrüfatından yararlanma və aqrar biznesdə iştirak qadınların iqtisadi resurslara çıxışını artırır, maliyyə sabitliyi üçün zəmin yaradır və bir çox hallarda onların rifahının yüksəlməsinə yardım edir*" [150].

*"Kənd qadınları qanuni sahibləri olmadığı kənd təsərrüfatı torpaqlarından tez-tez istifadə etsələr də, diqqəti təkcə qadınların torpağa çıxışına deyil, həm də ona nəzarət etməyinə (məsələn, satışdan və ya icarədən gəlir əldə etmək baxımından) yönəltmək vacibdir. Qadınların torpaq sahibi olma ehtimalının kişilərə nisbətən daha az olduğu ümumi vəziyyət onların iqtisadi sahədə səlahiyyətlərinin genişləndirilməsinə təsir göstərir və fermerlik və sahibkarlıq fəaliyyətinə investisiya yatırma prosesini çətinləşdirir, məsələn, kredit götürmək üçün torpaqdan girov kimi istifadə etməyin mümkün olmaması kimi*" [151].

---

[150] BMT-nin Əhali Fondu (UNFPA), (2020). Azərbaycan Respublikasının milli qanunvericilik və dövlət siyasətinin gender aspektinin qiymətləndirilməsi üzrə hesabat. https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/hesabat_publication_end_-_final_for_pinting.pdf

[151] FAO, (2022). Kənd təsərrüfatı və kənd yerlərində gender aspektlərinin qiymətləndirilməsi – Milli Gender Profili – Azərbaycan Respublikası. Ölkə üzrə Gender Qiymətləndirilməsi Seriyası. Bakı. səh 20. https://openknowledge.fao.org/handle/20.500.14283/cc2041az

Azərbaycanda bütün məşğul qadınların 42,2%-i kənd təsərrüfatında çalışır. Bu sahədə kişilərin payı isə 30,7% təşkil etmişdir. Qeyd edək ki, yüksək gəlirli ölkələrdə kənd təsərrüfatında məşğul olanlar arasında qadınların payı 2%-dən çox deyil (Diaqram 4.1.6).

**Diaqram 4.1.6 Kənd təsərrüfatında, sənayedə və xidmət sahəsində qadın məşğulluğu,** *% (2019-cu il)*




Mənbə: https://data.worldbank.org/indicator

Aşağı gəlirli ölkələrdə isə bu sahədə çalışan qadınların payı 63% təşkil edir. Ölkəmizdə kənd təsərrüfatında çalışan qadınların payı dünya üzrə orta göstərici ilə müqayisədə 17 f.b. çoxdur. Xidmət sahələrində isə əksinə, yüksək gəlirli ölkələrdə qadınların məşğulluğu yüksək, aşağı gəlirli ölkələrdə daha azdır. Qeyd edək ki, yüksək gəlirli ölkələrdə qadınların xidmət sahələrində daha çox təmsil olunmalarına həmin ölkələrdə iqtisadiyyatın daha çox xidmət və texnologiya əsaslı olması, əhalinin həyat səviyyəsinin yüksək olması və s. faktorlar da

təsir göstərir. Respublikamızda bu sahədə qadınların məşğulluğu səviyyəsi orta gəlirli ölkələrlə eynidir.

**Qeyri-formal məşğulluq**

Qeyri-formal məşğulluq-Azərbaycan Respublikasının Əmək Məcəlləsində əmək müqaviləsi (kontrakt) bağlanılmadan müəyyən fəaliyyətin yerinə yetirilməsi kimi təsbit edilmişdir.

*"Qeyri-formal məşğulluq işçi qüvvəsinin məşğulluğunun əhəmiyyətli hissəsini təşkil edir. Qlobal miqyasda məşğul əhalinin 2 milyardının (61%) qeyri-formal iqtisadiyyatda çalışaraq öz yaşayışını təmin etdiyi hesab edilir. Kənd yerlərində yaşayanların (80%) qeyri-formal məşğulluqda olmaq ehtimalı şəhər yerlərindən (43,7%) iki dəfə çoxdur"* [152]. Bu isə sosial-iqtisadi inkişafından asılı olmayaraq dünyanın bütün ölkələrində qeyri-formal məşğulluğun mövcud olduğunu göstərir. Məşğulluğun bu forması inkişaf etmiş ölkələrlə müqayisədə inkişaf etməkdə olan ölkələrdə daha çox yayılıb. Bəzi mənbələrdə qeyd edilir ki, "*qeyri-formal işçilər bir çox problemlərlə üzləşirlər və adətən rəsmi məşğul olan işçilərdən daha kasıb və həssas olurlar"* [153].

Gender bərabərliyinin və qadınların səlahiyyətlərinin artırılması məqsədilə yaradılan BMT Qadınları təşkilatının məlumatlarına əsasən, *"inkişaf etməkdə olan ölkələrdə qeyri-rəsmi sektor qadınlar üçün əsas məşğulluq mənbəyidir. Qeyri-*

[152] ILO. Women and Men in the Informal Economy: A Statistical Picture Third Edition. 2018). https://www.ilo.org/wcmsp5/groups/public/---dgreports/---dcomm/documents/publication/wcms_626831.pdf

[153] Bonnet Florence, Joann Vanek and Martha Chen., (2019). Women and Men in the Informal Economy-A Statistical Brief. Manchester, UK: WIEGO. https://www.ilo.org/media/408286/download

*rəsmi işləyənlərə özünüməşğullar, o cümlədən küçə alveri, xırda mal və xidmət ticarət, yalnız ailə üçün kənd təsərrüfatı ilə məşğul olanlar aid edilir"* [154]. Qeyri-formal məşğulluğun yüksək paya malik olması ölkəmizdə qadınların məşğulluğu ilə bağlı əsas problemlərdən biridir. 2023-cü ildə 705 min nəfər və ya 40,4% qadın muzdlu işlərdə çalışmışdır. Bu isə iqtisadiyyat üzrə məşğul qadınların (2375,6 min nəfər) 30%-ni təşkil edir. Yerdə qalan 1670,6 min nəfər və ya 70% qadın isə qeyri-muzdlu işlərdə çalışmışdır ki, bununlada təqribən respublikamızda qeyri-formal sektorda çalışan qadınların payının yüksək olduğunu demək olar.

Qeyd edək ki, hazırda respublikamızda qeyri-formal məşğulluqla mübarizə ilə əlaqədar işlər görülməkdədir və bu məsələ hazırda sosial siyasətin prioritetini təşkil edir. Bunun üçün 2017-ci ildə tədbirlər planı təsdiq edilmişdir. Sənəd çərçivəsində *normativ hüquqi bazanın təkmilləşdirilməsi, inzibatçılığın təkmilləşdirilməsi, nəzarət tədbirlərinin gücləndirilməsi, monitorinq və qiymətləndirmə sisteminin qurulması, məlumatlandırma işlərinin təşkili kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur"* [155]. 2020-ci ildə qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarət tədbirlərinin keçirilməsi və əlaqələndirilməsi qaydası təsdiq edilmişdir.

2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyasında işsizlər arasında qadınların payının yüksək olması əmək bazarında müşahidə edilən əsas problem-

---

[154] UN Women. https://www.unwomen.org/

[155] Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 oktyabr tarixli 3287 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. https://e-qanun.az/framework/36613

lərdən biri kimi qiymətləndirilir. Sənəddə *“qadınlar arasında işsizlik səviyyəsini 2030-cuilədək minimuma endirmək, 2025-ci ilədək qadınlar üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olmaq hədəflənib”* [156]. Respublikamızda qadınların məşğulluq imkanlarının artırılmasına Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən icra edilən özünüməşğulluq proqramında şərait yaradılır. Proqram aztəminatlı ailələrin öz fərdi təsərrüfatlarına sahib olmaları və gəlirlərini artırmağa, onların dövlət yardımından asılılığını aradan qaldırılmasına və sahibkarlığa çıxış imkanı əldə etmələrinə imkan yaradır. Proqrama cəlb olunan qadınların sayı ilbəil artır, onların kiçik bizneslərini qurmalarına dəstək verilir, peşə hazırlığına cəlb edilirlər. 2022-ci ilin əvvəlində proqram çərçivəsində ümumilikdə 2 minədək işsiz və işaxtaran şəxsə aktivlər təqdim edilib ki, onlardan 500-ə yaxını qadınlardır [157]. 2024-cü ilin yekunlarını əks etdirən hesabat məlumatlarına əsasən proqrama cəlb edilən 12,2 min nəfər xüsusi kateqoriyalı şəxslər arasında qadınların sayı 7372 nəfər olmuşdur.

## Təhsilin kənd yerlərində qadınların məşğulluğuna təsiri

Məşğulluğun təmin olunmasında təhsil vacib amillərdəndir. Ali təhsil, müəyyən peşə-ixtisas sahib olmaq qadınların məşğulluğunun artırılmasında, yüksək gəlr əldə edilməsində,

---

[156] “2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli 602 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. https://e-qanun.az/framework/40416

[157] Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi saytı. https://sosial.gov.az/post_531034

həmçinin də iqtisadiyyatın inkişafında müstəsna rola malikdir. Statistik məlumatların təhlili kənd yerlərində ali təhsilli qadınların sayında artım baş verdiyini 2023-cü ildə bu göstərici üzrə qadınların payının 15% təşkil etdiyini göstərir (Diaqram 4.1.7).

**Diaqram 4.1.7 Kənd yerlərində qadınların təhsil səviyyəsi üzrə xarakteristikası** *(cəmdə xüsusi çəkisi), %*




Mənbə: https://www.stat.gov.az/

Bu isə 2022-ci illə müqayisədə 4,7 f.b. çoxdur. Kişilər üzrə bu göstərici 15,3% təşkil edir. *"Peşə təhsili həyat səviyyəsinin yüksəldilməsində, işsizliyin azaldılmasında, gənclərin rəqabətədavamlı kadr kimi formalaşmasında və məşğulluğun təmin edilməsində, yoxsulluğun azaldılmasında mühüm rol oynayır. Rəqabətli iqtisadiyyatın və inkişaf etmiş cəmiyyətin formalaşmasında da peşə təhsili vacibdir"*[ 158].

[158] Aliyeva, J., (2023). Azerbaycan'da Kırsal Nüfusun Yaşam Standartlarının İyileştirilmesinde Mesleki Eğitimin Rolü ve Önemi. I.Uluslararası Sosyal, Siyasal ve Mali Araştırmalar Kongresi. Bildiri Kitabı. (USSMAK-2023), s.59-65.

Son illər kənd yerlərində texniki-peşə ixtisasına yiyələnlərin sayında 6,7 f.b. qədər artım baş vermişdir. Kənd yerlərində qadınların böyük əksəriyyəti ümumi tam orta təhsillidir.

Beləliklə təhlil göstərir ki, bütün dünyada olduğu kimi respublikamızda da qadınların məşğulluqda payı və onların daha çox təmsil olunduğu sahələrdə orta aylıq əmək haqqı aşağıdır.

Qeyd edək ki, qadınların məşğulluğunun artırılması üçün çevik məşğulluq formalarının (natamam məşğulluq) genişlənməsinə nail olmaq, məktəbəqədər təhsil sisteminin inkişafı zəruridir. Kənd yerlərində "məsafədən iş", "freelance", "müvəqqəti iş" kimi yeni iş növləri barədə araşdırmaların aparılması və məsafədən iş rejimi üçün daha uyğun şəraitin yaradılması faydalı olardı.

Qadınların məşğulluğu ilə bağlı əsas problemlərdən biri qeyri-formal məşğulluğun yüksək paya malik olmasıdır. Qeyri-formal məşğulluqla mübarizədə qadınlar arasında davamlı maarifləndirici kampaniyaların təşkili çox önəmlidir. Respublikamızda dövlət miqyasında qeyri-formal məşğulluqla mübarizə ilə bağlı tədbirlərin davam etdirilməsi vacibdir.

## 4.2. Kənd yerlərində əlilliyi olan şəxslərin həyat səviyyəsinin yüksəldilməsi

Cəmiyyətdə elə qrup insanlar var ki, onlara münasibət daha böyük diqqət və həssaslıq tələb edir. Bunlardan biri daim sosial və mənəvi qayğıya ehtiyacı olan əlilliyi olan şəxslərdir.

Əlilliyi olan şəxslərin rifahının yaxşılaşdırılması həm də inklüziv cəmiyyətin qurulmasının əsas şərtidir.

Respublika əhalisinin 5%-ə qədərini, dünya əhalisinin isə 16%-ni əlillər təşkil edir.

Kənd yerlərində əlilliyi olan şəxslər şəhər yerləri ilə müqayisədə daha çox məhdudiyyətlərlə qarşılaşır, daha məhdud imkanlara sahib olurlar. *“Məhdud xidmətlər, uyğunlaşdırılmış mənzil, əlçatan nəqliyyat və məşğulluq imkanlarının çatışmazlığı kənd yerlərində yoxsulluq və təcrid riskini artırır. Bu amillər əlilliyi olan şəxslərin qazanc potensialını məhdudlaşdırır və müvafiq xidmətlərin və infrastrukturun çatışmazlığını kompensasiya etmək üçün xərclərini xeyli artırır”* [159].

**Əlilliyi olan şəxslərin rifahının yaxşılaşdırılması dövlətin sosial siyasətinin əsas hədəflərindən biri kimi**

Dövlət əlilliyə görə ayrı-seçkiliyə yol vermir, sağlamlıq imkanları məhdud uşaqlar da daxil olmaqla əlilliyi olan şəxslərin digərləri ilə yanaşı ictimai həyatın bütün sahələrində iştirak edə bilmələrinə, mövcud imkanlardan istifadə edə bilmələrinə təminat verir. Onlara fərdi qabiliyyət və maraqlarına uyğun olaraq həyat sürmələri üçün əlverişli şərait yaradılması, əlilliyə səbəb olan risklərin azaldılması və aradan qaldırılması, bu kateqoriyadan olan insanların reabilitasiyası və hərtərəfli inkişafı üçün tədbirlər görür. Əlilliyi olan şəxslərin digər insanlarla müqayisədə tibbi xidmətlərə daha çox ehtiyacları vardır. Bu şəxslər dövlət büdcəsi hesabına, tərtib edilmiş siyahı və qayda-

[159] European Human Rights Report, (2020).
https://mcusercontent.com/865a5bbea1086c57a41cc876d/files/ad60807b-a923-4a7e-ac84-559c4a5212a8/EDF_HR_Report_final_tagged_interactive_v2_accessible.pdf

lar əsasında, reabilitasiya vasitələri və protez-ortopedik məmulatlarla təmin edilirlər.

Əlilliyi olan şəxslərin rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin təmin edilməsi ilə bağlı qəbul edilmiş "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunda qeyd edilir ki, *"dövlət bu kateqoriyadan olan şəxslərin həyat şəraitinin yaxılaşdırılmasının təmini, əlillklə bağlı ehtiyaclarının ödənilməsi üçün kömək göstərir, həmçinin sosial müdafiə və yoxsulluğun azaldılması ilə bağlı dövlət proqramlarından istifadə etmək imkanlarını təmin edir"* [160]. Bu kateqoriyadan olan şəxslərin sosial təminat hüququ "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının qanunları ilə onlara göstərilən sosial xidmətlər isə "Sosial xidmət haqqında" qanunla tənzimlənir.

Qeyd edək ki, əlilliyi olan şəxslərin digərləri ilə bərabər cəmiyyətin həyatında iştirakının təmin edilməsi digər dövlət sənədlərində də əks olunmuşdur. 2030-cu ilədək qarşıya qoyulmuş Milli Prioritetlərdən biri dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulmasıdır. Sözü gedən prioritet üzrə "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əlilliyi olan şəxslərin rifahının yaxşılaşdırılmasını nəzərdə tutan bir sıra məqsədlər müəyyən edilmişdir. Məqsədlər arasında ədalətli və əhatəli sosial müdafiə sisteminin qurulması, əlilliyi olan şəxslər üçün sosial yardımların əlçatanlığının artırılması, onların əmək bazarına inteqrasiyasının genişləndirilməsi tədbirlərinin görülməsi də yer almaqdaır". Sənəddə

[160] "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunu. 31 may 2018-ci ildə qəbul edilmişdir. https://e-qanun.az/framework/39591

həmçinin "*əlilliyi olan şəxslərin məşğulluq səviyyəsinin 3% artımına nail olunması, ölkədə reabilitasiya müəssisələri şəbəkəsinin genişləndirilməsi, bununlada reabilitasiya infrastrukturuna əlçatanlığın təmin edilməsi nəzərdə tutulub*" [161].

İşgaldan azad edilmiş ərazilərdə də həssas əhali qruplarıının sosial müdafiəsi diqqətdən yayınmayıb. Belə ki, yaşayış məntəqələrində dövlət xidmətlərinə çıxışın təmin edilməsi üçün müasir infrasrukturunun qurulması, 2026-cı ilədək Kəlbəcər rayonunda əlilliyi olan şəxslər üçün Reabilitasiya Mərkəzinin yaradılması, o cümlədən "*əlilliyi olan şəxslərin sahibkarlıq fəaliyyətinə cəlb olunmasının dəstəklənməsi və bununlada ərazilərdə sahibkarlıq fəaliyyətinin davamlı inkişaf etdiriləræk və əhatəsinin genişləndirilməsi*" [162] görüləcək işlər arasında yer almaqdadır.

**Əlilliyi olan şəxslərin sosial müdafiəsinin mövcud vəziyyəti**

Statistik məlumatların təhlili göstərir ki, 2022-ci ildə ölkəmizdə 600 minədək əlilliyi olan şəxs vardır (Qrafik 3.3.7). Bu kateqoriyadan olan şəxslər əmək pensiyaları, sosial müavinətlər, Azərbaycan Respublikası Prezidentinin təqaüdləri və sosial yardımlar kimi aylıq ödənişlərdən ibarət sosial müdafiə ilə təmin edilirlər.

---

[161] Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası file:///C:/Users/User/Downloads/Documents/5478ed13955fb35f0715325d7f76a8ea_3699216.pdf

[162] Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə böyük qayıdışa dair I dövlət proqramı. 16 noyabr 2022-ci il tarixində Sərəncamla təsdiq edilmişdir. https://e-qanun.az/framework/52757

**Qrafik 3.3.7 Azərbaycanda pensiya və ya müavinət alan əlilliyi olan şəxslərin sayı** *(ilin əvvəlinə, min nəfər)*




Mənbə: https://www.stat.gov.az/

Müqayisə edilən 2005-2023-cü illər ərzində əlillərin sayında 1,4 dəfə artım baş versədə, 2020-ci ildən sonra əlilliyi olan şəxslərin sayında azalma müşahidə olunur. Azalmaya son illərdə əlilliyin təyin olunması sahəsində şəffaflığın təmin edilməsi, saxta əlillik təyinatlarının qarşısının alınması, sistemin təkmilləşdirilməsi üçün inzibati və sistem xarakterli tədbirlərin həyata keçirilməsi səbəb olmuşdur. 2023-cü ildə sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların payı 10% (46,7 min nəfər) təşkil etmişdir. Müqayisə edilən 2005-2023-cü illər ərzində sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların payının ən çox olduğu dövr 2019-cu ildə olmuşdur və 11,5%-ə yüksəlmişdir. Qeyd etmək lazımdır ki, statistik məlumatlar ölkəmiz-

də olduğu kimi dünyada da əlilliyi olan uşaqların sayının artdığını göstərir. UNİCEF-in əlilliyi olan uşaqlarla bağlı hesabatında *“2019-cu ildə 316,8 milyon uşaq və yeniyetmənin sağlamlıqları ilə bağlı ciddi problem yaşadıqları”* vurğulanır [163]. Uşaqlar arasında əlilliyin artması daha çox genetik xəstəliklər, infeksiyalar, travmalar, ananın yaşı, ətraf mühitin çirklənməsi kimi faktorlarla əlaqələndirilsədə, səhiyyə sistemində yeni texnologiyaların tətbiqinin genişlənməsi faktoru da unudulmamalıdır. Belə vəziyyət səhiyyədə yeni, innovativ texnologiyaların tətbiqi ilə əvvəllər ölümlə nəticələnən bir çox xəstəliklərin müalicəsi imkanlarının genişlənmiş və bunun da öz növbəsində əlillərin sayının artmasına səbəb olması ilə də izah oluna bilər. İngiltərənin “Əlil Uşaqlar üçün Büro”nun (National Childrens Bureau) məlumatlarına əsasən *“əlil uşqların sayının artmasına səbəb ağır əlilliklə doğulan körpələrin ömür uzunluğunun artması və kistik fibroz kimi anadangəlmə xəstəliklə doğulmalarıdır”* [164]. (Kistik fibroz-uşaqlar arasında ən çox görünən ağciyər və həzm sisteminin irsi, xroniki xəstəliyidir). Ağır əlilliklə doğulan uşaqlara diaqnoz qoyularaq müalicəsinin aparıla bilmə imkanının olması isə onların uzunmüddət yaşamalarına səbəb olur.

Son illər əlillərin pul gəlirlərinin artırılması məqsədilə müxtəlif fərman və sərəncamlar verilib. Prezidentin fərman və sərəncamları ilə əlilliyə görə pensiyanın orta aylıq məbləği

---

163 UNİCEF, (2023). Global report on children with developmental disabilities. https://www.unicef.org/media/145016/file/Global-report-on-children-with-developmental-disabilities-2023.pdf

164 National Childrens Bureau. https://www.ncb.org.uk/about-us/media-centre/news-opinion/are-services-keeping-pace-number-disabled-children-rises-sharply

2010-cu illə müqayisədə 2023-cü ildə 3,3 dəfə artıb. Başqa sözlə onun həcmi 98,5 manatdan 323,8 manata yüksəlib. 01.07.2023-cü ildən isə əlilliyə görə əmək pensiyalarının orta aylıq məbləği 366,3 manat təyin edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatlarına əsasən, 2010-cu ildə ölkədə əlilliyə görə pensiyaçıların sayı 311,8 min nəfər olmuşdur. Cəmi pensiyaçıların tərkibində onların payı 23,8% təşkil etmişdir. 2021-ci ildə isə əlilliyə görə pensiya alanların sayı 62,0 min nəfər artaraq 373,8 min nəfərə çatmışdır. Cəmi pensiyaçıların tərkibində isə onların payı 30,4%-ə yüksəlmişdir. 2022-ci ildə əlilliyə görə pensiya alanların sayı 347,3 min nəfər, 2023-cü ildə isə 273,1 min nəfər təşkil etmişdir. Cəmi pensiyaçıların tərkibində isə onların payı azalmış və müvafiq olaraq 29% və 24,5% olmuşdur.

Əlilliyə görə sosial müavinət alanların sayı 2023-ci ildə 209,5 min nəfər təşkil etmişdir ki, bu da 2022-ci illə müqayisədə 59 min nəfər çoxdur (Cədvəl 4.2.1).

Əlilliyə görə sosial müavinətin məbləğində artım baş versə də onun həcmi həm ehtiyac meyarından, həm də yaşayış minimumundan aşağı olmuşdur. Əlil uşaqlara verilən müavinətin orta məbləği isə 200 manat təşkil etmişdir. Uşaqlar üçün yaşayış minimumunun məbləği 193 manat olmuşdur. Hazırda əlilliyi olan şəxslərə qulluq edənlərə verilən təqaüdün həcmi isə 100 manatdır.

**Cədvəl 4.2.1 Əlilliyə görə əhaliyə dövlət tərəfindən verilən sosial müavinətlər, ehtiyac meyarı və yaşayış minimumu**

(Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatlarına əsasən, ilin əvvəlinə)

| | 2015 | | 2020 | | 2022 | | 2023 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Sosial müavinət təyin olunmuş şəxslərin sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat | Sosial müavinət təyin olunmuş şəxslərin sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat | Sosial müavinət təyin olunmuş şəxslərin sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat | Sosial müavinət təyin olunmuş şəxslərin sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat |
| Aylıq sosial müavinət alanların sayı, cəmi[1] | 338231 | 50,60 | 401249 | 118,4 | 396891 | 119,1 | 418227 | 157,0 |
| əlilliyə görə | 129888 | 49,4 | 180521 | 125,2 | 150252 | 132,2 | 209467 | 169,9 |
| Ehtiyac meyarı | - | 105 | - | 160 | - | 200 | - | 246 |
| Yaşayış minimumu | - | 131 | - | 190 | - | 210 | - | 246 |

1) Eyni zamanda bir neçə növ sosial müavinət alan şəxslər üzrə aldıqları sosial müavinətlərin sayı nəzərə alınmaqla.

Mənbə: https://www.stat.gov.az/

Göründüyü kimi, əlillərin müavinətlərinin məbləği azdır. "*Bu göstərici nəinki inkişaf etmiş, bəzi hallarda inkişaf etməkdə olan ölkələrin müvafiq göstəricisindən aşağıdır. Qeyd edək ki, müavinətlərin məbləğinin azlığı bu kateqoriyadan olan insanların sosial müdafiəsində problemlər yaradır*" [165].

[165] Əliyeva, J.R., (2022). Azərbaycan Respublikasında əlillərin sosial müdafiəsinin mövcud vəziyyətinin qiymətləndirilməsi. Journal of Baku Engineering University Economics and Administration 2. səh.146-154.

**Kənd yerlərində əlilliyi olan şəxslərin rifahı**

Kənd yerlərində əlilliyi olan insanlar əsas xidmətlərə, xüsusən də səhiyyə və reabilitasiya xidmətlərinə çıxışla bağlı maneələrlə daha çox üzləşirlər. Respublikada sağlamlıq imkanları məhdud uşaqlar üçün cəmi iki sosial xidmət müəssisəsi fəaliyyət göstərirki, onların hər ikisi Bakı şəhərində yerləşir. Həmçinin əlilliyi olan şəxslər üçün olan yeganə Peşə-əmək Reabilitasiya Mərkəzi, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəblərinin əksəriyyəti (onların sayı 16-dır) paytaxtda yerləşir.

Kənd yerlərində təcrid olunma və əsas dəstək xidmətlərindən uzaq olmaq əlilliyi olan insanlar üçün xüsusilə çətinlik yaradır. Kənd yerlərində bu kateqoriyadan olan insanların əlillikləri ilə bağlı dəstəyə, o cümlədən mütəxəssis dəstəyinə çıxışları məhdud olduğundan bu insanlar daha çox ailəyə güvənirlər. *"Rəqəmal texnologiyaların köməyi ilə bir çox sosial xidmətlərə çıxış əldə etmək mümkün olsada kənd yerlərində kommunikasiya əlaqələrinin zəif olması səbəbindən bu xidmətlər ya təklif edilmir, ya da məhdud olur"* [166].

**Əlilliyi olan şəxslərin məşğulluğunun artırılması ilə bağlı həyata keçirilən siyasət**

Hazırda dünya ölkələrində əlillərin məşğulluğunun tənzimlənməsində "kvota üsulu" ndan geniş istifadə edilir. Bu üsul məcburi məşğulluq öhdəliyini ifadə edir. Müəyyən sayda və ya nisbətdə əlillərin işə götürülməsini məcburi edən kvota

166 Minister of Health. 2023. Rural Health Strategy. Wellington: Ministry of Health. https://www.health.govt.nz/system/files/documents/publications/rural-health-strategy-oct23-v2.pdf

üsuluna əlillərin iş həyatına daxil olmasını asanlaşdıran müsbət ayrı-seçkilik təcrübəsi kimi də yanaşılır.

Ölkəmizdə də əlillərin məşğulluğunun təmin edilməsində kvota tətbiq edilir. Belə ki, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, əlilliyi olan şəxsləri işlə təmin etmək üçün müəssisə və təşkilatlarda kvota müəyyən edilir. Kvota üsulu əlilliyi olan şəxslərin məşğulluğunun təmin edilməsində əhəmiyyətlidir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il tarixli qərarı ilə işə düzəlməkdə çətinlik çəkənlər üçün kvota tətbiq edilməsi qaydası təsdiq edilmişdir. Qanunvericiliyə əsasən, kvota müəssisədəki işçilərin orta siyahı sayının 5%-dən çox olmamalıdır. Müəssisədə müəyyən edilmiş kvota tamamlandığı halda hər əlavə iş yeri üçün İşsizlikdən Sığorta Fondunun vəsaiti hesabına həmin iş yerinin 100 faiz maliyyələşməsi həyata keçirilir.

Respublikamızda əlillərin məşğulluğunun artırılmasında həyata keçirilən özünüməşğulluq proqramlarının əhəmiyyəti böyükdür. Mütəmadi olaraq proqramın əhatə dairəsi genişlənməkdədir. Özünməşğulluq proqramında əlillərə həssas sosial qrup olaraq üstünlük verilir. 2020-ci ildə özünüməşğulluq proqramına cəlb olunan 12 min nəfərdən 1837 nəfəri, 2021-ci ildə isə 16,2 min nəfərdən 1,3 min nəfəri əlilliyi olan şəxs olmuşdur. 2024-cü ildə isə 1463 əlilliyi olan şəxs qeyd edilən proqrama cəlb edilib.

**Kənd yerində əlilliyi olan şəxslərin məşğulluğuna mane olan səbəblər**

Respublikamızda əlilliyi olan şəxslərin əmək bazarına inteqrasiyası vəziyyətinin statistik öyrənilməsi məqsədilə ilk

dəfə 2021-ci ildə əlilliyi olan şəxslərin məşğulluğuna dair seçmə statistik müayinə keçirilmişdir. Mövcud vəziyyətin qiymətləndirilməsində sözü gedən seçmə statistik müayinənin nəticələrindən istifadə olunmuşdur. Müayinəyə 20894 nəfər cəlb olunmuşdur ki, bunlardan 9521 nəfəri və ya 46%-ə qədəri kənd yerlərində yaşayanlardır.

Əlilliyi olan şəxslərin məşğulluğunun aşağı olmasının bir sıra səbəbləri mövcuddur. Bəzi hallarda isə əlillər özləri əmək fəaliyyəti ilə məşğul olmaqdan çəkinirlər. Bu əlilliyi olan şəxsin işləyəcəyi halda pensiyasını və digər müavinətləri itirmək qorxusu ilə bağlıdır.

Ən önəmli səbəblərdən biri təhsildir. *"Çox az sayda əlilliyi olan şəxs ali təhsilə yiyələnə bilir. Texniki, peşə təhsili və təlimi sistemləri əksər hallarda onlar üçün əlçatan deyil. Həmçinin müəllim heyəti arasında əlillik barədə məlumatlılığın olmaması, təlim metod və vasitələrinin qıtlığı da təhsil almağı çətinləşdirir. Bir çox ölkələrdə hələ də ixtisaslaşmış peşə reabilitasiyası və təlim mərkəzlərinə rast gəlinmir. Bu mərkəzlərdə adətən məhdud bacarıqların inkişafı proqramları təqdim edilir ki, bu da çox vaxt əmək bazarının tələblərinə uyğun gəlmir"* [167].

Respublikamızda əlilliyi olan şəxslər arasında məğulluq göstəriciləri aşağıdır. Eyni vəziyyət kənd yerləri üçün də keçərlidir. Kənd yerlərində əlillər digərləri ilə müqayisədə məşğulluqla daha aşağı təmin olunurlar. Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əlilliyi olan şəxslərin

167 European Social Policy Network (ESPN). Social protection for people with disabilities – An analysis of policies in 35 countries. https://ec.europa.eu/social/BlobServlet?docId=26494&langId=en

əmək bazarına çıxışını əngəlləyən problemlər kimi göstərilir ki, *"iş yerlərində əlillər üçün infrastruktur demək olar ki, yoxdur. Bu kateqoriya insanların əmək bazarına çıxışları üçün peşəyə yiyələnməsi və peşə yönümünü dəyişmələri üçün əhatəli təhsil sistemi mövcud deyil. Bu insanlar iş yerləri ilə bağlı məlumatları əldə edə bilmir, iş yerləri məhduddur və açıq (rəqababətli) əmək bazarına çıxışla bağlı problemlər mövcuddur"* [168].

**Kənd yerlərində əlilliyi olan şəxslərin məşğulluğunun mövcud vəziyyəti**

Əlilliyi olan şəxslərin təhsili və əmək fəaliyyəti ilə məşğul olması onların cəmiyyətdə sosial-iqtisadi münasibətlərə inteqrasiyasının əsas vasitələrindəndir. Statistik məlumatların təhlilinə əsasən əlilliyi olan məşğul şəxslərin 55,8%-ni ümumi təhsili olanlar, 16%-ni orta ixtisas, 15,9 %-ni ali, 11,7 %-ni isə peşə təhsili olanlar təşkil etmişdir. Təhsili olmayan və yalnız məktəbəqədər təhsili olanların payı isə 0,6 % təşkil etmişdir (Cədvəl 4.2.2).

Şəhər yerləri ilə müqayisədə kənd yerlərində təhsili olmayanların sayı daha çoxdur. Belə ki, təhsili olmayan 37 nəfər əlilliyi olan məşğul şəxsin səviyyəsi üzrə ümumi təhsili olanların sayı  çox (2466 nəfər və ya 63%), orta ixtisas və ali təhsili olanların sayı nəzərə çarpacaq dərəcədə azdır. Müvafiq olaraq, 23% və 16,7% təşkil edir.

Müayinəyə cəlb olunanlar arasında əmək fəaliyyəti ilə məşğul olmayanların 63,2%-ni ümumi orta təhsili olanlar,

[168] Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. https://e-qanun.az/framework/25029

12%-ni orta ixtisas, 9%-ni ali, 9,2%-ni isə peşə təhsili olanlar təşkil etmişdir. Təhsili olmayan və yalnız məktəbəqədər təhsili olanların payı isə 6,4% təşkil etmişdir.

**Cədvəl 4.2.2 Kənd yerlərində əlilliyi olan şəxslərin məşğulluq səviyyəsi**

| | Əlilliyi olan şəxslərin təhsil səviyyəsi | | Əlilliyi olan məşğul şəxslərin təhsil səviyyəsi | |
|---|---|---|---|---|
| | cəmi | kənd | cəmi | kənd |
| *Cəmi* | *20894* | 9521 | *7015* | 3080 |
| Təhsili yoxdur | 1152 | 789 | 37 | 27 |
| Məktəbəqədər təhsil | 191 | 46 | 7 | 1 |
| Ümumi təhsil | 13219 | 7486 | 3911 | 2466 |
| *o cümlədən:* | | | | |
| ibtidai təhsil | 700 | 412 | 69 | 49 |
| ümumi orta təhsil | 3302 | 2093 | 830 | 587 |
| tam orta təhsil | 9217 | 4981 | 3012 | 1830 |
| Peşə təhsili | 1928 | 304 | 821 | 137 |
| *o cümlədən:* | | | | |
| ilk peşə təhsili | 1317 | 220 | 552 | 94 |
| texniki peşə təhsili | 611 | 84 | 269 | 43 |
| Orta ixtisas təhsili | 2515 | 535 | 1124 | 262 |
| Ali təhsil | 1889 | 361 | 1115 | 187 |

Mənbə: https://www.stat.gov.az/ əsasında hazırlanmışdır.

İqtisadi fəaliyyət növləri üzrə təhlilə əsasən kənd yerlərində əlilliyi olan şəxslərin 70%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində çalışır. Maliyyə və sığorta fəaliyyəti, daşınmaz əmlakla əlaqədar əməliyyatlar və turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində məşğul olanların sayı azdır.

Əlilliyi olan şəxslərin məşğulluğuna dair seçmə statistik müayinə materiallarının təhlili kənd yerlərində əlilliyi olan məşğul şəxslərin 24,4%-nin (şəhər yerlərində isə 24%) iş yerini dəyişmək istəyində olduğunu göstərir. İş yerini dəyişmək istəyinin əsas səbəbləri arasında əmək haqqının aşağı olması (50,7%), üstünlük təşkil edir (Diaqram 4.2.1).

**Diaqram 4.2.1 Kənd yerlərində əlilliyi olan şəxslərin iş yerini dəyişmək istəyinin əsas səbəbləri**




Mənbə: https://www.stat.gov.az/ əsasında müəlif tərəfindən hazırlanmışdır.

İşyerini dəyişmək istəyənlərin 23%-i iş yerinə gedib-gəlmək üçün yol-nəqliyyat infrastrukturunun onlara uyğun olmamasını, 14,4%-i iş yerində reabilitasiya vasitələri ilə təmin olunmamalarını, 12%-i isə əlverişli əmək şəraitinin olmaması və iş yerinin onların istifadəsi üçün uyğunlaşdırılmaması səbəbini göstərmişlər.

Əksər müəssisələrdə mövcud infrastrukturun olmaması əlillərin əmək fəaliyyəti ilə məğul olmasına maneə yaradır. Bənzər mənzərəni dövlət müəssisələrində də müşahidə etmək mümkündür. Əlillərin işlə təminatında öz həllini tapmalı olan məsələlərdən biri də infrastrukturdur.

Beləliklə, dövlət tərəfindən əlilliyi olan şəxslərlə bağlı həyata keçirilən sosial yönümlü tədbirlər nəticəsində sosial ödənişlərdə artım müşahidə edilsə də onlar yalnız dövlət tərəfindən verilən pensiya və müavinətlər hesabına öz tələbatlarını ödəyə bilmirlər. Əlilliyə görə sosial müavinətlərin məbləğinin pensiya məbləğindən aşağı olması birincilərin daha aztəminatlı kateqoriya kimi qiymətləndirilməsinə əsas verir. Həmçinin əlilliyi olan şəxslərin böyük hissəsi müavinət alanlardır. Onların həcmi isə həm yaşayış minimumu, həm də ehtiyac meyarından aşağıdır. Əlilliyə görə verilən müavinətlərin məbləğinin onların real tələblərini əks etdirən hər hansı bir meyara uyğun tərtib olunması və daha yüksək olması məqsədəuyğundur.

Əlilliyi olan şəxslərin digərləri ilə müqayisədə ümumi mal və xidmətlərlə yanaşı, əllilikləri ilə bağlı xüsusi mal və xidmətlərə də ehtiyacları vardır ki, bu da əlavə xərc tələb edir. Həmçinin sözü gedən xəclər əlilliyin növü və dərəcəsinə görə də əhəmiyyətli dərəcədə dəyişir. Bu xərclərin nəzərə alınmaması sosial müdafiə siyasətinin səmərəliliyini zəiflədir. Sosial müdafiə siyasətlərinin səmərəli və əhatəli olması üçün bu insanların çəkdiyi əlavə xərclərin nəzərə alınması zəruridir.

Həm dünyada, həm də respublikamızda əlilliyi olan şəxslər digərləri ilə müqayisədə daha ciddi məşğulluq problemi yaşayır. Əlilliyi olan şəxslər əmək bazarına daxil olmada fiziki

və sosial çətinliklərlə üzləşirlər. Maneələr arasında əliliyi olan şəxslərin təhsil səviyyəsinin və ixtisasının aşağı olması, işəgötürənlərin əlilliyi olan insanları işə götürməkdə maraqlı olmaması, iş yerlərinin əlilliyi olan şəxslər üçün uyğunlaşdırılmaması, mövcud infrastrukturun uyğun olmaması yer almaqdadır.

Əmək məcəlləsinə əsasən əlilliyi olan şəxslərin əmək fəaliyyəti zamanı nəzərdə tutulmuş imtiyazlar və güzəştlərlə, əmək şəraitinin yaradılması ilə bağlı məsrəflər işəgötürənlərin üzərinə düşdüyündən onlar əlilliyi olan şəxsləri işə götürməkdə maraqlı olmurlar. Qanunvericilikdə iş yerlərinin onlar üçün uyğunlaşdırılması üçün infrastrukturun yaradılması ilə bağlı tələb olunan məsrəflərin bir hissəsinin dövlət tərəfindən qarşılanması məqsədə uyğundur. Həmçinin onların məşğulluqları ilə bağlı nəzərdə tutulmuş kvotaların yerinə yetirilməsi və əlavə vakant yerlərin yaradılmasında işəgötürənlərin həvəsləndirilməsi mexanizminə ehtiyac vardır.

Hazırda respublikamızda daha çox əlillik statusunun verilməsi prosesinə əhəmiyyət verilir. Əlilliyin qarşısının alınması istiqamətində addımların atılması məqsədəuyğun olardı. Dövlət müəssisələrində səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması, iş yerlərində işçilərin əmək təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin görülməsi məqsədəuyğundur.

Respublikamızda sağlamlıq imkanları məhdud şəxslərə qulluq edən şəxslərə verilən təqaüdün həcmi aşağıdır və heç bir yaşayış standartına uyğun deyil. Onun məbləğinin artırılması zəruridir.

# V FƏSİL. KƏND ƏHALİSİNİN HƏYAT SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİ PERSPEKTİVLƏRİ

## 5.1. Kənd yerlərinin inkişafında müasir trendlər

Kənd yerlərinin inkişafında əsas məqsəd kənd əhalisinin həyat səviyyəsini yüksəltmək və kənd yerlərində sosial-iqtisadi inkişaf üçün daha çox fürsətlər yaratmaqdır. “Kənd inkişafı” geniş anlayışdır. Bu kateqoriya kənd yerlərində yaşayan, nisbətən təcrid olunmuş ərazilərdə və seyrək məskunlaşmış əhalinin də həyat keyfiyyətinin və rifahının yaxşılaşdırılmasını nəzərdə tutur. Başqa sözlə desək, kəndin inkişafı *“kənd yerlərində yaşayan əhalinin həyat keyfiyyəti də daxil olmaqla, şəhərdən kənar ərazilərin saxlanılması, böyüməsi və genişlənməsi konsepsiyasını təşviq etmək məqsədi daşıyan sosial-iqtisadi xarakterli səyləri əhatə edir”* [169].

Əvvəlki paraqraflarda qeyd etdiyimiz kimi ölkəmiz də daxil olmaqla bütün dünyada kənd yerlərində yaşayanların sayı getdikcə azalmaqdadır, proqnozlar bu tendensiyanın davam edəcəyini göstərir. Dünya əhalisinin 45%-i (3,4 mlrd. nəfər) kənd yerlərində məskunlaşmışdır, onların isə 90%-i Afrika və Asiyanın payına düşür. Hindistan (892 mln. nəfər) və Çin (569 mln. nəfər) dünyanın ən çox kənd əhalisi olan ölkələridir.

[169] Christopher L. Atkinson, (2017). University of West Florida. Global Encyclopedia of Public Administration, Public Policy, and Governance. DOI:10.1007/978-3-319-31816-5_1014-1

Həmçinin dünyada yoxsulluqdan əziyyət çəkən hər beş nəfərdən dördü kənd yerlərində yaşayır.

Bütün dünyada kənd yerlərinin inkişafı şəhər yerləri ilə müqayisədə geri qalır. Kənd yerlərində həyat şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər görülsə də reallıq görülən tədbirlərin yetərsiz olduğunu deməyə əsas verir. Kənd yerləri əhalinin qocalması, şəhər ərazilərinə miqrasiya, iqlim dəyişikliyi və ətraf mühitin deqradasiyası, artan temperatur, resursların tükənməsi, maliyyəyə və bazarlara məhdud çıxış və s. kimi problemlərlə üzləşir.

Eyni vəziyyət ölkəmiz üçün də keçərlidir. Kənd yerlərinin inkişafına nail olunması iş yerlərinin əlçatanlığının təmini, aztəminatlıların həyat səviyyəsinin yüksəldilməsi, keyfiyyətli təhsil və səhiyyəyə çıxış, təmiz içməli su ilə təmin olunma, kənd yollarının bərpası və s. kimi məsələlərin həllini tələb edir.

Baxmayaraq ki, kənd yerlərində kənd təsərrüfatı əhəmiyyətli rol oynayır, lakin, yalnız bu sahənin inkişafı ilə kənd yerlərində əhalinin rifahını yaxşılaşdırmaq mümkün deyil.

Hazırda kənd yerlərinin inkişafı dünya ölkələrinin hər birini maraqlandırır. Kəndin inkişafı olmadan ölkədə ümumi rifaha nail olmağın mümkün olmaması qənaəti mütəxəssisləri bu sahədə geniş tədqiqatlar aparmağa sövq edir. Kənd yerlərində inkişafa nail olmaqla bağlı aparılan tədqiqatların əhatə dairəsi və intensivliyi artmaqdadır. Son illər kənd yerlərinin inkişafı problemlərinə tədqiqat obyekti kimi daha çox müraciət olunur. *"Scopus verilənlər bazası əsasında dünyada kənd yerlərinin inkişafı ilə bağlı nəşrlərin sayının dinamikasının təhlili 2000-*

*2021-ci illər arasında sözü gedən məsələ ilə bağlı təxminən on dəfə artım baş verdiyini göstərir”* [170].

Müxtəlif ölkələrdə kənd yerlərinin inkişafı ilə bağlı ərazinin inkişaf səviyyəsindən, potensialından asılı olaraq fərqli proqramlar həyata keçirilir, maliyyə ayrılır. Ölkəmizdə də kənd yerlərinin inkişafına nail olunması məqsədilə yoxsulluğun azaldılması, özünüməşğulluq proqramları vasitəsilə məşğulluğun artrılması, infrastruktur obyektlərinin tikilməsi istiqamətində işlər görülür. Kənd əhalisinin həyatında əhəmiyyətli rola malik olan kənd təsərrüfatının inkişafı ilə bağlı tədbirlər həyata keçirilir.

**Kənd yerlərinin inkişafına beynəlxalq təşkilatların yanaşmaları**

Kənd yerlərinin inkişafına nail olmadan DİM-ə çatmaq mümkün deyil. Covid 19 pandemiyası bütün dünyada məqsədlərə nail olmaq perspektivlərinə, o cümlədən kənd yerlərinin davamlı və dayanıqlı inkişafına mənfi təsir göstərdi, ölkələr güclərini daha çox pandemiya ilə mübarizəyə yönəltdilər. Bu isə ölkələrdən kənd yerlərinin inkişafı ilə bağlı həyata keçirdikləri strategiyalarında mühüm dəyişikliklər edilməsini tələb edir. Hazırda beynəlxalq təşkilatlar kənd yerlərinin inkişafına böyük maraq göstərirlər. Kənd yerlərində sosial, iqtisadi və mədəni inkişafın təmini, infrastrukturun inkişafı, xidmətlərin keyfiyyətinin yüksəldilməsi ilə bağlı ölkələrə dəstək verirlər. Bunu həm maliyyə yardımı etməklə, həm də tövsiyə və təli-

[170]Marina S. Petukhova, Evgeny V. Rudoy, Nadezhda V. Orlova, 2023. "Key trends of rural development in the world and their projection on Russia," Russian Journal of Economics, ARPHA Platform, vol. 9(4), pages 336-350, December. https://rujec.org/article/109490/download/pdf/955192

matlar verməklə həyata keçirirlər. Beynəlxalq təşkilatlardan bəzilərinin kənd yerlərinin inkişafı ilə bağlı yanaşma və tövsiyələrini nəzərdən keçirək.

*BMT: "kəndin inkişafına yenidən baxılmalıdır"*

BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin (UNDESA) 2021-ci ildə hazırladığı "Kəndlərin İnkişafını Yenidən Düşünmək" adlı Dünya Sosial Hesabatında qeyd edilir ki, ölkələr kəndlərin inkişafı ilə bağlı həyata keçirdikləri siyasətlərinə yenidən nəzər yetirməlidirlər. Hesabatda kənd yerlərinin dayanıqlı inkişafı üçün müxtəlif beynəlxalq təşkilatlar, hökumətlər və digər maraqlı tərəflərin əməkdaşlığının zəruriliyi önə çəkilir. Həmçinin kənd-şəhər fərqinə son qoymağa və şəhər yaşayış səviyyəsinə çatmağa imkan verən yeni yanaşma təklif edilir, radikal ideya irəli sürülür. İdeya əvvəllər yalnız şəhərlərdə icra edilən geniş iqtisadi fəaliyyətlərin, kənd yerlərində də mümkün ola bilməsinə əsaslanır. Bunun üçün yeni rəqəmsal texnologiyaların imkanlarından istifadə etmək,internetə çıxışın asanlaşdırılması, kənd təsərrüfatı ilə yanaşı qeyri-kənd təsərrüfatı sahələrini genişləndirmək, ictimai xidmətlərə və kənd infrastrukturuna investisiyaların artırılmasının zəruriliyindən bəhs edilir.

Sənəddə kənd yerlərində tez-tez insan kapitalının itirilməsi ilə nəticələnən miqrasiyanın qarşısını alan "in-situ urbanizasiya" konsepsiyası və təcrübəsi araşdırılır. Qeyd edilir ki, ölkələr kənd yerlərinin dayanıqlı inkişafını təmin etmək üçün daha konkret iqtisadi, sosial və ekoloji tədbirlər həyata keçirməlidirlər. Bunun üçün: *"Kənd yerlərində ərzaq və qeyri-*

*ərzaq sahələrinə investisiya qoymağa maneələri aradan qaldırmaq, investisiyanın təşviqi üçün kənd təsərrüfatı məhsullarının qiymətlərinin stabilləşdirilməsi, daxili və xarici şərtlər nəzərə alınmaqla kənd təsərrüfat subyektlərinin qlobal dəyər zəncirində iştirak dərəcəsinin müəyyənləşdirilməsi, uzaq kənd yerlərinin daha çox yeni texnologiya ilə əhatəliliyinin genişləndirilməsi vacibdir. Həmçinin kənd yerlərinin fiziki və rəqəmsal infrastrukturuna yüksək və davamlı xərclər cəlb etmək, habelə ixtisaslı işçi qüvvəsinin kənd yerlərində qalması üçün əmək bazarının qorunmasını təmin etmək lazımdır"* [171].

COVID-19 pandemiyası yoxsulluq və bərabərsizliyi artırmaqla yanaşı, dünyada kənd yerlərində inkişafla bağlı ciddi təhdid yaratmışdır. Bununla belə, kənd yerlərində daha yaşıl və sağlam gələcək qurmaq üçün imkanlarda mövcuddur.

*İƏİT XXI Əsr üçün Yeni Kənd İnkişaf Paradiqması təklif edir*

İƏİT inkişaf etməkdə olan ölkələr üçün 21-ci əsr üçün yeni kənd inkişaf paradiqması təklif edir. Bu komponentlər DİM hədəfləri ilə üst-üstə düşür. Bunlar aşağıdakılardır:

*İdarəetmə*. Əgər icra imkanları zəifdirsə, ardıcıl və möhkəm strategiya kifayət etmir. Bütün səviyyələrdə idarəetmə potensialının və şəffaflığın artırılması vacibdir.

*Çoxsaylı sektorlar*. Kənd təsərrüfatı inkişaf etməkdə olan ölkələrdə əsas sektor olaraq qalır. Kənd təsərrüfatı ilə yanaşı,

[171] World Social Report 2021 Reconsidering Rural Development. https://socialprotection.org/discover/publications/world-social-report-2021-reconsidering-rural-development

sənaye və xidmət sektorunun inkişafı, bu sahədə məşğulluğun artırılması təşviq edilməlidir.

*İnfrastruktur.* İnfrastrukturun təkmilləşdirilməsi inkişaf etməkdə olan ölkələrdə strategiyanın əsas hissəsi olmalıdır. Kənd yerlərində təhsil və səhiyyə xidmətlərinə çıxışın əlçatanlığı təmin edilməlidir.

*Şəhər-kənd əlaqələri.* Kəndlərin məhsul və xidmətlərə, yeni texnologiyalara çıxışı şəhər mərkəzlərinin fəaliyyətindən asılıdır. Kəndin inkişaf üçün kənd ərazilərinə təcrid olunmuş ərazi kimi deyil, bütöv ərazinin bir hissəsi kimi yanaşılmalıdır.

*İnklüzivlik.* Hökumətlər ölkədə yoxsulluğun və bərabərsizliyin həllində bütün sosial qrupları nəzərə almalı, heç kəsi kənarda qoymamalıdır.

*Gender*. Qadınların kənd yerlərinin inkişafında rolunun artırılması ilə yanaşı, onların mülkiyyət hüquqlarının tanınması və resurslara əlçatanlıq imkanlarının genişləndirilməsi də təmin edilməlidir.

*Demoqrafiya*. Əhalinin sürətlə qocalması hazırda inkişaf etməkdə olan ölkələrdə kənd yerlərinin üzləşdiyi ən aktual problemlərdəndir. Bu problemin həlli təhsil, səhiyyə və sosial müdafiə siyasətləri, eləcə də ailə planlaması arasında yaxşı əlaqələndirməni nəzərdə tutur.

*Davamlılıq*. Kənd yerlərində diqqət yalnız təbii resurslar-dan yüksək asılılığın azaldılmasına deyil, həmçinin iqlim dəyi-

şikliyi, enerji, ərzaq və su qıtlığından yaranan təhlükələrə qarşı da artırılmalıdır [172].

Təşkilata görə qeyd edilən səkkiz komponentə əsaslanan yeni kənd inkişafı yanaşması inkişaf etməkdə olan ölkələrdə balanslaşdırılmış və davamlı inkişafa töhfə verə bilər.

*Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (İFAD)*

Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (İFAD) BMT-nin ixtisaslaşmış qurumudur. Fondun məqsədi inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı və kənd yerlərinin inkişafına dəstək vermək və yoxsulluqla mübarizə aparmaqdır. Bunun üçün kənd təsərrüfatının və kənd yerlərinin inkişafı layihələrinin maliyyələşdirilməsini təmin edir. Xüsusilə sosial inkişaf, gender bərabərliyi, gəlirlərin artırılması, ərzaq istehsalı, ekoloji dayanıqlılıq və səmərəli idarəetməyə yönəlmiş layihələri dəstəkləyir. Həmçinin strateji planların hazırlanmasında və layihələrin icrasında da iştiak edir, ölkələrə uzunmüddətli, aşağı faizli kredit və qrant imkanları təklif edir. 177 ölkə IFAD-ın üzvüdür. Azərbaycan 1997-ci ildən IFAD-ın üzvüdür. Təşkilat indiyədək Azərbaycanda 232,3 milyon ABŞ dolları dəyərində altı layihəyə dəstək verib.

Qurum 2016-cı ildə "Kəndin inkişafı" adlı hesabat hazırlamışdır. Hesabat yoxsulluğun və aclığın aradan qaldırılması və davamlı inkişaf üçün inklüziv kənd transformasiyasına (inclusive rural transformation) diqqət yetirməyə çağırış edir. Kənd transformasiyası dedikdə isə kəndlərin kənd təsərrüfatından asılılığının azaldılması və əlavə gəlir mənbələrinə çıxış

[172] OECD (2016), A New Rural Development Paradigm for the 21st Century: A Toolkit for Developing Countries, Development Centre Studies, OECD Publishing, Paris. http://dx.doi.org/10.1787/9789264252271-en

imkanın yaradılması prosesi nəzərdə tutulur. Hesabatda qeyd edilir ki, "*kənd yerləri sürətlə dəyişməli, davamlı şəkildə inkişaf edən iqtisadiyyatlara daxil edilməli və ümumi rifaha töhfə verməlidir*" [173].

Həmçinin Fond 2016-2025-ci illəri əhatə edən strategiya hazırlamışdır. Bu sayca fondun 5-ci strategiyasıdır. Strategiyanın məqsədi kənd əhalisinə maliyyə dəstəyi göstərmək, yoxsulluğu azaltmaq və ərzaq təhlükəsizliyinə nail olmaqdır. Sənəddə üç əsas strateji hədəf müəyyən edilib: "*yoxsul kənd əhalisinin istehsal imkanlarını artırmaq, bazarda iştirakdan əldə etdikləri faydanı artırmaq, iqtisadi fəaliyyətlərin iqlim dəyişikliklərinə davamlılığını gücləndirmək*" [174].

*Asiya İnkişaf Bankının kəndin inkişafı ilə bağlı tövsiyələri*

AİB-nin hazırladığı 2030-cu ilədək inkişaf strategiyasının məqsədi həddindən artıq yoxsulluğun aradan qaldırılması üçün səylərin davam etdirilməsi, firavan, inklüziv, möhkəm və davamlı Asiya və Sakit okean regionuna nail olmaqdır. Məqsədə nail olmaq üçün yeddi prioritet müəyyənləşdirilib ki, bunlardan biri də "Kənd inkişafı və ərzaq təhlükəsizliyinin təmin edilməsi"dir. Prioritetdə kənd yerlərinin inkişafına diqqətin ar-

---

173 İFAD. Rural Development Report 2016. Fostering inclusive rural transformation. https://www.ifad.org/documents/38714170/39155702/Rural+development+report+2016.pdf/347402dd-a37f-41b7-9990-aa745dc113b9

174 IFAD. Strategic Framework 2016-2025. Enabling inclusive and sustainable rural transformation. https://www.ifad.org/documents/38714170/40237917/IFAD+Strategic+Framework+2016-2025.pdf/d43eed79-c827-4ae8-b043-09e65977e22d?t=1521824856000

tırılması və kənd təsərrüfatı dəyər zənciri əlaqələrinin genişləndirilərək bazara çıxışın asanlaşdırılması nəzərdə tutulub.

Sənəddə qeyd edilir ki, *"məhsul yığımından sonrakı itkilərin azaldılması və kənd təsərrüfatında əlavə dəyər yaradılmasının təşviq edilməsi kənd gəlirlərinin artırılmasına və regionda ərzaq təhlükəsizliyinin artırılmasına kömək edəcəkdir. Qabaqcıl texnologiyalardan istifadə məhsuldarlığın artırılmasına, torpaq və su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə, qida təhlükəsizliyinin təmin edilməsinə və təbii ehtiyatların idarə edilməsinin təkmilləşdirilməsinə yardım edəcəkdir"* [175].

Prioritetə çatmaq üçün kənd-şəhər əlaqəsinin gücləndirilməsi, etibarlı enerji, su təchizatının təmin edilməsi, kanalizasiyaya çıxışın genişləndirilməsi və bərk tullantıların idarə edilməsi, səmərəli səhiyyə və təhsil xidmətlərinin gücləndirilməsi, ekoturizmin təşviqi və kənd yerlərində kənd iqtisadi mərkəzlərinin yaradılması vacibdir.

*Avropa Komissiyası. "Kənd yerləri üçün uzunmüddətli baxış: əsas nailiyyətlər və irəliyə doğru yollar"*

Avropa Komissiyasının sədri Ursula fon der Leyen kəndin inkişafı ilə bağlı fikrini belə ifadə edir *"kənd yerləri cəmiyyətimizin toxumasıdır və iqtisadiyyatımızın ürək döyüntüsüdür. Onlar bizim iqtisadi potensialımızın əsas hissəsidir və biz kəndlərimizi qoruyub saxlayacağıq, onların gələcəyinə*

---

[175] Asian Development Bank. Strategy 2030 Operatıonal Plan for Priority 5: Promotıng rural development and food securıty, 2019–2024. https://www.adb.org/sites/default/files/institutional-document/495971/strategy-2030-op5-rural-development-food-security.pdf

*sərmayə qoyacağıq”* [176]. Bu fikirlər kənd yerlərinin inkişafının iqtisadiyyatda nə qədər əhəmiyyətli olduğunu bir daha əks etdirir.

Kənd yerlərinin mühüm rollarını davam etdirə bilməsini təmin etmək üçün Avropa Komissiyası 2040-cı ilə qədər uzunmüddətli hədəf müəyyən etmişdir. Uzunmüddətli hədəfin bir hissəsi kimi Kənd Paktı işə salınmış və Kənd Fəaliyyət Planı hazırlanmışdır.

Kənd Paktı Avropa, milli, regional və yerli səviyyədə dövlət orqanları, vətəndaş cəmiyyəti, biznes, akademik dairələr və vətəndaşlar arasında əməkdaşlığa xidmət edir. Paktın üç məqsədi var: Kəndin səsini gücləndirmək və siyasi gündəmə çatdırmaq, şəbəkə, əməkdaşlıq və qarşılıqlı öyrənmənin təmin edilməsi, könüllü öhdəliklərin təşviq edilməsi və monitorinqi [177].

**Davamlı inkişafa nail olunmasında kənd yerlərinin inkişafı zəruridir**

21-ci əsrdə dünyanın gələcəyi üçün imkanları baxımından kənd yerləri əhəmiyyətlidir. Demoqrafik proqnozlar 2050-ci ilədək dünya əhalisinin 9 mlrd-dan çox olacağını göstərir. Kənd yerləri artan ərzaq tələbatının ödənilməsində əsas rola malikdir. Rəqəmsallaşma, ağıllı texnologiyaların tətbiqi, kompyuterləşmə kənd yerləri üçün imkanlar yaradır. Ölkələrin sosial-iqtisadi şəraitindən,

---

[176] Europen Comission. A long-term Vision for the EU's Rural Areas - Towards stronger, connected, resilient and prosperous rural areas by 2040. https://eur-lex.europa.eu/legal-content/EN/TXT/HTML/?uri=CELEX:52021DC0345

[177] EU. https://eur-lex.europa.eu/legal-content/EN/ALL/?uri=comnat:COM_2024_0450_FIN

texnoloji inkişafından, mədəni xüsusiyyətlərindən asılı olaraq kənd yerlərinin inkişafına yanaşmalarında fərqlər müşahidə olunur. 2000-ci illərdən sonra isə yanaşmalarda daha çox çoxsahəlilik, sosial inklüzivlik, rəqabətli cəmiyyət, yerli tələbatın yaradılması, vahid siyasət əvəzinə yerli diferensiallaşdırılmış siyasət və strategiyalar, informasiya texnologiyalarından istifadə kimi məsələlər yer almağa başlamışdır. Hazırda ölkələrdə kənd yerlərinin inkişafı startegiyası Davamlı İnkişaf Məqsədləri (SDGs) çərçivəsində formalaşır.

**Azərbaycanda kənd yerlərində yoxsulluğun azaldılması**

Kəndin inkişafına nail olmaq üçün yoxsulluğun azaldılması başlıca şərtdir. Bütün beynəlxalq təşkilatların və hökumətlərin kəndin inkişafı ilə bağlı tövsiyələrində yoxsulluğun azaldılması ilk sıralarda yer alır. Kənd yerləri təmiz su, kanalizasiya, keyfiyyətli səhiyyə və təhsil xidmətlərinə, infrastruktura çıxışla bağlı çətinliklərlə üzləşirlər. Bu çatışmazlıqlar kənd yerlərinin inkişafına mane olur. Kənd əhalisinin yaşadığı sağlamlıq bərabərsizliyi mənfi sosial və ətraf mühit faktorları, eləcə də səhiyyə sisteminin zəif olması nəticəsində yaranır. Kənd yerlərində xidmətlərin, o cümlədən səhiyyə xidmətlərinin gücləndirilməsinin vacibliyi BMT-nin yoxsulluğun aradan qaldırılması ilə bağlı “2018-2027-ci illər üzrə Üçüncü Onillik” üçün fəaliyyət planında da vurğulanmışdır.

Qeyd etdiyimiz kimi dünyada yoxsulluq həddində yaşayanların böyük əksəriyyəti kənd yerlərində cəmləşmişdir.

*2013-cü ildə gündəlik gəliri 1,90 dollardan az (ifrat yoxsullar) və ya gündəlik gəliri 1,90-3,10 dollar (orta yoxsullar) arasında gəlirlə yaşayanların müvafiq olaraq 80%-i və 75%-i kənd yerlərində yaşayır"* [178]. Almaniyanın Hanns R. Neumann Stiftung (HRNS) qeyri-kommersiya təşkilatının hesabatlarına əsasən *"kənd təsərrüfatının əsas gəlir mənbəyi olduğu kənd yerlərində yaşayan əhalinin əksəriyyəti üçün təhsil, səhiyyə və digər xərcləri ödəmək və yığım etmək çətin olur. Kənd yerlərində yaşayan əksər kiçik fermerlər ancaq yaşamaq üçün kifayət qədər pul qazanırlar"* [179]. Gəlirlərinin az olması isə onlara sosial rifahlarını təmin etməkdə çətinlik yaradır.

Respublikada yoxsulluğun səviyyəsində 2005-ci illə müqayisədə 2022-ci ildə 23,8 faiz bəndi qədər azalma baş vermiş, başqa sözlə bu göstərici 29,3%-dən 5,5%-ə enmişdir (Cədvəl 5.1.1). Yoxsulluğun səviyyəsində müşahidə edilən azalma pandemiyaya qədər davam etsədə, 2020-ci ildən başlayaraq əksinə yüksəlmişdir. Eyni vəziyyət kənd yerlərində də müşahidə edilir. Kənd yerlərində yoxsuluğun səviyyəsi 2020-ci ildə 7,3%-ə yüksəlmiş, sonrakı illərdə bir qədərdə artaraq 2022-ci ildə 8,6%-ə çatmışdır. 2023-cü ildə isə onun səviyyəsi bir qədər azalaraq 6,8%-ə düşmüşdür. Bu göstərici üzrə yaşayış yerləri üzrə fərq mövcuddur. 2022-ci ildə bu fərq 5,7 f.b., 2023-cü ildə isə 3 f.b.-ə qədər olmuşdur. Başqa sözlə 2022-ci ildə şəhər əhalisinin 2,9%-i, kənd əhalisinin isə 8,6%-

---

[178] Castañeda and others (2018). A New Profile of the Global Poor. World Development, vol. 101, pp. 250-267.
[179] Hanns R. Neumann Stiftung (HRNS). Towards a Living Income in Rural Areas http://www.hrnstiftung.org

i, 2023-cü ildə isə müvafiq olaraq, 3,9% və 6,8%-i yoxsulluq səviyyəsində yaşamışdır.

Kənd əhalisinin yoxsulluq səviyyəsinin xərclərə görə qiymətləndirdikdə yoxsulların sayının gəlirlərə görə müəyyən edildiyindən daha çox olduğu görünür (2022-ci ildə 10%).

Yoxsulluq həddi göstəricisinin həcmində artım baş vermiş, 2023-cü ildə bu göstərici 247,1 manat təşkil etmişdi ki, bu da 2005-ci illə müqayisədə 5,8 dəfə çoxdur. Fikrimizcə yoxsulluq həddinin əhalinin real tələbatlarının nəzərə alaraq müəyyən edilməsi daha məqsədə uyğundur.

**Cədvəl 5.1.1. Azərbaycanda yoxsulluq səviyyəsi və onun dəyişməsi**

| | 2005 | 2010 | 2019 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| Yoxsulluq həddi, manat | 42,6 | 98,7 | 194,9 | 204,7 | 229,6 | 247,1 |
| Yoxsulluq səviyyəsi, faizlə | 29,3 | 9,1 | 6,2 | 5,9 | 5,5 | 5,2 |
| *yaşayış yerləri üzrə bölgü, faizlə* | | | | | | |
| şəhər | - | - | 5,3 | 4,3 | 2,9 | 3,9 |
| kənd | - | - | 7,3 | 7,8 | 8,6 | 6,8 |

Mənbə: https://www.stat.gov.az/ əsasında hazırlanmışdır.

Təhlil göstərir ki, bütün dünyada olduğu kimi respublikamızda da yoxsulların əksəriyyəti kənd yerlərində yaşayır. *“Kənd əhalisinin torpaq mülkiyyətçisinə çevrilməsi və istehlak etdikləri məhsulları fərdi təsərrüfatlarından əldə etmə imkanının olmasına baxmayaraq, kənd yerlərində infrastrukturun aşağı səviyyədə olması, enerji, qaz və su təchizatındakı problemlər, maliyyə resursu çatışmazlığı və s.*

*kimi məsələlər ondan istifadəni çətinləşdirir”* [180]. Həmçinin kənd yerlərinə nisbətən şəhər yerlərində xüsüsi ilə də paytaxtda gəlir əldə etmək imkanları daha yüksəkdir.

Yoxsulluğun azaldılmasında, əhalinin rifahının artırılmasında sosial sahibkarlığın inkişaf etdirilməsi də müsbət rol oynaya bilər. Sahibkarlığın bu formasının inkişafı üçün *“maarifləndirmə işlərinin aparılması, qanunvericilik bazasının təkmilləşdirilməsi və subyektlərin fəaliyyətini tənzimləyən dövlət orqanının mövcud olması, həmçinin dövlət tərəfindən stimullaşdırıcı mexanizmin hazırlanması zəruridir”* [181].

**Azərbaycanda kənd yerlərinin inkişaf perspektivləri**

Qeyd edək ki, ölkədə qəbul edilmiş sosial-iqtisadi inkişaf proqramları çərçivəsində regionlarda əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bağlı əhəmiyyətli tədbirlər görülmüş və müsbət nəticələr əldə edilmişdir. Bununla belə kənd yerlərinin inkişafı üçün bundan sonra da ciddi işlərin görülməsi vacibdir. Qeyd edək ki, bundan əvvəlki paraqraflarda, kənd yerlərində həyat səviyyəsinə təsir göstərən sosial-iqtisadi amillərlə bağlı təhlillərin yer aldığı bölmədə, bu məsələlərə geniş yer verilmişdir. Hazırda dünyadakı demoqrafik artım fonunda ərzaq təhlükəsizliyi, xüsusən də

---

[180] Əliyeva, J. Yoxsulluğun azaldılmaası əhalinin həyat səviyyəsinin yüksəldilməsinin istiqaməti kimi. Azərbaycan Kooperasiya Universiteti, Təhsil Nazirliyi, İqtisadçılar İttifaqı, Kənd Təsərrüfatı Nazirliiyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş “Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri” mövzusunda beynəlxalq elmi-praktiki konfrans, Bakı, 2 may, 2018, s.928-930.

[181] Abdullayeva R., (2023). İnklüziv sosial müdafiə. Monoqrafiya. 472 s.

Azərbaycan üçün aktual məsələ olan su resurslarının tükənməsi təhlükəsi, enerji mənbələrinin səmərəli istifadəsi, kəndlərdə göstərilən xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılması kimi məsələlər "ağıllı kənd" anlayışını da aktual edir.

Kənd yerlərinin inkişafında vacib amil kimi sayılan innovativ yanaşma, rəqəmsallaşma, alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi, ictimai xidmətlərin elektron təminatı, ətraf mühitin mühafizə edilməsi, tullantıların idarə edilməsi yeni yaradılacaq "ağıllı kənd"lərə kompleks şəkildə tətbiq olunmalıdır. Məlumdur ki, işğaldan azad olunmuş ərazilərimizdə inşa olunacaq yeni yaşayış yerləri "ağıllı kənd" konsepsiyası əsasında tikilir. Böyük Qayıdışa dair I Dövlət Proqramında mütərəqqi beynəlxalq təcrübə, dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb. "Ağıllı kənd" müasir yanaşmalar fonunda yaranıb və hazırda bu konsepsiya təcrübədə həyata keçirilməkdədir. "Ağıllı kənd"lərin əhalinin həyat şəraitinin yaxşılaşdırılmasında son dərəcə əhəmiyyətli rol oynayacağı şübhəsizdir.

**Kənd yerlərində rəqəmsal inklüzivlik**

Beynəlxalq təcrübə rəqəmsal texnologiyaların kənd yerlərinin simasının dəyişdirilməsində mühüm rol oynadığını göstərir. Rəqəmsallaşma prosesi həm kənd təsərrüfatına, həm də ümumilikdə kənd yerlərinə, xüsusilə yeni və daha keyfiyyətli xidmətlərin göstərilməsinə müsbət təsir göstərir. Son illər innovasiyanın tətbiqi, rəqəmsal transformasiya ilə bağlı əhəmiyyətli işlər görülməkdədir. Müəyyən nəticələrin

əldə edilməsinə baxmayaraq görülməsi vacib olan işlərin sayı da az deyil.

Respublikamızda yaşayış yerləri arasındakı mövcud rəqəmsal uyğunsuzluq xüsusən sabit infrastruktur çatışmazlığı və rəqəmsal savadlılığın aşağı olması ilə əlaqədardır. Statistik məlumatların təhlili kənd yerlərində internetə çıxışı olan ev təsərrüfatlarının payının ildən-ilə artdığını göstərir (Diaqram 5.1.1).

**Diaqram 5.1.1 Yaşayış yerləri üzrə internetə çıxışı olan ev təsərrüfatlarının xüsusi çəkisi, %**




Mənbə: https://www.stat.gov.az/ əsasında hazırlanmışdır.

Əgər 2018-ci ildə internetə çıxışı olan ev təsərrüfatlarının payı 71,7% idisə, 2022-ci ildə 12,1 f.b. artaraq 83,8%-ə çatmışıdır. Şəhər yeləri ilə müqayisədə kənd yerlərində internetə şıxışı olan ev təsərrüfatlarının payı dövrün əvvəlində 7,6 f.b., dövrün sonunda isə 7,8 f.b. geri olmuşdur.

Kənd yerlərində mobil telefonlarla əhatə olunma səviyyəsi yüksəkdir. Sabit genişzolaqlı bağlantı şəhər yerləri ilə müqayisədə aşağı olsa belə, kənd yerləri mobil rabitə ilə daha yaxşı təmin olunmuşdur. Kənd yerlərində mobil rabitə

telekommunikasiyasından geniş istifadə olunur. 2022-ci ildə kənd yerlərində əhalinin 97,2%-i mobil telefonlara sahib olmuşdur. Ümumi mobil genişzolaqlı şəbəkənin əhatə dairəsi və tətbiqi yüksək olsa da, yaşayış yerləri arasında keyfiyyətli və sürətli internetdən istifadə ilə bağlı ciddi rəqəmsal uyğunsuzluq mövcuddur.

Ölkədə elektron xidmətlər həyata keçirilir, bütün nazirliklər, dövlət qurumları, yerli icra hakimiyyəti orqanları elektron hökumət portalı vasitəsilə xidmət göstərir. Lakin kənd yerlərində rabitə və məlumat məhdudiyyətləri bu xidmətlərdən istifadəni məhdudlaşdırır.

Kənd yerlərində inkişafa nail olunmada rəqəmsal inklüzivliyin təmin olunması, başqa sözlə kənd yerlərinin rəqəmsallaşması əhəmiyyətli rol oynayır. Kənd yerlərinin rəqəmsallaşması sosial-iqtisadi inkişafa nail olmada yeni innovativ texnologiyalardan istifadəni nəzərdə tutur ki, bu da son nətcədə kənd yerləri üçün yeni imkanlar yaradır. Hazırda beynəlxalq təcrübədə kənd təsərrüfatı sahəsinin modernləşdirilməsi ilə məhsulların satışının gücləndirilməsi, fermer və istehsalçılar arsında əlaqələrin yaxşılaşdırılmasına nail oluna bilinib. Bu imkaların ölkəmizdə tətbiqi, fermerlərin onlayn bazarda uğurlu və səmərəli fəaliyyəti üçün rəqəmsal bacarıqların inkişaf etdirilməsi son dərəcə əhəmiyyətlidir.

Beləliklə, 21-ci əsrdə kənd inkişafı həm çətinliklərlə, həm də imkanlarla üzləşir. Təbii resurslardan asılılıq, iqlim dəyişikliyi, iqtisadi baxımdan şəhərlə müqayisədə gerilik, internet iqtisadiyyatının qeyri-bərabər təsirləri inkişaf imkanlarını daha da məhdudlaşdırır.

Rəqəmsallaşma, texnogiyanın tətbiqinin genişləndirilməsi yaşayış yerləri arasında fərqi azaltmağa imkan yaradır.

Beynəlxalq təşkilatlar kəndin inkişafına xüsusi əhəmiyyət verirlər. İFAD inkişaf edən dünyanın başlanğıc nöqtəsinin kənd olduğunu bildirir. Təşkilatlar öz səriştə və məqsədələrinə uyğun olaraq kənd yerlərinin inkişafı üçün bəzi tövsiyələr irəli sürür. Yoxsulluqla mübarizə isə əsas şərt kimi dəyərləndirilir. Azərbaycanda kənd yerlərində yoxsulluğun azaldılması ilə bağlı işlər görülsədə kənd yerləri iqtisadi imkanlar və keyfiyyətli xidmətlərə əlçatamlıqla bağlı çətinliklərlə üzləşirlər. Bu isə kənd yerlərinin davamlı və dayanıqlı inkişafıını zəruri edir.

Kəndin inkişafı çoxfaktorlu məsələdir. Kənd yerlərinin davamlı və dayanıqlı inkişafı dövlət proqramlarının əsas məqsədi olmaqla yanaşı kəndlərdə infrastrukturun inkişafına nail olunması, aqrar sahədə innovasiyanın təşviqi, kənd həyat tərzinə müsbət münasibətin formalaşdırılması zəruridir.

### 5.2. Azərbaycanda kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsində kənd təsərrüfatının potensialından səmərəli istifadə

Kənd yerlərində əhalinin gəlirlərinin artırılmasında əsas istehsal vasitələrindən olan mülkiyyətlərindəki torpaqlardan hansı məqsədlər üçün istifadə etmələri böyük rol oynayır. Torpaq sahələrinin xarakteristikasını əks etdirən 5.2.1 saylı cədvəl məlumatlarının təhlilinə əsasən son illər kənd yerlərində torpaq sahəsinə malik olanların sayında və torpaq sahəsinin həcmində (55,1 faiz bəndi) azalma baş vermişdir.

**Cədvəl 5.2.1. Kənd yerləri üzrə ev təsərrüfatlarının torpaq sahələrinin xarakteristikası,** *faizlə*

| | 2005 | 2010 | 2015 | 2021 | 2005-ci illə müqayisədə 2021-ci ildə, faiz bənd +artma, -azalma |
|---|---|---|---|---|---|
| Torpaq sahəsi olanlar | 96,2 | 93,4 | 92,0 | 93,4 | -2,8 |
| Sahənin orta ölçüsü, sot | 108.3 | 82,0 | 51,9 | 53,2 | -55,1 |
| *Sahə aiddir:* | | | | | |
| kəndli təsərrüfatına | 56.0 | 37,1 | 24,0 | 27,0 | -29 |
| fermer təəsərrüfatına | 0.5 | 0,1 | 0,1 | 0,3 | -0,2 |
| həyətyanı sahə | 41.9 | 62,4 | 75,8 | 72,5 | +30,6 |
| bağ-bostan, yay evi | - | 0,0 | 0,1 | 0,2 | - |
| *Mülkiyyət növü:* | | | | | |
| xüsusi mülkiyyət | 97,1 | 95,8 | 98,0 | 95,9 | -1,2 |
| icarədədir | 0,4 | 0,7 | 0,9 | 1,0 | +0,5 |
| müvəqqəti istifadə | 1,4 | 3,0 | 1,1 | 3,1 | -1,7 |
| *Hansı məqsədə istifadə olunur* | | | | | |
| yalnız dincəlmək üçün | 0,1 | 0,2 | 3,8 | 4,7 | +4,6 |
| yalnız ailə üçün becərilir | 18,7 | 29,3 | 42,5 | 38,7 | +20 |
| ailə və satış üçün becərilir | 78,3 | 69,7 | 52,7 | 56,1 | -22,2 |
| yalnız satış üçün istehsal edilir | 1,4 | 0,1 | 0,3 | 0,4 | -1,0 |
| sahə yeni istismara götürülüb | 0,1 | 0,2 | 0,3 | 0,0 | -0,1 |
| Başqa | 1,4 | 0,4 | 0,4 | 0,1 | -1,3 |

Mənbə: https://www.stat.gov.az/ əsasında hazırlanmışdır.

Azalma kəndli və fermer təsərrüfatları üçün istifadə olunan torpaq sahələrinin həcmində də müşahidə olunur.

Bununla belə bu göstərici üzrə post neft illərində bir qədər artım izlənilir.

Mülkiyyət növü üzrə torpaq sahələrinin xarakteristikasının təhlili xüsusi mülkiyyətdə olan torpaq sahələrinin həcmində 2005-2021-ci illər ərzində 1,2 faiz bənd azalma, icarəyə verilən torpaq sahələrinin həcmində isə cüzi artım baş verdiyini göstərir. Torpaq sahəsindən hansı məqsədlə istifadə olunması mühüm əhəmiyyət daşıyır. Son illər yalnız ailə üçün becərmək məqsədilə istifadə olunan torpaqların sahəsində artım, satış üçün becərilən torpaqların sahəsində isə azalma baş vermişdir.

Qeyd edək ki, *"kənd əhalisinin torpağa sahib olması bir tərəfdən onların təsərrüfat fəaliyyətinin genişlənməsinə səbəb olsa da, digər tərəfdən xalis (azad) rəqabətli təsərrüfatçılıq fəaliyyətini məhdudlaşdırır. Belə olan halda kənd təsərrüfatı sahəsi çıxılmaz dilema ilə üzləşir. Belə ki, kənd təsərrüfatı sahəsi bir tərəfdən bazar münasibətlərinin nəzəri-praktiki tələbinə uyğun olaraq çox sayda kiçik sahibkar təsərrüfatlarından formalaşmalıdır, digər tərəfdən isə kiçik təsərrüfat subyektləri özlərini ayrı-ayrılıqda əmək ehtiyatları ilə təmin etsələr də, digər istehsal vasitələri ilə, o cümlədən maliyyə vəsaitləri, xammal, material, texnika və s. ilə kifayət qədər təmin edə bilmirlər. Bu isə kənd təsərrüfatında mülkiyyət baxımından* sərbəst qalmaqla, kontrakt əsasında kooperasiyaların yaradılmasını zəruri edir" [182].

---

[182] Əliyeva, J.R., (2019). Kənd yerlərində sahibkarlığın maliyyə təminatındaki problemlər və onun aradan qaldırılması yolları. Azərbaycan xalqının Ümummilli lideri H.Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş

**Kənd təsərrüfatında kooperasiya münasibətlərinin inkişafının zəruriliiyi**

DSK-nin məlumatlarına əsasən respublikada ümumi kənd təsərrüfatının məhsul istehsalının 90%-i fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları, 10%-i isə daha iri torpaq sahələrinə sahib kənd təsərrüfatı müəssisələri tərəfindən həyata keçirilir. Son illər fərdi sahibkar təsərrüfatlarının sayında azalma müşahidə edilir. Başqa sözlə onların sayı 2021-ci ildə 910-dan 2022-ci ildə 893-ə düşmüşdür. 2023-cü ildə isə onların sayı bir qədərdə azalaraq 847-ə düşmüşdür. Kənd təsərrüfatı müəssisələrinin sayı isə bir qədər artaraq 1159-dan 1203-ə çatmışdır. Fərdi sahibkar təsərrüfatlarının sayında azalma baş verməsinin səbəbi ya rəqabətə davam gətirə bilməyib aqrar bazarı tərk etmək məcburiyyətində olması, yaxud da başqa təsərrüfatlarla birləşib fəaliyyət göstərməsi olmuşdur. Qeyd edək ki, kooperasiya münasibətlərinin inkişaf etdirilməsi kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin genişləndirilməsini təmin edə bilər.

Hazırda dünyada kooperativ təsərrüfatçılıq əlaqələrinin genişləndirilməsi və dəstəklənməsinə xüsusi əhəmiyyət verilməkdədir. *"Kooperasiyalar fermerlərə resurslarını artırmağa, kollektiv aktivlərini bütün iştirakçıların və onların icmalarının xeyrinə istifadə etməyə imkan verir. Kooperativdəki fermerlər birlikdə qərarlar qəbul edir, əldə etdikləri mənfəəti kənar investorlarla deyil, üzvlər arasında bölüşürlər. Fermerlərə məxsus kooperativlərdən əldə edilən gəlir ya yenidən biznesə investisiya edilir ya da üzvlərə qaytarılır. Təsərrüfat kooperativ-*

---

"Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivləri" mövzusunda respublika elmi konfrans. Bakı, SDU. s. 319-321.

*ləri yerli icmaları və onların iqtisadiyyatlarını dəstəkləmək üçün vacib rol oynayırlar”* [183]. ABŞ-da fermerlər kooperativlərdə birləşərək daha aşağı qiymətə toxum və ya kənd təsərrüfatı avadanlığı kimi məhsullar almaq və üzvlər arasında paylaşmaqla istehsal xərclərinə qənaət edə bilirlər. Beləliklə, mövsümün sonunda qənaət hesabına gübrə, suvarma, heyvan yemi və sairəyə daha çox pul xərcləyə bilirlər. Qazanclarının bir hissəsini məhsullarının marketinqinə xərcləmək imkanı yaranır. Resurslarını birləşdirmək istehsalçılara daha böyük bazarlara daxil ola bilməyə və istehsalda əks əlaqə qurmağa imkan yaradır [184].

Bu təsərrüfat formaları aqrar istehsalın səmərəliliyinin yüksəldilməsi, məhsulların rəqabət qabiliyyətliliyinin artırılması, texnoloji cəhətdən yenilənmə imkanı əldə edilməsi, aqrar sektorda investisiya fəallığının artırılması və s. kimi üstünlüklərə malikdir. Kiçik təsərrüfata malik subyektlərin bir başa bazara çıxışı məhduddur, məhsullarının qiymətləri aşağıdır, özlərini infrastrukturla təmin etməkdə çətinlik yaşayırlar. Bu isə onların fəaliyyətinə maneə yaradır. Bu baxımdan da kənd təsərrüfatında fəaliyyət göstərən fermerlərin əməkdaşlığı vacibdir. Ölkəmizdə kənd təsərrüfatı kooperasiyasının formalaşmasına və inkişafına təkan vermək o cümlədən, *“kənd təsərrüfatı məhsulları istehsalçılarının könüllü birləşməsi əsasında iri kənd təsərrüfatı müəssisələri yaratmaq, kooperasiya iştirakçı-*

[183] Official website of the International Business Cooperative Association of the United States. https://ncbaclusa.coop/resources/co-op-sectors/agriculture-co-ops/
[184] Feed the Future. U.S. Government's Global Hunger and Food Security İnitiative. The official site of Agrilinks, the US online hub. https://agrilinks.org/about-agrilinks (09.04.2024).

*larının iqtisadi, sosial və digər maraqlarını qorumaq”* məqsədilə 2016-cı ildə qanun qəbul edilmişdir [185]. Həmçinin 2011-2015-ci illər üçün məşğulluq strategiyası çərçivəsində regionlarda kənd təsərrüfatı məhsullarının istehsalı və satışı sahəsində kooperasiyasının yaradılması və inkişafı istiqamətində müəyyən tədbirlər görülmüşdür. Görülən işlərin davamı kimi yaradılacaq kooperasiyaların işləmə mexanizminin hazıranması məqsədilə “2017-2022-ci illər üçün kənd təsərrüfatı kooperasiyalarının inkişafına dair Dövlət Proqramı” qəbul edilmişdir. Proqramda *“kənd yerlərində birgə təsərrüfatçılıq formalarının inkişafına təkan verməklə yanaşı, kooperativ üzvlərinin gəlirlərinin artmasına, həmin təsərrüfatlara investisiyaların cəlb edilməsinə şərait yaradılması nəzərdə tutulmuşdur”* [186]. Sənəd çərçivəsində müəyyən işlər görülsədə yetərli deyil, həmçinin kooperasiyaların stimullaşdırılmasında alət kimi girovsuz, uzunmüddətli kreditlərin verilməsi məqsədəuyğundur.

**Kənd təsərüfatının maliyyə təminatı**

Qeyd edək ki, aqrar islahatlarla əlaqədar kənd əhalisi iqtisadi resurslara, müəyyən səlahiyyətlərə, həmçinin ictimai məhsulun hərəkətinin bütün mərhələlərində tam müstəqilliyə malik olsalar da, sözün əsl mənasında iqtisadi müstəqilliyə nail ola bilməmişlər. *“İqtisadi müstəqilliyə isə, yalnız sahibkarlıq fəaliyyəti mexanizminin müntəzəm dövlət tənzimlənməsi əsasında nail olmaq olar və bu zaman yüksək iqtisadi səmərə əldə*

---

[185] “Kənd təsərrüfatı kooperasiyası haqqında” Azərbaycan Respublikasının qanunu. 14 iyun 2016-cı ildə qəbul edilmişdir.

[186] “Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının 2017-2022-ci illər üçün inkişafına dair Dövlət Proqramı”. 14 iyul 2017-ci ildə təsdiq edilib.

*etmək mümkündür. Yəni, kəndlinin sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlir həm onun bu fəaliyyət ilə əlaqədar xərclərini, həm də ailənin çoxçeşidli istehlak tələbatını və həm də istehsal fəaliyyəti dairəsini genişləndirmək üçün yetərli olmalıdır”* [187, s.378]

Məlumdur ki, kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarların gəlirləri təbii iqlim şəraitindən asılılığın yüksək olması, kapitalın dövr etmə sürətinin aşağı olması və s. amillərdən asılı olaraq kəskin dəyişmələrə məruz qalır, kənd təsərrüfatı məhsulları istehsalçılarının öz vəsaitləri hesabına investisiya qoymaq, eləcədə maliyyə bazarlarında müvafiq vəsaitlər təmin etmək imkanını məhdudlaşdırır. Belə vəziyyət, dünyanın əksər ölkələrində müşahidə olunur və kənd təsərrüfatında sahibkarların maliyyə qıtlığı problemi ilə üzləşmələrinə səbəb olur. Problemin həlli məqsədilə əksər ölkələrdə strateji əhəmiyyət kəsb edən və zərərlə başa gələn məhsul istehsalçıları dövlət tərəfindən himayə olunur.

Qeyd edək ki, ölkəmizdə kənd təsərrüfatında məhsul istehsalçılarının istehsal prosesində qarşılaşdıqları çətinlikləri aradan qaldırmaq məqsədilə tədbirlər görülür. 23 yanvar 2007-ci il tarixli «Kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi haqqında» sərəncamla əkin sahəsinin becərilməsində istifadə etdikləri yanacaq və motor yağına görə, buğda və çəltik səpininə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsinə dair qaydalar müəyyən edilmişdir. Kənd təsərrüfatı məhsul istehsalçıları 2014-cü il 01 yanvar tarixin-

---

187 Alıyev, İ.H. Aqrar sahə modernləşmə dönəmində: problemlər və onun həlli yolları. (kollektivmonoqrafiya). Bakı, 2009. 505 s.

dən 5 il müddətinə torpaq vergisi istisna olmaqla gəlir vergisi, ədv və əmlak vergisindən azaddırlar və s. 2019-cu ildən aqrar sahədə yeni subsidiya mexanizmi tətbiq edilir və kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması qaydaları müəyyənləşdirilib. 2020-ci ildən subsidiyalar hər il üçün Aqrar Subsidiya Şurasının qəbul etdiyi əmsallara uyğun verilir. Yeni qaydalar subsidiyalaşma prosesinin sadələşdirilməsi və vahid mərkəzdən idarə olunmasında əhəmiyyətlidir. 01.01.2023-cü il tarixindən dövlət büdcəsindən verilən subsidiyalara görə kənd təsərrüfatı ilə məşğul olan fiziki şəxslər gəlir vergisindən müddətsiz, hüquqi şəxslər isə mənfəət vergisindən 1 il müddətinə azad edilib.

Torpağın məhsuldarlığı kənd təsərrüfatı istehsalının ən zəruri şərtidir. İnkişaf etmiş ölkələrdə torpaqların keyfiyyətinə görə kənd ərazilərinin təsnifatı hazırlanır və daha aşağı keyfiyyət qrupuna malik kənd təsərrüfatı təyinatlı torpaq sahələri olan kəndlilərə keyfiyyətin bərpasına yönəlik məqsədli subsidiyalar ayrılır. Respublikamızda da dövlət büdcəsindən bu xüsusiyyət nəzərə alınmaqla subsidiyaların ayrılmasının təmin edilməsi məqsədə uyğun olardı.

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə verilmiş kreditlərin ümumi həcminin artımı, əsasən, büdcə vəsaiti ilə verilən güzəştli kreditlər hesabına təmin edilmişdir. Bu isə ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrində fəaliyyət göstərən subyektlərin kommersiya şərtləri ilə maliyyə vəsaitləri cəlb etmək imkanlarının məhdud olduğunu göstərir. Kənd yerlərində kəndli təsərrüfatlarının iqtisadi potensialının zəif olması, kənd yerlərində torpaq və əmlak ba-

zarlarının kifayət qədər inkişaf etməməsi səbəbindən kreditin alınması ilə bağlı girov təminatında yaranan problemlər maliyyə təminatında ciddi problemlər yaradır. Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafını nəzərdə tutan DP-nın icrasının ilk ilinin yekunları ilə bağlı konfransda Prezident İ.Əliyev *"bankların, xüsusilədə özəl bankların iqtisadiyyatın inkişafına təkan vermələrin vacibliyindən bəhs edilib. Onların daha çox biznes kreditlərinə üstünlük vermələrinin, verilən kreditlərin faiz dərəcələrinin aşağı salmalarının zəruriliyindən, kənd yerlərində kredit əldə edilməsi üçün təklif olunan girov əmlakının yerlərdə deyil, məhz paytaxtda tələb olunmasının yol verilməz olduğunu bildirmişdir"* [188]. Sadalanan maneələrin aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi, həmçinin kənd təsərrüfatı sahəsinə kompleks yanaşmanın tətbiqi məqsədə müvafiqdir.

Kənd təsərrüfatının maliyyələşdirilməsi istiqamətində aparılan təhlil göstərir ki, kənd əhalisinin həyat səviyyəsi, maddi rifah halı maliyyə-kredit mexanizmindən əhəmiyyətli dərəcədə asılıdır. Kənd yerlərində güzəştli kreditlərin verilməsi kənd əhalisinin öz təsərrüfatlarını genişləndirməklə yanaşı kiçik və orta sahibkarlığın inkişafına əlavə maliyyə dəstəyidir. Aqrar sahədə fəaliyyət göstərən sahibkarlar üçün maliyyə resurslarına çıxış imkanlarının genişlənməsi maliyyə inklüzivliyinə və iqtisadi dayanıqlılığa əhəmiyyətli töhfə verə bilər. Kənd təsərrüfatında fəaliyyət göstərən hüquqi şəxslərə verilən

[188] Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda İlham Əliyevin giriş nitqi. https://president.az/az/articles/view/35705

kreditlərin təhlilini 5.2.2 saylı cədvəl məlumatlarına əsasən nəzərdən keçirdikdə aydın olur ki, kənd təsərrüfatına cəmi kredit qoyuluşu 2013-cü ildə 732,7 milyon manatdan 2022-ci ildə 583,7 milyon manata düşmüşdür. Başqa sözlə 149 milyon manat azalma baş vermişdir.

**Cədvəl 5.2.2. Kənd təsərrüfatında fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər*** (mlyn. manat)

| | 2013 | 2015 | 2021 | 2022 | 2013-cü illə müqayisədə 2022-ci ildə: + artma; - azalma |
|---|---|---|---|---|---|
| Cəmi kredit | 732.7 | 506,0 | 563,2 | 583,7 | -149 |
| - dövlət müəssisələrinə | 4,6 | 6,8 | 0,0 | 1,4 | -3,2 |
| - özəl müəssisələrə | 728,1 | 499,3 | 563,2 | 582,3 | -145,8 |
| Qısa müddətli kreditlər | 10,0 | 27,9 | 34,9 | 118,8 | +108,8 |
| - dövlət müəssisələrinə | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| - özəl müəssisələrə | 10,0 | 27,9 | 34,9 | 118,8 | +108,8 |
| Uzun müddətli kreditlər | 722,7 | 478,2 | 528,3 | 464,9 | -257,8 |
| - dövlət müəssisələrinə | 4,6 | 6,8 | 0,0 | 1,4 | -3,2 |
| - özəl müəssisələrə | 718,1 | 471,4 | 528,3 | 463,5 | -254,6 |

Mənbə: AR Mərkəzi Bankının illik hesabatları. https://cbar.az/page-6/annual-reports əsasında tərtib edilmişdir

* Bank olmayan kredit təşkilatları istisna olmaqla.

Qısamüddətli kreditlərin həcmində artım, uzunmüddətli kreditlərin həcmində isə azalma baş versədə verilmiş kreditlərin böyük hissəsi uzunmüddətli kreditlər olmuşdur. Bu nisbət müqayisə edilən dövr ərzində dəyişməmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik məlumatlarına əsasən sahələr üzrə kredit qoyuluşunun tərkibində 2005-2018-ci illərdə kənd təsərrüfatına kredit

qoyuluşunun həcmi artsada, xüsusi çəki etibarı ilə bu göstərici üzrə azalma izlənilir.

2022-ci ildə verilmiş cəmi 583,7 milyon manat kreditin 1,4 milyon manatı dövlət mülkiyyətində olan müəssisələrin, 3335,2 milyon manatı isə özəl müəssisələrin payına düşmüşdür. Başqa sözlə desək, verilən kreditlərin tərkibində özəl müəssisələrə cəlb edilmiş kreditlərin xüsusi çəkisi 99% təşkil etmişdir. Kənd əhalisinin məşğulluğunun təmin edilməsində, sahibkarların fəaliyyətinin səmərəliliyinin artmasında kredit qoyuluşunun müddəti mühüm rol oynayır. Buna görə də kənd təsərrüfatında qısamüddətli kreditlərin uzunmüddətli kreditlərə transformasiyası mexanizminin işlənməsi məqsədə uyğundur. Qeyd edək ki, kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlara verilən kreditlərin faiz stavkalarının yüksək olması onlara götürdükləri kreditləri vaxtında və tam ödəməyə imkan vermir. Fikrimizcə sahibkarlara aşağı faiz stavkaları ilə uzunmüddətli kreditlərin verilməsi, verilən kreditlərə görə istehsalçının ödəməli olduğu faiz stavkasının müəyyən hissəsinin dövlətin büdcə vəsaitləri və yaxud xüsusi fondların vəsaitləri hesabına ödənilməsi məqsədə uyğun olardı.

Qeyd edək ki, kənd təsərrüfatının maliyyə təminatının yaxşılaşdırılmasında kənd təsərrüfatına investisiya qoyuluşunun həcminin artırılması əhəmiyyətlidir. *"Kənd təsərrüfatına yönəldilən investisiyaların artırılması bu sahədə məhsul istehsalını sürətləndirməklə yanaşı ixtisaslaşma səviyyəsinin artırılmasına da xidmət edə bilər. Ölkədə maliyyə imkanlarının məhdudiyyətliliyini nəzərə alıb, kənd*

*təsərrüfatının inkişafı üçün xarici ölkələrin investorlarını və həmin ölkələrin bank-maliyyə qurumlarının bu sahənin dinamik inkişafına yönəldilməsi məqsədə uyğundur"* [189].

Son illər ölkədə mövcud iqtisadi potensialdan səmərəli istifadə və ixracyönümlü istehsalın təşviqi istiqamətində ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı məqsədilə *"2018-2027-ci illər üçün çayçılığın, 2018-2025-ci illər üçün çəltikçiliyin, baramaçılığın və ipəkçiliyin, sitrus meyvəçiliyinin, 2017-2022-ci illər üçün pambıqçılığın inkişafına dair Dövlət Proqramları qəbul edilmişdir"* [190]. Fikrimizcə qəbul edilmiş proqramların icrası regionlarda əmək ehtiyatlarından, təbii iqtisadi resurslardan daha effektiv istifadə olunmaqla məşğulluğun artmasına və kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşmasına müsbət təsir edəcəkdir.

Ölkəmizdə işğaldan azad edilmiş ərazilərdə regionun kənd təsərrüfatı potensialından daha səmərəli istifadə edilməsi ilə bağlı tədbirlər görülməsi nəzərdə tutulub. Bu ərazilərdə 2026-cı ilədək *"yeni torpaq sahələrinin kənd təsərrüfatı dövriyyəsinə cəlb olunması və məhsuldar ərzaq istehsalı sistemləri təmin edilməklə dayanıqlı kənd təsərrüfatı təcrübələrinin tətbiqi"* əsas hədəf kimi qarşıya qoyulub [191]. Aqrar sahədə dayanıqlı inkişafın təmin edilməsi mükəmməl sığorta sistemini təşkil etmədən qeyri-mümkündür. Belə ki,

---

[189] Alıyev, İ.H. Aqrar sahənin inkişafına dair ümumiləşdirilmiş təklif və tövsiyyələr (makroiqtiadi səviyyədə). Bakı, 2008. 73 s.

[190] AR Kənd Təsərrüfatı Nazirliyinin rəsmi saytı. http://agro.gov.az

[191] Azərbaycan Respublikasının "İşğaldan azad edilmiş ərazilərinə böyük qayıdışa dair I dövlət proqramı". https://e-qanun.az/framework/52757

sığortanın kənd təsərrüfatına geniş tətbiqi müvafiq sahə üzrə maliyyə resurslarına çıxış imkanlarının genişlənməsinə, aqrar sahəyə biznes marağı və investisiyaların cəlb edilməsinə, istehsalın yüksəlməsinə, kənd təsərrüfatı ərzaq məhsullarının təhlükəsizliyinin təmin olunmasına və həmçinin kənd təsərrüfatı məhsullarının ixracının genişləndirilməsinə birbaşa təsir etməklə kənd əhalisinin gəlirlərinin artmasına müsbət təsir göstərir.

Qeyd edək ki, son illər aqrar sahədə sığorta mexanizminin əhatə dairəsinin genişlənməsi ilə bağlı işlər görülməkdədir. 2019-cu ildə Aqrar Sığorta Fondu yaradılmışdır. Aqrar sığorta sistemi dövlət-özəl əməkdaşlığı əsasında 01.01.2020-ildən qüvvəyə minmiş "Aqrar Sığorta haqqında" qanun əsasən könüllülük prinsipi əsasında qurulub. 2020-ci ildə sığorta qaydaları təsdiq edilmişdir. Sığorta mexanizmindən faydalanan fermer və təsərrüfatların sayı, sığortalanan əkin sahələrinin həmçinin, sığorta ödənişlərinin həcmində artım baş vermişdir. Aqrar Sığorta Fondunun məlumatlarına əsasən *"2023-cü ildə sığorta olunan əkin sahəsinin həcmi 380476 hektar olmuşdur ki, bu da 2022-ci illə müqayisədə 43% çoxdur. Bitkiçilik sahəsi üzrə yığılan sığorta haqlarının həcmi 13 milyon manat təşkil etməklə, 2022-ci illə müqayisədə 4,2 milyon manat çox olmuşdur"* [192].

Müəyyən nəticələr əldə edilsədə mexanizminin təkmilləşdirilməsi davam etdirilməlidir. Xüsusilə, aqrar sığorta ilə bağlı məlumatlılığın genişləndirilməsinə, fermerlərə dəstək

[192] Kənd Təsərrüfatı Nazirliyinin rəsmi saytı. https://agro.gov.az/az/news/030420241

proqramlarının tətbiq edilməsinə, sığota şirkətlərinin fermerlərə ödənişlərinə nəzarət edilməsinə, su təminatı sisteminin təkmilləşdirilməsinə ehtiyac var. İqlim dəyişikliyi ilə əlaqədar yaşanan quraqlıq məhsuldarlığa bir başa təsir göstərir. Sel, dolu kimi təbiət hadisəsi kimi quraqlıq da kənd təsərrüfatına ciddi ziyan vurur. Bu təbiət hadisəsilə mübarizə üsulu olmadığından quralıq hadisəsinin də sığorta zərfinə daxil edilməsi məqsədəuyğundur. Həmçinin quraqlığın təsirinin azaldılması üçün su resurslarının idarəedilməsinin və suvarma texnologiyasının təkmilləşdirilməsi zəruridir.

Dövlət büdcəsindən taxıl əkin sahələrinin təbii fəlakətlərdən və texnogen amillərin təsiri ilə yarana biləcək zərərin bir hissəsini ödəmək məqsədilə müəyyən miqdar vəsait ayrılsa da əkin sahələrinin əhəmiyyətli hissəsi sığortalanmamışdır. Respublikada kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarların və ailə təsərrüfatlarının əhəmiyyətli hissəsi taxıl istehsalı ilə məşğul olduğundan taxıl əkin sahələrinin sığortalanması zəruridir.

Beləliklə, aparılan təhlil göstərir ki, ölkədə aqrar sahə üzrə əhəmiyyətli işlər görülsədə, bununla belə bu sektor üzrə yüksək inkişaf əldə edilməmişdir. Kənd təsərrüfatı sahəsinin iqlim şəraitindən asılı olduğundan və ölkənin ərzaq təhlükəsizliyini təmin etməsi kimi xüsusiyyətlərə malik olduğundan bu sahənin daim dövlət tənzimlənməsinə ehtiyacı vardır.

Fikrimizcə sahibkarlara aşağı faiz stavkaları ilə uzunmüddətli kreditlərin verilməsi, verilən kreditlərə görə istehsalçının ödəməli olduğu faiz stavkasının müəyyən hissəsinin döv-

lətin büdcə vəsaitləri və yaxud xüsusi fondların vəsaitləri hesabına ödənilməsi məqsədə uyğun olardı.

Kənd təsərrüfatında kooperasiyaların inkişafının təşviqi məqsədə uyğundur. Kənd təsərrüfatında kooperasiyaların inkişafına dövlət dəstəyinin istiqamətləri kimi kənd yerlərində torpaq bazarının formalaşdırılması, kənd əhalisinə və kooperativlərə maliyyə-kredit xidmətlərinin genişləndirilməsi, o cümlədən güzəştli şərtlərlə kreditləşmənin təmin edilməsi, istehsal vasitələrinə olan tələbatın güzəştli lizinq şərtləri hesabına təmin edilməsi, torpaq sahələrinin, gələcək məhsulların və tikinti obyektlərinin girov qoyulması yolu ilə kredit ayrılması və Kredit Zəmanət Fondunun yaradılması vacibdir.

## 5.3 Azərbaycanda kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsində turizmin rolunun artırılması

Son illər kənd əhalisinin gəlirlərini artırmaqla onların sosial rifahının yaxşılaşmasına, yerli iqtisadi artımı və sosial dəyişikliyi stimullaşdırmaq kimi yüksək potensiala malik olması kənd turizmini bütün dünyada populyarlaşdırmaqdadır. Turizmin bu növü dünya təsərrüfat fəaliyyətinin bir sahəsinə çevrilməkdədir. Ümumdünya Turizm Təşkilatı (UNWTO) 2020-ci ili dünya miqyasında turizmin və kəndin inkişafı ili kimi elan etmişdir. Təşkilatın bu addımında məqsəd kənd yerlərində iş yerləri və imkanlar yaratmaq, təbii və mədəni irsin qorunması, şəhər miqrasiyasının qarşısının alınması, inklüzivliyin təmin edilməsində turizmin roluna ictimaiyyətin

diqqətini cəlb etmək olmuşdur. Kənd turizmi kənd yerlərində davamlı inkişaf üçün fürsət rolunu oynayır.

ÜTT-nın hesablamalarına görə, dünya turizminin 20%-i yaşıl turizm iştirakçılarının payına düşür. Bu turizm iştirakçılarının maraqlarında prioritetliyi kənd mənzərələri, təbiətin zəngin ehtiyatları, köhnəlmiş ənənələr, qonaqpərvərlik qaydaları, memarlıq və mədəniyyət abidələri, xalq əyləncə mərasimləri təşkil edir. Təşkilatın baş kaibi Zurab Pololikoşvili turizmin bir çox kənd icması üçün "həyat xətti" olduğunu vurğulayır.

Turizm haqqında qanunda kənd turizmi "*turistlərin kənd təsərrüfatı obyektlərində təsərrüfat fəaliyyətində iştirakı (aqroturizm), kənd həyat tərzi, yerli ərazinin təbii, tarixi və mədəni dəyərlərinin öyrənilməsi ilə bağlı xidmətlərin göstərilməsi ilə müşayiət olunan turizm*" növü kimi təsbit olunub [193].

**Kənd turizminin kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşmasında rolu**

Kənd turizminin əhəmiyyəti ilə bağlı aparılan araşdırmalarda onun bir çox faydaları olduğu məlum olur. *"Turizmin bu növü iqtisadi, sosial-mədəni, ekoloji, istirahət və təhsilin inkişafı baxımından 4 əsas fayda verir. Iqtisadi faydası isə daha çoxdur"* [194]. "*Kənd turizmi kənd yerlərinin davamlı inkişafının formalaşmasında çox mühüm sahədir və*

[193] Turizm haqqında Azərbaycan Respublikasının Qanunu. 18 fevral 2022-ci ildə qəbul edilmişdir.
https://e-qanun.az/framework/49162

[194] Liu, YL., Chiang, JT. & Ko, PF. The benefits of tourism for rural community development. Humanit Soc Sci Commun 10, 137 (2023).
https://doi.org/10.1057/s41599-023-01610-4

*müxtəlif sosial, iqtisadi və ekoloji amillər və göstəricilər vasitəsilə həyata keçirilir”* [195]. Kənd turizmi yerli resurslardan düzgün istifadə etməklə işsizlərin sayının azaldılmasında, gənclərin və qadınların kənd yaşayış yerlərinin iqtisadi və sosial həyatına cəlb edilməsində, həyat səviyyəsinin yüksəldilməsində, kənd təsərrüfatının və ümumilikdə kənd yerlərinin davamlı inkişafında və inklüzivliyin təmin olunmasında əhəmiyyətli rol oynayır.

Turizmin bu növünün inkişafı kənd yerlərində daimi və il boyu fəaliyyət göstərən əlavə gəlir mənbəyinin yaradılmasına və kəndlərdə iş yerlərinin açılmasına səbəb olur. Bu təsərrüfat sahəsinin inkişafı kənd əhalisinin istehsal etdiyi məhsulların satışı üçün yeni bazarların əldə edilməsində, yerli xidmət mədəniyyətinin yüksəlməsində, mövcud mənzil ehtiyatlarından istifadə olunmasında əhəmiyyətli rola malikdir. Kənd turizminin inkişafı digər sektorların o cümlədən, tikinti, kənd təsərrüfatı, xidmət sektorunun inkişafına, gənclərin sahibkarlıq fəaliyyətinə meylinin artmasına, sahə ilə bağlı bacarıqların inkişafına da təkan verə bilər. Üstün cəhətləri kimi həm də əl işləri ilə hazırlanan məhsulların, yerli və ənənəvi yeməklərin, ərzaq məhsullarının satışından, həmçinin turistlərin daşınmasından, bələdçilikdən gəlir əldə etmə imkanlarını göstərmək olar. Kənd turizminin digər turizm növlərindən üstün cəhətlərindən biri daha az vəsait hesabına başa gəlməsidir. *“Turizm kənd və ucqar ərazilərdə həm birbaşa, həm də dolayısıyla ənənəvi fəaliyyətlərin qorunub*

---

[195] Sadeghi, H.O., Seidaiy, S., (2023). Tourism and Rural Development. DOI: 10.5772/intechopen.111400

*saxlanılması və bərpası yolu ilə yeni iş yerləri yarada bilər. Bu sektor xüsusilə ixtisası olmayan qadınların və gənclərin məşğulluğunun təmin edilməsində əhəmiyyətlidir”* [196]. Məlumdur ki, son illərdə gəlir əldə etmək məqsədilə kənd əhalisi öz evlərini icarəyə verməkdə maraqlı olsalar da, lazımi məişət-abadlıq şəraitinin olmaması səbəbindən xidmətlərin aşağı səviyyədə təqdim olunması daha çox insanın, xüsusilə də xarici turistlərin kəndlərə üz tutmasına mane olur. Hazırda kəndlərə əsasən yerli turistlər səfər edirlər ki, bu da kənd evlərinin icarə qiymətlərinin otel və kurortlarla müqayisədə münasib olması ilə əlaqədardır. Təbiətlə təmasda olmaq, ekoloji cəhətdən təmiz, orqanik və ucuz ərzaqlarla qidalanmaq istəyi kənd həyat tərzinə, mədəniyyətinə və adət-ənənələrinə maraq iri sənaye şəhərlərində yaşayanlarda kəndlərdə istirahət etmək arzusu yaradır. Turizm potensiallı regionlarda kənd turizmindən gələn gəlir kənd əhalisinin məşğulluğunun artırılmasında və yoxsulluqdan müdafiəsində böyük rol oynaya bilər.

### Kənd turizminin mövcud vəziyyəti

Qeyd edək ki, respublikamızda əhalinin kənd turizmindən əldə etdikləri gəlirlər və bu sahədə məşğul olanlarla bağlı statistik məlumatlar yoxdur. Lakin daxili turizmlə bağlı statistik məlumatların təhlilindən görünür ki, paytaxt və Naxçıvan iqtisadi rayonu istisna olmaqla digər bütün iqtisadi rayonlarda turizm səfəri edənlər arasında

---

[196] UN Tourism. https://www.unwto.org/world-tourism-day-2020/tourism-and-rural-development-technical-note

kirayəyə götürülmüş evlərdə gecələmələrin sayında azalma baş vermişdir (Cədvəl 5.3.1).

**Cədvəl 5.3.1 Turizm səfəri etmiş şəxslərin kirayəyə götürülmüş evlərdə gecələmə sayı,** *min gecə*

| | 2021 | 2022 | 2021-ci illə müqayisədə 2022-ci ildə, artma/azalma |
|---|---|---|---|
| Ölkə | 6780,7 | 9466,5 | + 2685,8 |
| Bakı şəhəri | 4826,9 | 7887,0 | + 3060,1 |
| Naxçıvan Muxtar Respublikası | 212,9 | 431,4 | + 218,5 |
| Abşeron-Xızı iqtisadi rayonu | 545,2 | 431,2 | -114,0 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 24,8 | 6,1 | -18,7 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 388,4 | 244,4 | -144,0 |
| Qarabağ iqtisadi rayonu | 109,3 | 75,9 | - 33,4 |
| Qazax-Tovuz iqtisadi rayonu | 235,0 | 158,0 | -77,0 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 48,3 | 35,0 | -13,3 |
| Lənkəran-Astara iqtisadi rayonu | 137,8 | 71,1 | -66,7 |
| Mərkəzi Aran iqtisadi rayonu | 71,2 | 65,5 | -5,7 |
| Mil-Muğan iqtisadi rayonu | 46,3 | 23,8 | -22,5 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 88,8 | 19,6 | -69,2 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | - | - | - |
| Şirvan-Salyan iqtisadi rayonu | 45,7 | 17,7 | -28,0 |

Mənbə: Daxili turizm. https://www.stat.gov.az/ əsasında müəlif tərəfindən hazırlanmışdır.

Bakı və Naxçıvan iqtisadi rayonunda bu göstərici üzrə müvafiq olaraq 3060,1 və 218,5 min gecə artım baş vermişdir. Kirayəyə götürülmüş evlərdə gecələmələrin sayı Abşeron-Xızı, Gəncə-Daşkəsən, Qazax-Tovuz iqtisadi rayonları üzrə üstünlük təşkil etsədə sözü gedən göstərici üzrə son illərdə azalma baş vermişdir. Qeyd edək ki, əhalinin istirahət üçün üstünlük verdiyi Quba-Xaçmaz və Şəki-Zaqatala iqtisadi

rayonlarında kirayəyə götürülmüş evlərdə gecələmə sayı kəskin azalmışdır. Azalma COVID-19 pandemiyası ilə əlaqədar olmuşdur.

Kənd turizminin inkişafı, kənd əhalisinin bu fəaliyyət növündən istifadə edə bilmələri üçün onların lazımi məişət şəraitinin olması vacibdir. Təəssüf ki, turizmin bu növü ilə məşğul olmaq istəyən kənd əhalisi arasında məişət şəraitinin turistləri qane edə biləcək səviyyədə olmayanların sayı az deyil. Sanitar-gigiyenik normalara cavab verən sanitariya qovşaqlarının və mətbəxin olmaması, bir çox kəndlərdə evlərin su, işıq və digər kommunal təchizatının aşağı səviyyədə olması turizm xidmətlərinə maneə yaradır. Turistləri cəlb etmək üçün kifayət qədər komfortlu mənzilin, kanalizasiya sisteminin, su təchizatının bir sözlə məişət şəraitinin olması zəruridir [197].

DSK-nin materiallarına əsasən kənd əhalisinin abadlıq şəraitində son illər yaxşılaşma baş versədə şəhər yerləri ilə müqayisədə aşağı olmuşdur (Cədvəl 5.3.2).

Mənzillərin qızdırılmasında mərkəzi istilik sistemi ilə kənd əhalisinin 2022-ci ildə 5,6%-i 2023-cü ildə 3,6%-i, şəhər əhalisinin isə müfaviq olaraq 32,3% və 23%-i təmin olunmuşdur. Qeyd edək ki, yaşayış yerləri üzrə bu göstərici əvvəlki illərdə daha yüksək olmuşdur. Azalma əhalinin son illər fərdi isitmə sistemlərinə üstünlük verməlləri ilə əlaqədardır. Evlərin qızdırılmasında fərdi isitmə sistemilə təmin olunma səviyyəsi 2023-cü ildə kənd yerlərində 50,4%, şəhər yerlərində 47,6% təşkil etmişdir ki, bu da əvvəlki illərlə

[197] Əliyeva, J. Kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasında kənd turizminin rolu və onun mövcud vəziyyəti // Bakı: Bakı Mühəndislər Universitetinin jurnalı, 2018, №2, - s.159-163.

müqayisədə çoxdur. Kənd əhalisi qış aylarında mənzillərin qızdırılmasında daha çox odun və qazla işləyən sobalardan istifadə etmişlər.

**Cədvəl 5.3.2 2023-cü ildə yaşayış yerləri üzrə əhalinin abadlıq şəraiti və təchizatı,** faizlə

| | **2022** | | **2023** | |
|---|---|---|---|---|
| | şəhər | kənd | şəhər | kənd |
| Orta hesabla bir sakinə düşən ümumi sahənin ölçüsü, m2 | 16,5 | 21,6 | 17,1 | 22,5 |
| Orta hesabla bir sakinə düşən otaqların sahəsinin ölçüsü, m2 | 11,8 | 15,0 | 12,4 | 15,9 |
| *Aşağıdakılarla təmin olunmuş ev təsərrüfatlarının xüsusi çəkisi* | | | | |
| elektrik enerjisi təchizatı | - | - | 100,0 | 100,0 |
| mərkəzləşdirilmiş qaz təchizatı | 99,3 | 95,4 | 99,7 | 97,2 |
| maye (qaz balonu ilə) qaz təchizatı | 8,9 | 24,3 | 5,0 | 20,7 |
| mərkəzləşdirilmiş istilik sistemi | 32,3 | 5,6 | 23,0 | 3,6 |
| fərdi istilik sistemi | 45,1 | 46,7 | 47,6 | 50,4 |
| soba və ya buxarı ilə isidilmə | 23,2 | 50,9 | 25,4 | 57,1 |
| məişət kondisionerləri və ya səyyar elektrik cihazları ilə isidilmə | 23,3 | 12,0 | 24,5 | 12,5 |
| mərkəzləşdirilmiş su təchizatı | 93,8 | 32,8 | 94,9 | 37,7 |
| fərdi su təchizatı | 10,9 | 70,6 | 5,5 | 63,9 |
| mərkəzləşdirilmiş isti su təchizatı | 8,1 | 4,6 | 1,7 | 1,3 |
| fərdi isti su təchizatı | 93,0 | 95,9 | 98,4 | 98,5 |
| mərkəzləşdirilmiş kanalizasiya sisteminə qoşulmuş kanalizasiya xətti | 86,7 | 17,5 | 87,2 | 18,2 |
| fərdi kanalizasiya qurğularına qoşulmuş kanalizasiya xətti | 18,8 | 82,5 | 13,1 | 82,3 |
| stasionar telefon | 91,0 | 59,5 | 90,4 | 59,7 |

Mənbə: https://www.stat.gov.az/ əsasında hazırlanmışdır.

Mənzillərin qızdırılmasında kənd əhalisinin 57,1%-i, şəhər əhalisinin isə 25,4%-i sobadan istifadə etmişlər.

Kənd yerlərində kanalizasiya sistemi ilə təmin olunma aşağı səviyyədədir. Əhalinin 82,3%-i fərdi kanalizasiya qurğu-

larına qoşulmuş kanalizasiya xəttindən, 18,2%-isə mərkəzləşdirilmiş kanalizasiya sisteminə qoşulmuş kanalizasiya xəttindən istifadə etmişdir. Kənd yerlərində evlərin 81,8%-i mərkəzləşdirilmiş kanalizasiya xəttinə qoşulmayıb.

Kənd turizminin inkişafı xüsusilə rayon mərkəzlərindən uzaq dağ kəndlərinin elektrikləşdirilməsinin, qazlaşdırılmasının vacibliyini ortaya çıxarır. Kənd yerlərində əhalinin 97,2%-i mərkəzləşdirilmiş qazla təmin olunsada 20,7% əhali maye (qaz balonu ilə) qazdan istifadə edir.

Su ilə təmin olunma nəinki turizm xidmətlərinin göstərilməsində, həmçinin kənd əhalisinin özünün sağlamlığında, sanitar gigiyena qaydalarına əməl olunmada müstəsna əhəmiyyətə malik olsada, müqayisə edilən dövrün əvvəlində kənd əhalisinin bu vacib nemətlə təminatında ciddi çatışmazlıqlar olmuşdur. Kənd əhalisinin 37,2%-i mərkəzləşdirilmiş, 63,9%-i isə fərdi su təhcizatı hesabına su ilə təmin olmuşdur. Kənd yerlərində 2005-ci ildə ev təsərrüfatlarının 47,6%-i su kəməri ilə təmin olunmuşdursa, bu rəqəm 2018-ci ildə 75,65-ə, 2021-ci ildə isə bir qədər yüksələrək 76,7%-ə çatmışdır.

2021-ci ildə Azərbaycanda Statistika Komitəsinin içməli su təminatı ilə bağlı keçirdiyi sorğu materiallarının təhlilinə əsasən kənd yerlərində problemlər var və müqayisə edilən 2015-2021-ci illərdə bir qədərdə vəziyyət pisləşmişdir. Kənd yerlərində ev təsərrüfatlarının 24,2%-i içməli su təminatında fasilələrin olması, 26,2%-i suyun təzyiqinin zəif olması, 23,1%-i isə suyun keyfiyyətinin pis olması kimi problemlərlə üzləşmişlər. Suyun keyfiyyətinin pis olması səbəbindən boruların tez-tez aradan çıxması ilə üzləşən ev təsərrüfatlarının nis-

bəti isə 25,2% təşkil etmişdir. Sorğu materiallarında su təminatı ilə bağlı problemlərin əhəmiyyətlilik dərəcəsinə görə bölgüsü də yer alır. Bölgüyə əsasən kənd yerlərində içməli su təminatında tez-tez fasilələrin olması-I dərəcəli problem, su mənbəyinin yaşayış yerindən uzaqda yerləşməsi-II dərəcəli problem, suyun keyfiyyətinin pis olması isə-III dərəcəli problem olduğu müəyyənləşdirilmişdir [198]

Qeyd edək ki, turistlərin istəyinə uyğun şəraitin yaradılması, onlara müvafiq xidmətin göstərilməsi müəyyən maddi xərclər tələb etsədə gələcəkdə xərclər artıqlaması ilə ev sahibinə qayıda bilər. Kənd yerlərində abadlıq şəraitinin yaxşılaşdırılması məqsədilə kiçik keditlərin verilməsi onların bu turizm növündən əldə edə biləcəkləri gəlirləri artıra bilər.

Kənd yerlərində yaşayan əhalinin turizmdən gələn gəlirlərinin artırılmasında onların məişət, abadlıq şəraitinin yaxşılaşdırılması vacibdir.

ÜTT-nın 2023-cü ildə "Turizm və kənd inkişafı: siyasət perspektivləri" adlı hesabatında kənd yerlərinin inkişafı üçün turizm potensialının reallaşdırılması ilə bağlı mövcud problemlərdən bəhs edilir. Qeyd edilir ki: *"kənd yerlərində "infrastruktur boşluğu", kənd əhalisinin azalması, bu sahədə çalışanlarda təhsil və təlimin olmaması, bacarıqların yetərsizliyi sahənin inkişafına mane olan çətinliklərdir"* [199].

---

198 ARDSK. Əhalinin içməli su ilə təminatı vəziyyəti. Statistik məcmuə. www.stat.gov.az

199 European Union, 2024. Tourism and rural development https://cor.europa.eu/en/engage/studies/Documents/Tourism%20and%20rural%20development/QG0523426ENN%20Tourism%20and%20rural%20development.pdf

Ölkəmizdə kənd turizmi ilə bağlı mövcud potensialdan tam istifadə edilmir və COVİD-19 pandemiyası zamanı bu sahə zərər çəkmişdir. Kənd yerlərinin turizm potensialından kifayət qədər istifadə edilməməsinin səbəbləri arasında: kəndin, regionun turizm potensialının zəif təbliğ edilməsi, turizmlə bağlı əlaqələndirici strukturun olmaması, turistləri cəlb edəcək yerli məhsulların az və ya heç olmaması, bu sahədə peşəkar kadrların olmaması, qış turizm potensialından istifadə edilməməsi və s. yer alır.

Turizmin inkişaf etdiyi ölkələrdə aqroturizmdən də geniş istifadə edilir. Bu isə kənd təsərrüfatı fermerləri ilə turizm şirkətləri arasında əlaqələrin olması ilə həyata keçirilir. Aqroturizm kənd təsərrüfatı ilə zəngin ərazilərin imkanlarından istifadə edilən turizm formasıdır. Ölkəmizdə də kənd yerlərində turizmə rəngarənglik qatmaq, turistlərin əyləncəsi baxımından aqroturizmin inkişaf etdirilməsi məqsədəuyğundur.

Qeyd edək ki, hazırda Qarabağ və Şərqi Zəngəzur bölgəsində dayanıqlı inkişaf və onun milli iqtisadiyyata reinteqrasiyası istiqamətində əhəmiyyətli işlər görülməkdədi. Bu ərazilərdə aqroturizmin yaradılmasının görüləcək tədbirlər sırasında yer alması gələcəkdə turizmin fəaliyyət dairəsinin genişlənməsində əhəmiyyətli rol oynaya biləcəkdir. Hazırda bu iqtisadi rayonlarda kənd ərazilərinin bərpası və kənd təsərrüfatının inkişafı əsas istiqamət kimi nəzərdə tutulur. Aqroturizmin inkişaf etdirilməsi bu ərazilərdə sosial-iqtisadi inkişafa nail olmağa və

aqrar sahənin rəqabətqabiliyyətinin yüksəldilməsinə xidmət edəcəkdir.

Beləliklə, kənd turizminin inkişafında kənd yerlərində turizmə dəstək proqramları, turizmin cəlbediciliyinin artırılmasının təmin edilməsi vacib rol oynayır. Kəndlərin, xüsusi ilə də ucqar ərazilərdə yerləşən ərazilərin kənd turizmi sahəsinə daxil olması və turistlərin həmin ərazilərə cəlb edilməsi üçün məlumatlandırıcı reklamlara ehtiyac vardır. Yerli turizm şirkətləri ilə müqavilə bağlamaq, istirahət bölgəsi barədə internetdə və KİV-də məlumat yerləşdirmək, eləcədə yüksək xidmətə nail olmaqla turistlərin cəlb edilməsi mümkündür. Kənd yerlərində turizmlə bağlı məlumat mərkəzlərinin yaradılması, xarici turistlərin məmnuniyyət səviyyəsini ölçmək üçün mütəmadi olaraq monitorinqlərin həyata keçirilməsi vacibdir.

Bununla yanaşı kənd yerlərində əhalnin rifahının yaxşılaşdırılmasında kənd turizminin inkişafının genişləndirilməsi istiqamətində aşağıdakı tövsiyələr verilə bilər:

- kənd turizmindən gələn gəlirlər və bu sahədə məşğul olanlarla bağlı statistik məlumatların hazırlanması;
- kəndlərin, kənd arası yolların bərk örtüklü avtomobil yolları ilə örtülməsi;
- kənd yerlərində elektrik, rabitə təsərrüfatlarının əsaslı şəkildə yenidən qurulması;
- kənd əhalisinin keyfiyyətli su mənbələrinə çıxışının təmin olunması, su mənbələrinin təmizləyici qurğularla təmin olunması;

- beynəlxalq təcrübənin öyrənilməsi və kənd turizmilə bağlı zəngin təcrübəyə malik ölkələrlə əməkdaşlığın genişləndirilməsi;
- kənd turizminin inkişafı və genişləndirilməsi üçün kənd əhalisinin lazımi informasiya ilə təmin edilməsi və onların bu sahədə bacarıqlarının artırılması istiqamətində treninqlərin keçirilməsi, gənclərin dil kurslarına cəlb edilməsi;
- kənd turizmi ilə məşğul olan əhali arasında internet və müasir texnologiyalardan istifadə etməklə öz təkliflərini online yerləşdirmə və sifariş qəbul edə bilmə kimi bacarıqların aşılanması;
- turizmə sərmayə qoyan sahibkarlara müəyyən güzəştlərin edilməsi;
- sahənin kompleks inkişafı məqsədilə yeni dövlət sənədinin hazırlanması;
- ali və orta ixtisas məktəblərini bitirmiş gənclərin kənd iqtisadiyyatına cəlbinin stimullaşdırılması tədbirlərinin hazırlanması və s.

## ***QEYDLƏR***

**Jalə Rəhman qızı Əliyeva**

# KƏND ƏHALİSİNİN HƏYAT SƏVİYYƏSİ:
## inklüziv inkişafa doğru

"APOSTROF-A"MMC- 2024

Format: 60x84 $_{16}/^{1}$

14,25 ç.v.

Tiraj: 300